# Kitabüs-salat

# NAMAZ KİTABI

Hazırlayan:
**Həsən Yavaş**

NURLAR

BAKI – 2010

Азярбайъан Республикасынын
Дини Гурумларла Иш Цзря Дювлят Комитяси
ДК-687/А сайлы 29 нойабр 2010-ъу ил тарихли
мяктубу иля чап олунмасына разылыг верилмишдир

# Kitabüs-salat

# NAMAZ KİTABI

Hazırlayan:
**Həsən Yavaş**

Тяръцмя едян:
**Рамил Хялилов**

Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2010, 144 səh.

# MÜNDƏRİCAT


**Səhifə №:**

Ön söz ........ 9
Namaz böyük əmrdir ........ 10
Mürtəd ........ 12, 120

## BİRİNCİ BÖLMƏ

**İmanımız və Namaz ........ 13**
Hər kəs ilk əvvəl iman etməlidir ........ 13
İman doğru olmalıdır ........ 13, 120
Əhli-sünnət Etiqadı ........ 15
**İmanın şərtləri altıdır ........ 16**
*Allahü təalaya inanmaq ........ 17*
*Zati xüsusiyyətlər, Sübuti xüsusiyyətlər ........ 17,18*
*Mələklərə İnanmaq ........ 18*
*Kitablara İnanmaq ........ 19*
*Peyğəmbərlərə İnanmaq ........ 20*
*Axirətə İnanmaq ........ 24*
*Təqdirə İnanmaq* ........ 25

## İKİNCI BÖLMƏ

**İbadətlərimiz və Namaz ........ 26**
İbadət Nədir? ........ 26
*Mükəlləf Kimə ........ 26*
*Əfali Mükəlləfin "Əhkami İslamiyyə" ........ 27*
*Fərz ........ 27*
*Vacib ........ 27*
*Sünnət ........ 27*
*Müstəhəb ........ 28*
*Mubah ........ 28*
*Haram ........ 28*
*Məkruh ........ 29*
*Müfsid ........ 29*
İslamın Şərtləri ........ 30
*Kəlmeyi-Şəhadət Gətirmək ........ 30*
*Namaz Qılmaq ........ 30*
*Zəkat Vermək ........ 30*
*Oruc Tutmaq ........ 30*
*Həccə Getmək* ........ 31

## ÜÇÜNCÜ BÖLMƏ

**Namaz Qılmaq** ........ 32
*Namaz Kimlərə Fərzdir? ........ 33*
*Övlad Tərbiyəsi* ........ 33

Namazı Qılanların Halları ........ 33
*Rəvayət: Həbsdən Qurtaran Namaz* ........ *33*
*Rəvayət: Evi Yanmışdı* ........ *36*
*Rəvayət: Qazandakı Su* ........ *35*
*Rəvayət: Ayağındakı Ox* ........ *35*
*Rəvayət: Huşunu aparan Dərman* ........ *35*
*Rəvayət: Namaz Üçün Fədakarlıq* ........ *36*

## DÖRDÜNCÜ BÖLMƏ

**Namaz növləri, Nafilə Namazlar ........ 37, 88, 102, 103**
Beş Vaxt Namaz ........ 37
Namazın Fərzləri ........ 38
Namazın Şərtləri ........ 38
Hadəsdən Təharət ........ 40
Dəstəmaz Almaq ........ 40
*Dəstəmazın Fərzləri* ........ *40*
*Dəstəmaz Necə Alınır? "Dəstəmaz duaları"* ........ *40*
Dəstəmazın Sünnətləri ........ 43
Dəstəmazın Ədəbləri ........ 43
*Dəstəmaz Alarkən Edilməsi Qadağan Olan Şeylər* ........ *44*
*Misvak İstifadə etmək* ........ *45*
*Dəstəmaz Alarkən Diqqət Ediləcək Xüsuslar* ........ *45*
*Dəstəmazı Pozan Şeylər* ........ *46*
*Dəstəmazı Pozmayan Şeylər* ........ *47*
*Dəstəmaz Üçün Asanlıqlar "Məst və Yara Üzərinə Məsh"* ........ *47*
*Xəstəlikdə Namaz* ........ *48, 50,52, 66, 67, 80, 89*
Qüsl "Boy Dəstəmazı" ........ 49
Qüslün Fərzləri, Qüslun Sünnətləri ........ 49,50
Qüsl Necə Alınır? ........ 50
İzah "Plomb və karonka Dişi Olanlar" ........ 50
Digər məzhəbi təqlid etmək ........ 51
Qadınların Hayz (aybaşı) və Nifas Halları ........ 51
**Təyəmmüm ........ 52**
Təyəmmümün Fərzləri ........ 53
Təyəmmümün Sünnətləri ........ 53
Təyəmmümdə Diqqət Ediləcək Xüsuslar ........ 53
Təyəmmüm Necə Edilir? ........ 54
Təyəmmümü Pozan Şeylər ........ 55
Dəstəmazın, Qüslün və Təyəmmümün Faydaları ........ 55
**Nəcasətdən Təharət ........ 56**
Ağır Nəcasət ........ 57
Yüngül Nəcasət ........ 57
İstinca (təharət) ........ 57
İstibra ........ 58
**Sətri Övrət "Övrət yeri və Qadınların Örtünmələri" ........ 38, 58**

**İstiqbali Qiblə "Qibləyə Dönmək"** ........ **60**
**Namaz Vaxtları** ........ **61**
*Sübh Namazının Vaxtı* ........ *61*
*Zöhr Namazının Vaxtı* ........ *61*
*Əsr Namazının Vaxtı* ........ *61*
*Şam Namazının Vaxtı* ........ *61*
*İşa və Vitr Namazının Vaxtı* ........ *61*
*Oruca Başlama Vaxtı* ........ *61*
*İzah "*Qütblərdə Namaz və Oruc" ........ 62
**Azan və İqamət** ........ **62**
*İzah: "Mikrofon ilə Azan Oxunarmı"* ........ *63*
*Azanın Oxunuşu* ........ *64*
Azan Duaları ........ 64
*Azan Kəlmələrinin Mənaları* ........ *65*
**Niyyət** ........ **65**
**Tahrimə Təkbiri** ........ **66**
*Namazın Rüknləri "İçindəki Fərzlər"* ........ *66*
*Kıyam* ........ *66*
*Qiraət* ........ *66*
*Rükü'* ........ *67*
*Səcdə* ........ *67*
*Qadə-i Axirə* ........ *67*
Namaz Necə Qılınır? ........ 67
Namazın Vacibləri ........ 69
*Kəlmeyi-Təhlil* ........ *69*
*Səhv "Yanılma və Unutma" Səcdəsi* ........ *70*
*Tilavət Səcdəsi* ........ *70*
*Şükr Səcdəsi* ........ *71*
Namazın Sünnətləri ........ 71, 102
Namazın Müstəhəbləri ........ 72
Namazın Məkruhları ........ 73
Namaz Xaricində Məkruh Olan Şeylər ........ 74
Namazı Pozan Şeylər ........ 74
*Hər Namazı Pozmağı Mubah Qılan Şeylər* ........ *75*
*Hər Namazı Pozmaq Üçün Fərz Olan Şeylər* ........ *75*
**Camaat ilə Namaz** ........ **75, 89**
İmam olmağın Şərtləri ........ 76
İmama Uymağın Şərtləri ........ 77
Məsbukun Namazı ........ 78
**İftitah Təkbirinın Fəzilətləri** ........ **79**
*Rəvayət: Saraya tikilən Məscid* ........ *79*
**Cümə Namazı** ........ **80**
*Cümə Namazının Fərzləri* ........ *81*
*Əda Şərtləri* ........ *81*
*Vücub Şərtləri* ........ *81*

*Cümə Namazı Necə Qılınır?* ... *82*
*Cümə Gününün Sünnət və Ədəbləri* ... *82*
**Bayram Namazları ... 70, 83**
*Bayram Namazı Necə Qılınır?* ... *83*
*Təşrik Təkbiri* ... *83*
**Ölümə Hazırlıq ... 84**
*Ölüm Nədir?* ... *84*
*Ölüm Haqdır* ... *85*
Cənazə Namazı ... 85
*Cənazə Namazının Fərzləri* ... *85*
*Cənazə Namazının Sünnətləri* ... *86*
*Cənazə Namazı Necə Qılınır?* ... *86*
Təravih Namazı ... 86

## BESİNCİ BÖLMƏ

**Səfərdə Namaz ... 88**
Xəstəlikdə Namaz ... 89
Qəza Namazları ... 92
*İzah "Sünnətlər Yerinə Qəza Qılınarmı?"* ... *94*
*Qəza Namazları Necə Qılınır?* ... *94*

## ALTINCI BÖLMƏ

**Namaz Qılmayanlar ... 96**
Namaz Qılanların Fəzilətləri ... 97
Namazın Həqiqəti ... 102
Namazdakı Üstünlüklər ... 103
Namazın Sirri ... 108
Namazdan Sonra Dua ... 111
Namazın Hikmətləri "Namaz və Səhhətimiz" ... 112

## YEDDİNCİ BÖLMƏ

**Namaz İsqatı ... 114**
"Meyid üçün İsqat və Dövr" ... 114
İsqat və Dövr Necə Edilir? ... 92, 116

## SƏKKİZİNCİ BÖLMƏ

**Otuz iki və əlli dörd Fərz ... 120**
*Otuz iki Fərz* ... *120*
*Əlli dörd Fərz* ... *121*
Küfr Bəhsi ... 123
Böyük Günahlar ... 134

## DOQQUZUNCU BÖLMƏ

**Namaz Surələri və Duaları ... 140**
Surə və Dualar Latın Hərfləri ilə Yazilarmı? ... 140
Surə və Duaların tərcümələri ... 141

## BİSMİLLƏHİRRAHMƏNİRRAHİM

İnsan üçün üç cür həyat vardır: Dünya, qəbir və axirət həyatı. Dünyada bədən ruh ilə birlikdədir. İnsana həyat, canlılıq verən ruhdur. Ruh bədəndən ayrılanda insan ölür. Bədən qəbirdə çürüyüb torpaq olarsa və ya yanıb kül olarsa yaxud yırtıcı heyvan yeyib yox olarsa ruh yox olmaz. Qəbir həyatı başlayar. Qəbir həyatında hiss vardır, hərəkət yoxdur. Qiyamətdə bir bədən yaradılıb ruh ilə o bədən birlikdə Cənnətdə və ya Cəhənnəmdə sonsuz yaşayarlar.

İnsanın dünyada və axirətdə xoşbəxt olması üçün müsəlman olması lazımdır. Dünyada xoşbəxt olmaq, rahat yaşamaq deməkdir. Axirətdə xoşbəxt olmaq Cənnətə getmək deməkdir. Allahü təala qullarına qarşı çox mərhəmətli olduğu üçün xoşbəxt olmağın yolunu Peyğəmbərlər vasitəsi ilə qullarına bildirmişdir. Çünki insanlar bu səadət yolunu öz ağılları ilə tapa bilməzlər. Heç bir Peyğəmbər öz ağlından bir şey deməmiş, hər biri Allahü təalanın bildirdiyi şeyləri demişdir. Peyğəmbərlərin söylədikləri səadət yoluna **Din** deyilir. Muhamməd-əleyhissəlamın bildirdiyi dinə **İslamiyyət** deyilir. Adəm-əleyhissəlamdan bəri minlərlə Peyğəmbər gəlmişdir. Peyğəmbərlərin sonuncusu Muhamməd-əleyhissəlamdır. Digər Peyğəmbərlərin bildirdikləri dinlər tədricən pozulmuşdur. İndi səadətə qovuşmaq üçün islamiyyəti öyrənməkdən başqa çarə yoxdur. İslamiyyət, qəlb ilə inanılması lazım olan **İman** elmləri və bədən ilə yerinə yetirilməsi lazım olan **Əhkamı-islamiyyə** elmləridir. İman və əhkam elmləri **"Əhli-sünnət alimləri"**-nin kitablarından öyrənilməlidir. Cahillərin, yolunu azmışların kitablarından öyrənmək olmaz. Hicri tarixi ilə min il əvvəl islam məmləkətlərində çox "**Əhli-sünnət alimi**" var idi. İndi isə bu cür alimlər qalmadı. Bu alimlərin yazdıqları ərəbcə və farsca kitablar və bunların tərcümələri dünyanın hər yerində, kitabxanalarda çoxdur. Həqiqət kitabevinin bütün kitabları bu qaynaqlardan alınmışdır. Səadətə qovuşmaq üçün "**Həqiqət kitabevi**"nin bu kitablarını oxuyun.

**DİQQƏT:** Misyonerlər xristianlığı, yəhudilər Talmutu, Müsəlmanlar islamiyyəti yaymağa, masonlar isə dinləri yox etməyə çalışırlar. Ağlı, elmi və insafı olan bunlardan doğrusunu anlayar və bunun yayılmasına kömək edərək bütün insanların səadətə qovuşmalarına vasitə olar. Bəşəriyyətə bundan daha qiymətli və daha faydalı xidmət ola bilməz. Bu gün xristianların əllərindəki İncil və yəhudilərin əllərindəki Tövrat adlanan din kitablarının insanlar tərəfindən yazılmış olduğunu öz adamları da deyir. Quranı-Kərim isə Allahü təala tərəfindən göndərildiyi kimi tər-təmizdir. Bütün keşişlərin və hahamların müsəlman kitablarını diqqətlə və insafla oxuyub başa düşməyə çalışmalıdırlar.

*İşdə budur, miftahi gənci qadim,*
*Bismilləhirrahmənirrahım.*

# ÖN SÖZ

Namaz kitabını yazmağa Əuzü Bəsmələ oxuyaraq başlayıram. Allahü təalaya həmd olsun. Onun seçdiyi və sevdiyi qullarına və onların ən üstünü olan Muhamməd -əleyhissəlama salat (dua) və salam olsun. O uca Peyğəmbərin təmiz əhli-beytinə adil, sadiq Əshabi-kiramının "rıdvanullahi Təala aleyhim əcmaın" hər birinə xeyirli dualar olsun! Dünyada yaxşı, faydalı şeylər pis, zərərli şeylərlə qarışıqdır. Səadətə, rahatlığa qovuşmaq üçün həmişə yaxşı, faydalı iş görmək lazımdır. Allahü təala çox mərhəmətli olduğu üçün yaxşılığı pisdən ayıran bir qüvvət yaratdı. Bu qüvvətə **Ağıl** deyilir. Təmiz və sağlam olan ağıl heç vaxt səhv etməz. Günah işləmək, nəfsə tabe olmaq, ağlı və qəlbi xəstə edər. Yaxşını pisdən ayıra bilməz. Allahü təala mərhəmət edərək bu işi özü etmiş, yaxşı işləri Peyğəmbərlər vasitəsi ilə bildirmiş və bunları yerinə gətirməyi əmr etmişdir. Zərərli şeyləri də bildirib, bunları etməyi qadağan etmişdir. Bu əmr və qadağalara **Din** deyilir. Muhamməd-əleyhissəlamın bildirdiyi dinə **İslamiyyət** deyilir. Bu gün yer üzündə dəyişdirilməmiş, pozulmamış tək din vardır. O da islamiyyətdir. Dünya və axirət rahatlığına qovuşmaq üçün islamiyyətə uymaq, yəni müsəlman olmaq lazımdır. Müsəlman olmaq üçün də heç bir təşkilata, axunda, mollaya getməyə ehtiyac yoxdur. İlk əvvəl qəlb ilə iman etməli, sonra da islamiyyətin əmr və qadağalarını öyrənməli və bunlara əməl etməlidir.

Hansı təriqətdən olursa-olsun nəfsinə tabe olan və qəlbi qara olan Cəhənnəmə gedəcəkdir. Hər mömin nəfsini təmizləmək üçün yəni nəfsin yaradılışında mövcud olan küfrü və günahları təmizləmək üçün hər zaman çox "**Lə iləhə illəllah**" və qəlbini təmizləmək üçün yəni nəfsdən və şeytandan, pis yoldaşlardan və zərərli, pozğun kitablardan gələn küfrdən və günahlardan qurtulmaq üçün "**Əstəğfirullah**" oxumalıdır. İslamiyyətə tabe olanın duaları şübhəsiz qəbul olar. Namaz qılmayanın, açıq qadınlara və övrət məhəlli açıq olanlara baxanların və haram yeyib-içənlərin islamiyyətə tabe olmadıqları məlum olur. Bunların duaları qəbul olmaz.

İman etdikdən sonra ən mühüm əmr namazdır. Beş vaxt namaz qılmaq hər müsəlmana fərzi-ayndır, yəni hər kəsin özü qılması lazımdır. Qılmamaq böyük günahdır. Namazı tam və doğru olaraq qıla bilməsi üçün ilk əvvəl namaz məlumatlarını öyrənməsi lazımdır. Bu kitabımızda dinimizdə bildirilən namaz məlumatlarını qısa və aydın olaraq bildirməyi lazımlı bildik. Bir çox İslam aliminin kitabından istifadə edərək hazırladığımız bu namaz məlumatlarını hər müsəlman mütləq öyrənməli və övladlarına da öyrətməlidir.

Namazın doğru qılına bilməsi üçün namazda oxunan surə və duaları da əzbərləməlidir. Heç olmazsa namaz qıla biləcək qədər dua və surəni, bunları oxumasını yaxşı bilən, tam tələffüz edən bir müəllimdən və ya yoldaşından öyrənməlidir. Qurani-Kərimi doğru oxumaq üçün Qurani-Kərimi yaxşı bilən müəllimlərə getməlidir. Qurani-Kərimi doğru olaraq oxumağı mütləq öyrənməli, uşaqlarına da öyrətməlidir. Qurani-Kərimin latın hərfləri ilə yazılması mümkün deyildir. Onun üçün əsli oxunmalıdır. Oxunması çox asandır. Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" bir hədis-i şərfində, **"Uşaqlarına Qurani-Kərim öyrədənlərə və ya Qurani-Kərim müəlliminə göndərənlərə, öyrədilən Quranın hər hərfi üçün on kərə Kəbə-i muazzamanı ziyarət savabı verilir. Və Qiyamət günü başına dövlət tacı qoyular. Bütün insanlar görüb qibtə edərlər"** buyurdu**.** Allahü təala hamımızı doğru iman etdikdən sonra namazı doğru öyrənən və qılan, xeyirli işləri edən qullarından etsin!

*Miladi Hicri şəmsi Hicri qəməri*
*2010 1388 1431*

# NAMAZ BÖYÜK ƏMRDİR

Adəm-əleyhissəlamdan bəri hər dində bir vaxt namaz vardı. Hamısı bir yerə toplanaraq Muhamməd əleyhissəlama inananlara fərz edildi. Namaz qılmaq imanın şərti deyil. Lakin namazın fərz olduğuna inanmaq imanın şərtidir.

**Namaz** dinin dirəyidir. Namazını davamlı, doğru və tam olaraq qılan dinini qurmuş, islam binasını ayaq üstə tutmuş olar. Namaz qılmayan dinini və islam binasını yıxmış olar. Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" buyurdu ki; **"Dinimizin başı namazdır".** Başsız insan olmadığı kimi, namazsız da din olmaz.

**Namaz** islam dinində imandan sonra ilk fərz edilən **əmrdir.** Allahü təala qullarının yalnız özünə ibadət etmələri üçün namazı fərz etdi. Qurani-Kərimdə yüzdən artıq ayəti-kərimdə **"Namaz qılın**!" buyurulur. Hədisi-şərifdə Peyğəmbərimiz **"Allahü təala hər gün beş vaxt namaz qılmağı fərz etdi. Qiymət verərək və şərtlərinə riayət edərək hər gün beş vaxt namaz qılanı Cənnətə qoyacağını Allahü təala söz verdi"** buyurdu.

**Namaz** dinimizdə edilməsi əmr edilən bütün ibadətlərin ən qiymətlisidir. Bir Hədisi-şərifdə, "**Namaz qılmayanın İslamdan nəsibi yoxdur!"** buyuruldu. Yenə bir Hədisi-şərifdə, **"Mömin ilə kafiri ayıran fərq namazdır"** buyuruldu. Yəni mömin namaz qılar, kafir qılmaz. Münafıqlar isə bəzən qılar, bəzən qılmaz. Münafıqlar Cəhənnəmdə çox acı əzab görəcəkdir. Rəsulullah "sallallahü aləyhi və səlləm" əfəndimiz buyurdu ki: **"Namaz qılmayanlar qiyamət günü Allahü təalanı qəzəbli olaraq görəcəklər."**

Namaz qılmaq, Allahü təalanın böyüklüyünü düşünərək onun qarşısında öz kiçikliyini anlamaqdır. Bunu anlayan kimsə həmişə yaxşılıq edər. Heç pislik edə bilməz. Hər gün beş dəfə Rəbbinin hüzurunda olduğunu niyyət edən kimsənin qəlbi ixlas ilə dolar. Namazda edilməsi əmr olunan hər hərəkət qəlbə və bədənə fayda verir.

Məscidlərdə camaat ilə namaz qılmaq müsəlmanların qəlblərini bir-birinə bağlayar. Aralarında sevgini təmin edər. Bir-birlərinin qardaş olduqlarını anlayarlar. Böyüklər kiçiklərə mərhəmətli olar. Kiçiklər də böyüklərə hörmətli olar. Zənginlər kasıblara və qüvvətlilər zəiflərə yardımçı olar. Sağlam olanlar xəstələri məsciddə görə bilmədikdə evlərində axtararlar. **"Din qardaşının yardımına gedənin yardımçısı Allahü təaladır"** Hədisi-şərifindəki müjdəyə qovuşmaq üçün yarışarlar.

**Namaz** insanları çirkin, pis və qadağan olan əməllərdən uzaqlaşdırar. Günahlara kəffarə olar. Hədisi-şərifdə, **"Beş vaxt namaz, sizdən birinin qapısının önündə axan çay kimidir. Bir kimsə o çaya hər gün beş dəfə girib yuyunarsa, üzərində kir qalmayacağı kimi, məhz beş vaxt namazı qılanların da bu cür kiçik günahları əfv olunur"** buyuruldu.

**Namaz** Allahü təalaya və Rəsuluna imandan sonra bütün əməl və ibadətlərdən daha üstün bir ibadətdir. Bunun üçün namaz fərzlərinə, vaciblərinə, sünnətlərinə, müstəhəblərinə riayət edilərək qılınmalıdır. Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" bir hədisi-şəriflərində buyurdu ki: **"Ey ümmət və Əshabəm!**

**Ədasına tamamilə riayət olunan namaz Allahü təalanın bəyəndiyi bütün əməllərin ən üstünüdür. Peyğəmbərlərin sünnətidir. Mələklərin sevdiyidir. Mərifətin, yerin və göylərin nurudur. Bədənin qüvvətidir. Ruzilərin bərəkətidir. Duanın qəbuluna vəsilədir. Mələk-ül-məvtə (yəni ölüm mələyinə) şəfaətçidir. Qəbirdə işıq, Münkər və Nəkirə cavabdır. Qiyamət günündə üzərinə kölgədir. Cəhənnəm atəşi ilə öz arasında sipərdir. Sirat körpüsünü ildırım kimi keçirəndir. Cənnətin açarıdır. Cənnətdə başına tacdır. Allahü təala möminlərə namazdan daha önəmli bir şey verməmişdir. Əgər na-mazdan daha üstün bir ibadət olsaydı, ən öncə möminlərə onu verərdi. Çünki mələklərdən kimi davamlı kıyamda, kimi rüküdə, kimi səcdədə, kimi də təşəhhüddədir. Bunların hamısını bir rükət namazda toplayıb, möminlərə hədiyyə verdi. Çünki namaz imanın başı, dinin dirəyi, islamın qavli (sözü) və möminlərin miracıdır. Göyün nuru və Cəhənnəmdən qurtarıcıdır".**

Bir gün Həzrəti Əlinin "radıyallahü anh və kərrəmallahü vəchəh" ikindi namazı keçmişdi. Üzüntüsündən özünü bir təpədən aşağı atdı. İnləyə-inləyə ağlayıb fəryad etdi. Peyğəmbərimiz Muhamməd Mustafa "sallallahü aləyhi və səlləm", onun bu halından xəbər tutunca, Əshabəsi ilə bərabər həzrəti Əlinin "radıyallahü anh" yanına gəldilər. Halını görüncə kainatın əfəndisi olan Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" də ağlamağa başladı. Dua etdi. Günəş təkrar yüksəldi. Rəsulullah "sallallahü aləyhi və səlləm" əfəndimiz: **"Ya Əli! Başını qaldır, günəş hələ görünür"** buyurdu. Həzrəti Əli "radıyallahü anh" buna çox sevindi və namazını qıldı.

Həzrəti Əbu Bəkri Sıddıq "radıyallahü anh" bir gecə çox ibadət etdiyindən, gecə sonunda yuxu apardı. Vitr namazı keçdi. Sübh namazında Peyğəmbər əfəndimizi təqib edərək məscid qapısında hüzuruna gəlib fəryad etdi. "Ya Rəsulallah! Köməyimə çat, vitr namazım keçdi" deyə ağlayaraq yalvardı. Rəsulullah əfəndimiz də ağlamağa başladı. Bunun üzərinə Cəbrayıl-əleyhissəlam gəlib, **"Ya Rəsulallah! Sıddıqa söylə ki, Allahü təala Onu əfv etdi"** dedi.

Övliyanın böyüklərindən Bayəzidi Bistami "quddisə sirruh" bir gecə yuxuya dalıb, sübh namazına oyana bilmədi. O qədər ağlayıb inlədi ki, bir səs eşitdi: "Ey Bayəzid! Bu qüsurunu əfv etdim. Bu ağlamanın bərəkəti ilə sənə ayrıca yetmiş min namaz savabı verdim". Bir neçə ay sonra yenə yuxuya daldı. Şeytan gəlib mübarək ayağından tutaraq oyandırdı. "Qalx, namazın keçir", dedi. Bayəzidi Bistami həzrətləri buyurdu ki: "Ey lənətlənmiş, sən belə iş necə edərsən? Sən hər kəsin namazının keçməsini, vaxtını keçirməsini istəyirsən. Məni nə üçün oyatdın?" Şeytan dedi ki: "Sübh namazını keçirdiyin gün ağlayaraq yetmiş min namaz savabı qazanmışdın. Bu gün onu düşünərək səni oyandırdım ki, bir vaxt namaz savabı alasan. Yetmiş min namaz savabına qovuşa bilməyəsən!"

Böyük övliya Cüneydi Bağdadi həzrətləri buyurdu ki: "Dünyanın bir saatı qiyamətin min ilindən daha yaxşıdır. Çünki bu bir saatda saleh, məqbul bir əməl işlənə bilər və o min ildə bir şey edilə bilməz". Rəsulullah "sallallahü aləyhi və səlləm" buyurdu ki: **"Bir kimsə bir namazı bilə-bilə o biri namaza birləşdirərsə, səksən hukbə Cəhənnəmdə yanacaqdır".** Bir hukbə səksən axirət ilidir. Axirətin bir günü min dünya ilidir.

O halda, ey din qardaşım! Vaxtını boş, faydasız şeylərlə keçirmə. Zamanının qiymətini bil. Vaxtını ən yaxşı şeylərə sərf et. Sevgili Peyğəmbərimiz buyurmuşdur: **"Müsibətlərin ən böyüyü, vaxtı faydasız şeylərlə keçirməkdir"**. Namazlarını vaxtında qıl ki, qiyamət günü peşman olmayıb, çox böyük savaba qovuşasan! Hədisi-şərifdə buyuruldu ki, **"Bir namazı vaxtında qılmayaraq qəzaya buraxıb, əda etməzdən öncə vəfat edənin məzarına Cəhənnəmdən yetmiş pəncərə açılar və o kimsə qiyamətə qədər əzab çəkər".** Bir namazını vaxtında qəsdən qılmayan, yəni namaz vaxtı keçərkən namaz qılmadığı üçün kədərlənməyən dindən çıxar və ya ölərkən imansız gedər. Bəs görəsən namazı yadına belə gətirməyən, namazı vəzifə bilməyənlərin vəziyyəti olacaq? Namaza əhəmiyyət verməyənin, onu vəzifə olaraq qəbul etməyənlərin "**mürtəd**", yəni kafir olacaqlarını dörd məzhəbin bütün alimləri söz birliyi ilə bildirmişdilər. Namazı bilə-bilə qılmayıb qəza etməyi düşünməyən və bunun üçün əzab çəkəcəyindən qorxmayanın da "**mürtəd**" yəni kafir olacağı Abdülgani Nablüsi həzrətlərinin "Hadikatün nədiyyə" kitabının "Dilin fəlakətləri" bölümündə yazılmışdır.

---

İmamı Rabbani həzrətləri **"Məktubat"** kitabının 1-ci cild, 275-ci məktubunda buyurur ki:

Sizin bu nemətə qovuşmanız, islami elmləri öyrətməklə və fiqh hökmlərini yaymaqla olmuşdur. Oralara cəhalət yerləşmişdi və bidətlər yayılmışdı. Allahü təala sevdiklərinin sevgisini sizə ehsan etdi. İslamiyyəti yaymağa sizi vəsilə etdi. Elə isə, dini elmləri öyrətməyə və fiqh əhkamını yaymağa əlinizdən gəldiyi qədər çalışın. Bu ikisi bütün səadətlərin başı, yüksəlmənin vasitəsi və qurtuluşun səbəbidir. Çox çalışın! Din adamı olaraq ortaya çıxın! Oradakılara əmri maaruf (dinin əmrlərini öyrətmək) və nəhyi münkər (günahlardan çəkindirmək) edərək doğru yolu göstərin! Müzzəmmil surəsinin 19-cu ayətində məalən, **"Rəbbinin rizasına qovuşmaq istəyən üçün bu, əlbəttə, bir nəsihətdir"** buyuruldu.

---

*Gəlin namaz qılaq, qəlbdən pası silək,*
*Allaha yaxınlaşmaq olmaz, namaznıı qılmadıqca!*
*Harada namaz qılınar, günahlar həmişə tökülər,*
*İnsan, kamil ola bilməz, namazını qılmadıqca!*
*Qurani-Kərimdə Haqq namazı çox mədh etdi,*
*Dedi sevmərəm insanı, namazını qılmadıqca!*
*Bir hədisi-şərifdə: İmanın əlaməti,*
*İnsanda müəyyən olmaz, namazını qılmadıqca!*
*Bir namazı qılmamaq, əkbəri kəbairdir,*
*Tövbə ilə əfv olmaz, qəzasını qılmadıqca!*
*Namazı əhəmiyyətsiz görən, imandan çıxar dərhal,*
*Müsəlman ola bilməz o, namazını qılmadıqca!*
*Namaz qəlbi təmizləyər, pislikdən kənar edər,*
*Münəvvər ola bilməzsən, namazını qılmadıqca!*

# BİRİNCİ BÖLMƏ

## İMANIMIZ və NAMAZ

### HƏR KƏS İLK ƏVVƏL İMAN ETMƏLİDİR

Allahü təala insanların dünyada rahat və dinclik içində yaşamalarını, axirətdə də sonsuz səadətə qovuşmalarını istəyir. Bunun üçün səadətə səbəb olan faydalı işləri etməyi əmr etdi. Fəlakətə səbəb olan zərərli şeyləri də qadağan etdi. Allahü təalanın birinci əmri iman etməkdir. İman etmək bütün insanlara lazımdır. Hər kəs üçün iman zəruridir.

**İman,** lüğətdə bir adamı tam doğru sözlü bilmək, ona inanmaq deməkdir. İslamiyyətdə iman demək, Muhamməd-əleyhissəlamın Allahın peyğəmbəri olduğunu və Onun tərəfindən seçilmiş, xəbərverici **"Nəbi"** olduğunu doğru bilmək və inanaraq söyləmək, Onun Allahü təala tərəfindən qısaca bildirdiklərinə qısaca inanmaq, geniş bildirdiklərinə geniş olaraq inanmaq və gücü yetdikcə **"Kəlmeyi-şəhadət"**i dil ilə də söyləməkdir. Qüvvətli iman budur ki, atəşin yandırdığına, ilanın zəhərləyib öldürdüyünə tam inanıb çəkindiyimiz kimi, könlündən tam olaraq Allahü təalanı və **sıfatlarını** (xüsusiyyətlərini) böyük bilərək Onun rizasına və rəhmətinə can atmaq, qəzəbindən, tənbehindən qaçmaq və imanı mərmər üzərinə yazılan yazı kimi möhkəm olaraq könlünə yerləşdirməkdir.

**İman** Muhamməd-əleyhissəlamın söylədiklərinin hamısını bəyənib qəlbin təsdiq etməsi, yəni inanmasıdır. Beləcə, inanan insanlara "**Mömin**" və "**Müsəlman**" deyilir. Hər müsəlmanın Muhamməd -əleyhissəlama tabe olması, Onun göstərdiyi yolla getməsi lazımdır. Onun yolu Qurani-Kərimin göstərdiyi yoldur. Bu yola "**İslamiyyət**" deyilir. Ona tabe olmaq üçün öncə iman etmək, sonra "**Əhkami islamiyyəti**", yəni müsəlmanlığı dəqiq olaraq öyrənmək, sonra fərzləri əda edib haramlardan çəkinmək, daha sonra sünnətləri yerinə yetirib məkruhlardan çəkinmək lazımdır. Bunlardan sonra mubahlarda (halal) da Ona tabe olmağa çalışmalıdır.

Dinimizin təməli imandır. İmanı olmayanların heç bir ibadətini və xeyir işlərini Allahü təala bəyənməz və qəbul etməz. Müsəlman olmaq istəyən ilk əvvəl iman etməli, sonra qüslü, dəstəmazı, namazı və lazım olduqca digər fərzləri və haramları öyrənməlidir.

### İMAN DOĞRU OLMALIDIR

Duyğu orqanları və ağlın qavradığı elmlər imana qovuşmaq üçün köməkçi vasitələrdir. Fənn elmləri aləmdəki nizamın, düzgünlüyün təsadüfən olmadığını və bir yaradıcının olduğunu anlamağa, bilməyə və imana qovuşmağa səbəb olur. İman

demək, son Peyğəmbər Muhamməd-əleyhissəlam Allahü təaladan gətirdiyi elmləri öyrənib inanmaq deməkdir. İnanılması lazım olan elmlərə ağlıma batsa, inanaram demək, Peyğəmbərlərə inanmamaq demək olur. Din elmləri ağıl sahiblərinin görüşləri deyildir. Hər kəs Peyğəmbərimiz Muhamməd-əleyhissəlamın xəbər verdiklərini **"Əhli-sünnət alimlərinin"** kitablarından öyrənib, o cür iman edilməlidir. Doğru və məqbul bir iman sahibi olmaq üçün aşağıdakı şərtlərə də tabe olmaq lazımdır:

1. İman davamlı və sabit olmalıdır. Bir an da olsa ayrılmağı düşünməməlidir. Üç il sonra müsəlmanlıqdan çıxacağam deyənin, o andan etibarən imanı gedər və müsəlmanlıqdan çıxar.

2. Möminin imanı **havf** (Allahü təaladan qorxmaq) və **rəca** (Allahü təaladan ümidini kəsməmək) arasında olmalıdır. Allahü təalanın əzabından qorxmalı, lakin rəhmətindən bir an da olsa ümidini kəsməməlidir. Hər günahı işləməkdən çox çəkinməli, günahı səbəbi ilə imanının getməsindən qorxmalıdır. Bütün günahları işləmiş olsa belə, Rəbbimizin əfv edəcəyindən heç ümidini kəsməməlidir. Günahları üçün tövbə etməlidir. Çünki tövbə edən heç günah işləməmiş kimi olur.

3. Can (ruh) boğaza gəlmədən əvvəl iman etməlidir. Can boğaza gəlincə axirətin bütün halları göstərilir. O zaman bütün kafirlər iman etmək istəyərlər. Halbuki imanın qeybi olmalıdır. Görmədən inanmaq lazımdır. Görülən şeyə iman etmək sayılmaz. Lakin həmin anda möminlərin tövbəsi qəbul olunur.

4. Günəş qərbdən doğmadan əvvəl iman etməlidir. Qiyamətin böyük əlamətlərindən biri günəşin qərbdən doğmasıdır. Bunu görən bütün insanlar iman edəcəklər. Lakin imanları qəbul olunmayacaq, tövbə qapısı da bağlanmış olacaqdır.

5. Allahü təaladan başqa heç kimin qeybi, gizli olan şeyləri bilməməsinə inanmalıdır. Yəni qeybi yalnız Allahü təala bilir. Bir də Onun bildirdikləri bilir. Mələklər, cinlər, şeytanlar və Peyğəmbərlər də qeybi bilməzlər. Lakin Peyğəmbərlərə, saleh qullara qeybdən məlumat verilə bilər.

6. Dinin imana və ibadətlərə aid bir hökmünü zərurətsiz və qəsdən rədd etməməlidir. Əhkami-İslamiyyəti, yəni İslamiyyətin əmr və qadağalarından birini belə əhəmiyyətsiz görmək, Qurani-Kərimə, mələklərə və Peyğəmbərlərdən birisinə belə lağ etmək və bunlar ilə bildirilənləri bir məcburiyyət və zərurət olmadan dil ilə inkar etmək küfr (inanmamaq) olur. Allahü təalanın varlığını, mələkləri, qüslün və namazın fərz olduğunu, ölümlə qorxutmaq kimi bir zərurət ilə rədd etdiyini söyləyən kafir olmaz.

7. İslam dininin açıq-aşkar bildirdiyi zəruri məlumatlarda şübhə və tərəddüd etməməlidir. Namaz qılmağın fərz, şərab və digər spirtli içkiləri içməyin, qumar oynamağın, faizin və rüşvətin haram olduğuna şübhə etmək və ya məşhur olan bir harama halal demək və halal olan şeyə haram demək imandan çıxmağa səbəb olur.

8. İman, İslam dininin bildirdiyi şəkildə olmalıdır. Ağlın anladıqlarına, fəlsəfəçilərin, fənn təqlidçilərinin bildirdiklərinə inanmaq iman olmaz. Muhamməd-əleyhissəlamın bildirdiyi şəkildə iman etmək lazımdır.

9. İman edən yalnız Allah üçün sevməli və yalnız Allah üçün düşmənçilik etməlidir. Allahü təalanın dostları olan müsəlmanları sevməli və İslamiyyətə əli və qələmi ilə düşmənlik edənləri sevməməlidir. Bu düşmənçiliyin yeri qəlbdir.

(Müsəlman olmayan, qeyri-müslim vətəndaşlara və turistlərə də gülərüzlü və şirindilli davranmalıdır. Gözəl əxlaqımız ilə dinimizi onlara sevdirməliyik)

10. Peyğəmbərimizin və Əshabəsinin göstərdiyi doğru yoldan ayrılmayan həqiqi müsəlmanların iman etdiyi kimi inanmalıdır. Doğru inanmış olmaq üçün Əhli-sünnət vəl-camaat etiqadına uyğun olaraq iman etməlidir. (Əhli-sünnət alimlərinin yazdıqları həqiqi din kitablarına tabe olanlara yüz şəhid savabı veriləcəkdir. Dörd məzhəbin hər hansı birisinin alimlərinə **"Əhli-sünnət alimi"** deyilir. Əhli-sünnət alimlərinin rəisi, İmamı-azam Əbu Hənifədir. Bu alimlər Əshabi-kiramdan öyrəndiklərini yazmışlar, Əshabi-kiram da bunları Rəsulullahdan eşitdiklərini söyləmişdilər.)

## ƏHLİ SÜNNƏT ETİQADI

Müsəlman olmağın ilk şərti iman etməkdir. Doğru iman isə Əhli-sünnət etiqadına uyğun olaraq inanmağa bağlıdır. Ağıllı olan və həddi-büluğa girən kişi və qadının birinci vəzifəsi Əhli-sünnət alimlərinin kitablarında yazdıqları iman məlumatlarını öyrənmək və bunlara uyğun olaraq inanmaqdır. Qiyamətdə Cəhənnəm əzabından qurtulmaq onların bildirdiklərinə inanmağa bağlıdır. Cəhənnəmdən qurtulacaq olanlar, yalnız bunların yolunda gedənlərdir. Onların yolunda gedənlərə "**sünni**" və ya "**Əhli-sünnət**" deyilir.

Bir Hədisi-şərifdə "**mənim ümmətim yetmiş üç firqəyə** (qola) **bölünəcək. Bunlardan yalnız bir firqə Cəhənnəm əzabından qurtulacaq, digərləri isə həlak olacaq, Cəhənnəmə gedəcəkdir**" buyuruldu. Bu yetmiş üç firqədən hər biri islamiyyətə tabe olduğunu iddia etməkdə və Cəhənnəmdən qurtulacağı bildirilən firqənin öz firqəsi olduğunu söyləməkdədirlər. Möminin surəsinin 54-cü və Rum surəsinin 32-ci ayəti-kərimələrində məalən: **"Hər firqə doğru yolda olduğunu zənn edərək sevinməkdədir"** buyuruldu. Halbuki bu müxtəlif firqələr arasından qurtulan olan birinin əlamətlərini Peyğəmbərimiz "sallallahü aleyhi və səlləm" belə bildirmişdir: "**Bu yolda olanlar mənim və əshabəmin getdiyi yolda olanlardır**". Əshabi-kiramın birini belə sevməyən, Əhli-sünnətdən ayrılmış olur. Əhli-sünnət etiqadında olmayan kafir olur və ya "Bidət əhli" yolunu azmış olur.

## ƏHLİ-SÜNNƏT ETİQADINDA OLMAĞIN ƏLAMƏTLƏRİ

Allahü təala Əhli-sünnət etiqadına uyğun iman edən müsəlmanlardan razıdır. Bu cür inanmış olmağın bir çox şərtləri vardır. Əhli-sünnət alimləri bunları aşağıdakı kimi izah etmişlər:

1.İmanın altı şərtinə, yəni Allahü təalanın varlığına və birliyinə, ortağı və bənzərinin olmadığına, Mələklərinə, Kitablarına, Peyğəmbərlərinə, Axirət həyatına, xeyir və şərin, yaxşılıq və yamanlığın Allahü təala tərəfindən yaradıldığına inanmalıdır. (Bunlar "**Əməntü**"də bildirilmişdir).

2. Allahü təalanın son kitabı olan Qurani-Kərimin Allahü təalanın kəlamı olduğuna inanmalıdır.

3. Mömin öz imanından heç şübhə etməməlidir.

4. Peyğəmbərimizə "sallallahü aleyhi və səlləm" iman edib, həyatda ikən onu görməklə şərəflənən Əshabi-kiramın hamısını çox sevməlidir. Dörd xəlifəsinə, yaxın qohumları olan Əhli beytinə və möhtərəm xanımlarından heç birinə dil uzatmamalıdır.

5. İbadətləri imandan bir parça bilməməlidir. Allahü təalanın əmr və qadağalarına inanıb, tənbəlliklə yerinə yetirməyən möminləri kafir bilməməlidir. Haramlara əhəmiyyət verməyənlərin, islamiyyətə lağ edənlərin imanı gedər.

6. Əhli qiblə olduqlarını söyləyən Allahü təalaya və Peyğəmbəri Muhamməd əleyhissəlama inandım dediyi halda, səhv etiqadda olanları kafir olduqlarını söyləməməlidir.

7. Açıq-aydın günah işlədiyi bilinməyən hər imamın arxasında namaz qılmalıdır. Bu hökm cümə və bayram namazlarını qıldıran əmirlərə və valilərə də şamil edilir.

8. Müsəlmanlar başındakı əmirlərinə, idarəçilərinə üsyan etməməlidir. Üsyan etmək fitnə çıxarmaq olur və müxtəlif fəlakətlərə yol açır. Rəhbərlərin xeyirli işlə məşğul olması üçün dua etməli və günah işlərdən əl çəkmələri üçün şirin dil ilə nəsihət etməlidir.

9. Dəstəmaz alarkən ayaqları yumaq əvəzinə, heç üzr və zərurət olmasa belə, yaş əl ilə bir dəfə məst üzərinə məsh etmək, kişi üçün də qadın üçün də caizdir (icazə verilir). Çılpaq ayaq və corab üzərinə məsh etmək olmaz.

10. Peyğəmbərimizin "sallallahü aleyhi və səlləm" Miracının həm ruh, həm də bədən ilə olduğuna inanmalıdır. "Mirac bir haldır, yəni yuxuda olmuşdur", deyənlər Əhli-sünnətdən ayrılarlar.

Cənnətdə möminlər Allahü təalanı görəcəklər. Qiyamət günündə Peyğəmbərlər və saleh, yaxşı insanlar şəfaət edəcəklər. Qəbir sualı vardır. Qəbirdə əzab ruh və bədənə olacaqdır. Övliyanın kəraməti haqdır. Kəramət Allahın sevgili qullarında meydana gələn xariqüladə hallar olub, Allahü təalanın adətindən kənar, yəni fizika, kimya və biologiya qanunlarından kənar ikram və ehsan etdiyi şeylərdir və inkar edilməyəcək qədər çoxdur. Qəbirdə ruhlar dirilərin etdiklərini və söylədiklərini eşidirlər. Qurani-Kərim oxumaq, sədəqə vermək və hətta bütün ibadətlərimizin savablarını ölülərin ruhlarına göndərmək, onlara fayda verir, əzablarının azaldılmasına və ya qaldırılmasına səbəb olur. Bunların hamısına inanmaq Əhli-sünnət etiqadında olmağın əlamətlərindəndir.

## İMANIN ŞƏRTLƏRİ

İmanın şərti altıdır. Bunlar "Əməntü"də açıqlanmışdır. İmanın bəlli altı şeyə inanmaq olmasını Rəsulullah "sallallahü aleyhi və səlləm" bildirmişdir. Bunun üçün hər müsəlman övladına "Əməntü"nü əzbərlətməli və mənasını da yaxşı öyrətməlidir.

***ƏMƏNTÜ:* "Əməntü billəhi və Mələikətihi və Kütübihi və Rüsülihi vəl-yəvmil-axıri və bil qadəri, xayrihi və şərrihi min Allahi Təala vəl bəasü bəadəl-məvti haqqun, Əşhədü ən ləə iləhə illəllah və əşhədü ənnə Muhammmədən abdühü və rasulühü".**

## BİRİNCİ ŞƏRT

### ALLAHÜ TƏALAYA İNANMAQ

**"Əməntü billəhi":** Allahü təalanın varlığına və birliyinə inandım, iman etdim, qəlbimlə və dilimlə təsdiq etdim deməkdir. Allahü təala vardır və birdir. Bir sözünün lüğətdə müxtəlif mənaları vardır. Birincisi, say baxımından ikinin yarısı olub, sayların əvvəlidir. Digəri, ortağı və bənzəri olmamaq baxımından birdir. Allahü təala say baxımından deyil, ortağı və bənzəri olmamaq baxımından birdir. Yəni zatında və xüsusiyyətində heç bir şəkildə Ona ortaq yoxdur. Bütün məxluqların zat və xüsusiyyətləri bunları yaradanın zat və xüsusiyyətlərinə bənzəmədiyi kimi, yaradanın zat və xüsusiyyətləri də yaratdıqlarının heç birinin zat və xüsusiyyətlərinə bənzəməz.

Bütün məxluqatın hər üzvünün hər hüceyrəsinin yaradanı, yoxdan var edəni yalnız Allahü təaladır. Allahü təalanın zatının həqiqətini heç bir kimsə bilə bilməz. Ağıla və xəyala gələnlərin hamısından münəzzəhdir və uzaqdır. Onun zatını ağıla və xəyala gətirmək caiz deyil (icazə verilmir). Ancaq Qurani-Kərimdə bildirilən xüsusiyyətlərini, isimlərini əzbərləyib, üluhiyyətini bunlarla təsdiq edilməlidir. Bütün xüsusiyyətləri və isimləri əzəli və əbədidir. Zatı heç bir yerdə durmadığı kimi, müəyyən bilinən altı cəhətdən də münəzzəhdir. Yəni, öndə, arxada, sağda, solda, üstdə, altda deyildir. Onun haqqında ancaq "**hər yerdə hazır və nazırdır**" deyilə bilər.

Allahü təalanın xüsusiyyətləri on dörddür. Altısına **sıfatı-zatiyyə** (zatı xüsusiyyətlər) və səkkizinə **sıfatı-sübutiyyə** (sübuti xüsusiyyətlər) deyilir. Bunların mənalarını bilmək və əzbərləmək çox lazımdır:

### SIFATI-ZATİYYƏ (Zatı xüsusiyyətləri)

1. **Vücud** (Varlıq): Allahü təala vardır. Varlığı əzəlidir. Vacib-ül vücuddur, yəni varlığı lazımdır.
2. **Qıdəm** (Əzəli): Allahü təalanın varlığının əvvəli yoxdur.
3. **Bəqa** (Əbədi): Allahü təalanın varlığının sonu yoxdur. Heç yox olmaz. Ortağı olmaq mümkünsüz olduğu kimi, zatı və xüsusiyyətləri üçün də yoxluq mümkünsüzdür.
4. **Vahdaniyyət** (Bənzərsiz): Allahü təalanın zatında, xüsusiyyətlərində, işlərində ortağı, bənzəri yoxdur.
5. **Muhaləfətün-lilhavadis** (Misilsiz): Allahü təala zatında və xüsusiyyətlərində heç bir məxluqun zat və xüsusiyyətlərinə bənzəmir.

6. **Qıyam bi-nəfsihi** (Möhtacsız): Allahü təala zatı ilə qaimdir. Məkana möhtac deyildir. Maddə və məkan yox ikən, O var idi. Hər ehtiyacdan münəzzəhdir. Bu kainatı yoxluqdan varlığa çevirmədən əvvəl zatı necə idisə, sonsuz olaraq həmişə elə olacaq.

**SIFATI SÜBUTİYYƏ (Sübuti xüsusiyyətləri)**

1. **Həyat**: Allahü təala diridir. Həyatı məxluqların həyatına bənzəməyib, zatına layiq və məxsus olan bir həyat ilə əzəli və əbədidir.
2. **Elm**: Allahü təala hər şeyi bilir. Bilməsi məxluqatın bilməsi kimi deyildir. Qaranlıq gecədə qarışqanın qara daş üzərində yeridiyini görür və bilir. İnsanların qəlbindən keçən düşüncələrini, niyyətlərini bilir. Bilməsində dəyişiklik olmaz. Əzəli və əbədidir.
3. **Səm:** (Eşitmə) Allahü təala eşidir. Vasitəsiz və cəhətsiz eşidir. Eşitməsi qulların eşitməsinə bənzəməz. Bu xüsusiyyəti də başqa xüsusiyyətləri kimi əzəli və əbədidir.
4. **Basar:** (Görmə) Allahü təala görür. Alətsiz və şərtsiz görür. Görməsi göz ilə deyildir.
5. **İradət**: Allahü təalanın istəməsi vardır. İstədiyini yaradır. Hər şey Onun istəməsilə var olur. İradəsinə mane ola bilən heç bir qüvvət yoxdur.
6. **Qüdrət:** Allahü təala hər şeyə gücü çatandır. Heç bir şey ona çətin gəlməz.
7. **Kəlam**: Allahü təala söyləyicidir. Söyləməsi alət, hərflər, səslər və dil ilə deyildir.
8. **Təkvin** (Yaratmaq): Allahü təala yaradandır. Ondan başqa yaradan yoxdur. Hər şeyi O yaradır. Allahü təaladan başqasına yaradan deməmək lazımdır.

Allahü təalanın xüsusiyyətlərinin həqiqətlərini anlamaq da mümkünsüzdür. Heç bir kimsə və heç bir şey Allahü təalanın xüsusiyyətlərinə ortaq və bənzər ola bilməz.

## İKİNCİ ŞƏRT

### MƏLƏKLƏRƏ İNANMAQ

**Və Məlaikətihi:** Allahü təalanın mələklərinə inandım deməkdir. Mələklər Allahü təalanın qullarıdır. Hamısı Allahü təalanın əmrlərinə itaət edər. Günah işləməzlər. Kişi və qadın deyillər. Evlənməzlər. Diridirlər. Yeməzlər, içməzlər, yatmazlar. Nurani cisimdirlər, ağıllıdırlar. Ən üstün olanları dörddür.

1. **Cəbrail**-əleyhissəlam: Vəzifəsi Peyğəmbərlərə vəhy gətirmək, əmr və qadağaları bildirməkdr.
2. **İsrafil**-əleyhissəlam: Sura üfürməklə vəzifəlidir. Birinci üfürməsindən hasil olan səsi eşidən Allahü təaladan başqa hər diri öləcək, ikincisində hamısı təkrar diriləcək.
3. **Mikail**-əleyhissəlam: Ruzi göndərilmək, ucuzluq, bolluq, qıtlıq, bahalıq və hər maddəni hərəkət etdirməklə vəzifəlidir.
4. **Əzrail**-əleyhissəlam: İnsanların ruhunu almaqla vəzifəlidir.

Bunlardan sonra dörd sinif mələk vardır. **Hamələi-arş** deyilən mələklər dörd ədəddir. Huzuri-ilahidə olan mələklərə **Mukarrebin** deyilir. Əzab mələklərin böyüklərinə **Kərubiyan**, rəhmət mələklərinə **Ruhaniyan** deyilir. Cənnət mələklərinin böyüyünün adı **Rıdvan**, Cəhənnəm mələklərinin böyüyünün adı **Malik-**dir. Cəhənnəm mələklərinə **Zəbani** deyilir. Sayı ən çox olan məxluq mələklərdir. Göylərdə mələklərin ibadət etmədikləri boş bir yer yoxdur.

## ÜÇÜNCÜ ŞƏRT

### KİTABLARA İNANMAQ

**Və kütübihi:** Allahü təalanın endirdiyi kitablara inandım deməkdir. Allahü təala bu kitabları bəzi Peyğəmbərlərə Cəbrail adlı mələklə vəhy edərək, yəni oxudaraq, bəzilərinə isə mələksiz eşitdirərək endirdi. Hamısı Allahü təalanın kəlamıdır. Əzəli və əbədidirlər. Məxluq deyildirlər. Hamısı haqdır. Səmavi kitablardan bizə bildirdikləri yüz dörddür. Bunlardan on suhuf Adəm-əleyhissəlama, əlli suhuf Şit-əleyhissəlama, otuz suhuf İdris-əleyhissəlama, on suhuf İbrahim-əleyhissəlama, "Tövrat" Musa-əleyhissəlama, "Zəbur" Davud-əleyhissəlama, "İncil" İsa-əleyhissəlama, "Qurani-Kərim" Muhamməd əleyhissəlama enmişdir.

Allahü təala, insanların dünyada dinclik içində yaşaması, axirətdə sonsuz səadətə qovuşmaları üçün ilk insan və ilk Peyğəmbər olan Adəm-əleyhissəlamdan son Peyğəmbər Muhamməd əleyhissəlama qədər bir çox Peyğəmbər vasitəsilə kitablar göndərmişdir. Bu kitablarda iman və ibadət əsaslarını açıqlamış, insanların möhtac olduqları hər mövzuda məlumat verilmişdir.

Bunlardan Qurani-Kərim son ilahi kitabdır. Qurani-Kərimin göndərilməsindən sonra digər bütün ilahi kitabların hökmləri qüvvədən düşmüşdür. Cəbrail-əleyhissəlam Qurani-Kərimi Muhamməd əleyhissəlama iyirmi üç il ərzində endirmişdir. Qurani-Kərim 114 surə, 6236 ayətdən ibarətdir. Bu rəqəmin bəzi kitablarda dəyişik verilməsi bir uzun ayətin bir neçə ayət sayılmasındandır. Çünki Qurani-Kərim endirildiyindən bəri heç bir dəyişikliyə məruz qalmamış, bundan sonra da qalmayacaq. Qurani-Kərim Allahü kəlamıdır. Belə bir kitabın insanlar tərəfindən yazılması mümkün deyil. Bir ayətə belə oxşar bir şey söyləmək mümkün olmamışdır.

Peyğəmbərimiz "sallallahü aleyhi və səlləm" axirətə təşrif etdikdən sonra birinci xəlifəsi Əbu Bəkri Sıddıq "radıyallahü anh" Qurani-Kərimin ayətlərini bir yerə topladı. Beləcə də bir "**Mushaf**" (kitab) meydana gəldi. Əshabi-kiramın hamısı bu mushafın Allahü kəlamı olduğunu söz birliyi ilə bildirdilər. Üçüncü xəlifə Osman "radıyallahü anh", bu mushafdan altı ədəd də yazdırıb bəzi vilayətlərə göndərdi. Qurani-Kərimi əsli ilə oxumaq lazımdır. Başqa hərflərlə yazılmış olanlara Qurani-Kərim deyilməz.

a) Mushafı ələ alarkən dəstəmazlı olmaq, qibləyə tərəf oturmaq, diqqətlə oxumaq lazımdır.

b) Ağır-ağır, huşu ilə oxunmalıdır.

c) Mushafa baxaraq, hər ayətin haqqını verərək oxunmalıdır.

d) Təcvid qaydalarına uyğun oxunmalıdır.
e) Oxuduğunun Allahü kəlamı olduğunu düşünməlidir.
f) Qurani-Kərimin əmr və qadağalarına uymalıdır.

## DÖRDÜNCÜ ŞƏRT

### PEYĞƏMBƏRLƏRƏ İNANMAQ

**Və rüsulihi**: Allahü təalanın peyğəmbərlərinə inandım deməkdir. Peyğəmbərlər Allahü təalanın bəyəndiyi yola qovuşdurmaq, doğru yolu göstərmək üçün seçilmişlər. Bütün peyğəmbərlər həmişə eyni imanı söyləmişlər. Peyğəmbərlərdə yeddi xüsusiyyətin olmasına inanmaq lazımdır. Bunlar aşağıdakılardır:

1. **İsmət**: Günah işləməmək. Peyğəmbərlər hər hansı bir dində haram olmuş və olacaq kiçik və böyük heç bir günah işləməzlər.
2. **Əmanət**: Peyğəmbərlər hər baxımdan etibarlı kimsələrdir. Əsla əmanətə xəyanət etməzlər.
3. **Sıdq**: Peyğəmbərlər sözlərində, işlərində və hər cür davranışlarında doğru, dürüst insanlardır. Əsla yalan danışmazlar.
4. **Fətanət**: Peyğəmbərlər çox ağıllı və anlayışlı insanlardır. Kor, şikəstlik kimi qüsurları olanlardan və qadınlardan peyğəmbər gəlməmişdir.
5. **Təbliğ**: Peyğəmbərlər insanlara bildirib açıqladıqlarının hamısını Allahü təaladan gələn vəhy ilə öyrənmişlər. Bildirdikləri əmr və qadağaların heç biri öz fikirləri deyildir. Əmr olunanların hamınısı bildirmişlər.
6. **Ədalət**: Peyğəmbərlər heç zülm və haqsızlıq etməzlər. Heç kəsin xətrinə görə ədalətdən ayrılmazlar.
7. **Əmnül-azl**: Peyğəmbərlikdən atılmazlar. Dünyada və axirətdə həmişə Peyğəmbərdirlər.

Yeni din və Əhkam gətirən Peyğəmbərlərə **Rəsul** deyilir. Yeni bir din gətirməyib, insanları əvvəlki dinə dəvət edən Peyğəmbərlərə Nəbi deyilir. Peyğəmbərlərə iman etmək, aralarında heç bir fərq görməyərək hamısının Allahü təala tərəfindən seçilmiş sadiq, doğru sözlü olduqlarına inanmaq deməkdir. Onlardan birinə inanmayan, heç birinə inanmamış sayılır.

Peyğəmbərlik çalışmaqla, çox ibadət etməklə, aclıq və ələm çəkməklə əldə edilməz. Yalnız Allahü təalanın ehsanı, seçməsi ilə olar. Sayları müəyyən deyildir. Yüz iyirmi dörd mindən çox olduqları məşhurdur. Bunlardan üç yüz on üç və ya üç yüz on beşi Rəsuldur. Bunlardan altısı daha yüksəkdir. Bunlara **Ülül-azm** Peyğəmbərlər deyilir. Bunlar: **Adəm, Nuh, İbrahim, Musa, İsa və Muhamməd Mustafa** əleyhimüssəlamdır. Peyğəmbərlərin otuz üçünün adları məşhurdur. Bunlar: **Adəm, İdris, Şit, Nuh, Hud, Saleh, İbrahim, Lut, İsmail, İshaq, Yaqub, Yusüf, Əyyub, Şuayb, Musa, Harun, Xızır, Yuşa bin Nun, İlyas, Əlyəsa, Zülkifl, Şəmun, İsmoil, Yunus bin Məta, Davud, Süleyman, Loğman, Zəkəriyya, Yəhya, Üzeyir, İsa bin Məryəm, Zülkarneyn və Muhamməd** "aləyhi və əleyhimüssalatü vəssəlam"dır**.** Bunlardan yalnız iyirmi səkkizinin adı Qurani-Kərimdə

bildirilmişdir. **Zülkarneyn, Loğman, Üzeyir** və **Xızırın**, Peyğəmbər olub olmadıqlarında ixtilaf vardır. Muhamməd Masum həzrətləri 2-ci cild, 36-cı məktubda, Xızır əleyhissəlamın Peyğəmbər olduğunu bildirən xəbərin qüvvətli olduğunu yazmaqdadır. 182-ci məktubda, Xızır əleyhissəlamın insan şəklində görülməsi və bəzi işlər etməsi, Onun həyatda olduğunu göstərməz. Allahü təala, Onun və bir çox Peyğəmbərlərin və vəlilərin ruhlarının insan şəklində görülməsinə icazə vermişdir. Onları görmək həyatda olduqlarını göstərməz demişdir.

**PEYĞƏMBƏRİMİZ MUHAMMƏD-ƏLEYHİSSƏLAM**

Allahü təalanın Rəsuludur, Həbibidir (sevgili). Peyğəmbərlərin ən üstünü və sonuncusudur. Atası Abdullahdır. Miladın beş yüz yetmiş birinci [571] ili aprel ayının iyirmisinə təsadüf edən, Rəbiül-əvvəl ayının on ikinci bazar ertəsi gecəsi, səhərə yaxın, Məkkədə təvəllüd etdi. Atası daha öncə vəfat etmişdi. Altı yaşında ikən anası, səkkiz yaşında ikən babası öldü. Sonra əmisi Əbu Talibin yanında böyüdü. İyirmi beş yaşında ikən Xədicə-tül-kübra ilə evləndi. Bundan dörd qızı, iki oğlu oldu. İlk oğlunun adı Qasım idi. Buna görə Ona "**Əbül-Qasım**" (Qasımın atası) da deyilir. Qırx yaşında ikən bütün insanlara və cinlərə Peyğəmbər olduğu bildirildi. Üç il sonra hər kəsi imana çağırmağa başladı. Əlli iki yaşında ikən bir gecə Məkkədən Qüdsə və oradan göylərə aparılıb gətirildi. Bu səfərinə "**Mirac**" deyilir. Miracda Cənnətləri, Cəhənnəmləri və Allahü təalanı gördü. Beş vaxt namaz bu gecə fərz oldu. Tarixçilərə görə miladın 622-ci ilində, Allahü təalanın əmri ilə Məkkədən Mədinəyə getdi. Bu səfərinə "**Hicrət**" deyilir. Mədinə şəhərinin Kuba kəndinə gəldiyi Rəbiüləvvəl ayının səkkizinci bazar ertəsi gününə təsadüf edən sentyabr ayının iyirminci günü müsəlmanların **"Hicri şəmsi"** tarix başlanğıcı oldu. Müsəlmanların **"Hicri qəməri**" illəri də o ilin Məhərrəm ayından başlayar və göydəki ayın dünya ətrafında on iki dəfə dönməsi ilə bir qəməri il olar. Hicri 11 (m. 632) ildə, Rəbiül-əvvəl ayının on ikinci bazar ertəsi günü, günortadan əvvəl vəfat etdi. Çərşənbə axşamını çərşənbəyə bağlayan gecə (Çərşənbə gecəsi) yarısı, vəfat etdiyi otaqda dəfn edildi. Vəfat etdiyi zaman qəməri 63, şəmsi ilə görə 61 yaşında idi.

Muhamməd-əleyhissəlam ağbəniz idi. Bütün insanların ən gözəli idi. Gözəlliyini hər kəsə bildirməzdi. Onun gözəlliyini bir dəfə görən, hətta yuxuda görən kimsənin ömrü ləzzət və sevinc ilə keçər. O, hər zamanda, dünyanın hər yerində olan və gələcək olan hər insandan hər baxımdan üstündür. Ağlı, fikri, gözəl xasiyyətləri, bütün orqanlarının qüvvəti hər insandan üstün idi. Uşaq ikən iki dəfə ticarət edənlərlə Şam tərəfə getdi və Busra deyilən yerdən geri döndülər. Başqa heç bir zaman heç bir yerə getmədi. Ümmi idi. Yəni heç məktəbə getmədi, heç kimdən dərs almadı. Lakin hər şeyi bilirdi. Yəni hər nəyi düşünsə, hər nəyi bilmək istəsə, Allahü təala Ona bildirirdi. Cəbrail-əleyhissəlam adlı mələk gəlib Ona hər istədiyini söyləyirdi. Mübarək qəlbi günəş kimi nur saçırdı. Onun saçdığı elm, mərifət nurları radio dalğaları kimi yerlərə, göylərə, hər yerə saçılırdı. İndi qəbrindən də yaymaqdadır. Yayma qüvvəti hər an artmaqdadır. Elektromaqnit dalğaları almaq üçün radio lazım olduğu kimi, Onun nurlarını almaq üçün də, Ona inanan və sevən, göstərdiyi yolda gedərək təmizlənən qəlb lazımdır. Belə qəlbi olan insan, bu nurları

alar və bu da ətrafa nəşr edər, yayar. Belə böyük insanlara "Vəli" (övliya) deyilir. Bu Vəlini tanıyan, inanan və sevən adam onun qarşısında ədəblə oturar və ya uzaqda, onu ədəb ilə, sevgi ilə düşünərsə, bu kimsənin də qəlbi, nur, feyz almağa, təmizlənməyə, yetkinləşməyə başlayar. Allahü təala bədənimizi, maddəmizi yetişdirmək üçün günəş enerjisini səbəb qıldığı kimi ruhlarımızı, qəlblərimizi yetkinləşdirmək, insanlıqda yüksəltmək üçün də Muhamməd -əleyhissəlamın qəlbini, oradan yayılan nurları səbəb qılmışdır. İnsanı bəsləyən, quruluşunu və enerjisini təmin edən bütün qida maddələri, günəş enerjisi, assimilyasiya etmə ilə hasil olduqları kimi qəlbə, ruha qida olan Övliyanın söhbətləri, sözləri, yazıları da həmişə Rəsulullahın mübarək qəlbindən yayılan nurlarla hasil olmuşdur.

Allahü təala, Cəbrail-əleyhissəlam adında bir mələk ilə Muhamməd əleyhissəlama "Qurani-Kərim"i göndərdi. İnsanlara dünyada və axirətdə lazımlı, faydalı olan şeyləri əmr etdi. Zərərli olanları qadağan etdi. Bu əmrlərin və qadağanların hamısına **"İslam dini"** və ya **"İslamiyyət"** və **"Əhkami-ilahiyyə"** deyilir.

Muhamməd-əleyhissəlamın hər sözü doğrudur, qiymətlidir, faydalıdır. Belə olduğuna inanan kimsəyə "**Mömin**" və **"Müsəlman"** deyilir. Muhamməd-əleyhissəlamın sözlərindən birinə inanmayan, bəyənməyən kimsəyə "**kafir**" deyilir. Allahü təala mömin olanı sevər. Cəhənnəmdə sonsuz olaraq saxlamaz və ya Cəhənnəmə heç atmaz, yaxud günahları üçün atsa da, sonra Cəhənnəmdən çıxarar. Kafir olan kimsə Cənnətə girə bilməz. Birbaşa Cəhənnəmə girər və oradan heç çıxmaz. Ona inanmaq, Rəsulullahı sevmək bütün səadətlərin, rahatlıqların, yaxşılıqların başıdır. Onun Peyğəmbər olduğuna inanmamaq isə bütün fəlakətlərin, dərdlərin, yamanlıqların başıdır.

Rəsulullahın "sallallahü aləyhi və səlləm" elmi, mədəniyyəti, bəsirətliyi, fəhmi, fərasətliyi, ağlı, zəkası, comərdliyi, təvazökarlığı, yumşaqlığı, şəfqəti, səbri, səy göstərməsi, mərhəməti, sədaqəti, əmanəti, şücaəti, heybəti, igidliyi, bəlağəti, fəsahəti, düzgünlüyü, məlahəti (gözəlliyi, sevimliliyi), ədalətliyi, iffəti, kərəmi, insafı, həyası, tərki-dünyalığı, təqvası bütün Peyğəmbərlərdən daha çoxdur. Dostundan və düşmənindən gördüyü zərərləri əfv edərdi. Heç birinə qarşılıq verməzdi. Uhud qəzasında (döyüşündə) kafirlər mübarək yanağını qanadıb dişlərini qırdıqları zaman bunu edənlər üçün "**Ya Rəbb! Bunları əfv et**! **Cahilliklərinə bağışla!"** deyə, dua etmişdir.

Muhamməd əleyhissəlamın gözəl xasiyyətləri çoxdur. Hər müsəlmanın bunları öyrənməsi və bunlar kimi əxlaqlanması lazımdır. Beləcə, dünyada və axirətdə fəlakətlərdən, dərtlərdən qurtulmaq və O iki cahan əfəndisinin "sallallahü aləyhi və səlləm" şəfaətinə qovuşmaq nəsib olar. Çünki Hədisi-şərifdə; **"Allahü təalanın əxlaqı ilə əxlaqlanın!"** buyurulmuşdur.

## ƏSHABƏİ-KİRAM

Peyğəmbər əfəndimizin mübarək üzünü görməklə, şirin sözlərini eşitməklə şərəflənən müsəlmanlara "**Əshabi-kiram**" deyilir. Peyğəmbərlərdən sonra gəlmiş və gələcək bütün insanların ən xeyirlisi, ən üstünü Əbu Bəkri-Sıddıqdır "radıyallahü anh". İlk xəlifə budur. Bundan sonra insanların ən üstünü Faruki-

azam, ikinci xəlifə Ömər bin Xəttab, sonra ən üstünü və Rəsulullahın üçüncü xəlifəsi, iman, həya və irfan qaynağı həzrəti Osman bin Affan "radıyallahü anh", bundan sonra insanların ən xeyirlisi, dördüncü xəlifə, heyrət ediləcək üstünlüklər sahibi, Allahü təalanın aslanı Əli bin Əbi-Talibdir "radıyallahü anh". Hədisi-şəriflərdən anlaşıldığına görə Həzrəti Fatımə, Həzrəti Xədicə, Həzrəti Aişə, Həzrəti Məryəm, Həzrəti Asiyə dünya qadınlarının ən üstünüdürlər. Hədisi-şərifdə: **"Fatimə Cənnət xatunlarının üstünüdür. Həsən və Hüseyn də Cənnət gənclərinin yüksəkləridir"** buyuruldu.

Bunlardan sonra Əshabi-kiramin ən üstünləri "**Aşərəi-mübəşşərə"**`dir. Cənnətlə müjdələnmiş on nəfərdir. Bunlar, Həzrəti Əbu Bəkri-Sıddıq, Ömər-ül-Faruq, Osman bin Affan, Əli bin Əbu Talib, Əbu Ubeydə bin Cərrah, Talha, Zübeyr bin Avvam, Sad bin Əbi Vaqqas, Said bin Zeyd, Abdurrahman bin Avf "ridvanullahi təala aləyhim əcmain". Sonra Bədr müharibəsində, sonra Uhudda, sonra da Biat-ür-ridvanda olanlardır.

Rəsulullahın yolunda canlarını, mallarını fəda edən, Ona yardım edən Əshabi-kiramın hamısının adlarını hörmət və sevgi ilə söyləməyimiz bizə vacibdir. Onların böyüklüyünə yaraşmayan sözlər söyləməyimiz əsla caiz deyildir. Adlarını hömətsizcə söyləmək fəlakətdir, pozğunluqdur.

Rəsulullahı sevən kimsənin Onun Əshabəsinin hamısını da sevməsi lazımdır. Çünki bir Hədisi-şərifdə buyurdu ki: "**Əshabımı sevən məni sevdiyi üçün sevər. Onları sevməyən kimsə məni sevməmiş olar. Onları incidən məni incidər. Məni incidən də, Allahü təalanı incitmiş olar. Allahü təalanı incidən kimsə, əlbəttə, əzab görəcəkdir."**

Başqa bir Hədisi-şərifdə: **"Allahü təala mənim ümmətimdən bir quluna yaxşılıq etmək istərsə, onun qəlbinə Əshabəmin sevgisini yerləşdirər. Onların hamısını canı kimi sevər"** buyurdu. Peyğəmbərimiz vəfat etdiyi gün Mədinə şəhərində otuz üç min əshabə vardı. Əshabələrin hamısı yüz iyirmi dörd mindən artıq idi.

## DÖRD MƏZHƏB İMAMI VƏ DİGƏR ALİMLƏR

Etiqad məsələlərində doğru olan tək yol vardır. Bu da "**Əhli-sünnət vəlcamaat"** məzhəbidir. Yer üzündə olan bütün müsəlmanlara doğru yolu göstərən və Muhamməd-əleyhissəlamın yolunu dəyişmədən, pozulmadan öyrənməmizə səbəb olan dörd böyük şəxsdir. Bunlardan birincisi İmamı-azam **Əbu Hanifə Numan bin Sabitdir**. İslam alimlərinin ən böyüklərindəndir. Əhli-sünnətin rəisidir. İkincisi **İmamı-Malik bin Ənəs,** üçüncüsü **İmamı-Muhamməd bin İdris Şafii,** dördüncüsü İmamı-Əhməd bin Hanbəldir "rahmətullahi aləyhim əcmain".

Bu gün bu dörd imamdan birinə tabe olmayan bir kimsə böyük təhlükədədir. Doğru yoldan ayrılmışdır. Biz bu kitabımızda Hənəfi məzhəbinə görə namazla əlaqəli məsələləri, o məzhəbin böyük alimlərinin kitablarından alıb, sadələşdirərək bildirdik.

Bu dörd imamın tələbəsindən ikisi iman elmlərində çox yüksəldi. Beləcə, etiqadda məzhəb iki oldu. Qurani-Kərimə və Hədisi-şəriflərə uyğun iman, bu ikisinin bildirdiyi imandır. Fırkai-naciyyə olan Əhli-sünnətin iman elmlərini yer üzünə yayan bu ikisidir. Biri **Əbu Mansuri-Matüridi**, ikincisi **Əbul Həsən Əli Əşaridir.**

Bu iki imam eyni imanı bildirmişlər. Aralarında olan bir neçə fərq mühüm deyildir. Həqiqətdə eynidir. İslam alimləri Qurani-Kərimdə və Hədisi-şəriflərdə təriflənmişdir. Bir ayəti-kərimədə: **"Heç bilənlərlə bilməyənlər bir olarmı?"** buyurulmuşdur. Başqa bir ayəti-kərimədə: "**Ey müsəlmanlar! Bilmədiklərinizi bilənlərdən soruşun"** buyuruldu.

Hədisi-şəriflərdə buyuruldu ki: **"Allahü təala və mələklər və hər canlı, insanlara yaxşılığı öyrədən müsəlmanlara dua edərlər". "Qiyamət günü öncə Peyğəmbərlər, sonra alimlər, sonra şəhidlər şəfaət edəcəklər". "Ey insanlar, bilin ki, elm alimdən eşidilərək öyrənilir". "Elm öyrənin. Elm öyrənmək ibadətdir. Elm öyrədənə və öyrənənə cihad savabı vardır". "Elm öyrətmək sədəqə vermək kimidir. Alimdən elm öyrənmək təhəccüd (gecə) namazı qılmaq kimidir". "Elm öyrənmək bütün nafilə ibadətlərdən daha savabdır. Çünki özünə də, öyrədəcəyi kimsələrə də faydası vardır". "Başqalarına öyrətmək üçün öyrənən kimsəyə Sıddıqlar savabı verilir". "Elm xəzinədir. Açarı soruşub öyrənməkdir". "Elm öyrənin və öyrədin". "Hər şeyin qaynağı vardır. Təqvanın qaynağı ariflərin qəlbləridir". "Elm öyrətmək günahlara kəffarədir".**

## BESİNCİ ŞƏRT

### AXİRƏTƏ İNANMAQ

**Vəl yəvmil axırı:** Axirət gününə inandım deməkdir. Bu zamanın başlanğıcı, insanın öldüyü gündür. Qiyamətin sonuna qədərdir. Son gün deyilməsi arxasından gecə gəlmədiyi üçündür. Yaxud dünyadan sonra gəldiyi üçündür. Qiyamətin nə zaman qopacağı bildirilmədi. Amma Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" bir çox əlamətlərini xəbər verdi: Həzrəti Mehdi gələcək. İsa-əleyhissəlam göydən Şama enəcək. Dəccal çıxacaq. Yəcüc və Məcüc deyilən kimsələr hər yeri qarışdıracaq. Günəş qərbdən doğacaq. Böyük zəlzələlər olacaq. Din elmləri unudulacaq. Günah, yamanlıq çoxalacaq. Haramlar hər yerdə işlənəcək. Yəməndən atəş çıxacaq. Göylər və dağlar parçalanacaq. Günəş və Ay qaralacaq və s.

Qəbir sualı vardır. Qəbirdə Münkər və Nəkir mələklərinə cavab olaraq bunları əzbərləməlidir və uşaqlara da əzbərlətməlidir: "Rəbbim Allahü təala, Peyğəmbərim Muhamməd-əleyhissəlam, dinim islam dini, kitabım Qurani-Kərim, qibləm Kəbəi- şərif, etiqadda məzhəbim Əhli-sünnət vəl-camaat, əməldə məzhəbim İmamı-azam Əbu Hənifə məzhəbi". Qiyamət günü hər kəs diriləcək. Məhşər yerində toplanacaq. Salehlərin əməl dəftərləri sağından, pislərin arxa və ya sol tərəfindən veriləcək. Şirkdən, küfrdən başqa hər günahı Allahü təala istəsə əfv edəcək, istəsə kiçik günah üçün də əzab edəcəkdir.

Əməllərin çəkilməsi üçün "**Mizan**" (tərəzi) vardır. "**Sirat körpüsü**" Allahü təalanın əmri ilə Cəhənnəmin üzərində qurulacaq. Muhamməd Mustafa "sallallahü aləyhi və səlləm" əfəndimizə məxsus **"Kövsər hovuzu"** vardır.

**"Şəfaət"** haqdır. Tövbəsiz ölən möminlərin kiçik və böyük günahlarının əfv edilməsi üçün Peyğəmbərlər, Vəlilər, salehlər, alimlər, mələklər, şəhidlər və Allahü təalanın icazə verdikləri şəfaət edəcək və qəbul ediləcəkdir.

“**Cənnət və Cəhənnəm**” indi vardır. Cənnət yeddi qat göylərin üstündədir. Cəhənnəm hər şeyin altındadır. Cənnətin səkkiz qapısı vardır. Hər qapıdan bir Cənnətə girilir. Cəhənnəm yeddi təbəqədir. Birinci təbəqədən yeddinci təbəqəyə doğru əzablar şiddətlənir.

## ALTINCI ŞƏRT

### TƏQDİRƏ İNANMAQ

**Və bil-qadəri, xayrihi və şərrihi minallahi Təala:** Qədərə, xeyir və şərlərin Allahü təaladan olduğuna inandım deməkdir. İnsanlara gələn xeyir və şər, fayda və zərər, qazanc və ziyanların hamısı Allahü təalanın təqdir etməsidir.

Allahü təalanın bir şeyin var olmasını istəməsinə **“təqdir”** deyilmişdir. Qədərin, yəni varlığı təqdir edilmiş olan şeyin var edilməsinə **“qəza”** deyilir. Qədər və qəza kəlmələri bir-birinin yerinə də istifadə edilir.

Allahü təala qullarına “**İradə**” vermiş, bu iradələrini, istəmələrini, işləri yaratmasına səbəb etmişdir. Bir qul bir şey etmək istəyincə, Allahü təala da diləyərsə, o işi yaradır. Qul istəməsə, Allahü təala da istəməz və o şeyi yaratmaz.

Buraya qədər qısaca bildirdiyimiz Əhli-sünnət etiqadını daha geniş öyrənmək istəyənlər, “Həqiqət Kitabevi”nin dərc etdiyi, islam alimlərinin göz bəbəyi böyük övliya, Mövlana Xalid Bağdadinin farsca “**Etiqadnamə**” kitabını və Kəmahlı Feyzullah Əfəndinin tərcümə etdiyi “**Hər kəsə Lazım Olan İman**” kitabını oxusunlar. Çox faydalı, çox gözəl bir əsər olub, feyz və bərəkətləri iki cahan səadəti üçün yetərlidir.

Allahü təala hər kəsə təvəkkülü əmr etmişdir. “**Təvəkkül imanın şərtidir”** bu ayəti-kəriməsi bu əmrlərdən biridir**.** Maidə surəsində, “**Əgər imanınız varsa, Allahü-Təlaya təvəkkül edin!”**, Əli-İmran surəsində, **“Allahü təala, təvəkkül edənləri, əlbəttə, sevər”**, Talak surəsində**, “Bir kimsə Allahü-Təlaya təvəkkül edərsə, Allahü təala ona kafidir”**, Zümər surəsində, **“Allahü təala, quluna kafi deyildirmi?”** deyə daha bir neçə ayəti-kərimə vardır.

Rəsulullah “sallallahü aləyhi və səlləm” buyurur ki, “**Ümmətimdən bir qismini mənə göstərdilər. Dağları, səhraları doldurmuşdular. Belə çox olduqlarına çasdım və sevindim. Sevindinmi,- dedilər,- bəli, dedim. Bunlardan ancaq yetmiş min ədədi hesabsız Cənnətə girər dedilər. Bunlar hansılarıdır,- deyə,- soruşdum. İşlərinə sehr, cadu, dağlamaq, fal qarışdırmayıb, Allahü təaladan başqasına, təvəkkül və etimad etməyənlərdir buyuruldu”.** Dinləyənlər arasında Ukaşə “radıyallahü anh” ayaqa qalxıb, “Ya Rəsulallah! Dua buyur ki, onlardan olum” deyincə, “**Ya Rəbb! Bunu onlardan et!**” buyurdu. Biri qalxıb eyni duanı istəyincə, “**Ukaşə səndən cəld davrandı”** buyurdu**.**

Təvəkkül səbəblərə yapışıb, gerisi üçün zehni yormamaqdır.

# İKİNCİ BÖLMƏ

## İBADƏTLƏRİMİZ VƏ NAMAZ

### İBADƏT NƏDIR?

İbadət bizi və bütün varlıqları yoxdan var edən, hər an varlıqda saxlayan, görünən və görünməz qəzalardan, bəlalardan qoruyan və hər an cürbəcür nemətlər, yaxşılıqlar verən Allahü təalanın əmr və qadağalarını yerinə yetirməkdir. İbadət Allahü təalanın sevgisinə qovuşmuş olan Peyğəmbərlərə, Övliyaya, alimlərə tabe olmaqdır.

İnsana saysız nemətləri göndərən Allahü təalaya gücü yetdiyi qədər şükür etməsi insanlıq vəzifəsidir. Ağlın əmr etdiyi bir vəzifə, bir borcdur. Amma insanlar öz qüsurlu ağılları, qısa görüşləri ilə Allahü təalaya qarşı şükür, hörmət ola biləcək şeyləri tapa bilməz. Şükür etməyə, hörmət göstərməyə yarayan vəzifələr Allahü təala tərəfindən bildirilmədikcə tərifləmək kimi sanılan şeylər əslində pisləmək olar.

Məhz, insanların Allahü təalaya qarşı qəlb, dil və bədən ilə etmələri və inanmaları lazım olan şükür borcu, qulluq vəzifələri Allahü təala tərəfindən bildirilmiş, Onun sevgili Peyğəmbəri tərəfindən ortaya qoyulmuşdur. Allahü təalanın göstərdiyi və əmr etdiyi qulluq vəzifələrinə “İslamiyyət” deyilir. Allahü təalaya şükür Onun Peyğəmbərinin gətirdiyi yola uymaqla olar. Bu yola tabe olmayan, bunun xaricində qalan heç bir şükürü, heç bir ibadəti Allahü təala qəbul etməz, bəyənməz. Çünki insanların yaxşı, gözəl hesab etdikləri çox şey vardır ki, İslamiyyət bunları bəyənmir, çirkin olduqlarını bildirir.

Demək ki, ağlı olan hər kəsin, Allahü təalaya şükür etmək, ibadət etmək üçün Muhamməd əleyhissəlama tabe olmaları lazımdır.

Muhamməd əleyhissəlama tabe olan insan müsəlmandır. Allahü təalaya şükür etməyə, yəni Muhamməd əleyhissəlama tabe olmağa da **“ibadət etmək”** deyilir. İslamiyyət iki qismdir:

1. Qəlb ilə etiqad edilməsi, inanılması lazım olanlar.
2. Bədən və qəlb ilə ediləcək ibadətlər. Bədən ilə edilən ibadətlərin ən üstünü namazdır. Mükəlləf olan hər müsəlmanın gündə beş vaxt namaz qılması fərzdir.

### MÜKƏLLƏF KİMƏ DEYİLİR?

Ağıllı olan həddi-büluğ çağına girən kişi və qadınlara **“mükəlləf”** deyilir. Mükəlləf olanlar Allahü təalanın əmr və qadağalarına görə məsuldurlar. Dinimizdə mükəlləf olana ilk əvvəl iman etmək və sonra da ibadət etmək əmr olunmuşdur. Ayrıca, işlənməsi qadağan edilən haramlardan və məkruh işlərdən də çəkinmələri lazımdır.

Ağıl anlayan bir qüvvətdir. Faydalı olanları zərərlərdən ayırmaq üçün yaradılmışdır. Ağıl bir ölçü aləti kimidir. İki yaxşı şeydən daha yaxşısını, iki pis şeydən daha pisini ayırır. Ağıllı kimsə sadəcə pisi yaxşıdan ayırmır, həm də yaxşını görəndə onu alan, pisi görəndə isə onu tərk edəndir. Ağıl göz kimidir. İslamiyyət isə işıq kimidir. İşıq olmasa, göz görməz.

Həddi-büluğ çağı yetkinlik yaşı deməkdir. Oğlan uşaqlarının həddi-büluğ çağına girmələri on iki yaşını bitirən kimi başlayar. Oğlan uşağının həddi-büluğ çağına girdiyini göstərən əlamətlər vardır. Bu əlamətlər görünməzsə, on beş yaşına gəlincə dində həddi-büluğ çağına girdiyinə hökm edilir.

Qız uşaqlarının həddi-büluğa çatması isə doqquz yaşı tamam olunca başlayar. Doqquz yaşındakı qız uşağının həddi-büluğa çatdığının əlamətlərinin heç biri görünməzsə, on beş yaşı tamam olunca həddi-büluğ çağına girdiyinə hökm olunur.

## ƏFALİ-MÜKƏLLƏFİN (Əhkami-İslamiyyə):

İslam dininin bildirdiyi əmrlərə və qadağalara “**Əhkami-Şəriyyə”** və ya **“Əhkami-islamiyyə”** deyilir**.** Bunlara **“Əfali-mükəlləfin”** də deyilir. Əfali-mükəlləfin səkkizdir: Fərz, vacib, sünnət, müstəhəb, mubah, haram, məkruh və müfsid.

**1. FƏRZ**: Allahü təalanın yerinə yetirilməsini ayəti-kərimə ilə açıq-aydın və qəti olaraq əmr etdiyi şeylərə fərz deyilir. Fərzləri tərk etmək haramdır. İnanmayan və yerinə yetirlməsinə əhəmiyyət verməyən kafir olar. Fərz iki növdür:

**Fərzi-Ayn:** Hər mükəlləf olan müsəlmanın birbaşa özünün yerinə yetirməsi lazım olan fərzdir. İman etmək, dəstəmaz almaq, qüsl etmək (boy dəstəmazı almaq), beş vaxt namaz qılmaq, Ramazan ayında oruc tutmaq, zəngin olunca zəkat vermək və həccə getmək fərzi-ayndır. (Otuz iki fərz və əlli dörd fərz məşhurdur).

**Fərzi-Kifayə:** Müsəlmanlardan bir neçəsinin və ya sadəcə birinın etməsi ilə digərlərinin məsuliyyətdən azad olunduğu fərzlərdir. Verilən salamın cavabını söyləmək, cənazəni qasl etmək (yəni yumaq), cənazə namazı qılmaq, Qurani-Kərimin tamamını əzbərləyib hafiz olmaq, cihad etmək, sənətinə, ticarətinə lazım olandan artıq din və fənn elmlərini öyrənmək kimi fərzlər belədir.

**2. VACIB**: Yerinə yetirilməsi fərz kimi qəti olan əmrlərə deyilir. Bu əmrin Qurani-Kərimdəki dəlili fərz qədər açıq deyildir. Zənn (şübhəli) olan bir dəlilə dayanır. Vitr namazını və bayram namazlarını qılmaq, zəngin olunca qurban kəsmək, fitrə (sədəqəi-fitr) vermək vacibdir. Vacibin hökmü fərz kimidir. Vacibi tərk etmək, tahrimən məkruhdur. Vacib olduğuna inanmayan kafir olmaz. Lakin yerinə yetirməyən Cəhənnəm əzabına layiq olar.

**3. SÜNNƏT**: Allahü təalanın açıqca bildirməyib, yalnız Peyğəmbər əfəndimizin edilməsini çox məsləhət gördüyü, yaxud davamlı olaraq özünün etdiyi və yaxud edilərkən görüb mane olmadığı şeylərə “Sünnət” deyilir. Sünnəti bəyənməmək küfrdür. Bəyənib də etməyənə əzab olmaz. Lakin üzrsüz və davamlı tərk edən məzəmmətə, danlanmağa və savabından məhrum olmağa səbəb olar. Məsələn: Azan oxumaq, iqamət gətirmək, camaat ilə namaz qılmaq, dəstəmaz alarkən misvakdan istifadə etmək, evləndiyi gecə ziyafət vermək və uşağını sünnət etdirmək kimi.

Sünnət iki növdür:

**Sünnəti-Müəkkədə:** Peyğəmbər əfəndimizin davamlı etdikləri, çox az tərk etdikləri qüvvətli sünnətlərdir. Sübh namazının sünnəti, zöhrün ilk və son sünnətləri, şam namazının sünnəti, işa namazının son iki rükət sünnəti belədir. Bu sünnətləri, əsla üzrsüz tərk etmək olmaz. Bəyənməyən kafir olar.

**Sünnəti Qeyri-Müəkkədə:** Peyğəmbər əfəndimizin ibadət məqsədi ilə arada-bir etdikləridir. Əsr və işa namazlarının dörd rükətlik ilk sünnətləri belədir. Bunlar dəfələrlə tərk olunarsa, bir şey olmaz. Üzrsüz olaraq tamamilə tərk olunarsa, məzəmmətə və şəfaətdən məhrum olmağa səbəb olar. Beş-on nəfərdən biri yerinə yetirsə, digər müsəlmanlardan sakit olan sünnətlərə də "Sünnəti-aləl-kifayə" deyilir. Salam vermək, etiqafa girmək (xəlvətə çəkilmək) kimi. Dəstəmaz almağa, yeməyə, içməyə və hər mübarək işə başlayarkən bəsmələ çəkmək sünnətdir.

**4. MÜSTƏHƏB**: Buna məndub, ədəb də deyilir. Sünnəti-qeyri müəkkədə hökmündədir. Peyğəmbər əfəndimizin ömründə bir-iki dəfə belə olsa, etdikləri və sevdikləri, bəyəndikləri xüsuslardır. Yeni doğulan uşağa yeddinci gün ad qoymaq, oğlan və qız uşağı üçün əqiq heyvanı kəsmək, gözəl geyinmək, gözəl ətir vurmaq müstəhəbdır. Bunları edənə çox savab verilir. Etməyənə əzab olmaz. Şəfaətdən məhrum qalmaq da olmaz.

**5. MUBAH:** Edilməsi əmr olunmayan və qadağan da edilməyən şeylərə mubah deyilir. Yəni günah və ya ibadət olduğu bildirilməmiş olan işlərdir. Yaxşı niyyətlə işlənməsində savab, pis niyyətlə işlənməsində əzab vardır. Yatmaq, haläldan müxtəlif yeməklər yemək, halal olmaq şərtiylə müxtəlif paltar geyinmək kimi işlər mubahdır. Bunlar İslamiyyətə uymaq, əmrlərə sarılmaq niyyəti ilə edilərsə, savab olar. Səhhətli olub ibadət etməyə niyyət edərək yemək-içmək belədir.

**6. HARAM**: Allahü təalanın, Qurani-Kərimdə "etməyin" deyə açıqça qadağan etdiyi şeylərdir. Haramların edilməsi və istifadə edilməsi qəti qadağan edilmişdir. Harama halal deyənin və halala haram deyənin imanı gedər, kafir olar. Haram olan şeyləri tərk etmək, onlardan çəkinmək fərzdir və çox savabdır.

Haramın iki növü var:

**Haram li-aynihi:** Adam öldürmək, zina, livata (homoseksuallıq, uşaqbazlıq) etmək, qumar oynamaq, şərab və hər cür alkoqollu içkiləri içmək, yalan söyləmək, oğurluq etmək, donuz əti, qan və leş yemək, qadınların, qızların başı, qolları, ayaqları açıq küçəyə çıxmaları haram olub, böyük günahdır. Bir kimsə bu günahları işləyərkən Bəsmələ söyləsə və ya halal olduğuna etiqad etsə, yaxud Allahü təalanın haram etməsinə əhəmiyyət verməsə, kafir olar. Bunların haram olduğuna inanıb qorxaraq etsə, kafir olmaz. Lakin Cəhənnəm əzabına layiq olar. Əgər təkid edib tövbəsiz ölərsə, imansız getməyə səbəb olar.

**Haram li-qayrıhi:** Bunlar əsilləri halal olub, başqasının haqlarından dolayı haram olan şeylərdir. Məsələn, bir nəfərin bağına girib, sahibinin icazəsi olmadan meyvəsini qoparıb yemək, ev əşyasını və pulunu oğurlayıb istifadə etmək, əmanətə xəyanət etmək, rüşvət, faiz və qumar ilə mal, pul qazanmaq kimi. Bunları edən kəs Bəsmələ söyləyərsə və yaxud halaldır desə, kafir olmaz. Çünki o

kişinin haqqıdır, geri ala bilər. Beş yarım arpa (bir dank) ağırlığında gümüş qiyməti qədər haqq üçün qiyamət günündə camaat ilə qılınmış yeddi yüz rükət qəbul olunmuş namazın savabı, Allahü təala tərəfindən alınıb, haqq sahibinə verilər. Haramlardan çəkinmək, ibadət etməkdən daha çox savabdır. Onun üçün haramları öyrənib, çəkinmək lazımdır.

**7. MƏKRUH**: Allahü təalanın və Muhamməd-əleyhissəlamın bəyənmədiyi və ibadətlərin savabını götürən şeylərə məkruh deyilir.

Məkruh iki növdür:

**Tahrimən məkruh:** Vacibin tərkidir. Harama yaxın olan məkruhlardır. Bunları etmək əzaba səbəb olar. Günəş doğarkən, tam təpədə ikən və batarkən namaz qılmaq kimi. Bunları qəsdlə işləyən üsyankar və günahkar olar. Cəhənnəm əzabına layiq olar. Namazda vacibləri tərk edənin, tahrimi məkruhları işləyənin, o namazı yenidən qılması vacibdir. Əgər səhvən, unudaraq işləyərsə, namaz içində səcdəi-səhv edər.

**Tənzihən məkruh:** Mubah, yəni halal olan işlərinə yaxın olan, yaxud edilməməsi edilməsindən daha yaxşı olan işlərdir. Qeyri-müəkkəd sünnətləri və ya müstəhabları tərk etmək tənzihən məkruhdur.

**8. MÜFSİD**: Dinimizə uyğun olan bir işi və ya başlanmış olan bir ibadəti pozan şeylərdir. İmanı və namazı, nikahı və həcci, zəkatı, alış və satışı pozmaq kimi. Məsələn: Allaha və kitaba söymək küfr olub, imanı pozar. Namazda gülmək, dəstəmazı və namazı pozar. Oruclu ikən bilərək yemək, içmək orucu pozar.

Fərzləri, vacibləri və sünnətləri yerinə yetirənə və haramdan, məkruhdan çəkinənə əcr, yəni savab verilər. Haramları, məkruhları işləyən və fərzlərə, vaciblərə əməl etməyənə günah yazılar. Bir haramdan çəkinmənin savabı, bir fərzi yerinə yetirmənin savabından qat-qat çoxdur. Bir fərzin savabı, bir məkruhdan çəkinmənin savabından çoxdur. Məkruhdan çəkinmənin savabı da, sünnətin savabından çoxdur. Mubahlar içində, Allahü təalanın sevdiklərinə "**Xeyrat** və **Hasənat**" deyilir. Bunları edənə də savab verilərsə də, bu savab sünnət savabından azdır.

## İSLAMIN ŞƏRTLƏRİ

İslam dinınə girmiş olanlara, yəni müsəlmanlara fərz olan, mütləq yerinə yetirilməsi əmr olunan beş əsas vəzifə vardır:

1. İslamın şərtlərindən birincisi "**Kəlmeyi-şəhadət**" gətirməkdir. Kəlmeyi-şəhadət gətirmək, "**Əşhədü ən ləə iləhə illəllah və əşhədü ənnə Muhammədən abdühu və rəsulüh"** deməkdir. Yəni həddi-buluğa çatan və danışa bilən hər kəsin bunları dil ilə söyləməsi və qəlb ilə qəti olaraq təsdiq etməsi lazımdır: "**Yerdə və göydə, Allahüdan başqa, ibadət edilməyə haqqı olan və tapınmağa layiq olan heç bir şey və heç bir kimsə yoxdur. Həqiqi məbud ancaq, Allahü taaladır.** O, vacib-ül-vücuddur. Hər üstünlük Ondadır. Onda heç bir qüsur yoxdur. Onun adı "Allahdır" Və yenə, o gül rəngli, ağ qırmızı, parlaq, sevimli üzlü, qara qaşlı və qara gözlü, mübarək alnı açıq, gözəl xasiyyətli, kölgəsi yerə düşməz və şirin sözlü, Ərəbistanda, Məkkədə doguldduğu üçün Ərəb deyilən, Haşimi övladından "**Abdullahın oğlu Muhamməd əleyhissəlam, Allahü təalanın qulu və rəsuludur, yəni Peyğəmbəridir,** Vəhəbin qızı olan Həzrəti Əminənin oğludur".

2. İslamın beş şərtindən ikincisi, şərtlərinə və fərzlərinə uyğun olaraq hər gün beş dəfə "**Vaxtı gəlincə namaz qılmaqdır".** Hər müsəlmanın hər gün vaxtı gəlincə beş dəfə namaz qılması və hər birini vaxtında qıldığını bilməsi fərzdir. Namazları fərzlərinə, vaciblərinə, sünnətlərinə diqqət edərək və könlünü Allahü təalaya verərək vaxtları keçmədən qılmalıdır. Qurani-Kərimdə Namaza "**Salat**" buyurulur. Salat- lüğətdə insanın dua etməsi, mələklərin istiğfar etməsi (bağışlama diləməsi), Allahü təalanın mərhəmət etməsi, yazığı gəlməsi deməkdir. İslamiyyətdə "Salat" demək, elmi-hal kitablarında bildirildiyi şəkildə, müəyyən hərəkətləri etmək və müəyyən şeyləri oxumaq deməkdir. Namaz qılmağa "**İftitah təkbiri**" ilə başlanır. Yəni kişilərin əllərini qulaqlarına qaldırıb göbək altına endirərkən "**Allahü-əkbər**" demələri ilə başlanır. Son oturuşda başı sağ və sol çiyinlərə çevirib, salam verilərək bitirilir.

3. İslamın beş şərtindən üçüncüsü, "**Malının zəkatını verməkdir".** Zəkatın lüğəti mənası, təmizlik, təriflənmək və yaxşı, gözəl hala gəlmək deməkdir. İslamiyyətdə zəkat demək, ehtiyacından artıq və "**Nisab**" deyilən müəyyən bir hədd miqdarında "**Zəkat malı"** olan kimsənin, malının müəyyən miqdarını ayırıb, Qurani-Kərimdə bildirilən müsəlmanlara başa qaxmadan verməsi deməkdir. Zəkat yeddi sinif insana verilir. Dörd məzhəbdə də dörd cür zəkat malı vardır: Qızıl və gümüş zəkatı, ticarət malı zəkatı, ilin yarıdan artığında otlaqda otlayan dördayaqlı qəssab heyvanlarının zəkatı və torpaq məhsullarının zəkatıdır.Bu dördüncü zəkata "**Uşr**" deyilir. Yerdən məhsul alınar-alınmaz uşr verilir. Digər üç zəkat nisab miqdarı olduqdan bir il sonra verilir.

4. İslamın beş şərtindən dördüncüsü, "**Ramazanı-şərif ayında, hər gün oruc tutmaqdır".** Oruc tutmağa **"Savm"** deyilir**.** Savm, lüğətdə bir şeyi bir şeydən qorumaq deməkdir. İslamiyyətdə şərtlərinə diqqət edərək, Ramazan ayında,

Allahü təala əmr etdiyi üçün hər gün üç şeydən özünü qorumaq deməkdir. Bu üç şey yemək, içmək və cimadır (**cinsi münasibət**). Ramazan ayı göydə hilalı (yeni ayı) görməklə başlayar. Təqvimlə, əvvəlcədən hesablamaqla başlamaq olmaz.

5. İslamın beş şərtindən beşincisi, "**Gücü çatanın ömründə bir dəfə həccə getməsidir".** Yol əmin və bədən sağlam olaraq, Məkkəi-mükərrəmə şəhərinə gedib gələnə qədər, ailəsininin dolanışığına yetəcək qədər maldan artıq qalan pul ilə oraya gedib gələ biləcək kimsənin ömründə bir dəfə, ehramlı olaraq, Kəbəi muazzamanı tavaf etməsi və Arafat meydanında durması fərzdir.

Yuxarıda bildirilən islamın beş şərtindən ən üstünü "**Kəlmeyi-şəhadət"** söyləmək və mənasına inanmaqdır. Bundan sonra üstünü namaz qılmaqdır. Daha sonra oruc tutmaq, həccə getməkdir. Ən sonunda zəkat verməkdir. Kəlmeyi-şəhadətin ən üstün olduğu söz birliyi ilə müəyyən edilmişdir. Geri qalan dördünün üstünlük sırasında, alimlərin çoxunun sözü, yuxarıda bildirdiyimiz kimidir. Kəlmeyi-şəhadət, müsəlmanlığın başlanğıcında və ilk olaraq fərz oldu. Beş vaxt namaz, bisətin on ikinci ilində və hicrətdən bir il və bir neçə ay öncə mirac gecəsində fərz oldu. Ramazanı-şərif orucu hicrətin ikinci ilində, Şaban ayında fərz oldu. Zəkat vermək, orucun fərz olduğu il, Ramazan ayı içində fərz oldu. Həcc isə hicrətin doqquzuncu ilində fərz oldu.

# ÜÇÜNCÜ BÖLMƏ

## NAMAZ QILMAQ

Dinimizdə imandan sonra ən qiymətli ibadət namazdır. Namaz dinin dirəyidir. Namaz ibadətlərin ən üstünüdür. İslamın ikinci şərtidir. Ərəb dilində namaza "Salat" deyilir. Salat, əslində dua, rəhmət və bağışlama deməkdir. Namazda bu üç mənanın hamısı olduğu üçün salat deyilmişdir.

Allahü təalanın ən çox bəyəndiyi və təkrar-təkrar əmr etdiyi şey beş vaxt namazdır. Allahü təalanın müsəlmanlara iman etdikdən sonra ən önəmli əmri namaz qılmaqdır. Dinimizdə ilk əmr edilən fərz də namazdır. Qiyamətdə də imandan sonra ilk sual namazdan olacaqdır. Beş vaxt namazın hesabını verən bütün dərd və imtahanlardan qurtulub, sonsuz qurtuluşa qovuşar. Cəhənnəm atəşindən qurtulmaq və Cənnətə qovuşmaq namazı doğru qılmağa bağlıdır. Doğru namaz üçün əvvəlcə qüsursuz bir dəstəmaz almalı, tənbəllik etmədən namaza başlamalıdır. Namazdakı hər hərəkəti ən yaxşı şəkildə yerinə yetirməyə çalışmalıdır.

İbadətlərin hamısını özündə toplayan və insanı Allahü təalaya ən çox yaxınlaşdıran xeyirli əməl namazdır. Sevgili Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" buyurdu ki: "**Namaz dinin dirəyidir. Namaz qılan dinini qüvvətləndirər. Namaz qılmayan, əlbəttə, dinini yıxar".** Namazı doğru qılmaqla şərəflənən bir kimsə çirkin, pis şeylər etməkdən qorunmuş olar. Ankəbut surəsinin qırx beşinci ayətində "**Doğru qılınan namaz, insanı pis, çirkin və qadağan işləri işləməkdən qoruyar"** buyuruldu**.** İnsanı pisliklərdən uzaqlaşdırmayan bir namaz doğru namaz deyildir. Görünüşdə namazdır. Buna baxmayaraq doğrusunu edənə qədər, görünüşü də etməyi əldən qaçırmamalıdır. İslam alimləri, "Bir şeyin hamısı edilə bilməzsə, etdiyini də tərk etməmək lazımdır" buyurdu. Sonsuz ehsan sahibi olan Rəbbimiz görünüşü həqiqət olaraq qəbul edə bilər. Belə qüsurlu namaz qılacağına, heç qılma deməməlidir. Belə səhv qılacağına doğru qıl deməli, yanlış olanları düzəltməlidir. Bu incəliyi yaxşı anlamalıdır.

Namazları camaat ilə qılmalıdır. Camaat ilə qılmaq tək qılmaqdan daha çox savabdır. Namazda hər üzvün təvazökarlıq göstərməsi və qəlbində, Allahü təaladan qorxu olması lazımdır. İnsanı dünyada və axirətdə fəlakətlərdən, dərtlərdən qurtaran ancaq namazdır. Allahü təala Möminun surəsinin başında, "**Möminlər hər halda qurtulacaqdır. Onlar namazlarını huşu ilə qılandır"** buyurdu.

Təhlükə, qorxu olan yerdə edilən ibadətin qiyməti qat-qat daha çox olar. Düşmən hücum etdiyi zaman əsgərin az bir iş görməsi çox qiymətli olar. Gənclərin ibadət etmələri də bunun üçün daha qiymətlidir. Çünki nəfslərinin pis istəklərini qırmaqda və ibadət etməmək istəyinə güc gəlməkdədirlər.

Gənclik çağında insana bağlı olan üç düşmən ona ibadət etdirmək istəməzlər. Bunlar şeytan, nəfs və pis yoldaşdır. Bütün pisliklərin başlıca səbəbi pis yoldaşdır. Gənc olan kimsə bunlardan gələn pis istəklərə uymayıb namazını qılarsa, ibadətlərini tərk etməzsə, çox qiymətli olar. Yaşlı kimsənin etdiyi ibadətdən qat-qat artıq savab qazanar. Az ibadətinə çox mükafat verilər.

### NAMAZ KİMLƏRƏ FƏRZDİR?

Namaz qılmaq ağıllı olan və həddi-buluğ çağına girən hər kişi və qadın müsəlmana fərzdir. Namazın fərz olması üçün üç şərt vardır:

1- Müsəlman olmaq. 2- Ağıllı olmaq. 3- Həddi-büluğ çağına girmək.

Dinimizdə ağıllı olmayan və yetkinlik çağına girməmiş olan kiçik uşaqlar, namaz qılmaqdan məsul deyillər. Lakin valideynləri uşaqlarına dini məlumatları öyrətməli və ibadət etməyə alışdırmalıdırlar. Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" buyurdu ki: **"Hamınız bir sürünün çobanı kimisiniz! Çoban sürüsünü qoruduğu kimi, siz də evlərinizdə və əmrləriniz altında olanları Cəhənnəmdən qorumalısınız! Onlara müsəlmanlığı öyrətməlisiniz. Öyrətməsəniz, məsul olacaqsınız."** Başqa bir Hədisi-şərifdə də, **"Bütün uşaqlar müsəlmanlığa uyğun və əlverişli olaraq dünyaya gəlir. Bunları sonra anaları, ataları xristian, yəhudi və dinsiz edər"** buyurdu**.** O halda, hər müsəlmanın birinci vəzifəsi uşaqlarına İslamiyyəti və Qurani-Kərim oxumağı, namaz qılmağı, imanın və islamın şərtlərini öyrətməkdir. Övladının müsəlman olmasını istəyən, dünyada və axirətdə rahata, dincliyə qovuşmasını arzu edən ana və atalar ilk əvvəl bu vəzifəsini yerinə yetirməlidir. Çünki atalarımız, **"Ağac yaş ikən əyilər"** demişlər. Yaşlanınca əyməyə, bükməyə çalışsan qırılar, zərərli olar.

İslami bilgilər və gözəl əxlaq verilməyən uşaq səhv yoldakı insanlara tez aldanar. Ana və atasına, dövlətinə, millətinə zərərli olar.

## NAMAZ QILANLARIN HALLARI

### RƏVAYƏT: HƏBSDƏN QURTARAN NAMAZ

Xorasan valisi Abdullah bin Tahir çox adil idi. Asayiş keşikçiləri bir neçə oğru tutmuş, valiyə bildirmişdilər. Oğrulardan biri qaçdı. Hiratlı bir dəmirçi Nişapura getmişdi. Bir müddət sonra evinə dönüb gecə gedərkən bunu tutdular. Oğrularla bərabər valinin yanına apardılar. "Həbs edin!" dedi. Dəmirçi həbsxanada dəstəmaz alıb namaz qıldı. Əllərini qaldırıb, "Ya Rəbb! Məni qurtar! Günahım olmadığını ancaq sən bilirsən. Məni bu zindandan, ancaq sən qurtararsan. Ya Rəbb! Məni qurtar!"- deyə dua etdi. Vali o gecə yuxudan dörd qüvvətli kimsənin gəlib taxtını tərsinə çevirəcəkləri vaxt oyandı. Dərhal dəstəmaz alıb iki rükət namaz qıldı. Təkrar yatdı. Yenə o dörd nəfərin taxtını yıxmaq üzrə olduğunu gördü və oyandı. Üzərində bir məzlumun ahı olduğunu anladı. Necə ki, şeir!

*Minlərlə top və tüfəng, edə bilməz əsla,*
*Göz yaşının səhər vaxtı etdiyini.*
*Düşmən qaçırdan süngüləri, çox dəfə,*
*Toz kimi edər, bir möminin duası.*

"Ya Rəbb! Böyük yalnız sənsən! Sən elə bir böyüksən ki, böyüklər və kiçilər dara düşüncə ancaq sənə yalvarar. Sənə yalvaran muradına qovuşar. Dərhal o gecə həbsxana müdirini çağırıb "bir məzlum qalıbmı?", soruşdu. Müdir, "bilmirəm, yalnız, bir nəfər namaz qılıb, çox dua edir. Göz yaşları tökür"- deyincə, onu gətirtdi. Halını soruşub başa düşdü. Üzr istəyib, "haqqını halal et və min gümüş hədiyyəmi qəbul et və hər hansı bir arzun olsa, mənə gəl!"- deyə xahiş etdi. Dəmirçi, "haqqımı halal etdim və hədiyyəni qəbul etdim. Lakin işimi, diləyimi səndən istəməyə gələ bilmərəm",- dedi. "Nə üçün"- deyə soruşdu, Çünki mənim kimi bir kasıb üçün sənin kimi bir sultanın taxtını bir neçə dəfə tərsinə çevirən sahibimi buraxıb, diləklərimi başqasına söyləməyim qulluğa yaraşarmı? Namazlardan sonra etdiyim dualarla, məni necə dərtlərdən qurtardı, necə muradıma qovuşdurdu. Necə olar, başqasına sığınım? Rəbbim nəhayəti olmayan rəhmət xəzinəsinin qapısını açmış, sonsuz ehsan süfrəsini hər kəsə yaymış ikən, başqasına necə gedərəm? Kim istədi vermədi? İstəməyi bilməzsən, ala bilməzsən. Hüzuruna ədəblə çıxmasan, rəhmətinə qovuşmazsan". Şeir:

*İbadət eşiyinə, kim ki, bir gecə baş qoydu.*
*Dostun lütfü açar ona, əlbəttə, min bir qapı.*

Övliyanın böyüklərindən Rabiəi-Adviyyə "rahmətullahi aləyhə", bir nəfərin dua edərkən: "Ya Rəbb, mənə rəhmət qapısını aç!" dediyini eşidincə: "Ey cahil! Allahü təalanın rəhmət qapısı indiyə qədər bağlı idi ki, indi açılmasını istəyirsən?"- dedi. (Rəhmətin çıxış qapısı hər zaman açıqsa da, giriş qapısı olan qəlblər hər kəsdə açıq deyildir. Bunun açılması üçün dua etməliyik!) İlahi! Hər kəsi dərdlərdən qurtaran yalnız sənsən. Bizi dünyada və axirətdə çətin vəziyyətdə qoyma! Möhtaclara hər şeyi göndərən yalnız sənsən! Dünyada və axirətdə xeyirli, faydalı olan şeyləri bizə göndər! Dünyada və axirətdə bizi kimsəyə möhtac etmə! Amin!

### RƏVAYƏT: EVİ YANMIŞDI

Övliyayı-kiramdan Hamidi-Tavil öz namazgahında namaz qılırdı. Evində yanğın baş verdi. İnsanlar toplaşıb yanğını söndürdülər. Xanımı qaçıb yanına gəldi və hirslənərək: "Evin yanır. İnsanlar toplanır. Görüləcək bu qədər iş var, sən isə yerindən tərpənmirsən"- dedi. "Allahü təalaya and içərəm ki, olanların heç birindən xəbərim yoxdur,"- dedi.

Allahın dostları, Ona məhəbbət və yaxınlaşmaqda elə bir dərəcəyə çatmış və dostun tərifinin ləzzətinə elə dalmışdılar ki, özlərini unutmuşdular.

## RƏVAYƏT: QAZANDAKI SU

Əshabi-kiramdan Abdüllah bin Şəhir "radıyallahü anh" deyir: "Rəsulullahın "sallallahü aləyhi və səlləm" yanında namaz qılırdım. Mübarək sinəsindən atəş üzərində qazanda qaynayan su səsi kimi səslər eşidirdim.

## RƏVAYƏT: AYAĞINDAKI OX

Rəsulullahın sevgili kürəkəni həzrəti Əli "radıyallahü anh və kərrəmallahü vəchəh" namaza duranda dünya dağılsa xəbəri olmazdı.

Belə rəvayət edilir: Bir hərbdə həzrəti Əlinın "radıyallahü anh" mübarək ayağına bir ox dəyib sümüyə qədər batmışdı. Oxu dartıb çıxarda bilmədilər. Həkimə göstərdilər. Həkim: "Sənə yatızdıran, huşu aparan dərman vermək lazımdır. Ancaq o cür oxu ayağından çıxartmaq olar. Yoxsa, bunun ağrısına dözmək olmaz"- dedi. Əmir-əl-möminin həzrəti Əli "radıyallahü anh": "Huşu aparan dərmana nə gərək var? Bir az səbir edin, namaz vaxtı gəlsin, namaza duranda çıxardın"- buyurdu. Namaz vaxtı gəldi. Həzrəti Əli namaza başladı. Həkim də həzrəti Əli əfəndimizin mübarək ayağını yarıb oxu çıxartdı. Yaranı sarıdı. Həzrəti Əli "radıyallahü anh", namazını bitirincə həkimə: "Oxu çıxartdınmı?"- soruşdu. Həkim: "Bəli çıxartdım"- dedi. Həzrəti Əli "radıyallahü anh": "Heç hiss etmədim"- buyurdu. Burda təəccüblü nə var?! Necə ki, Yusif əleyhissəlamın gözəlliyi qarşışında Misir qadınları heyran olub, özlərini elə unutmuşdular ki, əllərini kəsdiklərindən xəbərləri olmamışdı. Əgər Allahü təalanın hüzuru öz sevgililərini özlərindən xəbəri olmayacaq bir hala gətirərsə, buna nə üçün təəccüb edilsin? Möminlər də vəfat anında Rəsulullah əfəndimizi görüb, ölüm acısını duymayacaqlar.

## RƏVAYƏT: HUŞU APARAN DƏRMAN

Övliyadan olan Amiri Qaysın ayaq barmağında çürümə xəstəliyi başlandı. Bunu kəsmək lazımdır, dedilər. Amir: "Qərara təslim qulluğun şərtidir,"- dedi. Kəsdilər. Bir neçə gün sonra xəstəliyin ayağına keçmiş, buduna çatmış olduğunu gördülər. Bu ayağı kəsmək lazımdır, dinimiz buna icazə verir, dedilər. Cərrah gətirdilər. Cərrah: "Huşunu aparmaq üçün dərman lazımdır ki, ağrını hiss etməsin, yoxsa dözə bilməz"- dedi. Amir: "Bu qədər zəhmət çəkmək lazım deyil. Gözəl səslə Qurani-Kərim oxuyan bir nəfəri gətirin, Qurani-Kərim oxusun. Üzümdə dəyişmə gördüyünüz zaman ayağımı kəsin, xəbərim olmaz",- dedi. Dediyi kimi etdilər. Biri gəlib gözəl səslə Qurani-Kərimi oxumağa başladı. Amirin üzünün rəngi dəyişdi. Cərrah budunun yarısından ayağını kəsdi. Dağlayıb bağladı. Qurani-Kərim oxuyan susdu. Amir özünə gəldi və "kəsdinmi?,"- dedi. "Kəsdik,"-dedilər. Ayağını kəsmişdilər, dağlamışdılar, sarımışdılar, lakin onun xəbəri olmamışdı. Sonra "kəsik ayağımı mənə verin",- dedi. Verdilər. Qaldırdı və: "Ya Rəbb, verən sənsən. Mən də sənin qulunam. Hökm sənin hökmün, qəza sənin qəzandır. Bu bir ayaqdır ki, əgər qiyamətdə əmr gəlib, nə zamansa, bir günaha bir addım

atmadınmı soruşsan, deyə bilərəm ki, heç bir zaman sənin əmrin olmadan bir addım atmamışam, bir nəfəs almamışam.”

### RƏVAYƏT: NAMAZ ÜÇÜN FƏDAKARLIQ

Bursa osmanlılara keçmədən əvvəl, şəhərdə qalan yunanlardan biri gizlicə müsəlman olmuşdu. Çox yaxın bir dostu bunun səbəbini yunandan soruşdu:

“Ata və babalarının dinini necə oldu ki, tərk etdin?”- deyə ona giley etdi. Yunanın cavabı ibrətli olmuşdu. Yoldaşına bunu belə anlatdı:

Bir ara əsir edilən müsəlmanlardan biri mənim yanıma buraxıldı. Bir gün gördüm ki, bu əsir həbs edildiyi otaqda əyilib-qalxır. Yanına gedərək nə etdiyini soruşdum. Hərəkətləri bitincə əllərini üzünə sürtdü və mənə namaz qıldığını, əgər icazə verərsəm, hər namaz üçün bir qızıl verəcəyini ifadə etdi. Mən də tamaha qapıldım. Gün keçdikcə maaşı artırdım. Elə oldu ki, hər vaxt üçün on qızıl istədim. O da qəbul etdi. İbadəti üçün etdiyi fədakarlığa təəccüb etdim. Bir gün ona “səni sərbəst buraxacağam”- deyincə, çox sevindi və əllərini qaldırıb; mənim üçün belə dua etdi: “Ey Allahım! Bu qulunu iman ilə şərəfləndir!” O anda qəlbimdə müsəlman olmaq arzusu meydana gəldi və o qədər çoxaldı ki, dərhal “**Kəlmeyi-şəhadət”** gətirərək müsəlman oldum.

# DÖRDÜNCÜ BÖLMƏ

## NAMAZIN NÖVLƏRİ

Müsəlmanlara qılması üçün əmr edilən namazlar fərz, vacib və nafilə olmaqla üç yerə ayrılır. Bunlar aşağıdakılardır:

1- **Fərz namazlar:** Beş vaxt namazın fərzləri, Cümə namazının iki rükət fərzi və cənazə namazı fərz namazlarıdır. (cənazə namazı fərzi-kifayədir).

2- **Vacib namazlar:** Vitr namazı, bayram namazları, nəzir olan namaz və başlanıb yarıda qalan nafilə namazlardır. Qəzaya qalan vitr namazını da qəza etmək vacibdir.

3- **Nafilə namazlar**: Beş vaxt namazın sünnətləri, təravih namazı və savab qazanmaq niyyəti ilə qılınan təhəccüd, təhiyyətül-məscid, işrak, duha, əvvabin, istixarə, təsbeh namazları kimi namazlar nafilə namazlardır. Yəni qılınması əmr deyildir. Fərz və vacib olan namazlardan borcu olmayan bir kimsənin nafilə ibadətlərinə də savab verilir.

## BEŞ VAXT NAMAZ

Namaz Allahü təalanın əmridir. Allahü təala, Qurani-Kərimdə yüzdən çox yerdə "**Namaz qılın**!" buyurur. Ağıllı olan və həddi-büluğ çağına girən hər müsəlmanın hər gün beş dəfə namaz qılması, Qurani-Kərimdə və Hədisi-şəriflərdə əmr edilmişdir. Rum surəsi on yeddinci və on səkkizinci ayəti-kərimələrində: "**Axşam və sabah vaxtlarında Allahı təsbeh edin. Göylərdə və yer üzündə olanların etdikləri və əsr və günorta vaxtlarında edilən həmdlər Allahü təala üçündür"** buyuruldu. Bəqara surəsi iki yüz otuz doqquzuncu ayətində, "**Namazları və əsr namazını qoruyun!** (Yəni namazları davamlı qılın!)" buyuruldu. Ayəti-kərimədə keçən təsbeh və həmdin, namaz demək olduğu təfsir kitablarında bildirilmişdir. Hud surəsi yüz on dördüncü ayətində, **"Gündüzün iki tərəfində [zöhr və əsr vaxtlarında] və gecəyə yaxın üç vaxtda [şam, işa və sübh vaxtlarında] şərtlərinə uyğun namaz qıl! Doğrusu bu hasənat,** [beş vaxt namazın savabı, kiçik] **günahları məhv edər. Bu, ibrətlə düşünənlərə bir nəsihətdir"** buyurulur.

Peyğəmbərimiz Muhamməd-əleyhissəlam buyurdu ki: **"Allahü təala qullarına hər gün beş dəfə namaz qılmağı fərz etdi. Gözəl dəstəmaz alıb, bu beş namazı vaxtında qılan, rükü və səcdələrini yaxşı edənləri, Allahü təala əfv və məğfirət edər".**

Beş vaxt namaz qırx rükət edər. Bunlardan on yeddi rükəti fərzdir. Üç rükəti vacibdir. İyirmi rükəti də sünnətdir. Belə ki;

1- **Sübh namazı**: Dörd rükətdir. Öncə, iki rükət sünnəti, sonra iki rükət də fərzi qılınır. Bu sünnət, çox qüvvətlidir. Vacib deyənlər də vardır.

2- **Zöhr namazı**: On rükətdir. Öncə, dörd rükət ilk sünnəti, sonra dörd rükət fərzi, fərzdən sonra da iki rükət son sünnəti qılınır.

3- **Əsr namazı**: Səkkiz rükətdir. Öncə, dörd rükət sünnəti, sonra dörd rükət fərzi qılınır.

4- **Şam namazı**: Beş rükətdir. Öncə üç rükət fərzi, sonra iki rükət sünnəti qılınır.

5- **İşa namazı**: On üç rükətdir. Öncə, dörd rükət sünnəti, sonra dörd rükət fərzi, sonra iki rükət son sünnəti, bundan sonra da üç rükət "**Vitr namazı**" qılınır.

Əsr və İşanın ilk sünnətləri "Qeyri-müəkkədə"dir. Bunların ikinci rükətlərində oturarkən, "**Əttəhiyyatü**"dən sonra **"Allahümmə salli"** və sonra **"Allahümmə barik"** duaları sonuna qədər oxunur. Ayağa qalxınca üçüncü rükətdə, öncə Bəsmələ çəkmədən, **"Sübhanəkə"** oxunur. Halbuki Zöhr namazının ilk sünnəti **"Müəkkəd"**dir. Yəni, qüvvətlə əmr olunmuşdur. Savabı daha çoxdur. Birinci oturuşda, fərzlərdə olduğu kimi, yalnız **"Əttəhiyyatu"** oxunub, sonra üçüncü rükət üçün dərhal ayağa qalxılır. Qalxdıqdan sonra əvvəlcə Bəsmələ çəkib, "**Fatihə**" oxunur.

Zöhrün və İşanın fərzindən sonra dörd rükət və Şamın fərzindən sonra altı rükət daha qılmaq müstəhəbdir, çox savabdır. Hamısını bir salam ilə və ya iki rükətdə bir salam ilə qılına bilər. Hər iki şəkildə də, ilk iki rükətləri, son sünnətlər yerinə sayılır. Bu müstəhəb namazları, son sünnətlərdən sonra ayrıca qılmaq da olar.

Birinci rükət namaza durunca, digər rükətlər ayağa qalxınca başlayar və təkrar ayağa qalxana qədər davam edər. Son rükət isə salam verənə qədər davam edər. Cüt rükətlərdə ikinci səcdədən sonra oturulur.

Hər bir rükətdə namazın fərzləri, vacibləri, sünnətləri, müfsidləri və məkruhları vardır. Sonrakı səhifələrdə bunları "**HƏNƏFİ"** məzhəbinə görə bildirəcəyik.

## NAMAZIN FƏRZLƏRİ

Fərz Allahü təalanın yerinə yetirilməsini istədiyi qəti əmridir. Bir ibadətin fərzləri yerinə yetirilmədikçə, o ibadət səhih, doğru olmaz. Namaz qılarkən 12 şərti yerinə yetirmək fərzdir. Bu fərzlərin yeddisi namazın xaricində, beşi də içindədir. Xaricindəki fərzlərə "**Şərtlər**" deyilir. İçindəkilərə də "**Rüknlər**" deyilir. (Bəzi alimlər tahrimə təkbirinin, namazın içində olduğunu söyləmişlər. Bunlara görə namazın şərtləri də rüknləri də altı olmaqdadır.)

**A) Namazın Xaricindəki Fərzlər (Şərtləri):**

**1. Hadəsdən təharət:** Dəstəmazsız olanın dəstəmaz alması, cünüb (qüslü olmayanın) olanın da qüsl etməsidir.

**2. Nəcasətdən təharət:** Namaz qılanın bədənini, paltarını və namaz qılacağı yeri nəcasətdən, yəni dinimizdə nəcs (pis) sayılan şeylərdən təmizləməkdir. (Məsələn: qan, sidik, spirt kimi maddələr, dinimizdə pis sayılır).

**3. Sətri-övrət:** Övrət yerini örtmək deməkdir. Övrət yerini örtmək, Allahü təalanın əmridir. Mükəlləf olan, yəni ağıllı və həddi-büluğa çatan insanın, namaz qılarkən açması və ya hər zaman başqasına göstərməsi və başqasının da baxması haram olan yerlərinə **"Övrət yeri"** deyilir. Kişinin övrət yeri göbəyindən dizi altına qədərdir. Qadınların isə, üz və əllərindən başqa hər yeri övrətdir.

**4. İstiqbali-qiblə:** Namaz qılarkən qibləyə dönməkdir**.** Müsəlmanların qibləsi, Məkkəi mükərrəmə şəhərində olan **"Kəbə"**nin sahəsidir. Yəni yerdən ərşə qədər o boşluq qiblədir**.**

**5. Vaxt:** Namazı vaxtında qılmaqdır. Yəni namazın vaxtının girdiyini bilmək və qıldığı namazın vaxtını qəlbindən keçirməkdir.

**6. Niyyət:** Namaza durarkən qəlb ilə niyyət etməkdir. Yalnız ağız ilə söyləməyə niyyət deyilməz. Namaza niyyət etmək demək, adını, vaxtını, qibləni, camaat ilə qılınırsa imama uymağı qəlbdən keçirmək deməkdir. Niyyət başlama təkbiri söylənərkən edilir. Təkbirdən sonra edilən niyyət qəbul deyildir və o namaz qəbul olmaz.

**7. Tahrimə təkbiri:** Namaza durarkən "**Allahü-əkbər**" deməkdir. Bu başlama təkbirinə "**İftitah təkbiri**" də deyilir. Başqa kəlmə söyləməklə təkbir alınmış sayılmaz.

**B) Namazın İçindəki Fərzlər (**Rüknləri**):**

Namaza başlananda yerinə yetiriləcək beş fərz vardır. Bu beş fərzdən hər birinə "**Rükn**" deyilir. Namazın içindəki fərzlər bunlardır:

**1- Qıyam:** Namaza başlayarkən və qılarkən ayaq üstə durmaq deməkdir. Ayaq üstə dura bilməyən xəstə oturaraq qılar. Oturaraq qıla bilməyən uzanaraq ima (baş hərəkətləri ilə) ilə qılar. Stulda oturaraq namaz qılmaq caiz deyildir.

**2- Qiraət:** Ağızla oxumaq mənasına gəlir. Namazda Qurani-Kərimdən surə və ya ayət oxumaqdır.

**3- Rükü:** Qiraətdən sonra əlləri dizə qoyub əyilməkdir. Rüküdə ən az üç dəfə "**Sübhanə rabbiyəl-azım**" deyilir. Qalxarkən "**SəmiAllahü limən hamidəh**" deyilir. Qalxdıqda da **"Rabbəna ləkəl-həmd"** deyilir.

**4- Səcdə:** Rüküdən sonra yerə qapanmaq deməkdir. Səcdə ard-arda iki dəfə əlləri, alını və burunu yerə qoyub qapanmaqdır. Hər bir səcdədə ən az üç dəfə "**Sübhanə rabbiyəl-ala"** deyilir.

**5- Qadəi axirə**: Son rükətdə "**Əttəhıyyatu**"'nu oxuyacaq qədər oturmaqdır. Buna "**son oturuş**" da deyilir. Namazın böyük bir iş və ibadətlərin ən əhəmiyyətlisi olduğu, şərtlərinin bu qədər çox olmasından aydın olur. Ayrıca, vacibləri, sünnətləri, müstəhəbləri, məkruhları, müfsidləri də bunlara əlavə edilərsə, qulun Rəbbinin hüzurunda necə olacağı, necə olması lazım gəldiyi aydın olur. Qullar aciz, gücsüz, yazıq bir məxluqdurlar. Hər nəfəsdə onu yaradan Allahü təalaya möhtacdırlar. Namaz qula acizliyini bildirən bir ibadətdir. Məhz bu kitabımızda həmin məlumatlar ardıcıllıqla izah ediləcəkdir.

## NAMAZIN ŞƏRTLƏRİ

### 1- HADƏSDƏN TƏHARƏT:

Bu mövzumuzda dəstəmaz, qüsl və təyəmmümü bildirəcəyik.

### DƏSTƏMAZ ALMAQ:

Dəstəmaz almaq namazın fərzlərindəndir. Qurani-Kərimi tutmaq, Kəbəni təvaf etmək (dönmək), tilavət səcdəsi etmək, cənazə namazı qılmaq üçün də dəstəmaz almaq lazımdır. Hər zaman dəstəmazlı olmaq, yatağa dəstəmazlı girmək, dəstəmazlı yemək və içmək çox savabdır. Dəstəmazlı olaraq ölənlərə şəhid savabı verilir. Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" buyurdular ki:

**"Dəstəmazlı olaraq ölən ölüm ağrısı çəkməz. Çünki dəstəmaz imanlı olmağın əlamətidir. Namazın açarı, bədənin günahlardan təmizləyicisidir."**

**"Müsəlman dəstəmaz alınca günahları qulağından, gözündən, əlindən və ayağından çıxar. Oturunca məğfirət olunmuş olaraq oturar".**

**"Əməllərin ən xeyirlisi namazdır. Dəstəmaza davam edənlər ancaq möminlərdir. Mömin gündüz dəstəmazlı olmalı, gecə də dəstəmazlı yatmalıdır. Belə edincə, Allahü təalanın himayəsində olar. Dəstəmazlı olaraq yeyib-içənin qarnındakı yemək və su zikr edər. Qarnında qaldıqları müddətcə, onun üçün istiğfar edərlər".**

Dəstəmazın fərzləri, sünnətləri, ədəbləri və məmnu (qadağa) olan və pozan şeyləri vardır. Dəstəmazsız olduğunu bilərək zərurətsiz namaz qılan kafir olar. Namaz qılarkən dəstəmazı pozulan həmən çiyninə salam verib, namazından çıxar. Vaxt çıxmadan dəstəmaz alıb, namazını başdan təkrar qılar.

#### DƏSTƏMAZIN FƏRZLƏRİ

Dəstəmazın fərzi hənəfi məzhəbində 4-dür:

1- Üzü bir dəfə yumaq.

2- Iki qolu dirsəklər ilə birlikdə bir dəfə yumaq.

3- Başın dörddə bir hissəsini məsh etmək, yəni yaş əli başa sürtmək.

4- Iki ayağı, iki yandakı topuq sümükləri ilə birlikdə bir dəfə yumaqdır. Şafii məzhəbində niyyət və tərtib (ardıcıl) də fərzdir və üzü yuyarkən niyyət etmək lazımdır. Su üzə dəymədən öncə niyyət edərsə, dəstəmazı səhih olmaz. Üz və çənə üzərindəki saqqalı yumaq fərzdir. Maliki məzhəbində, dəlk [ovmaq] və muvalat [üzvləri bir-biri ardınca ara vermədən yumaq] fərzdir. Bəziləri kimi ayaqlarını yumayıb, çılpaq ayaq üzərinə məsh etmək düzgün deyildir.

## DƏSTƏMAZ NECƏ ALINIR?

1- Dəstəmaza başlayarkən bu dua oxunur: **Bismilləhil-azım. Vəl-hamdü lilləhi alə dinil-İslam. Və ala tevfik-ıl-iman. Əl-həmdü lillahil-ləzi cəaləlmaə tahurən və cəaləl-islamə nurən.** [1] Sonra əllər biləklərə qədər üç dəfə yuyulur.

2- Sağ əl ilə ağıza üç dəfə su verərkən bu dua oxunur:

"**Allahümməs-kıni min havdi nəbiyyikə kəsən lə əzməu badəhü əbədən**". [2]

3- Sağ əl ilə buruna üç dəfə su verib, sol əl ilə fınxırılır. Buruna su verərkən:

"**Allahümmə ərihni rayihatəl cənnəti vərzüqni min niamiha. Və lə türihni rayihatən-nar**". [3]

4- Ovuclara su alıb, alından çənə altına, gicgahlara qədər üzü yuyarkən bu dua oxunur:

"**Allahümmə bəyyid vəchi minurikə yəvmə təbyaddü vücuhü övliyaikə və lə tüsəvvid vəchi bi zünubi yəvmə təsvəddü vücuhü adəikə**". [4]

5- Sol əl ilə sağ qolu dirsəyə qədər üç dəfə yuyarkən:

**"Allahümmə atini kitabi biyəmini və hasibni hisabən yəsirən** [5] duası oxunur.

6- Sağ ilə sol qolu üç dəfə dirsək daxil yuyarkən:

"**Allahümmə lə tutini kitabi bi şiməli və lə min vərai zahri və lə tühasibni hisabən şədidən**". [6] duası oxunur.

7- Hər iki qolu yuduqdan sonra əlləri təkrar yuyar və o yaşlıqla başı məsh edərkən:

**"Allahümmə harrim şa-ri və bəşəri alən-Nar. Və əzilləni tahtə zilli arşikə yəvmə lə zillə illə zillü arşikə"** [7] duası oxunur.

8- Daha sonra sağ və sol əlin şəhadət barmaqları ilə iki qulağın dəliklərinə su verərkən baş barmaqlar ilə qulaqların arxası məsh edilir və:

---

[1] Böyük olan Allahü-Təalanın "adıyla" başlayaram. "Bizə" İslam dinini verən və imanı ehsan edən Allahü-Təalaya həmd və tariflər olsun. Suyu təmizləyici, islamı nur qılan Allaha həmd və təriflər olsun!

[2] Ey Allahım! Ondan içdikdən sonra bir daha heç susuzluğu duyulmayan havzı-Nəbidən mən quluna bir kasa (stəkan) içirt.

[3] Ey Allahım! Mənə Cənnət qoxusunu qoxlat və məni Cənnət nemətləri ilə ruziləndir. Cəhənnəm qoxuları ilə deyil.

[4] Ey Allahım! Nurunla Övliyaların üzünü ağartdığın, "ağ etdiyin" kimi, mənim üzümü də ağart. Düşmənlərinin üzünün qara olduğu gündə, mənim günahlarımdan dolayı üzümü qara etmə.

[5] Ey Allahım! Kitabımı sağ tərəfimdən ver və məni asan hesaba çək.

[6] Ey Allahım! Kitabımı sol tərəfimdən və arxamdan vermə. Məni çətin bir hesabla sorğuya çəkmə.

[7] Ey Allahım! Vücudumu və saçlarımı Cəhənnəmə atma. Kölgənin olmadığı gündə məni Arşın kölgəsində kölgələndir.

“**Allahümməcəlni minəlləzinə yəstəmiunəl-qavlə fə yəttəbiunə ahsənəhu**” [8] duası oxunur.

9- Əllərin çöl tərəfi ilə boyunu məsh edərkən:

**“Allahümmə atik raqabəti minən-Nar”** [9] duası oxunur.

10- Boynu məsh etdikdən sonra sol əlin kiçik barmağı ilə, sağ ayağın kiçik barmağından başlayaraq, ayaq barmaqlarının arasını sürtməklə, topuqlarla birlikdə, sağ ayağı üç dəfə yuyarkən:

“**Allahümmə səbbit kadəməyyə aləs-sirati yəvmə təzillü fihiləkdəmü**” [10] duası oxunur.

11- Sol ayağı üç dəfə yuyarkən, ayaq barmaqlarının arasını kiçik barmağı ilə bu dəfə baş barmaqdan başlayaraq, kiçik barmağa doğru, ayaq barmaqlarının arasını sürtməklə topuğu ilə birlikdə yuyarkən:

**“Allahümmə lə tatrud kadəməyyə aləs-sirati yəvmə tatrudü küllü akdami adaikə. Allahümməc-al sayi məskurən və zənbi mağfurən və əməli məqbulən və ticarəti lən təburə”** [11] oxunur.

Peyğəmbərimiz “sallallahü aləyhi və səlləm” buyurur:

**“Hər kim dəstəmaz aldıqdan sonra göy tərəfinə baxıb, bu duanı oxuyarsa, Sübhanə kellahümmə və bihəmdikə, Əşhədü ən ləə iləhə illə əntə vahdəkə lə şərikə ləkə əstəğfirukə və ətubü iləykə əşhədü ən lə iləhə illallahü və əşhədü ənnə Muhammədən abdükə və rəsulikə.** [12] **Allahü təala həzrətləri o kimsənin günahlarını əfv edər və qəbul imzasıyla təsdiq edib, Arşın altında mühafizə edər. Qiyamət günündə bu duanı oxuyan şəxs gəlib, o savabın əcrini alar.”**

Bir Hədisi-şərifdə: **“Hər kim dəstəmaz aldıqdan sonra “İnnə ənzəlnəhü” surəsini bir dəfə oxuyarsa, Allahü təala həzrətləri, o kimsəni sıddıqlardan yazar. İki dəfə oxuyarsa, şəhidlərdən yazar. Üç dəfə oxuyarsa Peyğəmbərlər ilə dirilər”** buyurdular.

Yenə bir Hədisi-şərifdə: **“Hər kim dəstəmaz aldıqdan sonra mənim üzərimə on dəfə salatü səlam gətirərsə, Allahü təala həzrətləri, o adamın hüznünü aradan qaldırıb şad edər, duasını qəbul edər”** buyurdular.

Dəstəmaz alarkən dəstəmaz dualarını bilməyənlər oxumasa da olar. Lakin qısa zamanda əzbərləməli və dəstəmaz alarkən oxunmalıdır. Çox savabdır. Dəstəmazın sonuna doğru və ya dəstəmazı bitirdikdən sonra: “**Allahümmə calni minət-təvvəbin, vəcalni min-əl-mütətahhirin, vəcalni, min ibadik-əs-saləhın, vəcalni minəlləzinə lə xavfün aləyhim və ləhüm yahzənun**” duasını oxumaq çox savabdır.

---

[8] Ey Allahım! Məni sözü dinləyib ən gözəl yerinə yetirənlərdən et!

[9] Ey Allahım! Boynumu atəşdən azad et!

[10] Ey Allahım! Ayaqların sürüşdüyü gündə sirat üzərində ayaqlarımı sabit et!

[11] Ey Allahım! Sənin düşmənlərinin siratda ayaqlarının sürüşdüyü gündə mənim ayaqlarımı sürüşdürmə! Ey Allahım! Məni çalışanlardan və şükr edənlərdən et! Günahımı əfv et. Əməlimi qəbul et. Ticarətimi halal et!

[12] Ey Allahım! Səni həmdinlə təsbeh və tənzih edərəm. Səndən başqa məbud olmadığına, bir olduğuna və şərikin, ortağın olmadığına və Muhamməd-əleyhissəlamın sənin qulun və Rəsulun olduğuna şəhadət edərəm.

Dəstəmaz dualarını bilməyən hər üzvü yuyarkən "**Kəlmeyi-şəhadət**" oxumalı, böyük savaba qovuşmalıdır.

*Aqil isən qıl namazı, çün səadət tacıdır.*
*Sən namazı elə bil ki, möminin miracıdır!*

## DƏSTƏMAZIN SÜNNƏTLƏRİ

### DƏSTƏMAZIN SÜNNƏTLƏRİ ON SƏKKİZDİR:

1. Dəstəmaza başlayarkən Bəsmələ oxumaq.
2. Əlləri biləkləri ilə bərabər üç dəfə yumaq.
3. Ağzı ayrı-ayrı su ilə üç dəfə yumaq. Buna **"Mazmaza"** deyilir.
4. Burnu ayrı-ayrı su ilə üç dəfə yumaq. Buna **"İstinşak"** deyilir.
5.Qaşların, saqqalın, bığların altındakı görünməyən dərini, üzü yuyarkən islatmaq.
6. Üzünü yuyarkən iki qaşın altını islatmaq.
7. Saqqalın uzun qismini məsh etmək.
8. Saqqalın uzun qisminin içinə, sağ əlin yaş barmaqlarını daraq kimi daramaq (hilallamaq).
9. Dişləri, bir şey ilə oymaq, təmizləmək. [Misvak istifadə etmək, mühüm sünnətdir.]
10. Başın hər tərəfini bir dəfə məsh etmək.
11. Iki qulağı bir dəfə məsh etmək.
12. Boyunu üç bitişik barmaqla bir dəfə məsh etmək.
13. Əl və ayaq barmaqlarının arasını tahlil etmək.
14. Yuyulacaq yerləri üç dəfə yumaq.
15. Üzü yuyacağı zaman qəlb ilə niyyət etmək.
16. Tərtib. Yəni sıra ilə yumaq.
17. Dəlk. Yuyulan yerləri ovmaq.
18. Müvalat. Hər üzvu bir-biri arxasından cəld-cəld yumaq.

## DƏSTƏMAZIN ƏDƏBLƏRİ

### DƏSTƏMAZIN ƏDƏBLƏRİ İYİRMİ SƏKKİZDİR:

Ədəb- edilməsi savab olub, edilməzsə günah olmayan şeylər deməkdir. Halbuki sünnəti yerinə gətirmək savab olub, tərk etmək tənzihən məkruhdur. Ədəblərə məndub və müstəhəb də deyilir. Dəstəmazın ədəbləri bunlardır:

1. Dəstəmazı namaz vaxtı girmədən öncə almaq. (Üzr sahiblərinin vaxt girdikdən sonra alması lazımdır).
2. Tualetdə təharətlənərkən qibləni sağ və ya sol tərəfə almaq. Dəstəmaz pozarkən qibləyə önünü və arxasını dönmək tahrimən məkruhdur.

3. Nəcasət bulaşmamış isə su ilə təharətlənmək.

4. Təharətləndikdən sonra parça ilə qurulanmaq.

5. Təharətləndikdən sonra övrət yerini dərhal örtmək.

6. Başqasından kömək istəməyib, dəstəmazı özünün alması.

7. Qibləyə qarşı dəstəmaz almaq.

8. Hər üzvu yuyarkən, kəlmeyi-şəhadət oxumaq.

9. Dəstəmaz dualarını oxumaq.

10. Ağzına sağ əl ilə su vermək.

11. Burnuna sağ əl ilə su vermək.

12. Burnu sol əl ilə təmizləmək.

13. Ağzı yuyarkən dişləri "**Misvak**" ilə təmizləmək. Misvak olmazsa, fırça da istifadə edə bilər.

14. Ağzı yuyarkən oruclu deyilsə, ağzı çalxalamaq. Boğazında yüngül qarqara etmək, dəstəmazda da, qüsldə də sünnətdir. Oruclu ikən məkruhdur.

15. Burnu yuyarkən suyu sümüyə yaxın yuxarı çəkmək.

16. Qulağı məsh edərkən bir barmağı qulaq dəliyinə soxmaq.

17. Ayaq barmaqlarını tahlil edərkən sol əlin kiçik barmağı ilə tahlil etmək.

18. Əlləri yuyarkən geniş olan üzüyü oynatmaq. Dar, sıx üzüyü oynatmaq isə lazımdır, fərzdir.

19. Su bol olsa da israf etməmək.

20. Suyu yağ sürtmək kimi az istifadə etməmək (üç dəfədə də, yuyulan yerdən, ən az iki damcı su dəyməlidir)

21. Bir qabdan dəstəmaz aldıqdan sonra o qabı dolu buraxmaq.

22. Dəstəmaz bitincə və ya ortasında "**Allahümməc-alni minəttəvvabin...**" duasını oxumaq.

23. Dəstəmazdən sonra "**Sübha**", yəni iki rükət namaz qılmaq.

24. Dəstəmazlı ikən dəstəmaz almaq, yəni namaz qıldıqdan sonra dəstəmazlı ikən, yəni namaz üçün bir daha dəstəmaz almaq.

25. Üzü yuyarkən göz qapağlarını silmək və təmizləmək.

26. Üzü, qolları, ayaqları yuyarkən yuyulması fərz olan yerlərdən bir az artığını yumaq. [Qolları yuyarkən ovuca su doldurmalı, bunu dirsəyə doğru axıtmalı.]

27. Dəstəmaz alarkən, istifadə edilən sudan, paltara, üstünə, başa sıçratmamaq.

28. Öz məzhəbində məkruh olmayan bir şey başqa məzhəbdə fərz isə, bunu etmək müstəhəbdir.

## DƏSTƏMAZ ALARKƏN EDİLMƏSİ QADAĞAN OLAN ŞEYLƏR

Dəstəmaz alarkən edilməsi qadağan olanlar on ikidir. Bunları etmək haram və ya məkruhdur. Bunlar aşağıdakılardır:

1. Tualetdə, çöldə dəstəmaz pozarkən qiblə öndə, arxada qalmamalıdır.

2. Təharətlənmək üçün biri yanında övrət yerini açmaq haramdır.

3. Sağ əl ilə təharətlənməməlidir.

4. Su olmadığı zaman qida maddəsi, gübrə, sümük, heyvan yemi, kömür və başqasının malı ilə, saxsı, kirəmit parçası, qamış, yarpaq, parça, kağız ilə təharətlənmək məkruhdur.

5. Dəstəmaz alınan hovuza tüpürməməli və fınxırmamalıdır.

6. Dəstəmaz əzasını həddindən artıq və ya əskik olaraq yumamalı və üçdən az və ya çox yumamalıdır.

7. Dəstəmaz əzasını təharətdə quruladığı parça ilə qurulamamalıdır.

8. Üzü yuyarkən suyu üzə çırpmamalı, alnı üstündən aşağı doğru tökməlidir.

9. Suyu üfürməməlidir.

10. Ağızı və gözləri möhkəm yummamalıdır. Dodağın görünən qismində və göz qapağında islanmayan az bir yer qalarsa, dəstəmaz qəbul olmaz.

11. Sağ əl ilə fınxırmamalıdır.

12. Başı, qulaqları və ya boynun arxasından birini, hər dəfə əli ayrı-ayrı isladaraq, birdən artıq məsh etməməlidir. Lakin hər dəfə islatmadan təkrarlana bilər.

**MİSVAK İSTİFADƏ ETMƏK:** Dəstəmaz alarkən misvak istifadə etmək sünnəti-müəkkədədir. Hədisi-şərifdə buyuruldu ki, “**Misvak istifadə edərək qılınan namaz, misvaksız qılınan namazdan yetmiş qat üstündür”.**

**“Sirac-ül-vəhhac”** kitabında misvak istifadə etməyin 15 faydası olduğu bildirilir:

1. Ölüm anında, şəhadət kəlməsini söyləməyə səbəb olar.
2. Diş ətlərini qüvvətləndirir.
3. Bəlğəmi aradan qaldırar.
4. Ağız safrasını kəsər.
5. Ağız ağrısını aradan qaldırar.
6. Ağız qoxusunu aparar.
7. Allahü təala ondan razı olar.
8. Beyin damarlarını qüvvətləndirər.
9. Şeytan qəmlənər.
10. Gözləri nurlanar.
11. Yaxşılığı və xeyratı çox olar.
12. Sünnət ilə əməl etmiş olar.
13. Ağzı pak (təmiz) olar.
14. Fəsih-ul-lisan olar, yəni gözəl danışar.
15. Misvaklı olaraq qılınan iki rükət namazın savabı, misvaksız olaraq qılınan yetmiş rükət namazın savabından daha çox olar.

Misvak, Ərəbistanda yetişən Ərak ağacının budağıdır. Düz tərəfindən iki santimetrə qədər qabığı soyulub bu hissəsi bir neçə saat suda saxlanılır. Sonra əzilincə, fırça kimi açılır. Ərak ağacı olmazsa, zeytun budağından düzəldilir. Qadınlar misvak yerinə, misvakdan istifadə sünnətinə niyyət edərək saqqız istifadə etməlidir.

## DƏSTƏMAZ ALARKƏN DİQQƏT EDİLMƏLİ XÜSUSLAR

Zərurət, məcburiyyət olmadıqca aşağıdakı on şeyə riayət etməlidir:

1. İki əli şikəst olan təharətlənəz. Qolları torpağa, üzünü divara sürtərək təyəmmüm edər. Üzündə də yara varsa, namazı dəstəmazsız qılar və namazlarını tərk etməz.
2. Xəstə olana zövcəsi, cariyəsi, uşaqları, qardaşları dəstəmaz aldırar.
3. Daş və bənzəri ilə təharətlənmək su yerinə keçər.
4. Dəli olan və ya huşunu itirən kimsə iyirmi dörd saatda ayılmazsa, özünə gəlincə namazlarını qəza etməz. İçki, tiryək, dərman ilə huşunu itirən, hər namazı qəza edər. Yatarkən başı ilə ima edə bilməyəcək qədər ağır xəstəliyi iyirmi dörd saatdan çox davam edən kimsədən ağlı başında olsa belə, namaz azad olar.
5. Tualetə girmək üçün xüsusi şalvar istifadə etmək və başı örtülü girmək müstəhabdır.
6. Tualetə girərkən əlində Allahü təalanın adı və Qurani-Kərim yazılı bir şey olmamalıdır. Bir şey ilə sarılmış və ya cibdə olmalıdır.
7. Tualetə sol ayaqla girib, sağ ayaqla çıxmalıdır.
8. Tualetdə övrət yerini çöməlincə açmalı, danışmamalıdır.
9. Övrət yerinə və nəcasətə baxmamalı, tualetə tüpürməməlidir.
10. Heç bir suya, məscid divarına, qəbiristana və yola dəstəmaz pozmamalıdır.

## DƏSTƏMAZI POZAN ŞEYLƏR

Yeddi şey dəstəmazı pozar ki, bunlar aşağıdakılardır:

1. Öndən və arxadan çıxan şeylər:

a) Böyük və kiçik dəstəmaz pozmaq, yel qaçırtmaq.

b) İhtiqan, yəni imalə alətinin ucu və insan barmağı, arxadan soxub çıxarılınca, ətrafı yaş olarsa pozar. Quru isə, yenə dəstəmazı təzələmək yaxşı olar.

c) Kişilərin və qadınların sidik qaçırmamaq üçün önlərinə qoyduqları pambıq fitilin çöldə qalan qismi islanınca pozulur.

2. Ağızdan çıxan nəcs şeylər:

a) Qusmaq ağız dolusu olarsa.

b) Tüpürdüyündə qan tüpürcəkdən çox olarsa.

c) Mədə və ciyərdən gələn maye qan, İmamı-azama görə az olsa belə, dəstəmazı pozar.

d) Qulağa tökülən yağ ağızdan çıxarsa, dəstəmaz pozulur.

3. Dəridən çıxanlar:

a) Qan, irin və sarı su yalnız olaraq çıxarsa.

b) Çiçək xəstəsindən və hər hansı bir çibandan çıxan qan, sarı su, qüsldə yuyulması lazım olan yerə yayılarsa, məsələn, burundan gələn qan sümükləri keçərsə, qulaqdan gələn qulaq dəliyindən çıxarsa.

c) Çiban və yaradakı qanı, sarı suyu, pambıqla əmərsə.

d) Misvak və dişqurdalayan üzərindəki qan ağıza bulanıbsa .

e) Qulaq, göbək və döşdən ağrı və ya xəstəlik ilə maye gələrsə.

f) Zəli çox qan əmərsə, dəstəmaz pozulur.

4. Yatmaq:

Arxası üstə yataraq və ya dirsəyinə, yaxud bir şeyə dayanıb yatarsa, dəstəmaz pozulur.

5. Huşunu itirmək, dəli olmaq, sara (epilepsiya) xəstəliyi və ya gəzərkən aşacaq qədər sərxoş olmaq dəstəmazı pozar.

6. Rükü və səcdələri olan namazda qəhqəhə ilə gülmək, namazı da, dəstəmazı da pozar. Lakin uşağınki pozulmaz. Namazda təbəssüm namazı da, dəstəmazı da pozmaz. Yanındakılar eşidərsə "**Qəhqəhə**" deyilir. Özü də eşitməzsə, "**Təbəssüm**" deyilir.

7. Mübaşərəti fahişə, yəni çılpaq olaraq çirkin yerlərini sürtünmək, kişinin də, qadının da dəstəmazını pozar.

Dəstəmaz aldığını bilib, sonra pozulduğunda şübhə edərsə, dəstəmazı var qəbul edilir. Dəstəmazı pozulduğunu bilib, sonra dəstəmaz aldığında şübhə edərsə, dəstəmaz alması lazım olar.

## DƏSTƏMAZI POZMAYAN ŞEYLƏR

Aşağıdakılar dəstəmazı pozmaz:

1. Ağızdan, qulaqdan və dəridəki yaradan çıxan qurdlar.
2. Bəlğəm qusmaq.
3. Qan qusunca başdan gələn maye qan tüpücəkdən az isə.
4. Dişdən axan qan tüpürcəkdən az isə.
5. Başdan gələn qatı qan çox olsa belə.
6. Mədədən, ciyərdən gələn qatı qan ağız dolusu deyil isə.
7. Qulağa tökülən yağ qulaqdan və ya burundan çıxarsa.
8. Burunun içinə qoyulan bir şey çəkilən şey burundan günlərcə sonra da geri gələrsə.
9. Bir şeyi dişləyincə, o şey üzərində qan görərsə.
10. Ağrı olmadan, hər hansı bir səbəblə, ağlamaqla və soğan, duman, qazlar təsiri ilə göz yaşı axınca.
11. Qadın uşağını əmizdirincə.
12. Çox da olsa, tərləməklə.
13. Milçək, ağcaqanad, birə, taxtabiti kimi həşəratlar çox əmsələr də.
14. Az olub yayılmayan qan və ağız dolusu olmayan qusmaq.
15. Yatarkən dayadığı şeyi çəkərkən də aşmazsa.
16. Namazda yatmaq.
17. Dizlərini dik tutub, başını dizlərinin üstünə qoyub yatarsa.
18. Ayaqlarını bir yanına çıxarıb, yerə oturaraq yatarsa.
19. Çılpaq heyvan üstündə yatarsa, heyvan yoxuş çıxır və ya düz yerdə gedirsə.
20. Namazda təbəssüm etmək.

21. Namazda ikən güldüyünü yalnız özü eşidərsə, buna "**Dahk**" deyilir. Dahk yalnız namazı pozar.

22. Saç, saqqal, bığ və dırnaq kəsmək.

23. Yara qabığının düşməsi ilə dəstəmaz pozulmaz.

**DƏSTƏMAZ ÜÇÜN ASANLIQLAR "MƏST VƏ YARA ÜZƏRİNƏ MƏSH"**

Məsh, sürtmək, sığallamaq deməkdir. İki cür məsh vardır:

**1. MƏST ÜZƏRİNƏ MƏSH:**

Məst, ayağın yuyulması fərz olan yerini örtən su keçirməz ayaqqabı deməkdir. Məst böyük olarsa, barmaqlar məstin ucuna qədər getməz və məsh boş yer üzərinə edilərsə, caiz olmaz. Məstin bir saat yol yeriyincə, ayaqdan çıxmayacaq şəkildə sağlam və ayağa uyğun olması lazımdır.

Dabanı ilə ayağın üstü və ya yalnız dabanı dəri örtülmüş corab üstünə məsh etmək caizdir.

Möhkəm olan və yeriyərkən aşağı düşməyən corab üzərinə məsh etmək caizdir.

Məstlər dəstəmazın pozulmasının ayaqlara keçməsinə mane olurlar. Ayaqları yuduqdan sonra məstləri geyinmək və bundan sonra dəstəmaz almaq caizdir.

Məsh məstlərin üstünə edilir. Məstlərin altına, yəni dabanına məsh edilməz.

Sünnət üzrə məsh etmək üçün sağ əlin yaş beş barmağı, sağ məst üzərinə, sol əlin barmaqları da sol məst üzərinə boylu boyunca yapışdırılıb, məstin ucundan yuxarıya doğru çəkilir. Əl ovucları məstə dəyməz. Məshin üç əl barmağı enində və boyunda olması fərzdir.

Məsh əlin çöl tərəfi ilə caiz isə də, iç tərəfi ilə etmək sünnətdir.

Yaş ot üstündə yeriyərək və ya yağış ilə məstlərin üzəri islanarsa məsh yerinə keçər.

Məst üzərinə məsh müddəti mukim (səfərdə olmayan) olan üçün 24 saatdır. Səfəri üçün üç gün üç gecə, yəni 72 saatdır. Bu müddət məsti geyindiyi zaman deyil, məsti geyindikdən sonra dəstəmazın pozulduğu zaman başlayar. Məstli kimsə dəstəmazı pozulduqdan sonra 24 saat keçmədən səfərə çıxsa, bu məstlərə üç gün və gecə məsh edə bilər. Səfəri ikən mukim olsa, 24 saat keçmiş isə, məstləri çıxarıb ayaqlarını yuyaraq dəstəmaz alar.

Ayağın üç barmağı sığacaq qədər yırtığı olan məst üzərinə məsh etmək caiz deyildir. Yırtıq bundan az isə, məsh caiz olar. Bir məstin bir neçə yerində kiçik yırtıqlar varsa, bunlar toplanaraq üç barmaq qədər olarsa, buna məsh etmək caiz olmaz. Bir məstdə iki barmaq, digər məstdə də iki və ya bir barmaq görünəcək qədər yırtıq varsa, bunlara məsh edilə bilər. Məsh caiz olmayan yırtıq üç barmağın ucu deyil, üç barmağın bütünü görünəcək qədərdir.

**2. YARA VƏ SARĞI ÜZƏRİNƏ MƏSH:**

Yaranın, çibanın, dəridəki çatlaq və yarıqların üzərinə və ya içinə qoyulan məlhəm, pambıq, fitil, plastır, sarğı bağı kimi şeylərin açılması, çıxarılması yaraya zərər verərsə, üzərinə məsh edilir.

Üzr sahibi olan istədiyi zaman dəstəmaz alar. Alınan dəstəmaz ilə istədiyi qədər fərz və nafilə qılar və Qurani-Kərim oxuyar. Namaz vaxtı çıxınca dəstəmazı pozulmuş olar. Hər namaz vaxtı girdikdən sonra, yəni dəstəmaz alıb bu vaxt çıxana qədər hər ibadəti edər.

Üzr sahibi ola bilmək üçün dəstəmazı pozan şeyin davamlı olaraq mövcud olması lazımdır. Yəni hər hansı bir namaz vaxtı içində dəstəmaz alıb yalnız fərzi qılacaq qədər bir zaman dəstəmazlı qala bilməyən kimsə üzr sahibi olar. Üzr sahibinin üzrü sonrakı hər namaz vaxtında bir dəfə, bir az axarsa, üzrü davam edir sayılır.

**QÜSL (Boy dəstəmazı)**

Namazın doğru olması üçün dəstəmazın və qüslün doğru olması lazımdır. Cünüb (qüslsüz) olan hər qadının və kişinin, hayzdan (aybaşı) və nifasdan (doğumdan sonra gələn qan) qurtulan qadınların, namaz vaxtının sonunda o namazı qılacaq qədər zaman qalınca, qüsl alması fərzdir. Cünüb olmaq, cima (cinsi münasibət) və ihtilam (yuxuda cünüb olmaq) ilə olar. Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" buyurur ki: **"Qüsl almağa qalxan bir kimsəyə üzərindəki tük sayı qədər** [yəni lap çox] **savab verilir. O qədər də günahı əfv olar. Cənnətdəki dərəcəsi yüksəlir. Qüslü üçün ona veriləcək savab dünyada olan hər şeydən daha xeyirli olar. Allahü təala mələklərə - Bu quluma baxın! Gecə ərinmədən qalxıb, mənim əmrimi düşünərək cünublükdən qüsl edir. Şahid olun ki, bu qulumun günahlarını əfv etdim və bağışladım."**

Digər bir Hədisi-şərifdə, "**Kirlənincə, tez qüsl alın! Çünki kiramən katibin mələkləri cünüb gəzəndən inciyərlər"** buyuruldu**.** İmami Qazali "rahmətullahi aleyh" buyurdu ki: "Bir kimsə yuxuda mənə dedi ki, "Bir miqdar zaman cünüb qaldım. İndi üzərimə atəşdən köynək geyindirdilər. Hələ də atəş içindəyəm". Bir Hədisi-şərifdə də, "**Rəsm, it və cünüb kimsə olan evə rəhmət mələkləri girməz"** buyuruldu.

Namaz qılan və qılmayan hər kəs bir namaz vaxtını cünüb keçirərsə, çox acı əzab görəcəkdir. Su ilə yuyunmaq mümkün olmazsa təyəmmüm etməlidir. Cünüb olan kimsələr aşağıdakıları edə bilməz:

1- Heç bir namazı qıla bilməz.

2- Qurani-Kərimə və ayətlərinə əl vura bilməz.

3- Kəbəni təvaf edə bilməz.

4- Məscid və camilərə girə bilməz.

## QÜSLÜN FƏRZLƏRİ

Hənəfi məzhəbində qüslün fərzləri üçdür:

**1- Ağzın içini yumaqdır.** Ağzın içində iynə ucu qədər islanmayan yer qalarsa, dişlərin üstü və diş oyuqları islanmazsa qüsl olmaz.

**2- Burnu yumaqdır**. Burnundakı quru kirin altına və ağızdakı çeynənilmiş çörəyin altına su keçməzsə, qüsl olmaz. Hanbəli məzhəbində, ağzı və burnu yumaq, dəstəmaz alarkən də, qüsldə də fərzdir. Şafii məzhəbində də qüsl edərkən niyyət etmək fərzdir.

**3- Bədənin hər yerini yumaqdır.** Göbək içini, bığ, qaş, saqqalı və altlarındakı dəriləri və başdakı saçları yumaq fərzdir. Dırnaqlarda, dodaq, göz qapağı və ya bədənin hər hansı bir yerində su keçirməyən maddələr olarsa, [dırnaqda lak olarsa], qüsl alınmış sayılmaz.

## QÜSLÜN SÜNNƏTLƏRI

1- Öncə əlləri yumaq.

2- Ədəb yerlərini yumaq.

3- Bütün bədəni pislikdən təmizləmək.

4- Qüsldən əvvəl dəstəmaz almaq, üzü yuyarkən qüslə niyyət etmək. Şafii məzhəbində niyyət etmək fərzdir.

5- Bütün bədəni üç dəfə ovaraq yumaq.

6- Bütün bədəni yuduqdan sonra iki ayağını yumaq.

## QÜSL NECƏ ALINIR?

Sünnət üzrə qüsl belə alınır:

1- Öncə, təmiz olsalar belə, iki əli və övrət yerini, bədənində nəcasət (pislik) olan yerləri yumalıdır.

2- Sonra tam bir dəstəmaz almalı, üzünü yuyarkən qüslə niyyət etməlidir. Ayaqların altında su yığılmırsa, ayaqları da yumalıdır.

3- Sonra bütün bədənə üç dəfə su tökməlidir. Öncə üç dəfə başa, sonra sağ çiyinə, sonra sol çiyinə tökməlidir. Hər töküşdə o tərəf tamam islanmalıdır. Birinci töküşdə ovmalıdır. Qüsldə bir üzvə tökülən su başqa üzvlərə axıdılarsa, ora da təmizlənir. Çünki qüsldə bütün bədən bir üzv sayılır. Dəstəmaz alarkən bir üzvə tökülən su ilə başqa üzv islanarsa, yuyulmuş sayılmaz. Qüsl tamam olunca, təkrar dəstəmaz almaq məkruhdur. Lakin qüsl alarkən dəstəmazı pozularsa, bir daha almaq lazım olar.

Hənəfi məzhəbində dişlərin arası və diş çuxurları islanmazsa, qüsl olmaz. Bunun üçün dişə karonka qoyulduqda və plomblandıqda qüsl səhih olmaz. İnsan

cənabətlikdən qurtula bilməz. Qızıl, gümüş və nəcs olmayan başqa maddələrdən edilən karonka və plomb altına su girməyincə, Hənəfi məzhəbi alimlərinin hamısına görə, qüsl dəstəmazı caiz olmaz.

Tahtavi, **"Mərakıl-fəlah"** haşiyəsi, 96-cı səhifəsində və ayrıca bunun tərcüməsi olan **"Neməti-İslam"** kitabında belə yazır: Bir Hənəfinin öz məzhəbinə görə edə bilmədiyi bir işi edə bilməsi üçün Şafii məzhəbini təqlid etməsində bir maneə yoxdur. **"Bahr-ür-raik"** və **"Nehr-ül-faik"** kitablarında da belə yazılmışdır. Lakin bu işi edərkən, o məzhəbin şərtlərini də yerinə yetirmək lazımdır. Məcburiyyət, zərurət olmadan və şərtlərinə riayət etmədən təqlid edərsə, buna "**müləffiq**" deyilir ki, asanları toplayan deməkdir. Bu, caiz deyildir.

Öz məzhəbindəki bir fərzi edə bilməyən kimsənin yalnız bu fərzi etməsi üçün başqa məzhəbi təqlid etməsi lazımdır. Amma bu işi edərkən təqlid etdiyi məzhəbin şərtlərini də yerinə yetirməlidir. Karonka və plomb qoyduran Hənəfi məzhəbindəki bir müsəlmanın Maliki [və ya Şafii] məzhəbini təqlid etməsi üçün qüsldə, dəstəmaz almaqda və namazda niyyət edərkən İmami Malikə [və ya İmami Şafi-yə] tabe olduğunu xatırlaması kifayət edər. Yəni qüsl dəstəmazı almağa başlayarkən, "**Niyyət etdim qüsl almağa və Maliki [və ya Şafii] məzhəbinə tabe olmağa"** sözünü qəlbindən keçirən bir kimsənin qüslü səhih olar. Ağzında karonka və ya plomb dişi olan Hənəfi məzhəbindəki bir kimsə belə niyyət edincə qüslü, yəni boy dəstəmazı səhih olar. Cünüblükdən qurtular, təmiz olar. Maliki [və ya Şafii] məzhəbini təqlid edincə, dəstəmazı və namazları səhih olar. Karonka və plomb dişi olmayanlara da imam ola bilər.

Şafii məzhəbini təqlid edənin imam arxasında Fatihə surəsini oxuması, özünün və ya başqasının səvətəyninə, yəni iki dəstəmaz pozma üzvlərinə əli ovucu (içi) ilə toxunarsa və nikah ilə alması haram olan 18 qadından başqa qadının dərisinə dərisi dəyərsə dəstəmaz alması, dəstəmaza niyyət etmiş olması və az nəcasətdən də çəkinməsi lazımdır. Qurani-Kərimi tutacağı zaman da Şafii məzhəbinə görə dəstəmazlı olması lazımdır. Hənəfi məzhəbində olan bir yolçunun Şafii məzhəbini təqlid edərək, zöhr ilə əsr, şam ilə işa namazlarını cəm edərək birlikdə qıla bilməsi üçün Şafii məzhəbinə görə dəstəmazlı olması lazımdır.

## QADINLARIN HAYZ (AYBAŞI) VƏ NİFAS (DOĞUŞDAN SONRA GƏLƏN QAN) HALLARI

On bir cür qüsl vardır. Beşi fərzdir. Bunlardan ikisi qadının hayz və nifasdan qurtulandan sonra qüsl almasıdır.

İbni Abidin "**Mənhəl-ül-varidin**" adındakı əsərində deyir ki: Hər müsəlman kişinin və qadının elmi-hal öyrənməsi fərz olduğunu fiqh alimləri söz birliyi ilə bildirdi. Hər müsəlman qadının hayz və nifas məlumatlarını öyrənməsi fərzdir. Hər müsəlman kişinin evlənəcəyi zaman hayz və nifas məlumatlarını öyrənmələri lazımdır. Evləndikdən sonra xanımına da öyrətməlidir.

**Hayz,** 8 yaşını bitirib 9 yaşına girmiş və sağlığı yerində bir qızdan və ya "**adət günlərinin**" son dəqiqəsindən 15 gün keçmiş olan qadından gələn və ən az 3 gün davam edən qana deyilir. Ağdan başqa hər rəngə və bulanıq olana hayz qanı deyilir. Bir qız hayz görməyə başlayınca, yetkinlik çağına girər və qadın hökmündə olub dinıin əmr və qadağanlarından məsul olar. Qan görüldüyü andan kəsildiyi günə qədər olan günlərin sayına "**Adət günü**" deyilir. Bu zamanın ən azı 3, ən çoxu 10 gündür. Hər qadının öz adətinin gün sayını və saatını bilməsi lazımdır. 8 yaşını tamamlayan qıza anasının, anası yoxsa, nənələrinin, bacılarının, xala və bibilərinin hayz və nifas elmini bildirmələri fərzdir.

**Nifas-** qadından doğuşdan sonra gələn qana deyilir. Bu qanın ən az müddəti yoxdur. Qan kəsildiyi zaman dərhal qüsl almalıdır. Ən çox zamanı 40 gündür. 40 gün tamam olunca qan kəsilməsə də, qüsl edib, namaza başlayar. 40 gündən sonra gələn qan istihaza, "yəni üzr" olar. Qadınların nifas günlərini də əzbərləmələri lazımdır.

**İstihaza** [üzr qanı], üç gündən, yəni 72 saatdan beş dəqiqə belə az olan və yəni başlayan üçün 10 gündən çox sürən və yeni olmayanlardan adətdən çox olub, 10 günü də aşan və hamilə, 55 yaşını keçmiş (ayisə) qadınlardan, 9 yaşından kiçik qızlardan gələn qanlara deyilir. Bu qan xəstəlik əlamətidir. Uzun zaman axması təhlükəli olub, həkimə müraciət etməsi lazımdır.

Istihaza günlərində olan qadın tez-tez burnu qanayan kimi olub, bu halda namaz qıla bilər və oruc tuta bilər.

Hayz və nifas halında ikən qadın namaz qıla bilməz və oruc tuta bilməz. Tilavət və şükr səcdəsi edə bilməz. Qurani-Kərimə toxuna biıməz. Cami və məscidə girə bilməz, Kəbəni təvaf edə bilməz. Cinsi münasibətdə ola bilməz. Təmizlənincə, oruclarını qəza edər, namazlarını qəza etməz. Qadının hayzın başladığını ərinə bildirməsi lazımdır. Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" **"Hayzın başladığını və bitdiyini ərindən gizləyən qadın məlundur** [lənətlənmiş]**"** buyurdu. Hayz və nifas kəsilincə həmən qüsl edib yuyunmaq fərzdir. Allahü təalanın əmridir.

Nikahın getməsinə, yəni boşanmağa səbəb olan çox söz vardır. İmanın getməsindən qorxduğu kimi nikahın getməsindən də çox qorxmaq lazımdır.

*Haqq Təala, intiqamını yenə qul ilə alar.*
*Bilməyən "elm-i lədünni", anı qul etdi sanar.*
*Cümlə əşya Xaliqindir, qul əli ilə işlənər.*
*Əmri Bari olmayınca, sanma bir çöp tərpənər!*

## TƏYƏMMÜM

Təyəmmüm torpaqla təmizlənmək deməkdir. Dəstəmaz almaq və ya qüsl etmək üçün su olmazsa və ya su olduğu halda, istifadə edilməsi mümkün olmayan vəziyyətlərdə təmiz torpaq, qum, kirəç və daş kimi torpaq cinsindən olan təmiz

bir şey ilə hənəfidə vaxt girmədən öncə də təyəmmüm edilir. Digər üç məzhəbdə vaxt girmədən öncə caiz deyildir. Təyəmmüm dəstəmaz və qüsl üçün bir asanlıqdır. Dinimizdə torpaq ilə təyəmmüm də su ilə təmizlənmək kimidir. Dinimiz bir çox kirliliyin torpaq ilə təmizlənə biləcəyini açıqca bildirir.

Təyəmmümü lazım edən başlıca hallar bunlardır:

1. Dəstəmaz və qüsl üçün təmiz su tapmamaq (şəhərdə hər zaman su axtarmaq fərzdir).
2. Sudan istifadə etməyə mane olan xəstəlik, su istifadə edincə soyuqdan ölmək və ya xəstə olmaq təhlükəsinin olması.
3. Suyun yanında düşmən və ya yırtıcı, zəhərli heyvanın olması.
4. Həbsdə olub, sudan istifadə edə bilməmək.
5. Ölümlə təhdid edilmək.
6. Səfəri olub yanında içmə suyundan artıq suyun olmaması.
7. Quyudan su çıxarmaq imkanının olmaması.

## TƏYƏMMÜMÜN FƏRZLƏRİ

Təyəmmümün fərzi üçdür: Dəstəmaz almaq və qüsl etmək üçün təyəmmüm eynidir. Yalnız niyyətləri fərqlidir. Dəstəmaz üçün edilən təyəmmüm ilə qüsl edilmiş olmaz. Eyni təyəmmümün qüsl üçün də səhih olması üçün qüsl üçün də niyyət etmək lazımdır.

1- Niyyət etmək. 2- İki əlin içini təmiz torpağa sürtüb, üzün hər yerini məsh etmək. 3- Əlləri təmiz torpağa vurub, öncə sağ və sonra sol qolu məsh etmək.

Təyəmmümün fərzi ikidir, deyənlər də vardır. İkinci və üçüncü fərzi bir fərz olaraq söyləyirlər. İki şəkli də doğrudur.

## TƏYƏMMÜMÜN SÜNNƏTLƏRİ

1. Bəsmələ ilə başlamaq.
2. Torpağa ovucun içini qoymaq.
3. Ovucları torpaq üzərində irəli və geri çəkmək.
4. Ovucda torpaq varsa, torpaq qalmayana qədər iki əli, baş barmaqları ilə bir-birinə vurmaq.
5. Əlləri torpağa qoyarkən barmaqları açmaq.
6. Əvvəla üzü, sonra sağ qolu, sonra sol qolu məsh etmək.
7. Dəstəmaz alır kimi tez etmək.
8. Qollarda və üzdə məsh edilməyən yer buraxmamaq.
9. Təyəmmümdən öncə umduğu yerdə su axtarmaq.
10. Əlləri torpağa vuraraq qüvvətlə qoymaq.
11. Qolları yuxarıda izah edilən şəkildə məsh etmək.
12. Barmaqların arasını məsh etmək və edərkən üzüyünü oynatmaq.

## TƏYƏMMÜMDƏ BUNLARA DİQQƏT ETMƏLİDİR

1. Dəstəmazsız bir kimsə tələbəsinə göstərmək üçün təyəmmüm edərsə, bu təyəmmümlə namaz qıla bilməz.

2. Təyəmmüm ilə namaz qıla bilmək üçün yalnız təyəmmümə niyyət etmək kifayət deyil. Namaz üçün də niyyət etmək lazımdır.

3. Bir torpaqdan bir neçə kimsə təyəmmüm edə bilər. Çünki təyəmmüm edilən torpaq və buna bənzəyənlər müstaməl (istifadə edilmiş) olmaz. Təyəmmümdən sonra əldən, üzdən tökülən toz müstaməldir.

4. Şafii və hanbəlidə təyəmmüm yalnız torpaq ilə edilir. Digər məzhəbdə torpaq cinsindən olan hər təmiz şey ilə üzərində bunların tozu olmasa belə, təyəmmüm edilir. Yanıb kül olan və ya istidə əriyə bilən şeylər torpaq cinsindən deyildir. Ona görə də agac, ot, taxta, dəmir, düyü, yağlı boya ilə boyanmış divar, mis, qızıl, şüşə ilə təyəmmüm edilə bilməz. Qum ilə olar. İnci, mərcan ilə olmaz. Əhəng və gips ilə yuyulmuş mərmər, sement, zərsiz plitka, zərsiz farfor, palçıq ilə olar. Palçıqdakı su yarıdan azdırsa, bununla təyəmmüm edilir.

5. Bir təyəmmüm ilə müxtəlif namaz qılmaq caizdir.

6. Səfəri, iki kilometrdən az məsafədə su olacağını əlamətlərlə və ya ağıllı, həddi-büluğa çatmış və adil bir müsəlmanın xəbər verməsi ilə çox zənn etdiyi zaman, hər tərəfə doğru 200 metr gedərək və ya birini göndərərək axtarması fərz olar. Çox zənn etməzsə, suyu axtarması lazım olmaz.

7. Bir kimsə suyu soruşmadan təyəmmüm edib namaza dursa, sonra yanında olan adil bir şəxsdən su olduğunu xəbər alsa, dəstəmaz alıb namazını iadə edər (yenidən qılar).

8. Səfərdə iki kilometrdən uzaqda su varkən, təyəmmüm ilə namaz qılmaq caizdir.

9. Əşyası arasında su olduğunu unudan kimsə şəhərdə, kənddə deyilsə, təyəmmüm ilə namaz qıla bilər.

10. Suyun bitdiyini zənn edən kimsə namazdan sonra suyunu görsə, təyəmmüm ilə qıldığı namazı iadə edər.

11. Səfərinin yanında olanlardan su istəməsi vacibdir. Su verməzlərsə, namazı təyəmmüm ilə qılar. Yoldaşı suyu bazardakı qiymətinə satarsa, artıq pulu olan səfərinin satın alması lazımdır. Sahibi suyunu çox baha qiymətə satarsa təyəmmüm ilə qılması caizdir. Bazar qiymətinə alacaq artıq pulu yoxsa yenə təyəmmüm edər.

12. Çöldə, yollarda içmək üçün qoyulan su varkən, təyəmmüm edilə bilər.

13. Su az isə, cünüb olan kimsənin hayzlı qadından, dəstəmazsızdan və meyiddən öncə yuyulması lazımdır. Suyun sahibi başqalarından öncə yuyunar. Sahibləri ayrı-ayrı olan sular, bir yerə toplanınca, öncə meyid yuyulur.

14. Cünüb bir kimsə təyəmmüm etdikdən sonra dəstəmazı pozulsa, cünüb olmaz. Az su varsa, yalnız dəstəmaz alar.

15. Cünüb kimsənin bədəninin yarıdan çoxu yara və ya çiçək, qırmızı kimi isə, təyəmmüm edər. Dərisinin çoxu sağlam isə və yaralı qismləri islatmadan yuması mümkün isə, qüsl edər. Yaralı qismləri islatmadan yuyuna bilməzsə, yenə təyəmmüm edər.

## TƏYƏMMÜM NECƏ EDİLİR?

1. Öncə cünüblükdən və ya dəstəmazsızlıqdan təmizlənmək üçün niyyət edilir. Təyəmmüm ilə namaz qıla bilmək üçün yalnız təyəmmümə niyyət etmək kifayət etməz. İbadət olan bir şeyi, məsələn, cənazə namazı, tilavət səcdəsi etmək üçün dəstəmaz və ya qüsl üçün təyəmmüm etməyə niyyət lazımdır. Təyəmmümə niyyət edərkən dəstəmaz ilə qüslü ayırmağa ehtiyac yoxdur. Dəstəmaz üçün niyyət edilərsə cünüblükdən də təmizlənmiş olur. Cünüblükdən təmizlənməyə niyyət edilən təyəmmüm ilə namaz qılına bilər. Dəstəmaz üçün ikinci təyəmmümə ehtiyac yoxdur.

2. İki qolu dirsəklərindən yuxarı çirməli olaraq iki əlin içini təmiz torpağa, daşa, torpaq və ya kirəç sürtülmüş divara sürtüb ən az üç barmağı dəyməklə iki ovucu ilə üzünü bir dəfə məsh etmək, yəni sürtmək. Əli üzünün iynə ucu qədər yerinə dəyməzsə, təyəmmüm edilmiş olmaz. Üzü tam məsh edə bilmək üçün ovuclar açıq və dörd barmaq bir-birinə yapışıq və iki əlin iki uzun barmaqlarının ucları bir-birlərinə dəymiş olaraq ovuc içləri saç kəsiminə qoyub, çənəyə doğru yavasça endirilir. Barmaqlar üfüqi vəziyyətdə alnı, göz qapaqlarını, burnun iki yanını, dodaqların üzərlərini və çənənin üz qismini yaxşıca sürtməlidir. Bu əsnada ovucun iç tərəfi də yanaqları sürtər.

3. İki ovucu təkrar torpağa sürtüb bir-birinə çırparaq tozu-torpağı silkələdikdən sonra öncə sol əlin dörd barmağının içi ilə sağ qolun alt üzünü barmaq ucundan dirsəyə doğru sürtüb sonra qolun iç üzünü sol ovuc içi ilə dirsəkdən ovuca qədər sürtüb və sonra sol baş barmaq içi ilə sağ baş barmağın çölünü sürtməkdir. Üzüyü çıxarmaq lazımdır. Sonra yenə belə sağ əl ilə sol qol məsh edilir. Əl içini torpağa sürtmək lazımdır. Torpağın, tozun əldə qalması şərt deyildir.

Dəstəmaz və qüsl üçün təyəmmüm eynidir.

## TƏYƏMMÜMÜ POZAN ŞEYLƏR

Təyəmmümü lazım edən üzr halı aradan qalxınca, su tapılnca, dəstəmazı və qüslu pozan hallarda təyəmmüm də pozulur.

## DƏSTƏMAZIN, QÜSLÜN VƏ TƏYƏMMÜMÜN FAYDALARI

İbadət məqsədiylə edilən hər iki təmizlik bədən sağlığımız üçün çox faydaları hasil etməkdədir. Bədən faydaları ilə yanaşı, ruh sağlığı tərəfdən də faydası çoxdur. Təsbit edilən saysız faydalarından bəzilərini belə sıralaya bilərik:

1. Gündəlik həyatımızda əllərimizin toxunmadığı yer, mikrob qalmır. Məhz dəstəmaz alarkən əl, üz və ayaqları yumaq, dəri xəstəlikləri və iltihabları üçün ən gözəl bir qorumadır. Mikroblar, parazit bakteriyaların bəziləri vücuda dəri yoluyla daxil olurlar.

2. Tənəffüs sistemimizin gözətçiliyini edən burunu yumaqla toz və mikrobların bədənə daxil olmasının qarşısı alınmış olur.

3. Üzün yuyulması dərini qüvvətləndirir, başdakı ağırlığı və yorğunluğu yüngülləşdirir. Damarları və sinirləri hərəkətə gətirir. Davamlı olaraq dəstəmaz alanların yaşlansalar belə, üzlərindəki gözəlliklərin getməməsi bu səbəbdəndir.

4. Cünüblüyə səbəb olan hallarda böyük bir enerji sərf etməkdə, qəlb və dövran sürəti artmaqda, tənəffüs sürətlənməkdədir. Bədənin həddən artıq işləməsi ilə də yorğunluq, əldən düşmə, keylik və tənbəllik hiss edilməkdə, ümumiyyətlə zehni fəaliyyətlər olduqça zəifləməkdədir. Qüsl ilə bədən əvvəlki gümrahlığı qazanır. Bədəni müəyyən vaxtlarda davamlı yumaq qoruyucu həkimlik tərəfdən fövqəladə önəmlidir.

5. Bədənimizin normalda bir statik elektrik tarazlığı vardır. Bədənin sağlamlığı bu elektrik tarazlıq ilə yaxından əlaqəlidir. Bu tarazlıq psixoloji gər-ginliklər, iqlim şərtləri, geyim əşyaları, yaşama və iş yerləri və bu arada qüslü lazım etdirən hallarla pozulur. Bu elektrikli yük, hirsli halda normaldan 4 dəfə, qüslu lazım etdirən hallarda 12 dəfə çoxalmaqdadır. İndiki vaxtda ultra qırmızı şüalarla dərinin çöl hissəsinin xüsusi rəsmləri çəkilmiş, bu rəsmlərdə cinsi münasibətdən sonra bədənin bütün səthinin artıq statik elektrik təbəqəsiylə örtüldüyü isbat edilmişdir. Bu təbəqə dərinin oksigen alış-verişinə əngəl olduğu kimi, dərinin rənginin pozulmasına və tez qırışmasına səbəb olur. Bu vəziyyətdən qurtulmaq üçün bədənin iynə ucu qədər yeri belə quru qalmayacaq şəkildə tamamən yuyulması lazımdır. Beləcə su zərrələri mənfi elektrik gərginliyini alaraq, bədəni torpaqlayır və yenidən normal vəziyyətə qaytarır. Bu baxımdan qüsl tibbi tərəfdən də mütləq edilməsi lazım olan bir təmizlikdir.

6. Dəstəmaz və qüslün dövran sistemi üzərində də müsbət təsirləri olmaqdadır. Damarlardakı sərtləşmə və daralmanın qarşısını alır. Dəstəmazda bir xəbərdarlıq vardır. Limfa sistemi, ən vacib mərkəzlərindən biri olan burun arxası və badamçıqlar yuyularaq xəbərdar edilir. Ayrıca boyun və yanlarının yuyulması da, limfa sisteminə təsir edər. Dəstəmaz və qüsllə asanlaşan limfa dövran sayəsində, limfa deyilən döyüşçü hüceyrələr bədəni zərərli ünsürlərdən qoruyur və bədən dayanıqlığını artırır.

7. Su olmadığı zaman torpaqla edilən təyəmmüm də böyük ölçüdə vücuddakı statik elektriki yox edir.

## 2. NƏCASƏTDƏN TƏHARƏT

Bədəndə, paltarda və namaz qılınacaq yerdə nəcasətin, kirin olmamasıdır. Baş geyimi, başlıq, sarıq, məst və ayaqqabı da paltardan sayılır. Boyuna sarılı şalın sallanan qismi namaz qılan ilə birlikdə hərəkət etdiyi üçün paltardan sayılır

və bu hissəsi təmiz olmazsa, namaz qəbul olmaz. Döşəyin, ayaq basdığı və başını qoyduğu yeri təmiz olunca, başqa yerində nəcasət olarsa, namaz qəbul olar. Çünki döşək şal kimi bədənə bitişik deyildir. Lakin qapalı şüşə içində sidik daşıyanın namazı caiz olmaz. Çünki şüşə sidiyin meydana gəldiyi yer deyildir. [Bundan anlaşılır ki, cibində qapalı odekolon, spirt,yod şüşəsi və ya qapalı qutudakı qanlı yaylıq, nəcs parça varsa, namaz qılmaq caiz deyildir.] İki ayağın basdığı və səcdə etdiyi yerin təmiz olması lazımdır. Nəcasət üstünə örtülü parça, şüşə, neylon üstündə namaz qəbul olur. Səcdədə ətəkləri quru nəcasətə dəyərsə, zərəri olmaz.

Dəridə, paltarda, namaz qılınan yerdə, "**dirhəm miqdarı**" və ya daha çox ağır nəcasət yox isə, namaz qəbul olarsa da, dirhəm miqdarı olarsa, tahrimən məkruh olar və yumaq vacib olar. Dirhəmdən çox isə, yumaq fərz olar. Az isə yumaq sünnətdir. Şərabın damcısını da yumaq fərzdir. İmameynə [İmamı Əbu Yusüf və İmamı Muhamməde] görə və digər üç məzhəbdə ağır nəcasətlərin hamısının zərrəsini belə yumaq fərzdir. Nəcasət miqdarı bulaşdığı zaman deyil, namaza durarkən olan miqdarıdır. Dirhəm miqdarı qatı nəcasətlərdə bir misqal, yəni 4,8 qram ağırlığındadır. Axıcı nəcasətlərdə açıq əlin ovucundakı suyun üzü genişliyi qədər səthidir. Bir misqaldan az olan qatı nəcasət paltarın ovuc içindən daha geniş üzünə yayılınca namaza mane olmur.

Nəcasət iki cürdür:

1. **Ağır Nəcasət:** İnsandan çıxan zaman dəstəmaz və ya qüslə səbəb olan hər şey, əti yeyilməyən heyvanların (**yarasa xaric**) və balalarının üzülmüş, tabaqlanmamış dərisi, əti, pisliyi və sidiyi, insanın və bütün heyvanların qanı və spirt, leş, donuz əti və hin quşlarının pisliyi və yük heyvanlarının, qoyun və keçinin nəcasətləri murdar, yəni ağırdır.

2. **Yüngül Nəcasət:** Yüngül olan nəcasətlərdən bir üzvə və paltarın bir qisminə bulaşınca, bu qism və ya üzvün dörddə biri qədəri namaza zərər verməz. Əti yeyilən dörd ayaqlı heyvanların sidiyi və əti yeyilməyən quşların pisliyi yüngüldür. Göyərçin, sərçə və bənzərləri kimi əti yeyilən quşların pisliyi təmizdir. Şərabın, ənbiqlənmə ilə əldə edilən raki və spirt ağır nəcasət olub, içilməsi şərab kimi haramdır. Namaz qılarkən, qan, spirt və alkoqollu içkilər, paltardan və dəridən yuyulub təmizlənməlidir. Uçmaqla təmiz olmaz. Bunlar olan şüşə və bənzərləri cibdən çıxarılmalıdır. Nəcasət, hər təmiz su ilə, dəstəmaz və qüsl alınmış su ilə, sirkə və gül suyu kimi axıcı mayelərlə təmizlənir. Dəstəmazda, qüsldə istifadə edilən suya "**müstaməl su**" deyilir. Bu su təmizdir. Lakin hadəsi təmizləyici deyildir. Bununla nəcasət təmizlənər. Lakin dəstəmaz alınmaz və qüsl edilməz.

**İSTİNCA (təharət):** Öndən və arxadan nəcasət çıxınca, bu yerləri təmizləməyə istinca deyilir. İstinca, yəni təharətlənmək sünnəti-müəkkədədir. Yəni tualetdə dəstəmaz pozulduqdan sonra kişi və qadının, daş ilə və ya su ilə, önünü və arxasını təmizləyərək sidik və pislik buraxılmaması sünnətdir. Lakin başqasının yanında övrət yerini açmadan su ilə istinca edə bilməyəcəksə, pislik çox olsa belə, su ilə təharətlənmədən vaz keçər. Övrət yerini açmaz. Namazı elə qılar. Açarsa günahkar olar. Haram işləmis olar. Tənha bir yer tapınca su ilə istinca edər və

namazı iadə edər. **Çünki bir əmri yerinə yetirmək, bir haramın işlənməsinə səbəb olarsa, haram işləməmək üçün o əmr ertələnir və ya ertələnmək imkan olmazsa tərk edilir, yerinə yetirilməz.**

Sümük, yemək, gübrə, kərpic, saxsı və şüşə parçaları, kömür, heyvan yemi və başqasının malı ilə və möhtərəm, yəni pula dəyər şeylər, məsələn ipək ilə, məsciddən atılan şeylərlə, zəmzəm suyu ilə, yarpaq ilə, kağız ilə istinca tahrimən məkruhdur. Boş kağıza da hörmət lazımdır. Möhtərəm olmayan adlar, dinə yaramayan yazılar olan kağızlar və qəzet ilə istinca caizdir. Lakin İslam hərfləri ilə yazılmış heç bir kağız ilə istinca edilməz. Önü və arxanı qibləyə dönərək ayaq üstə və üzrsüz çılpaq dəstəmaz pozmaq məkruhdur. Sidik toplanan yerdə qüsl caiz deyildir. Lakin sidik axıb gedər, yığılmazsa, bunlar caiz olar. İstincada istifadə edilən su nəcs olar. Paltara sıçratmamalıdır. Bunun üçün istinca edərkən övrət yerini açmaq, tənha yerdə etmək lazımdır. Bulaq başında əlini paltarın içinə soxub, sidik yerini ovucdakı suya sürtərək yumaqla istinca olmaz. İdrar damcısı bulaşınca ovucdakı su nəcs olar və damcıladığı paltar pis olar. Bu suyun damcıladığı yerlərin miqdarı ovuc içindən artıq olarsa, namaz qəbul olmaz.

**İSTİBRA:** Kişilərin yeriyərək, öskürərək və ya sol tərəfə uzanaraq "**İstibra**" etməsi, yəni sidik yolunda damlalar buraxmaması vacibdir. İdrar damlası qalmadığına qənaət gəlmədən dəstəmaz almamalıdır. Bir damla sızarsa, həm dəstəmaz pozular, həm də paltar kirlənər. Paltara ovuc içindən az sızarsa, dəstəmaz alıb qıldığı namaz məkruh olar. Çox sızarsa, namaz qəbul olmaz. İstibrada çətinlik çəkənlər arpa qədər pambıq fitili sidik dəliyinə qoymalıdır. Sızan sidiyi pambıq əmər. Yalnız pambığın ucu çöldə qalmamalıdır.

## 3- SƏTRİ ÖVRƏT
## (Övrət yeri və Qadınların Örtünmələri)

Bir kimsənın açması, başqasına göstərməsi və başqasının baxması haram olan yerlərə "**övrət yeri**" deyilir. Kişilərin övrət yeri göbəkdən diz altına qədərdir. Diz övrətdir. Bu yerlər açıq ikən qılınan namaz qəbul olmaz. Namaz qılarkən bədənin digər qisimlərini (qolları, başı) örtmək, corab geyinmək kişilərə sünnətdir. Bu yerləri açıq namaz qılmaq isə məkruhdur. Qadınların ovuc içlərindən və üzlərindən başqa hər yerləri, əllərinin üstü, saçları və ayaqları dörd məzhəbdə də övrətdir. Bunun üçün qadınlara "**arvad**" deyilmişdir. Bu yerlərini örtməsi fərzdir. Övrət üzvlərindən hər hansı birinin dörddə biri bir rükn qədər açıq qalarsa, namaz pozular. Azı açılarsa, pozulmaz. Namazı məkruh olar. İncə olub içindəki üzvün şəkli və ya rəngi görünən parça yox deməkdir. Qadınların namaz xaricində, yalnız ikən diz və göbək arasını örtməsi fərz olub, belini və qarnını örtməsi vacib, başqa yerlərini örtməsi ədəbdir. Rəsulullah "sallallahü aləyhi və səlləm" buyurur ki: "**Yad qadına şəhvətlə baxan bir kimsənin gözləri atəşlə doldurulub Cəhənnəmə soxulacaqdır. Yad qadına əllə görüşənin qolları boynundan**

**bağlanıb, Cəhənnəmə atılacaqdır. Yad qadın ilə lazımsız yerə şəhvətlə danışanlar, hər kəlməsi üçün min il Cəhənnəmdə qalacaqdır.”**

Digər bir Hədisi-şərifdə isə: “**Qonşu qadına və yoldaşlarının qadınlarına şəhvətlə baxmaq yad qadınlara baxmaqdan 10 qat daha günahdır. Evli qadınlara baxmaq qızlara baxmaqdan min qat daha çox günahdır. Zina günahları da belədir”** buyuruldu.

Rəsulullah “sallallahü aləyhi və səlləm” buyurdu ki: “**Ey Əli! Budunu açma və ölü və ya diri, heç kimsənin bud yerinə baxma!”**

Digər bir Hədisi-şərifdə; “**Övrət yerlərinizi açmayın. Çünki yanınızdan heç ayrılmayan kimsələr vardır. Onlardan utanın və onlara hörmətli olun”** [Bunlar, Hafaza mələkləridir.] buyuruldu.

Yenə Hədisi-şəriflərdə buyuruldu ki: “**Övrət yerlərini ört. Zövcəndən və cariyəndən başqasına göstərmə. Yalnız ikən də Allahü təaladan həya edin!”**

**“Özlərini qadınlara bənzədən kişilərə və kişilərə bənzədən qadınlara Allah lənət etsin!”**

**“Bir qızın gözəlliyini görən kimsə gözünü ondan dərhal ayırarsa, Allahü təala bir ibadət savabı ehsan edər ki, bu ibadətin ləzzətini dərhal hiss edər.”**

**“Övrət yerlərini açana və başqasının övrət yerlərinə baxana Allah lənət etsin!”**

**“Özünü bir qövmə bənzədən onlardan olar”. D**emək ki, əxlaqını, işlərini və ya paltarlarını başqalarına bənzədən onlardan olar. Modaya, kafirlərin adətlərinə uyanlar, haramlara gözəl sənət adını qoyanlar və haram işləyənlərə sənətkar, müasir deyənlər bu Hədisi-şəriflərdən ibrət almalı, qorxmalı, oyanmalıdırlar. Kişi kişinin və qadın qadının övrət yerlərinə də baxmaları haramdır. Görünür ki, kişilərin qadınlara və qadınların kişilərin övrət yerlərinə baxmaları haram olduğu kimi, kişilərin kişinin övrət yerinə və qadınların qadının övrət yerinə baxmaları da haramdır. Kişinin kişi üçün və qadın üçün övrət yeri, diz ilə göbək arasıdır. Qadının qadın üçün övrət yeri də belədir. Qadının yad kişi üçün övrət yeri isə, əllərindən və üzündən başqa bütün bədənidir. Yad qadının övrət yerinə şəhvətsiz də baxmaq haramdır.

Yorğan altında çılpaq yatan bir xəstə başı yorğan içində ikən, ima ilə namaz qılınca, çılpaq qılmış olar. Başını yorğandan çıxarıb qılarsa, yorğanla örtülü qılmış olub, caiz olar.

Bir kişi nikahla alması əbədi haram olan, 18 “**məhrəm”** qadının başına, üzünə, boynuna, qollarına, dizdən aşağı ayağına, şəhvətdən əmin olarsa baxa bilər. Bu kimsə sinələrinə, qoltuqlarına, budlarına, dizlərinə və belinə baxa bilməz. Bir qadın üçün əmi, xala, bibi və dayı uşaqları da yad kişi kimidir. Yeznə, qayın da yad kişidir. Bunlarla danışmağı, zarafatlaşması və bir yerdə olması haramdır. Kişilərin də əmi, xala, bibi və dayı qızları ilə, baldız və qardaşının yoldaşları ilə danışması haramdır. Bir kişi məhrəm olan 18 qadın ilə ölənə qədər evlənə bilməz. Bunlarla danışa bilər. Yalnız olaraq bir yerdə ola bilər. Qadın da 18 kişi ilə evlənə bilməz. Bu 18 kişi və qadın bunlardır:

**NƏSƏB "SOY" İLƏ ƏQRƏBA OLANLAR**

**Kişilər Qadınlar**

| | |
|---|---|
| 1. Ata | 1. Ana |
| 2. Atanın və ananın ataları | 2. Anasının və atasının anaları |
| 3. Oğlu və oğlunun, qızının oğulları | 3. Qızı və oğlunun, qızının qızı |
| 4. Qardaşı | 4. Bacısı |
| 5. Qardaşının oğlu | 5. Bacısının qızı |
| 6. Bacısının oğlu | 6. Qardaşının qızı |
| 7. Əmi və dayı | 7. Bibi və xala |

**SÜD İLƏ ƏQRƏBA OLANLAR**

**Kişilər: Qadınlar:**

| | |
|---|---|
| 8. Süd ata | 8. Süd ana |
| 9. Süd atanın və süd ananın ataları | 9. Süd anasının və süd atasının anaları |
| 10. Süd oğlu və süd oğlunun və süd qızının | 10. Süd qızı və süd oğlunun və süd qızının |
| 11. Oğulları | 11. Qızı |
| 12. Süd qardaşı | 12. Süd bacısı |
| 13. Süd qardaşının oğlu | 13. Süd bacısının qızı |
| 14. Süd bacısının oğlu | 14. Süd qardaşının qızı |
| 15. Süd əmi və süd dayı | 15. Süd bibi və süd xala |

**NİKAH (EVLİLİK İLƏ) ƏQRƏBA OLANLAR**

**Kişilər: Qadınlar:**

| | |
|---|---|
| 16. Qayınata | 16. Qayınana |
| 17. Ögey oğlu | 17. Ögey qızı |
| 18. Ögey ata | 18. Ögey ana |
| 19. Kürəkən | 19. Gəlin |

Övrət yeri açıq olaraq küçəyə çıxan və başqalarının övrət yerlərinə baxan oğlanlar və qızlar, Cəhənnəmin çox isti alovlu atəşində yanacaqlar.

## 4- İSTİQBALİ-QİBLƏ
## (Qibləyə dönmək)

Namazı Kəbəyə qarşı qılmaqdır. Məkkəi-Mükərrəmə şəhərində olan Kəbə binasının istiqamətinə "**Qiblə**" deyilir. Qiblə öncə "**Qüds**" idi. Hicrətdən 17 ay

sonra Şaban ayının ortasında çərşəmbə axşamı, Kəbəyə dönülməsi əmr olundu. Qiblə Kəbənin binası deyil, sahəsidir. Yəni yerdən Ərşə qədər, o boşluq qiblədir. Bunun üçün dəniz və quyu diblərində, yüksək dağlarda və təyyarələrdə, bu cəhətə doğru namaz qılınır. Göz sinirlərinin çarpaz istiqaməti arasındakı açıqlıq Kəbəyə tərəf olarsa, namaz səhih olar. Lakin:

1. Xəstəlik səbəbi, 2. Malın oğurlanmaq təhlükəsi, 3. Yırtıcı heyvan təhlükəsi, 4. Düşmən görmə təhlükəsi, 5. Heyvanındanènincə, təkrar yardımsız minə bilməyəcəksə, iki namazı [zöhr ilə əsr və şam ilə işanı, malikini, şafini təqlid edərək] cəm edərək də qıla bilməzsə, namazını gücü çatdığı tərəfə doğru yönələrək qılar. Gəmidə, qatarda və təyyarələrdə qibləyə dönmək şərtdir.

## 5.NAMAZ VAXTLARI

Rəsuli əkrəm "sallallahü aləyhi və səlləm" bir Hədisi-şərifdə buyurdular ki, "**Cəbrayıl əleyhissəlam Kəbə qapısı yanında iki gün mənə imam oldu. İkimiz, fəcr doğarkən sübh namazını, günəş təpədən ayrılarkən zöhrü, hər şeyin kölgəsi öz boyu olunca əsri, günəş batarkən** [üst kənarı qeyb olunca] **şamı və şəfəq qaralınca işanı qıldıq. İkinci günü də sübh namazını, hava işıqlanınca zöhrü, hər şeyin kölgəsi öz boyunun iki qatı olunca əsri, bundan sonra oruc pozulduğu zaman şamı, gecənin üçdə biri olunca işanı qıldıq. Sonra ey Muhamməd! Sənin və keçmiş Peyğəmbərlərin namaz vaxtları budur. Ümmətin, beş vaxt namazın hər birini, bu qıldığımız iki vaxtın arasında qılsınlar dedi".** Hər gün qılınması əmr olunan namaz sayının beş olduğu buradan da aydın olur.

**Sübh namazı Vaxtı:** Fəcrin doğmasından, yəni şərqdə ağarmanın başlamasından etibarən, günəş doğana qədərdir.

**Zöhr Namazı Vaxtı:** Kölgələr qısalıb uzanmağa başlandığı zamandan etibarən başlayar və kölgə bir misli və ya iki misli uzanana qədər davam edər. Birincisi iki imama, yəni İmamı Əbu Yusüf ilə İmamı Muhammədə görə, ikincisi isə, İmamı azam Əbu Hanifəyə "rahmətullahi aləyhim" görədir.

**Əsr Namazı Vaxtı:** Zöhr vaxtı bitincə başlayar. Bu da:

1. İmamı Əbu Yusüf və İmamı Muhammədə görə, kölgə, özünü əmələ gətirən cisim qədər uzananda başlayar və günəş batana qədər davam edər.

2. İmamı-azam Əbu Hanifəyə görə isə, kölgə özünü əmələ gətirən cismin iki misli olunca başlayar, günəş batana qədər davam edər.

Lakin günəş saraldıqdan sonra yəni üfüq xəttinə bir nizə boyu qədər yaxınlaşınca hər namazı qılmaq haramdır. Yəni əsr namazını bu zaman qədər gecikdirmək haramdır. Lakin əsr namazını qılmamışsa, günəş batana qədər də qılmaq lazımdır.

**Şam Namazı Vaxtı:** Günəş batdıqdan sonra başlayıb, şəfəq qaralana qədər, yəni qırmızılıq itənə qədər davam edər.

**İşa Namazı Vaxtı:** Şam namazı vaxtının çıxmasından etibarən, fəcrin ağarmasına qədər davam edər. İmamı azam Əbu Hənifəyə "rahmətullahi aləyh" görə,

yatsının vaxtı göydəki ağartı itdikdən sonra başlayar. Necə ki əsr vaxtında da belə keçmişdi. Yəni iki imama görə İşa vaxtı olduqdan sonra ən az yarım saat daha gözləyib İşanı qılarsa, bütün imamlara görə qılmış olar. İşa namazını üzrsüz, şəri gecənin yarısından sonraya buraxmaq məkruhdur. Namazları vaxtlarından öncə və sonra qılmaq haramdır. Böyük günahdır. "Türkiyə təqvimlərində namaz və imsak vaxtları doğru olaraq bildirilmişdir.

Namaz qılması tahrimən məkruh, yəni haram olan vaxtlar üçdür. Bu üç vaxtda başlanan fərzlər səhih olmaz. Günəş doğarkən, batarkən, gündüzün ortasında ikən. Bu üç vaxtda, əvvəlcədən hazırlanmış cənazənin namazı, səcdəi tilavət və səcdəi-səhv də caiz deyildir. Günəş batarkən yalnız o günün əsr namazı qılınır.

Yalnız nafilə qılmaq məkruh olan iki vaxt vardır. Sübh namazının fərzini qıldıqdan sonra günəş doğana qədər və əsrin fərzini qıldıqdan sonra şamın fərzindən öncə nafilə qılmaq məkruhdur.

**İZAH (QÜTBLƏRDƏ NAMAZ VƏ ORUC):**

Hər məmləkətin namaz vaxtı o məmləkətin ekvatordan uzaqlığı və mövsümlərə görə dəyişir:

67 dərəcədən keçən şimal qütb dairəsinin şimalında olan soyuq məmləkətlərdə günəşin meyli çox olduğu zamanlarda şəfəq itmədən fəcr başlayar. Bunun üçün Baltik dənizinin şimal ucunda yayda gecə olmayıb, İşa və sübh namazlarının vaxtı başlamaz.

Hanəfi məzhəbində vaxt namazın şərti deyil, səbəbidir. Səbəb olmazsa, namaz fərz olmaz. O halda, belə məmləkətlərdə olan müsəlmanlara bu iki namaz fərz olmaz. Cənub yarımkürəsində hər yer dəniz olduğu üçün belə məmləkət yoxdur. Şabanın otuzuncu gecəsi bir şəhərdə hilal (ay) görülüncə, bütün dünyada oruca başlamaq lazım olar. Gündüz görülən hilal gələcək gecənin hilalıdır. [Qütblərə və Aya gedən müsəlmanın da, səfəri deyilsə, bu ayda gündüzləri oruc tutması lazımdır. 24 saatdan daha uzun günlərdə, oruca saatla başlayar və saatla pozar. Gündüzü belə uzun olmayan bir şəhərdəki müsəlmanların zamanına tabe olar. Əgər oruc tutmazsa, gündüzləri uzun olmayan yerə gəlincə qəza edər.]

## AZAN VƏ İQAMƏT

Azan hər kəsə bildirmək deməkdir. Beş vaxt namaz və qəza namazları üçün və Cümə namazında xatibin (xütbə oxuyan) qarşısında kişilərin azan oxuması sünnəti müəkkədədir. Qadınların azan və iqamət oxuması məkruhdur. Azan başqasına vaxtı bildirmək üçün yüksək bir yerdə oxunur. Azan oxunarkən iki əli qaldırıb bir barmağını iki qulağın dəliyinə qoymaq müstəhəbdir. Qamət oxumaq azandan daha üstündür. Azan və iqamət qibləyə qarşı oxunur. Oxunarkən danışmaq və salama cavab vermək olmaz.

## AZAN VƏ İQAMƏT HANSI HALLARDA OXUNUR?

**1.** Çöldə, bostanda yalnız və ya camaat ilə qəza qılarkən, kişilərin azanı və iqaməti yüksək səslə oxumaları sünnətdir. Azanı eşidən insanlar, cinlər, daşlar qiyamət günü şahid olacaqlar. Bir neçə qəza namazını bir arada qılan, öncə azan və iqamət oxuyar. Sonrakı qəzaları qılarkən hamısına sadəcə iqamət oxuyar. Sonrakı qəzalarda azan oxumasa da olar.

**2.** Evində yalnız və ya camaat ilə vaxt namazı qılan azan və iqamət oxumaz. Çünki o məhəlləki dəməsciddə oxunan azan və iqamət evlərdə də oxunmuş sayılır. Lakin oxumaları yaxşıdır. Məhəllə məscidində və camaatı müəyyən kimsələr olan hər məsciddə, vaxt namazı camaat ilə qılındıqdan sonra yalnız qılan kimsə azan və iqamət oxumaz. Yollarda olan və ya imamı və müəzzini olmayan və camaatı müəyyən kimsələr olmayan məscidlərdə, müxtəlif zamanlarda gələnlər bir vaxtın namazı üçün müxtəlif camaatlar edərlər. Hər camaat üçün azan və iqamət oxunur. Belə məsciddə yalnız qılan da azan və iqaməti öz eşidəcəyi qədər səslə oxuyar.

**3.** Səfəri olanlar öz aralarindakı camaat ilə də, yalnız qılarkən də azan və iqamət oxuyar. Yalnız qılanın yanında yoldaşları varsa, azanı tərk edə bilər. Səfəri olan kimsə bir evdə yalnız qılarkən də azan və iqamət oxuyar. Çünki məsciddə oxunan, onun namazı üçün olmaz. Səfəri olanlardan bəzisi evdə azan oxuyarsa, sonra qılanlar oxumaz.

Ağıllı uşağın, korun, vələdi-zinanın, azan oxumasını bilən cahil kəndlinin azan oxuması məkruhsuz caizdir. Cünüb kimsənin azan və iqamət oxuması, dəstəmazsız azan oxumaq, qadının, fasiqin (açıqdan günah işləyən) sərxoşun, ağılsız uşağın azan oxuması və oturaraq azan oxumaq tahrimən məkruhdur. Bunların azanları təkrar oxunur. Azanın səhih olması üçün müəzzin, müsəlman və ağıllı olmalıdır. Mikrofon ilə oxumaq səhih olmaz.

Fasiq kimsənin azanı səhih olmamasının səbəbi ibadətlərdə bunun sözü qəbul edilmədiyi üçündür. Fasiqin və mikrofon azanı ilə vaxtın gəldiyinə inanmaq olmaz. Bunun azanı ilə və ya verdiyi bir işarət ilə oruc pozulmaz.

Azana təzim və hörmət edənlər onu, hərflərini, kəlmələrini dəyişdirmədən, pozmadan, təğənni etmədən, minarəyə çıxıb sünnətə uyğun oxuyanlar, yüksək dərəcələrə nail olacaqlar.

Lakin azan sünnətə uyğun oxunmursa, məsələn bəzi kəlmələri dəyişdirilmiş, tərcümə edilmişsə və bəzi yerində təğənni edərək oxunursa və ya azan səsi, mikrofon deyilən alətdən gəlirsə, (çünki mikrofondan çıxan səs, imam və ya müəzzinin səsi deyildir. Bunların səsi elektrik və maqnit halına dönür. Bu elektrik və maqnitin hasil etdiyi səs eşidilir) bunu eşidən heç bir kəlməsini təkrar etməz.

### İZAH (Azan mikrofon ilə oxunarmı?):

Minarələrə qoyulan mikrofon müəzzin üçün bir tənbəllik vasitəsi olmuş, azanın qaranlıq otaqlarda oturaraq və sünnətə uymayaraq oxunmasına səbəb ol-

muşdur. Əsrlərcə göylərə doğru uzanan mənəvi bəzəklərimiz minarələr də bu pis bidət üzündən bir mikrofon dirəyi halına gətirilmişdir. İslam alimləri fənnin kəşf etdiklərini həmişə yaxşı qarşılamış, məsələn mətbəənin qurulmasını təşviq etmiş, faydalı kitabların nəşr edilərək elmin yayılmasını istəmişlər. Radio və mikrofonla, hər yerdə faydalı nəşrlər edilməsi də islamiyyətin bəyəndiyi və faydalanacağı bir kəşf olduğu şübhəsizdir. Lakin müsəlmanları azanın şirin səsindən məhrum qoyaraq, ibadətləri mikrofonun cırmaqlayıcı səs ilə etmək zərərli olmaqdır. Mikrofonları məscidlərə qoymaq lazımsız bir israfdır. İmanlı qəlblərə ilahi təsirlər edən saleh möminlərin səsləri yerinə, adətən kilsə zəngi kimi səs çıxardan bu alət yox ikən, minarələrdə oxunan azanlar və məscidlərdəki təkbir səsləri əcnəbiləri belə vəcdə gətirirdi. Hər məhəllədə oxunan azanları eşidərək məscidləri dolduran camaat, Əshabi-Kiram zamanında olduğu kimi namazlarını huşu ilə qılırdılar. Azanın möminləri həyəcana gətirən ilahi təsiri mikrofonun metalik səsləri ilə itir.

Rəsulullah "sallallahü aləyhi və səlləm" bir Hədisi-şərifində, "**Hər kim azan səsi eşitdiyi zaman müəzzin ilə bərabər yavaşca oxusa, hər hərfinə min savab verilir, min günahı məhv olur"** buyurdu.

Azanı eşidən kimsə Qurani-Kərim oxuyursa da, eşitdiyini yavasça söyləməsi sünnətdir. "**Hayyə ala**"ları eşidincə bunları söyləməyib, "**lə havlə vələ küvvətə illə billəh**" deyər. Azandan sonra salavat gətirilir. Sonra azan duası oxunur. İkinci "**Əşhədü ənnə Muhamməդən Rəsulullah"** söyləyincə, iki baş barmağının dırnaqlarını öpdükdən sonra iki göz üzərinə sürtmək müstəhəbdır. İqamədə belə edilməz.

**AZANIN OXUNUŞU**

Allahü-əkbər....................................................................4 dəfə
Əşhədü ən lə iləhə illəllah.................................................2 dəfə
Əşhədü ənnə Muhammədən Rəsulullah............................2 dəfə
Hayyə aləs-saləh..............................................................2 dəfə
Hayyə aləl-fələh................................................................2 dəfə
Allahü-əkbər.....................................................................2 dəfə
Lə iləhə illəllah..................................................................1 dəfə

Yalnız sübh azanında, "**Hayyə aləl-fələh**"`dən sonra iki dəfə **"Əs-salətü xayrun minən-nəvm"** oxunur.

İqamətdə isə "**Hayyə aləl-fələh**"dan sonra iki dəfə "**Qad qamə tis-salətü"** deyilir.

**AZAN DUALARI:**

Rəsulullah "sallallahü aləyhi və səlləm" buyurdu ki: **"Azan oxunarkən bu duanı oxuyun:**

**"Və ənə əşhədü ən lə iləhə illallahü vahdəhu lə şərikələh və əşhədü ənnə Muhammədən abdühü və rəsulüh və raditü billəhi rabbən və bil-islami dinən və bi Muhammədin sallallahü aləyhi və səlləmə rəsulən nəbiyya".**

Yenə bir Hədisi-şəriflərində buyurdular ki, “**Ey mənim ümmətim. Azan bitincə bu duanı da oxuyun: Allahümmə rabbə hazihid-da`vətit-tamməti vəs-salətil-qaiməti əti Muhammədənil-vəsilətə vəl-fədilətə vəd-dərəcətər-rəfiatə vəbashü məqamən mahmudənil-ləzi vəadtəhü innəkə lə tuhlifül-miad”.**

**AZAN KƏLMƏLƏRININ MƏNALARI:**

**ALLAHÜ-ƏKBƏR:** Allahü təala böyükdür. Ona bir şey lazım deyildir. Qullarının ibadətlərinə də möhtac olmaqdan böyükdür. İbadətlərin Ona heç bir faydası yoxdur. Bu mühüm mənanı zehinlərdə yaxşı yerləşdirmək üçün bu kəlmə dörd dəfə söylənir.

**ƏŞHƏDÜ ƏN LƏ İLƏHƏ İLLƏLLAH:** Qüruru, böyüklüyü ilə kimsənin ibadətinə möhtac olmadığı halda, ibadət olunmağa Ondan başqa kimsənin haqqı olmadığına şəhadət edər, əlbəttə, inanıram. Heç bir şey Ona bənzəməz.

**ƏŞHƏDÜ ƏNNƏ MUHAMMƏDƏN RƏSULULLAH:**
Muhammədin “aləyhi və alə alihissalətü vəssəlam”, Onun göndərdiyi Peyğəmbəri olduğuna, Onun istədiyi ibadətlərin yolunu bildiricisi olduğuna və Allahü təalaya ancaq Onun bildirdiyi, göstərdiyi ibadətlərin yaraşdığına şəhadət edər, inanıram.

**HAYYƏ ALƏS-SALƏH, HAYYƏ ALƏL-FƏLƏH:** Möminləri fəlaha (yaxşılığa), səadətə, qurtuluşa səbəb olan namaza çağıran iki kəlmədir.

**ALLAHÜ-ƏKBƏR:** Ona layiq bir ibadəti kimsə edə bilməz. Hər hansı bir kimsənin ibadətinin Ona layiq, yaraşan olmasından çox böyükdür, çox uzaqdır.

**LƏ İLƏHƏ İLLƏLLAH:** İbadətə, qarşısında alçalmağa haqqı olan ancaq Odur. Ona layiq ibadəti kimsə edə bilməməklə bərabər, Ondan başqa kimsənin ibadət olunmağa haqqı yoxdur.

Namazın şərəfinin böyüklüyü Onu hər kəsə, xəbər vermək üçün seçilmiş olan bu kəlmələrin böyüklüyündən anlaşılır.

## 6.NİYYƏT

İftitah təkbiri söylənərkən niyyət edilir. Namaza niyyət etmək demək, adını, vaxtını, qibləni, imama tabe olmağı qəlbindən keçirmək deməkdir. İftitah təkbirindən sonra edilən niyyət, səhih olmaz və o namaz qəbul olmaz. Fərzlərdə və vaciblərdə niyyət edərkən, hansı fərz və hansı vacib olduğunu bilmək lazımdır. Rükət sayına niyyət lazım deyildir. Sünnəti qılarkən, “Namaza” niyyət etmək kafidir. Cənazə namazına, “**Allah üçün namaza, meyid üçün duaya**” deyə niyyət edilir.

İmamın kişilərə imam olmağa niyyət etməsi şərt deyildir. İmam, hazır olan camaata imam oldum deyə niyyət etməzsə, camaat ilə qılmaq savabına nail ola bilməz. İmam olmağa niyyət edərsə, bu savaba da qovuşar. İmamın "**qadınlara imam olmağa"** niyyət etməsi lazımdır. İbadətləri edərkən yalnız ağız ilə söyləməyə niyyət deyilməz. Qəlb ilə niyyət edilməzsə, ibadətlər qəbul olmaz.

## 7.TAHRİMƏ TƏKBİRİ

Namaza durarkən, "**Allahü-əkbər**" deməkdir ki, fərzdir. Başqa kəlmə söyləməklə olmaz. Bəzi alimlər tahrimə təkbirinin namazın içində olduğunu söyləmişlər. Bunlara görə, namazın şərtləri də, rüknləri də altıdır.

### NAMAZIN RÜKNLƏRI:

Namazın içindəki fərzlərinə "**Rükn**" deyilir. Hamısı beşdir:

**1. KIYAM:** Namazın beş rüknündən birincisi kıyamdır. Kıyam, ayaq üstə durmaq deməkdir. Ayaq üstə dura bilməyən xəstə oturaraq qılar. Otura bilməyən xəstə arxası üstə uzanıb, başı ilə qılar. Üzü səmaya qarşı deyil, qibləyə qarşı olması üçün başı altına yastıq qoyulur. Ayaqlarını dik tutar. Qibləyə qarşı uzatmaz. Ayaq üstə ikən, iki ayaq bir-birindən dörd barmaq eni qədər açıq olmalıdır. Ayaq üstə dura bilməyən xəstə, ayaq üstə başı dönən, başı, dişi, gözü və ya başqa yeri çox ağrıyan, sidik, yel qaçırdan, yarası axan, ayaq üstə düşmən qorxusu, malının oğurlanması təhlükəsi olan, ayaq üstə qıldığı zaman orucu və ya oxuması pozulan və ya övrət yeri açılanlar oturaraq qılar. Rükü üçün bir az əyilər. Səcdə üçün başını yerə qoyar. Başını yerə qoya bilməyən kimsə rükü üçün bir az, səcdə üçün isə daha çox əyilər. Səcdə üçün əyilməsi rükü üçün əyilməsindən daha çox olmazsa, namazı qəbul olmaz. Yerə daş və taxta qoyub, bunun üstünə səcdə edərsə, namaz qəbul olarsa da, günaha girər. Yəni tahrimən məkruh olar.

**2. QİRAƏT:** sünnətlərin və vitrin hər rükətində və yalnız qılarkən fərzlərin iki rükətində, ayaq üstə Qurani-Kərimdən bir ayət oxumaq fərzdir. Qısa surə oxumaq daha savabdır.

Qiraət olaraq buralarda Fatihə oxumaq, sünnətlərin və vitr namazının hər rükətində və fərzlərin iki rükətində Fatihədən başqa bir də surə və ya üç ayət oxumaq vacibdir. Fərzlərdə Fatihəni və zammı-surəni ilk iki rükətdə oxumaq vacib və ya sünnətdir. Fatihəni surədən öncə oxumaq da vacibdir. Bu beş vacibdən biri unudularsa, səcdəi səhv etmək lazımdır.

Qiraətdə Qurani-Kərim tərcüməsini oxumaq caiz deyildir.

İmamın Cümə və bayram namazlarından başqa hər namazda birinci rükətdə, ikinci rükətdə oxuyacağının iki misli uzun oxuması sünnətdir. Yalnız ikən hər rükətdə eyni miqdarda oxuya bilər. İmamın eyni namazların, eyni rükətlərində,

eyni ayətləri oxumağı adət etməsi məkruhdur. Birinci rükətdə oxuduğunu ikinci rükətdə də oxuması tənzihən məkruhdur. Tərsinə oxumaq daha qəbahətdir. İkincidə, birinci rükətdə oxuduğundan sonrakı surəni keçərək daha sonrakını oxumaq məkruhdur. Qurani-Kərimi mushafdakı sıra ilə oxumaq hər zaman vacibdir.

**3. RÜKÜ:** Kıyamda qiraətdən sonra təkbir gətirərək, rüküyə əyilir. Rüküdə kişilər barmaqlarını açıb dizlərinin üstünə qoyar, belini və başını düz tutarlar. Rüküdə ən az üç dəfə, "**Sübhanə rabbiyəl azım**" deyilir. Üç dəfə oxumadan imam başını qaldırarsa, o da həmən qaldırar. Rüküdə qollar və ayaqlar dik tutulur. Qadınlar barmaqlarını açmaz. Belini və ayaqlarını, qollarını dik tutmazlar. Rüküdən qalxarkən "**Səmiallahü limən hamidəh** , demək, imama və yalnız qılana sünnətdir. Camaat bunu söyləməz. Bunun arxasından həmən "**Rabbənə ləkəl hamd**" deyilir və dik durulur və "**Allahü-əkbər**" deyərək səcdəyə gedərkən, öncə sağ, sonra sol diz, sonra sağ, sonra sol əl, sonra burun və alın yerə qoyulur.

**4. SƏCDƏ:** Səcdədə əl barmaqları bir-birinə bitişik, qibləyə qarşı, qulaqlar səviyyəsində, baş iki əl arasında olmalıdır. Alını təmiz yerə, yəni daş, torpaq, taxta, döşək üzərinə qoymaq fərz olub, burunu da bərabər qoymaq vacib deyilmişdir. Üzrsüz yalnız burnu qoymaq caiz deyildir. Yalnız alını qoymaq məkruhdur.

İki ayağı və ya heç olmazsa hər birinin bir barmaqlarını yerə qoymaq fərzdir və ya vacibdir. Yəni iki ayaq yerə qoyulmazsa, namaz qəbul olmaz və ya məkruh olar.

Səcdədə ayaq barmaqlarını bükərək uclarını qibləyə çevirmək sünnətdir.

Kişilər, qolları və budları qarından ayrı olar. Əlləri və dizləri yerə qoymaq sünnətdir. Topuqları kıyamda, bir-birindən dörd barmaq eni qədər uzaq, rüküdə, qövmədə və səcdədə bitişik tutmaq sünnətdir.

Səcdəyə gedərkən şalvar dizlərini yuxarı çəkmək məkruhdur və bunları yuxarı çəkıb çirmələyib namaza durmaq məkruhdur. Qolları, ayaqları, ətəkləri çirməli, qıvrıq, qısa olaraq namaz qılmaq məkruhdur. Tənbəlliklə və ya başı qapalı qılmanın əhəmiyyətini düşünməyərək, başı açıq namaz qılmaq məkruhdur. Namaza əhəmiyyət verməmək isə küfrdür. Kirli paltar ilə və iş paltarı ilə namaz qılmaq da məkruhdur.

**5. QADƏİ AXİRƏ:** Son rükətdə "**Əttəhiyyatu**"nu oxuyacaq qədər oturmaq fərzdir. Oturarkən əl barmaqları ilə işarə etmək olmaz. Kişilər sol ayağını barmaq ucları sağa doğru dönük olaraq yerə yatırır. Bu ayağın üzərinə oturar. Sağ ayağı dik tutar. Bunun barmaqları yerə dəyər. Barmaqlarının ucu qibləyə qarşı bir az bükülmüş olar. Belə oturmaq sünnətdir. Qadınlar ombasını yerə qoyaraq oturur. Budları bir-birinə yaxın olar. Sağ ayağını sağ tərəfdən çölə çıxarır. Sol ayağı barmaq ucları sağa dönmüş olaraq altında qalar.

## NAMAZ NECƏ QILINIR?

### TƏK QILAN KİŞİNİN NAMAZI:

Məsələn: "**Sübh Namazının Sünnəti**" belə qılınır:

1. Öncə qibləyə qarşı dönülür. Ayaqlar bir-birindən dörd barmaq qədər açıq olaraq paralel tutulur. Əllərin baş barmaqları qulağın yumşaq hissəsinə dəydirilir, ovuç içləri qiblə istiqamətinə tərəf açılır. "**Niyyət etdim, Allah rizası üçün bu günün sübh namazının sünnətini qılmağa, döndüm qibləyə"** deyə qəlbdən keçirildikdən sonra "**Allahü-əkbər**" deyərək göbək altında sağ əl sol əlin üzərinə bağlanır.

2. Gözləri, səcdə ediləcək yerdən ayırmadan: a) **"Sübhanəkə"** oxunur. b) Əuzu Bəsmələdən sonra **"Fatihə"** oxunur. c) Fatihədən sonra bəsmələ oxunmadan bir zamm-ı surə (məsələn; Ələm təra-kəyfə) oxunur. (Şafii məzhəbinə görə Fatihə ilə zammı-surə arasında bəsmələ oxunur).

3. Zammı surədən sonra "**Allahü-əkbər**" deyərək rüküyə əyilir. Əllərlə diz qapaqları tutulur, bel düz tutulur və gözləri ayaqlarından ayırmayaraq, üç dəfə "**Sübhanə Rabbiyəl-azim**" deyilir. Beş və ya yeddi dəfə də söylənə bilər.

4. "**Səmiallahü limən hamidəh**" deyərək qalxarkən, şalvar çəkilməz və gözlər səcdə yerindən ayrılmaz. Tam dik durunca "**Rabbəna ləkəl hamd**" deyilir. [Bu cür dik durmağa **kavmə** deyilir.]

5. Ayaq üstə çox durmadan "**Allahü-əkbər**" deyərək səcdəyə gedilir. Səcdəyə gedərkən sıra ilə; a) Sağ diz, sonra sol diz, sağ əl, sonra sol əl, burun və alın yerə qoyulur. b) Ayaq barmaqları qiblə istiqamətində bükülür. c) Baş iki əlin arasında qalır. d) Əlin barmaqları birləşdirilir. e) Ovuc içləri yerə yapışdırılır. Dirsəklər yerə yapışdırılmaz. f) Bu vəziyyətdə ikən ən az üç dəfə **"Sübhanə Rabbiyəl-alə"** deyilir. Sonra:

6. "**Allahü-əkbər**" deyərək sol ayaq yerə yayılır, sağ ayağın barmaqları qiblə istiqamətində bükülür və budlarının üzərində oturulur. Ovuclar dizin üzərinə qoyulur və barmaqlar sərbəst buraxılır.

7. Budları üzərində artıq durmadan "**Allahü-əkbər**" deyərək, təkrar səcdəyə gedilir. (İki səcdə arasında oturmağa **cəlsə** deyilir).

8. Səcdədə yenə ən az üç dəfə "**Sübhanə Rabbiyəl-alə**" dedikdən sonra "Allahü-əkbər" deyərək ayağa qalxılır. Ayağa qalxarkən əllərlə yerdən qüvvət alınmaz və ayaqlar oynadılmaz. Səcdədən qalxarkən öncə alın, sonra burun, sonra da sol əl və sağ əl, sonra sol diz və sağ diz yerdən qaldırılmalıdır.

9. Ayaq üstə ikən bəsmələdən sonra "**Fatihə**" və bundan sonra bir zammı-surə oxunub, "**Allahü-əkbər**" deyərək rüküyə əyilir.

10. İkinci rükət də birinci rükətdə tərif edildiyi şəkildə tamamlanır. Yalnız ikinci səcdədən sonra "**Allahü-əkbər**" deyincə ayağa qalxmayıb ombalar üzərinə oturulur və: a) "**Əttəhiyyatu**", "**Allahümmə salli**", "**Allahümmə barik**" və **"Rabbəna ətinə"** dualarını oxuduqdan sonra öncə sağa **"Əssəlamü aləyküm və rəhmətullah",** sonra sola **"Əssəlamü aləyküm və rəhmətullah"** deyə salam verilir. b) Salam verdikdən sonra "**Allahümmə əntəssəlam və minkəssəlam təbəraktə yə zəl-cələli vəl-ikram"** deyilir və heç danışmadan sübh namazının fərzini qılmağa qalxılır. Çünki, sünnət ilə fərz arasında danışmaq namazı pozmazsa da, savabını azaldır. Namazdan sonra üç dəfə "Əstağfirullah" dedikdən sonra **"Ayətəl-kürsi"**

və 33 təsbeh, 33 tahmid və 33 təkbir və bir təhlil, yəni "**Lə iləhə illallahü vahdəhu lə şərikələh, ləhül mülkü və ləhül həmdü və hüvə alə külli şəyin qadir**" oxunur. Bunlar səssizcə oxunmalıdır. Yüksək səslə oxumaq bidətdir. Daha sonra dua edilir. Duada kişilər qolları sinə səviyyəsinə qaldırır. Qollar dirsəklərdən bükülməz. Ovuclar açılır, ovuc içi səmaya çevrilir. Çünki necə namazın qibləsi Kəbə isə, duanın qibləsi də səmadır. Duadan sonra "**Sübhanərabbikə**..." ayəti-kəriməsini oxuyub, əlləri üzünə sürtər. Dörd rükətli sünnətlərin və fərzlərin ikinci rükətindən sonra təhiyyat oxuyub qalxılır. Sünnətlərin üç və dördüncü rükətlərində Fatihədan sonra zammı-surə oxunur. Fərzlərin üçüncü və dördüncü rükətlərində yalnız Fatihə oxunur, zammı-surə oxunmaz. Axşamın fərzi də belədir. Yəni üçüncü rükətində zammı-surə oxunmaz. Vitrin üç rükətində də Fatihədən sonra zammı-surə oxunur. Sonra təkbir gətirib əllər qulaqlara qaldırılır. Sonra "**Kunut**" duaları oxunur. Qeyri-müəkkəd olan əsrin və işanın öncəki sünnətləri də digər dörd rükətli sünnətlər kimidir. Ancaq ikinci rükətdən sonrakı oturmada təhiyyatdan sonra Allahümmə salli və bariklər də oxunur.

**TƏK QILAN QADININ NAMAZI:**

Məsələn: "**Sübh namazının sünnəti**"ni belə qılar:

1. Bədənin şəkli müəyyən olunmayacaq şəkildə təpədən dırnağa qədər örtünür. Yalnız əllər və üz açıq qalar. Namazda oxuyacağı surə və dualar daha əvvəl izah edilən "**Tək qılan kişinin namazı**" kimidir. Fərqli qismləri isə belədir:

a) Əlləri kişilər kimi qulaqlara qaldırmaz, əlləri çiyin səviyyəsinə qaldıraraq niyyət edər, təkbir alar, əlləri sinəsi üzərinə bağlayar, namaza başlayar. b) Rüküdə tam düz durmaz. c) Səcdədə dirsəkləri yerə yayar. d) Təşəhhüddə budunun üzərinə oturur. Yəni sağ və sol ayaqlar sağ tərəfdə olub, sol budunun üzərinə oturur. Namazda qadınlar üçün yaxşı örtülü vəziyyətdə olmağın ən asan şəkli əllərini də örtəcək geniş bir baş örtüyü və ayaqlarını da örtəcək geniş və uzun bir dondur.

## NAMAZIN VACİBLƏRI

Namazın vacibləri bunlardır:

1. Fatihə surəsini oxumaq.
2. Fatihədən sonra bir surə və ya ən az üç qısa ayət oxumaq.
3. Fatihəni surədən əvvəl oxumaq.
4. Fatihəni və Fatihədən sonra oxunan surəni fərzlərin birinci və ikinci rükətlərində, vacib və sünnətlərin hər rükətində oxumaq.
5. Səcdələri bir-birinin ardınca etmək.
6. Üç və dörd rükətli namazların ikinci rükətində təşəhhüd miqdarı oturmaq. Son oturuş fərzdir.
7. İkinci rükətdə təşəhhüddən artıq oturmamaq.
8. Səcdədə burunu alnı ilə bərabər yerə qoymaq.

9. Son rükətdə oturarkən "**Əttəhiyyatu**" duasını oxumaq.

10. Namazda tadili-ərkana riayət etmək.

11. Namazın sonunda "**Əssəlamü aləyküm və rəhmətullah"** , demək.

12. Vitr namazının üçüncü rükətinin sonunda kunut duası oxumaq.

13. Bayram namazlarında təkbir gətirmək.

14. İmamın sübh, cümə, bayram, təravih, vitr namazlarında və şam ilə işa ilk iki rükətində yüksək səslə oxuması.

15. İmamın və yalnız qılanın zöhr və əsr fərzlərində və şamın üçüncü, işanın üçüncü və dördüncü rükətlərində yavaş səslə oxuması vacibdir. İmamın yüksək səslə oxuması vacib olan yerləri, yalnız qılanın, yüksək səs ilə də, yavaş səslə də oxuması caizdir.

Qurban bayramının ərəfəsinin sübh namazından, dördüncü günün əsr namazına qədər 23 fərz namazının arxasınca, **"Təkbiri təşrik"** oxumaq vacibdir**.**

**SƏHV "Yanılma və Unutma" SƏCDƏSİ:**

Namaz qılan namazda fərz olan bir şeyi bilərək və ya unudaraq tərk edərsə, namazı pozulur. Əgər bir vacibi unudaraq tərk edərsə, namazı pozulmaz. Lakin səhv səcdəsi etməsi lazım olar. Səcdəi-səhvi bilə-bilə etməyən və ya namazın vaciblərindən birini bilərək tərk edən kimsənin o namazı yenidən qılması vacib olar. Qılmazsa, günahkar olar. Sünnətin tərkində səcdəi-səhv lazım olmaz. Səcdəi-səhv bir fərzin gecikməsində və ya bir vacibin tərk və gecikməsində edilir.

Namazda bir neçə dəfə səcdəi-səhvi lazım etsə, bir dəfə etmək kifayət edər. İmamın çaşması ona uyanların da səcdəi-səhv etməsi lazımdır. İmama tabe olan səhv edərsə, özü imamdan ayrı səcdəi-səhv etməz. Səcdəi-səhvi etmək üçün təhiyyat oxunub, bir tərəfə salam verildikdən sonra iki səcdə edib oturulur və "**Təhiyyat**", "**Salli və barik", "Rabbəna"** duaları oxunaraq namaz tamamlanır. Bir və ya iki tərəfə salam verdikdən sonra və ya heç salam vermədən də səcdəi-səhv edilə bilər.

**SƏCDƏİ-SƏHVİ ZƏRURƏT ETDİRƏN XÜSUSLAR:**

Oturması lazım olan yerdə qalxmaq, qalxması lazım olan yerdə oturmaq, səsli oxuması zərurət edən yerdə yavaş oxumaq, yavas oxuması lazım olan yerdə səsli oxumaq, dua oxunacaq yerdə Qurani-Kərimdən oxumaq, Qurani-Kərimdən oxunacaq yerdə dua oxumaq, (məsələn, Fatihə surəsi yerinə Əttəhiyyatu duasını oxumaq, Əttəhiyyatu oxunacaq yerdə Fatihə oxumaq kimi. Burada Fatihə tərk edilmiş olur) namazı tamamlamadan salam vermək, fərz namazların üçüncü və dördüncü rükətlərində Fatihədan sonra zammı-surə oxumaq, ilk iki rükətdə, Fatihədən sonra zammı-surə oxumamaq, bayram namazı təkbirlərini tərk etmək, vitr namazında kunut duasını tərk etmək.

**TİLAVƏT SƏCDƏSİ:**

Qurani-Kərimdə 14 yerdə səcdə ayəti vardır. Bunlardan birisini oxuyanın və ya eşidənin mənasını anlamasa da, bir səcdə etməsi vacibdir. Səcdə ayətlərini ya-

zan, hecalayan səcdə etməz. Dağlardan, çöllərdən və başqa yerlərdən əks edib geri gələn sədanı eşidənlərin və quşdan eşidənlərin səcdə etməsi vacib olmaz. İnsan səsi olması lazımdır. Radiodan, mikrofondan eşidilən səsin insan səsi olmadığı, hafizin səsinə bənzəyən, cansız alət səsi olduğu daha əvvəl bildirilmişdi. Bunun üçün radiodan və maqnitafondan oxunan səcdə ayətlərini eşidənin tilavət səcdəsi etməsi vacib olmaz. Tilavət səcdəsi etmək üçün dəstəmazlı olaraq, qibləyə qarşı ayaq üstə durub, əlləri qulaqlara qaldırmadan "**Allahü-əkbər**" deyərək səcdəyə gedilir. Üç dəfə "**Sübhanə rabbiyəl alə**" deyilir. Sonra "**Allahü-əkbər**" deyib səcdədən qalxınca səcdəi- tilavət tamamlanmış olur. Öncə niyyət etmək lazımdır. Niyyətsiz qəbul olmaz. Namazda oxuyunca, həmən ayrıca rükü və bir səcdə edib ayağa qalxar. Oxumasına davam edər. Səcdə ayətini oxuduqdan iki-üç ayət sonra namazın rüküsuna əyilərsə və tilavət səcdəsinə niyyət edərsə, namazın rüküsu və ya səcdələri, tilavət səcdəsi yerinə keçər. Camaat ilə qılan imam səcdə ayətini oxuyunca imamın oxuduğunu eşitməsə də, imamla birlikdə ayrıca bir rükü və iki səcdə edər. Camaatın rüküdə niyyət etməsi lazımdır. Namaz xaricində, sonra da edə bilər.

## ŞÜKR SƏCDƏSİ:

Tilavət səcdəsi kimidir. Özünə nemət gələn və ya bir dərddən qurtulan kimsənin, Allahü təala üçün **"səcdəi-şükr"** etməsi müstəhəbdir. Səcdədə öncə "**Əlhamdulillah**" deyər. Sonra səcdə təsbehini oxuyar. Namazdan sonra səcdə etmək məkruhdur.

Namazda tadili-ərkana riayət etməyənin bütün məxluqlara zərəri toxunur. Çünki o kimsənin günahı səbəbi ilə yağışlar yağmaz, yerdə əkinlər bitməz və vaxtsız olaraq yağış yağar, fayda yerinə zərər vermiş olar buyurulmuşdur.

## NAMAZIN SÜNNƏTLƏRİ:

1. Namazda əlləri qulağa qaldırmaq.
2. Əlin ovucunu qibləyə çevirmək.
3. Təkbir aldıqdan sonra əl bağlamaq.
4. Sağ əli sol əlinin üzərinə qoymaq.
5. Kişinin əllərini göbəyindən aşağıya qoyması, qadının sinəsinə qoyması.
6. Iftitah təkbirindən sonra "**Sübhanəkə**" oxumaq.
7. İmamın və tək qılanın "**Əuzu**" oxuması.
8. Bəsmələ oxumaq.
9. Rüküdə üç dəfə "**Sübhanə rabbiyəl-azım**" , demək.
10. Səcdədə üç dəfə "**Sübhanə rabbiyəl-alə**" , demək.
11. Son oturuşda "**Salavat**" dualarını oxumaq.
12. Salam verərkən iki yanına baxmaq.
13. İmamın, cümə və bayram namazlarından başqa, hər namazda birinci rükətdə ikinci rükətdə oxuyacağının iki misli uzun oxuması.
14. Rüküdən qalxarkən imamın və yalnız qılanın "**Səmiallahü limən hamidəh"** deməsi.

15. Rüküdən qalxınca “**Rabbəna ləkəl-həmd**” demək.

16. Səcdədə ayaq barmaqlarını bükərək uclarını qibləyə çevirmək.

17. Rükü və səcdələrə enərkən və səcdələrdən qalxarkən **“Allahü-əkbər”** demək.

18. Əlləri və dizləri yerə qoymaq.

19. Topuqları kıyamda bir-birindən dörd barmaq eni qədər uzaq, rüküdə, kavmə və səcdədə bitişik tutmaq.

20. Fatihədan sonra “**amin**” demək, rüküdən öncə təkbir almaq, rüküdə, əlləri, barmaqları açıq olaraq, diz qapaqları üzərinə bağlamaq, səcdə üçün təkbir almaq, oturarkən sol ayağını yerə yatırıb, sağ ayağını dikib oturmaq, iki səcdə arasında oturmaq.

Şam namazında qısa surələr oxunur. Sübh namazında ilk rükət, ikincisinə nisbətlə daha uzun edilir. İmama tabe olan, Fatihə və zammı-surə oxumaz. Sübhanəkə oxuyar. Təkbirləri söyləyər. Təhiyyat və salavatı-şərifləri oxuyar.

## NAMAZIN MÜSTƏHƏBLƏRİ:

1. Namaz qılarkən səcdə yerinə baxmaq.

2. Rüküyə getdiyi zaman ayaqlarına baxmaq.

3. Səcdədə burnunu qoyduğu yerə baxmaq.

4. Təhiyyata oturunca dizlərinin üstünə baxmaq.

5.Fatihədən sonra oxunacaq ayət miqdari, sübh və zöhr namazlarında uzun, şam namazlarında qısa olmaq.

6 İmama tabe olan kimsə təkbiri yavaş səslə almaq.

7. Rüküdə barmaqlarını açıb, dizi üzərinə qoymaq.

8. Başını boyun ilə birlikdə rüküdə düz tutmaq.

9. Səcdəyə gedərkən öncə sağ, sonra sol dizlərini yerə qoymaq.

10. Səcdəni iki əli arasında etmək.

11. Səcdəyə burnundan sonra alnını qoymaq.

12. Namaz vaxtı əsnəyərsə, əlinin arxası ilə ağzını bağlamaq.

13. Kişilərin səcdədə dirsəklərini qaldırıb, yüksəkdə tutmaq. Qadınlar isə qollarını yerə sərərlər.

14. Kişilərin səcdədə qollarını və ayaqlarını qarnından ayrı tutmaq.

15. Rükü və səcdədə üç dəfə təsbeh edəcək qədər durmaq.

16 . Səcdədən başını qaldırdıqdan sonra əllərini yerdən qaldırmaq.

17 . Əllərini qaldırdıqdan sonra dizlərini qaldırmaq.

18 . Təhiyyatda əllərini budları üzərinə qoyub, barmaqlarını qibləyə qarşı düz tutmaq, bükməmək və heç birini oynatmamaq.

19 . Sağına, soluna salam verərkən başını çevirmək.

20 . Salam verərkən çiyin başlarına baxmaq.

## NAMAZIN MƏKRUHLARI

1. Paltarı geyinməyib, çiyinlərinə ataraq qılmaq.
2. Səcdəyə enərkən ətəkləri, şalvar dizlərini qaldırmaq.
3. Köynəyinin ətəkləri, qolları çirməli olaraq namaza durmaq.
4. Əbəs, yəni faydasız hərəkətlər etmək.
5. İş paltarı ilə və böyüklərin yanına çıxa bilmədiyi paltar ilə qılmaq.
6. Ağızda qiraətə mane olmayacaq bir şeyin olması. Mane olarsa, namazı pozulur.
7. Başı açıq namaz qılmaq.
8. Kiçik və böyük dəstəmazı sıxışdırarkən və yel zorlayarkən namaza durmaq.
9. Namazda ikən səcdə yerindən daşı, torpağı əli ilə süpürmək.
10. Namaza durarkən namaz içində barmaqları çıtırdatmaq.
11. Namazda əlini böyrünə qoymaq.
12. Başını və üzünü ətrafa çevirmək, gözləri ilə ətrafa baxmaq. Sinəsini çevirincə namaz pozulur.
13. Təşəhhüdlərdə it kimi oturmaq.
14. Səcdədə kişilərin qollarını yerə yayması.
15. İnsanın üzünə qarşı və yüksək səslə danışanların arxasına qarşı qılmaq.
16. Birinin salamına əli ilə, başı ilə cavab vermək.
17. Namazda və namaz xaricində əsnəmək.
18. Namazda gözləri yummaq.
19. İmamın mehrab içində durması.
20. İmamın təkbaşına, camaatdan yarım metr yüksəkdə durması tənzihən məkruhdur.
21. İmamın təkbaşına, aşağıda durması da tənzihən məkruhdur.
22. Öndəki sırada boş yer var ikən, arxadakı sırada durmaq və sırada yer yox ikən, sıra arxasında tək durmaq.
23. Üzərində canlı rəsm olan paltar ilə qılmaq.
24. Canlı rəsmi namaz qılanın başında, önündə, sağ və sol tərəfində divara çəkilmiş və ya parçaya, kağıza çəkilərək asılmış və ya qoyulmuş isə məkruhdur. Xaç rəsmi də canlı rəsmi kimidir.
25. Alovlu atəşə qarşı namaz qılmaq.
26. Namazda ayətləri, təsbehləri əli ilə saymaq.
27. Başdan ayağa qədər bir dəsmala sarılıb qılmaq.
28. Açıq başına sarıq sarıyıb, təpəsi açıq olaraq qılmaq.
29. Ağzını və burnunu örtərək qılmaq.
30. Üzrsüz boğazından bəlğəm çıxarmaq.
31. Əli bir-iki dəfə hərəkət etdirmək.
32. Namazın sünnətlərindən birini tərk etmək.

33. Zərurətsiz uşağı qucağında ikən namaza başlamaq.

34. Qəlbi məşğul edən, huşunu aradan qaldıran şeylər yanında, məsələn bəzəkli şeylər qarşısında, oyun, çalğı yanında və arzu etdiyi yemək qarşısında qılmaq.

35. Fərz qılarkən üzrsüz divara və dirəyə dayanmaq.

36. Rüküyə əyilərkən və qalxarkən əlləri qulaqlara qaldırmaq.

37. Qiraəti rüküyə əyildikdə tamamlamaq.

38. Səcdələrə və rüküyə imamdan öncə başını qoymaq və qaldırmaq.

39. Nəcasət olma ehtimalı olan yerlərdə namaz qılmaq.

40. Qəbrə qarşı namaz qılmaq.

41. Təşəhhüdlərdə sünnətə uyğun oturmamaq.

42. İkinci rükətdə birincidən üç ayət uzun oxumaq.

## NAMAZ XARİCİNDƏ MƏKRUH OLAN ŞEYLƏR

1. Tualetdə və hər yerdə dəstəmazı pozarkən və istinca edərkən, qibləyə önünü və arxasını döndərmək.

2. Günəşə və aya qarşı dəstəmaz pozmaq.

3. Kiçik uşaqları qibləyə qarşı tutaraq dəstəmaz pozdurmaq böyüyə məkruh olar. Bunun üçün böyüklərə haram olan şeyi kiçiklərə etdirmək, etdirənə haram olar.

4. Qibləyə qarşı üzrsüz ayaqlarını və ya bir ayağını uzatmaq.

5. Mushafa və din kitablarına qarşı ayaq uzatmaq. Yüksəkdə isələr, məkruh olmaz.

## NAMAZI POZAN ŞEYLƏR

1. Üzrsüz öksürmək və ya boğazını təmizləmək.

2. Namaz qılan kimsə başqası asqırınca **“Yərhamükəllah”** , demək.

3. Namazı tək qılan kimsə digər tərəfdə camaat içində imam oxuyarkən yanıldığını eşidib ona xəbər etsə, namazı pozulur. Əgər imam da bu kimsənin xəbərinə tabe olaraq oxuyarsa, imamın da namazı pozulur.

4. Namaz içində “**lə ilahə illallah**” desə, əgər məqsədi cavab isə, namazı pozulur. Əgər məqsədi bildirmək isə, namazı pozulmaz.

5. Övrət yerini açmaq.

6. Ağrı və ya başqa bir dərd səbəbi ilə ağlamaq. (Cənnət və ya Cəhənnəm zikr olunub, onları düşünüb ondan dolayı ağlayarsa pozulmaz.)

7. Əli və dili ilə salam almaq.

8. Qəzaya qalmış namazların miqdarı beşi keçməmişsə, namazda ikən xatırlayarsa.

9. Namaz içində, elə bir hərəkət etsə ki, onu görən kimsə namaz qılmadığını sansa, namazı pozulur.

10. Namaz içində bir şey yemək və içmək.

11. Namaz içində söz söyləmək.

12. İmamından başqasının səhvini düzəltmək.

13. Namaz içində gülmək.

14. Namaz içində inləmək və ah etmək.

### HƏR NAMAZI POZMAĞI MUBAH EDƏN ŞEYLƏR

1. İlanı öldürmək üçün.
2. Qaçan heyvanı tutmaq üçün.
3. Sürünü canavardan qurtarmaq üçün.
4. Daşan qazanı qurtarmaq üçün.
5. Vaxtın və ya camaatın qaçmasından qorxu olmadığı zaman, başqa məzhəbdə namazı pozan bir şeydən qurtulmaq üçün məsələn dirhəmdən az nəcasəti təmizləmək üçün və yad qadına toxunmuş olduğunu xatırladıqda dəstəmaz almaq üçün namazı pozmaq caiz olar.
6. Dəstəmaz və yel sıxışdırmasından qurtulmaq üçün də namaz pozulur.

### HƏR NAMAZI POZMAQ ÜÇÜN FƏRZ OLAN ŞEYLƏR

1. Kömək diləyən bir kimsəni qurtarmaq üçün və quyuya düşəcək koru, yanan və boğulan birini xilas etmək, yanğını söndürmək üçün.
2. Ana, ata, baba və nənə çağırınca fərz namazı pozmaq vacib olmaz, caiz olarsa da, ehtiyac yox isə pozmamalıdır. Nafilə (sünnətlər daxil) isə pozulur. Bunlar kömək istəyərsə, fərzləri də pozmaq lazım olar.

## CAMAAT İLƏ NAMAZ

Namazda ən az iki nəfərdən birinin imam olması ilə camaat meydana gəlir. Beş vaxt namazın fərzlərini camaat ilə qılmaq kişilərə sünnətdir. Cümə və bayram namazları üçün camaat fərzdir. Camaat ilə qılınan namazlara daha çox savab verildiyi hədisi- şəriflərdə bildirilir. Peyğəmbərimiz “sallallahü aləyhi və səlləm” buyurdu ki: “”**Camaat ilə qılınan namaza, yalnız qılınan namazdan 27 qat artıq savab verilir”.** Yenə buyurdu ki: “**Yaxşı bir dəstəmaz alıb, məscidlərdən birinə camaat ilə namaz qılmaq üçün gedənin, Allahü təala hər addımına bir savab yazar və hər addımında əməl dəftərindən bir günahı silər və Cənnətdə onu bir dərəcə yüksəldər”.**

Camaat ilə qılınan namaz müsəlmanlar arasında birliyi və bərabərliyi təmin edər. Sevgi və bağlılığı artırar. Camaat toplanıb bir-biri ilə söhbət edər. Dərd və çətinlikləri olanlar, xəstələr bu yolla asanca ortaya çıxar. Camaat müsəlmanların tək qəlb, tək bədən kimi olduqlarının ən gözəl nümunəsidir. Xəstə, iflic, bir ayağı kəsik

olanın, yeriyə bilməyən qocaların və korun camaata getməsi şərt deyildir. Camaat ilə qılınan namazda özünə tabe olunan kimsəyə "**İmam**" deyilir. İmamlığın və buna tabe olub camaat olmanın şərtləri vardır.

## İMAMLIĞIN ŞƏRTLƏRİ

İmam olmaq üçün altı şərt lazımdır. Bu şərtlərdən biri olmayan imamın arxasında qılınan namaz qəbul olmaz.

1. Müsəlman olmaq. Əbu Bəkri Sıddıq və Ömər-ül Farukun "radıyallahü anhüma" xəlifə olduğuna inanmayan, miraca, qəbir əzabına inanmayan imam ola bilməz.

2. Həddi-büluğ yaşında olmaq.

3. Ağıllı olmaq. Sərxoş və dəli imam ola bilməz.

4. Kişi olmaq. Qadın kişilərə imam ola bilməz.

5. Heç olmazsa, Fatihəyi-şərifə ilə bir ayəti doğru oxuya bilmək. Bir ayəti əzbərləməyən və əzbərləsə də təcvid ilə oxuya bilməyən, nəğmə kimi oxuyan kimsə imam ola bilməz.

6. Üzrsüz olmaq. Üzrü olan üzrü olmayanlara imam ola bilməz.

İmamın, Qurani-Kərimi təcvid ilə oxuması lazımdır. Qiraəti gözəl demək, təcvid ilə oxumaq deməkdir. Namazın şərtlərinə əhəmiyyət verməyən imamların arxasında namaz qılınmaz. **"Saleh və facir arxasında namaz qılın"** Hədisi-şərifi məscid imamları üçün deyil, Cümə qıldıran əmirlər, valilər üçündür.

İmamlığa ən layiq kimsə sünnəti [yəni din məlumatlarını] ən yaxşı bilən kimsədir. Bunda bərabər olanlar olarsa, Qurani-Kərimi ən yaxşı oxuyan imam olar. Bu da bərabərdirsə, təqvası artıq olan imam olar. Yenə bərabərlik olarsa, yaşı çox olan tərcih edilir.

Kölə, bədəvi, fasiq, kor və zina uşağının imaməti məkruhdur. İmam camaatı yoracaq və onları sıxacaq şəkildə namazı uzatmaz.

Qadınların yalnız başlarına camaat ilə qılmaları məkruhdur.

Tək şəxs ilə qılacaq olan imam onu sağ tərəfində qoyar. İki nəfərə imam olacaqsa, önlərinə keçər. Kişilərin qadına, uşağa tabe olmaları caiz deyildir. İmamın arxasında kişilər sıra edər, sonra uşaqlar və onların arxasında da qadınlar sıra edərlər. İmam qadınlara da imamətə niyyət etmişsə, eyni namazda olan bir qadın, bir kişi ilə eyni sırada namaza durarsa, kişinin namazı pozulur. Əgər imam bu qadına imaməti niyyət etməmişsə yanında durduğu kişiyə zərər olmaz. Ancaq qadının namazı caiz olmaz. Ayaq üstə namaz qılanın oturarkən qılana tabe olması caizdir. Mukim səfəri imama tabe ola bilər. Fərz qılan nafilə qılana tabe ola bilməz. Nafilə qılan, fərz qılana tabe ola bilər. İmama tabe olub namaz qıldıqdan sonra imamın dəstəmazsız olduğunu bilən kimsə namazını iadə edər.

Rəqaib, Bəraət və Qədr namazlarını camaat ilə qılmaq məkruhdur.

Camaat istəsə də, imamın fərz qıldırarkən qiraəti və təsbehləri sünnətdən artıq oxuması tahrimən məkruhdur.

İmama rükudə çata bilməyən o rükəti imamla qılmış olmaz. İmam rüküdə ikən gələn niyyət edər və ayaq üstə təkbir gətirib, namaza girər. Dərhal rüküyə əyilib, imama uyar. Rüküyə əyilmədən imam rüküdən qalxarsa, rüküyə çatmamış olar.

İmamdan əvvəl rüküyə əyilmək, səcdəyə getmək və ya əvvəl qalxmaq tahrimən məkruhdur. Fərz namazları qıldıqdan sonra, sıraları pozmaq müstəhəbdir.

Bir mömin beş vaxt namazını hər gün camaat ilə qılsa, bütün Peyğəmbərlərlə "aləyhimüssəlam" qılmış kimi savaba nail olar.

Camaat ilə qılınan namazın bu qədər fəziləti imamın namazı qəbul olmasına bağlıdır.

Bir kimsə camaatı üzrsüz tərk etsə, o şəxs Cənnət qoxusu hiss etməz. Camaatı üzrsüz tərk edənlər dörd kitabda lənətlənmiş deyə bildirilmişdir.

Beş vaxt namazı camaat ilə qılmağa cəhd etməlidir. Qiyamət günü Allahü təala həzrətləri yeddi qat yerləri, yeddi qat göyləri, Ərşi, Kürsünü və bütün məxluqatı tərəzinin bir tərəfinə qoysa, şərtlərinə riayət edilərək camaat ilə qılınan bir vaxt namazın savabını digər tərəfə qoysa, camaat ilə qılınan namazın savabı daha ağır gələr.

**İMAMA TABE OLMANIN DOĞRU OLA BİLMƏSI ÜÇÜN ON ŞƏRT VARDIR:**

1. Namaza durarkən təkbiri söyləməzdən əvvəl, imama tabe olmağa niyyət etməkdir. "**Uydum hazır olan imama**" deyərək qəlbindən keçirmək lazımdır.
2. İmamın qadınlara imam olmağa niyyət etməsi lazımdır. Kişilərə imam olmağa niyyət etməsi lazım deyildir. Lakin niyyət edərsə, özü camaatın savabına da qovuşur.
3. Camaatın topuğu imamın topuğundan geridə olmalıdır.
4. İmam ilə camaat eyni fərz namazı qılmalıdır.
5. İmam ilə camaat arasındə qadın sırası olmamalıdır.
6. İmam ilə camaat arasında qayıq keçəcək qədər, çay və araba keçəcək qədər yolun olmaması lazımdır.
7. İmam və ya camaatdan birini görmək və ya səsini eşitmək üçün əlverişli pəncərəsi olmayan divar arada olmamalıdır.
8. İmam heyvanda, camaat yerdə və ya bunun əksinə olmamalıdır.
9. İmam ilə camaat bitişik olmayan iki gəmidə olmaması lazımdır.
10. Başqa məzhəbdəki imama tabe olan camaatın namazlarının səhih olması üçün iki qavl vardır: Birinci qavlə görə, camaatın öz məzhəblərinə görə namazı pozan bir şeyin imamda olduğunu bilməməsi lazımdır. İkinci qavlə görə, öz məzhəbinə görə namazı səhih olan imama başqa məzhəbdə olanlar da tabe ola bilər. Bu qavlə görə, karonka və plomb dişi olan imama tabe olmaq caiz olar.

Camaat bir nəfər isə, imamın sağ yanında durur. Solunda durmaq məkruhdur. Arxasında durmaq da məkruh olar. Ayağının topuğu imamın topuğundan irəli olmazsa, namazı səhih olar. İki və ya daha çox kişi isə imamın arxasında durur. İmamla birlikdə tək qılmış kimi qılınır. Ancaq ayaq üstə ikən imam içdən oxusa da, yüksək səslə oxusa da, camaat bir şey oxumaz. [Şafii məzhəbində, imamla bir-

likdə camaat da səssizcə Fatihə oxuyur.] Yalnız birinci rükətdə "Sübhanəkə" oxuyur. İmam yüksək səslə Fatihəni bitirincə, camaat yavasça "amin" deyər. Bunu yüksək səslə söyləməməlidir. Rüküdən qalxarkən, imam "**Səmiallahü limən hamidəh**" deyincə, camaat yalnız **"Rabbəna ləkəl həmd"** deyər. Sonra əyilərkən **"Allahü-əkbər"** deyərək, imamla birlikdə camaat da səcdəyə gedər. Rüküdə, səcdələrdə və oturarkən tək qıldığı kimi camaat da oxuyar. Vitr namazı, Ramazanda camaat ilə qılınır. Başqa zamanlarda tək qılınır.

**MƏSBUKUN NAMAZI**

İmama tabe olanlar dörd çesiddir. Bunlar, "**Müdrik**", "**Müqtədi**", **"Məsbuk"** və **"Lahık"**dır.

**Müdrik,** iftitah təkbirini imam ilə birlikdə alana deyilir.

**Müqtədi,** iftitah təkbirinə çatmayana deyilir.

**Məsbuk,** imama birinci rükətdə çatmayana deyilir.

**Lahık,** iftitah təkbirini imam ilə birlikdə almış, lakin sonra özündə dəstəmazını pozan bir hal meydana gəldiyindən dəstəmaz alıb, təkrar imama uymuş olana deyilir. Bu kimsə yenə əvvəlcə olduğu kimi, qiraətsiz, rükü və səcdə təsbehlərini söyləyərək namazını qılar. O kişi, əgər dünya kəlamı söyləməmiş isə, imamın ardında kimidir. Lakin məsciddən çıxdıqdan sonra yaxın bir yerdə dəstəmazını almalıdır. Çünki çox irəliyə gedərsə, namazı pozulur da deyildi. Məsbuk, yəni imama birinci rükətdə çatmayan bir kimsə imam iki tərəfə də salam verdikdən sonra ayağa qalxaraq çatmadığı rükətləri tamamlayar. Qiraətləri birinci, sonra ikinci, sonra üçüncü rükət qılırmış kimi oxuyar. Oturmağı isə dördüncü, üçüncü və ikinci rükət sırası ilə, yəni sondan başlamış kimi edər. Məsələn; yatsının son rükətinə çatan kimsə imam salam verdikdən sonra qalxıb, birinci və ikinci rükətdə Fatihə və surə oxuyar. Birinci rükətdə oturar, ikincidə oturmaz.

**BES ŞEYİ İMAM ETMƏZSƏ, CAMAAT DA ETMƏZ:**

1. İmam kunut oxumazsa, camaat da oxumaz.
2. İmam bayram namazlarındakı təkbirləri etməzsə, camaat da etməz.
3. İmam dörd rükətli namazın ikinci rükətində oturmazsa, camaat da oturmaz.
4. İmam səcdə ayəti oxuyub səcdə etməzsə, camaat da etməz.
5. İmam səcdəi-səhv etməzsə, camaat da etməz.

**DÖRD ŞEYİ İMAM EDƏRSƏ, CAMAAT ETMƏZ:**

1. İmam ikidən çox səcdə edərsə, camaat etməz.
2. İmam bayram təkbirini bir rükətdə üçdən çox edərsə, camaat etməz.
3. İmam cənazə namazında dörddən çox təkbir edərsə, camaat etməz.
4. İmam besinci rükətə qalxarsa, camaat qalxmaz, imamı gözləyər, birlikdə salam verərlər.

**ON ŞEYİ İMAM ETMƏZSƏ, CAMAAT EDƏR:**

1. İftitah təkbirində əl qaldırmaq.
2. Sübhanəkə oxumaq.

3. Rüküyə əyilərkən təkbir gətirmək.
4. Rüküdə təsbeh oxumaq.
5. Səcdələrə gedib, qalxarkən təkbir söyləmək.
6. Səcdələrdə təsbeh oxumaq.
7. Səmiallahü deməzsə, rabbəna ləkəl-həmd demək.
8. Əttəhiyyatu-nu sonuna qədər oxumaq.
9. Namaz sonunda salam vermək.
10. Qurban bayramında, 23 fərzdən sonra salam verər-verməz, təkbir oxumaqdır. Bu 23 təkbirə təşrik təkbirləri deyilir.

## İFTİTAH TƏKBİRİNİN FƏZİLƏTLƏRİ

Bir kimsə iftitah təkbirini imam ilə bərabər alarsa, payız günlərində agacların yarpaqları külək əsdikçə nə şəkildə tökülərsə, o adamın günahları da eləcə tökülür. Bir gün Rəsulullah "sallallahü aləyhi və səlləm" namaz qılarkən, bir kimsə sübh namazında iftitah təkbirinə çatmadı. Bir qul azad etdi. Ondan sonra gəlib Rəsulullaha "sallallahü aləyhi və səlləm" soruşdu: "Ya Rəsulallah! Mən bu gün iftitah təkbirinə çatmadım. Bir qul azad etdim. Görəsən iftitah təkbirinin savabına nail ola bildimmi?" Rəsulullah "sallallahü aləyhi və səlləm", Əbu Bəkri Sıddıqa "radıyallahü anh", "**Sən nə deyərsən**, **bu iftitah təkbiri haqqında?"** deyə soruşdu. Əbu Bəkri Sıddıq "radıyallahü anh" buyurdu ki, "Ya Rəsulallah! Qırx dəvəyə sahib olsam, qırxının da yükü cəvahir olsa, hamısını kasıblara paylasam, yenə imam ilə bərabər alınan iftitah təkbirinin savabına nail ola bilmərəm". Ondan sonra Rəsulullah "sallallahü aləyhi və səlləm", "**Ya Ömər! Sən ne deyərsən, bu iftitah təkbirinin haqqında?"** dedikdə, Həzrəti Ömər "radıyallahü anh", "Ya Rəsulullah! Məkkə və Mədinə arası dolu dəvəm olsa və bunların yükləri cəvahir olsa, hamısını kasıblara paylasam, yenə imam ilə bərabər alınan iftitah təkbirinin savabına nail ola bilmərəm" dedi. Ondan sonra Rəsulullah "sallallahü aləyhi və səlləm", "**Ya Osman! Sən nə deyərsən, bu iftitah təkbiri haqqında?"** dedikdə, Həzrəti Osman zinnureyn "radıyallahü anh" "Ya Rəsulallah! Gecə iki rükət namaz qılsam, hər birində, Quran-ı azim-üşşanı xətm etsəm, yenə imam ilə bərabər alınan iftitah təkbirinin savabına nail ola bilmərəm" dedi. Ondan sonra Rəsulullah "sallallahü aləyhi və səlləm" həzrətləri, "**Ya Əli! Sən nə deyərsən, bu iftitah təkbiri haqqında?**" dedikdə, Həzrəti Əli "kərrəmallahü vəchəh": "Ya Rəsulallah! Şərq ilə Qərb arası kafirlərlə ilə dolu olsa, Rəbbim mənə qüvvət versə, cümləsi ilə hərb etsəm, yenə imam ilə alınan iftitah təkbirinin savabına nail ola bilmərəm" dedi. Ondan sonra Rəsulullah "sallallahü aləyhi və səlləm" həzrətləri: "**Ey mənim ümmət və Əshabım! Yeddi qat yerlər və yeddi** qat **göylər kağız olsa, dəryalar mürəkkəb olsa, bütün agaclar qələm olsa, bütün mələklər katib olsalar və qiyamətə qədər yazsalar, yenə imam ilə alınan iftitah təkbirinin savabını yaza bilməzlər"** deyə buyurdu.

### RƏVAYƏT: SARAYA TİKİLƏN MƏSCİD

İmamı-azam Əbu Hənifənin tələbəsi İmamı Əbu Yusüf "rahmətullahi aləyh" Harun Rəşid zamanında qazı idi. Bir gün Harun Rəşidin yanında ikən, birindən şikayətçi olan birisi gəldi. Harun Rəşidin vəziri də mən şahidəm, dedi. İmamı Əbu Yusüf vəzirin şahidliyini qəbul etmədi. Xəlifə, nə üçün vəzirin şahidliyini qəbul etmirsən, soruşdu. İmam, bir gün ona iş buyurmuşdunuz. O da sizə, mən sizin qulunuz, kölənizəm demişdi. Əgər doğru söyləmişdisə, kölənin şahidliyi məqbul deyildir. Yalan söyləmişdisə, yalançının şahidliyi də eşidilməz, buyurdu. Xəlifə, mən şahidlik edərsəm, qəbul edərsənmi? dedi. Xeyir, etmərəm buyurdu. Nə üçün? dedi. Sən namazı camaat ilə qılmırsan, buyurdu. Mən müsəlmanların işləri ilə məşğulam dedi. İmam, Xaliqə ibadətin olduğu yerdə, məxluqa itaət edilməz buyurdu. Xəlifə, doğru söyləyirsən dedi və sarayında məscid tikilməsini əmr etdi. Müəzzin və imam təyin edildi və ondan sonra namazı həmişə camaat ilə qıldı.

## CÜMƏ NAMAZI

Allahü təala Cümə gününü müsəlmanlara məxsus qılmışdır. Cümə günü günorta vaxtında Cümə namazını qılmaq Allahü təalanın əmridir. Allahü təala Cümə surəsinin sonundakı ayəti-kərimədə buyurdu ki, "**Ey iman etməklə şərəflənən qullarım! Cümə günü, zöhr azanı oxunduğu vaxt xütbə dinləmək və Cümə namazı qılmaq üçün məscidyə gedin! Alış-verişi buraxın! Cümə namazı və xütbə, sizə başqa işlərinizdən daha faydalıdır. Cümə namazını qıldıqdan sonra məsciddən çıxar, dünya işlərinizi etmək üçün gedə bilərsiniz. Allahü təaladan ruzi gözləyərək çalışın. Allahü təlanı çox xatırlayın ki, qurtula biləsiniz!"**

Namazdan sonra istəyən işinə gedib çalışar, istəyən məsciddə qalıb namaz qılmaq ilə, Qurani-Kərim və dua ilə məşğul olar. Cümə namazı vaxtı girincə, alış-veriş günahdır.

Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" müxtəlif Hədisi-şəriflərində buyurdu ki: "**Bir müsəlman Cümə günü qüsl alıb Cümə namazına gedərsə, bir həftəlik günahları əfv olar və hər addımı üçün savab verilər."**

**"Cümə namazı qılmayanların qəlblərini Allahü təala möhürləyər. Qafil olarlar".**

**"Günlərin ən qiymətlisi Cümədir. Cümə günü bayram günlərindən və Aşura günündən daha qiymətlidir. Cümə dünyada və Cənnətdə möminlərin bayramıdır".**

**"Bir kimsə maneə yox ikən, üç Cümə namazı qılmazsa, Allahü təala qəlbini möhürləyər. Yəni yaxşılıq etməz olar".**

**"Cümə namazından sonra bir an vardır ki, möminin o anda etdiyi dua rədd olmaz".**

**"Cümə namazından sonra yeddi dəfə İxlas və Muavvizətəyn oxuyanı Allahü təala, bir həftə qəzadan, bəladan və pis işlərdən qoruyar".**

**“Cümə ertəsi günləri yəhudilərə, bazar günləri nasaraya** [xristianlara] **verildiyi kimi, cümə günü də müsəlmanlara verildi. Bu gün müsəlmanlara xeyir, bərəkət, yaxşılıq vardır”.**

Cümə günü edilən ibadətlərə başqa gündə edilənlərin, ən az iki qatı savab verilir. Cümə günü işlənən günahlar da iki qat yazılır.

Cümə günü ruhlar toplaşır və bir-biri ilə danışırlar. Qəbirlər ziyarət edilir. Bu gündə qəbir əzabı dayandırılır. Bəzi alimlərə görə, mömının əzabı artıq başlamaz. Kafirin Cümə və Ramazandan başqa əzabı qiyamətə qədər davam edər. Bu gün və gecəsində ölən möminlər qəbir əzabı çəkməz. Cəhənnəm Cümə günü çox isti olmaz. Adəm -əleyhissəlam Cümə günü yaradıldı. Cümə günü Cənnətdən çıxarıldı. Cənnətdəkilər Allahü təalanı Cümə günləri görəcəklər.

## CÜMƏ NAMAZININ FƏRZLƏRİ

Cümə günü on altı rükət namaz qılınır. Bunun iki rükətini qılmaq fərzdir. Zöhr namazından daha qüvvətli fərzdir. Cümə namazı fərz olmaq üçün iki cür şərti vardır:

1. Əda şərtləri.
2. Vücub şərtləri.

Əda şərtlərindən biri nöqsan olarsa, namaz qəbul olmaz. Vücub şərtləri olmazsa, qəbul olar.

**Əda, yəni Cümə namazının səhih olması üçün şərtləri yeddidir:**

1. Namazı şəhərdə qılmaq (Şəhər: Camaatı ən böyük məscidə sığmayan yer deməkdir).
2. Dövlət rəisinin və ya valinin icazəsi ilə qılmaq. Bunların təyin etdiyi xatib öz yerinə başqasını vəkil edə bilər.
3. Zöhr namazı vaxtında qılmaq.
4.Vaxt içində xütbə oxumaq. [Alimlər, Cümə xütbəsini oxumaq, namaza durarkən “**Allahü-əkbər**” demək kimidir, dedi. Yəni iki xütbəni də yalnız ərəbcə oxumaq lazımdır. Xatib əfəndi səssizcə Əuzu oxuyub, sonra yüksək səslə həmd və səna və kəlmeyi-şəhadət, salatü-səlam oxuyur. Sonra savaba, əzaba səbəb olan şeyləri xatırladır və ayəti-kərimə oxuyur. Oturub qalxır. İkinci xütbəni oxuyub moizə yerinə möminlərə dua edir. Dörd xəlifənin adını söyləməsi müstəhəbdir. Xütbəyə dünya sözü qarışdırmaq haramdır. Xütbəni nitq və konfrans şəklinə salmamalıdır. Xütbəni qısa oxumaq sünnətdir. Uzun oxumaq məkruhdur.]
5. Xütbəni namazdan əvvəl oxumaq.
6. Cümə namazını camaat ilə qılmaq.
7. Məscid qapılarını hər kəsə açıq saxlamaq.

### CÜMƏ NAMAZININ VÜCUB ŞƏRTLƏRİ DOQQUZDUR:

1. Şəhərdə, qəsəbədə yaşamaq. Səfərilərə fərz deyildir.

2. Sağlam olmaq, xəstəyə, xəstəni buraxa bilməyən baxıcıya və qocalara fərz deyildir.

3. Azad olmaq.

4. Kişi olmaq. Qadınlara fərz deyildir.

5. Həddi-büluğ olmaq. Yəni "**Mükəlləf**" olmaq.

6. Kor olmamaq. Yolda aparan olsa belə kor olana fərz deyildir.

7. Yeriyə bilməkdir. Nəqliyyat vasitəsi olsa belə, iflicə, ayaqsıza fərz deyildir.

8. Həbs edilmiş olmamaq və düşmən qorxusu, hökumətdən, zalımdan qorxusu olmamaq.

9. Çox yağış, qar, fırtına, palçıq və soyuq olmamaq.

## CÜMƏ NAMAZI NECƏ QILINIR?

Cümə günü, zöhr azanı oxunduqdan sonra on altı rükət Cümə namazı qılınır. Bunların sırası belədir:

1. Əvvəl Cümə namazının dörd rükətlik "**ilk sünnəti**" qılınır. Bu sünnət zöhr namazının ilk sünnəti kimi qılınır. Bunun üçün "Niyyət etdim, Allah rizası üçün Cümə namazının ilk sünnətini qılmağa, döndüm qibləyə" deyə niyyət edilir.

2. Sonra məscid içində ikinci azan və xütbə oxunur.

3. Xütbə oxunduqdan sonra iqamət oxunub, camaat ilə Cümə namazının iki rükətlik "**fərz**" qılınır.

4. Cümə namazının fərzi qılındıqdan sonra dörd rükətlik "**son sünnət"** qılınır. Bunun qılınması zöhr namazının ilk sünnəti kimidir.

5. Bundan sonra "**üzərimə fərz olan qıla bilmədiyim son zöhr namazının fərzini qılmağa"** deyə niyyət edərək, "**axır zuhur**" namazı qılınır. Dörd rükətlik bu namazın qılınması zöhr namazının fərzinin qılınması kimidir.

6. Sonra da, iki rükət "**vaxtın sünnəti**" qılınır. Qılınması sübh namazının sünnətinin qılınması kimidir.

7. Bundan sonra Ayətəl-kürsü və təsbehlər oxunub, dua edilir.

## CÜMƏ GÜNÜNÜN SÜNNƏT VƏ ƏDƏBLƏRİ:

1. Cüməni cümə axşamından qarşılamaq.

2. Cümə günü qüsl almaq.

3. Başı taraş etmək. Saqqalın bir tutamdan artığını və dırnaqları kəsmək. Təmiz paltar geyinmək.

4. Cümə namazına mümkün olduğu qədər erkən getmək.

5. Ön sıraya keçmək üçün camaatın çiyinlərindən aşmamalıdır.

6. Məsciddə namaz qılanın önündən keçməmək.

7. Xatib əfəndi minbərə çıxdıqdan sonra heç bir şey söyləməmək, danışana işarət ilə belə cavab verməmək və azanı təkrarlamamaq.

8. Cümə namazından sonra Fatihə, Kafirun, İxlas, Fəlaq və Nas surələrini yeddi dəfə oxumaq

9. Əsr qədər məsciddə qalıb ibadət etmək.

10.Əhli-sünnət alimlərinin kitablarından anladılan alimlərin dərsində, vazında olmaq.

11. Cümə gününü həmişə ibadət ilə keçirmək.
12. Cümə günü salavatı-şərifə gətirmək.
13. Qurani-Kərim oxumaq. "**Kəhf**" surəsini oxumalıdır.
14. Sədəqə vermək.
15. Ana-atanı və ya qəbrlərini ziyarət etmək.
16. Evin yeməklərini bol və şirin etmək.
17. Çox namaz qılmaq. Qəzaya qalmış namazı olanlar qəza namazı qılmalıdır.

## BAYRAM NAMAZLARI

Şəvval ayının birinci günü fitr, yəni Ramazan bayramının, Zilhiccənin onuncu günü isə, Qurban bayramının birinci günləridir. Bu iki gündə günəş doğduqdan və kərahət vaxtı (haram vaxt) çıxdıqdan sonra iki rükət bayram namazı qılmaq kişilərə vacibdir. Bayram namazlarının şərtləri Cümə namazının şərtləri kimidir. Lakin burada xütbə sünnətdir və namazdan sonra oxunur. Ramazan bayramında namazdan öncə şirin [xurma və ya şəkər] yemək, qüsl etmək, misvak istifadə etmək, ən yaxşı paltarları geyinmək, fitrəni namazdan əvvəl vermək, yolda yavasça təkbir oxumaq müstəhəbdir. Qurban bayramı namazından əvvəl bir sey yeməmək, namazdan sonra ilk olaraq qurban əti yemək, namaza gedərkən yüksək səslə, üzrü olan yavasça təkbir gətirmək müstəhəbdir. Bayram namazları iki rükətdir. Camaat ilə qılınır, tək qılınmaz.

### BAYRAM NAMAZI NECƏ QILINIR?

1- İlk əvvəl "Niyyət etdim vacib olan bayram namazını qılmağa, uydum hazır olan imama" deyə niyyət edərək, namaza durulur. Sonra "**Sübhanəkə**" oxunur.

2- Sübhanəkədən sonra əllər üç dəfə təkbir gətirərək qulaqlara qaldırılıb birinci və ikincisində iki yana buraxılır. Üçüncüsündə göbək altına bağlanır. İmam öncə Fatihə, sonra bir surə oxuyur və birlikdə rüküyə əyilirlər.

3- İkinci rükətdə imam əvvəl Fatihə və bir surə oxuyur. Sonra iki əl üç dəfə təkbir gətirərək qaldırılır. Hər üçündə də əllər yanlara buraxılır. Dördüncü təkbirdə əlləri qulaqlara qaldırmayıb, rüküyə əyilir. Qısa olaraq: **İki salla, bir bağla, Üç salla, bir əyil!** deyə əzbərlənir.

### TƏŞRIK TƏKBİRLƏRİ:

Qurban bayramının ərəfəsi günü, sübh namazından dördüncü günü əsr namazına qədər, hacıların və həccə getməyənlərin, kişi, qadın hər kəsin camaat ilə qılsın, tək qılsın, fərz namazından sonra salam verər-verməz, bir dəfə "**Təşrik təkbir**"ini oxuması vacibdir. Cənazə namazından sonra oxunmaz. Məsciddən çıxdıqdan sonra və ya danışdıqdan sonra oxumaq lazım deyildir. İmam təkbiri unudarsa, camaat tərk etməz. Kişilər, yüksək səslə oxuya bilər. Qadınlar yavaş söyləyər.

### TƏŞRİK TƏKBİRİ:

**“ALLAHÜ-ƏKBƏR, ALLAHÜ-ƏKBƏR. LƏ İLƏHƏ İLLƏLLAH VALLAHÜ-ƏKBƏR. ALLAHÜ-ƏKBƏR VƏ LİLLƏHİLHƏMD”.**

## ÖLÜMƏ HAZIRLIQ

Ölümü xatırlamaq ən böyük nəsihətdir. Hər iman sahibinin ölümü çox xatırlaması sünnətdir. Ölümü çox xatırlamaq əmrlərə sarılmağa və günahlardan çəkinməyə səbəb olar. Haram işləməyə cəsarəti azalır. Sevgili Peyğəmbərimiz “sallallahü aləyhi və səlləm” buyurdu ki: “**Ləzzətləri yıxan, əyləncələrə son verən ölümü çox xatırlayın!”.** Din böyüklərindən bəzisi hər gün bir dəfə xatırlamağı adət etmişdi. Övliyanın böyüklərindən Muhamməd Bəhaədini Buxari “quddisə sirruh” hər gün 20 dəfə özünü ölmüş, məzara qoyulmuş düşünürdü.

Uzun əməl, çox yasamağı istəməkdir. İbadət etmək dinə xidmət etmək üçün çox yasamağı istəmək uzun əməl deyildir. Uzun əməl sahibləri ibadətləri vaxtında edə bilməzlər. Tövbə etməyi tərk edərlər. Qəlbləri qatı olar. Ölümü xatırlamazlar. Öyüd və nəsihətlərdən ibrət almazlar.

Uzun əməl sahibi həmişə dünya malına və mövqeyinə qovuşmaq üçün ömrünü sərf edər. Axirəti unudur. Yalnız zövq və səfasını düşünür. Hədisi-şəriflərdə buyuruldu ki:

**“Ölmədən əvvəl ölün. Hesaba çəkilmədən əvvəl özünüzü hesaba çəkin!”**

**“Ölümdən sonra olacaq şeyləri, sizin bildiyiniz kimi, heyvanlar da bilsələrdi, yemək üçün kök heyvan tapa bilməzdiniz”.**

**“Gecə-gündüz ölümü xatırlayan kimsə qiyamət günü şəhidlər yanında olacaqdır”.**

Uzun əməlin səbəbləri: dünya zövqlərinə düşkün olmaq, ölümü unutmaq və səhhətinə, gəncliyinə aldanmaqdır. Uzun əməl xəstəliyindən qurtulmaq üçün bu səbəbləri yox etmək lazımdır. Ölümün hər an gələ biləcəyini düşünməlidir. Uzun əməl sahibi olmağın zərərlərini və ölümü xatırlamağın faydalarını öyrənməlidir. Hədisi-şərifdə buyuruldu ki:

**“Ölümü çox xatırlayın. Onu xatırlamaq insanı günah işləməkdən qoruyar və axirətdə zərərli olan şeylərdən çəkinməyə səbəb olar”.**

### ÖLÜM NƏDİR?

Ölüm, yox olmaq demək deyildir. Ölüm, ruhun bədənə olan bağlılığının sona çatmasıdır. Ruhun bədəndən ayrılmasıdır. Ölüm, insanın bir haldan başqa bir hala dönməsidir. Bir evdən bir evə köçməsi kimidir. Ömər bin Abdülaziz həzrətləri buyurdu ki, “Sizlər, ancaq əbədiyyət, sonsuzluq üçün yaradıldınız. Lakin bir evdən bir evə köç edərsiniz”. Ölüm möminə hədiyyədir, nemətdir. Günahı olanlara müsibətdir. İnsan ölümü istəməz. Halbuki ölüm fitnədən xeyirlidir. İnsan yasamağı se-

vər. Halbuki ölüm ona xeyirlidir. Saleh olan mömin ölüm ilə dünyanın əziyyət və yorğunluğundan qurtulur. Zalımların ölümü ilə məmləkətlər və qullar rahata qovuşur. Bir zalımın ölümündə söylənən qədim bir beyt belədir:

*Nə özü etdi rahat, nə aləmə verdi hüzur,*
*Yıxıldı getdi cahandan, dayansın əhli kubur.*

Möminin ruhunun bədəndən ayrılması, əsirin həbsdən qurtulması kimidir. Mömin öldükdən sonra bu dünyaya geri gəlmək istəməz. Yalnız şəhidlər dünyaya geri gəlib bir daha şəhid olmaq istəyər. Ölüm hər müsəlman üçün hədiyyədir. Bir adamın dinini ancaq məzarı qoruyar. Məzardakı həyat isə, ya Cənnət bağçalarında olmaq və yaxud da Cəhənnəm çuxurlarında olmaq kimidir.

### ÖLÜM HAQDIR

Ölümdən qurtulmaq mümkündürmü? Əlbəttə, deyildir. Kimsənin bir saniyə belə yaşamağa əlində imkanı yoxdur. Əcəli gələn ölür. Bu vaxt göz açıb qapayana qədər keçən bir andır. Qurani-Kərimdə bir ayəti-kərimədə, "**Əcəlləri gəldiyi zaman onu bir saat irəli və geri çəkə bilməzlər"** buyurulmuşdur. Allahü təala bir kimsənin ölümünü harada təqdir etdi isə, o adam malını, mülkünü, övladını buraxıb orada vəfat edər. Allahü təala bizim gündə nə qədər nəfəs alıb verdiyimizi bilir. Onun bilmədiyi bir şey yoxdur. İman edib həyatımız ibadət ilə keçdi isə, sonu səadət olar. Allahü təala Əzrail-əleyhissəlama buyurur ki: "**Dostlarımın canını asan al**, **düşmənlərimin canını çətin al!".** İman sahiblərinə, bu böyük müjdədir. İmandan məhrum qalanlar üçün də böyük fəlakətdir.

## CƏNAZƏ NAMAZI

Bir möminin vəfat etdiyini xəbər alan kişilərə, kişi yoxdursa, qadınlara cənazə namazı fərzi-kifayədir. Cənazə namazı Allahü üçün namaz və ölən üçün duadır. Əhəmiyyət verməyənin imanı gedər.

### CƏNAZƏ NAMAZININ ŞƏRTLƏRİ

1. Meyid müsəlman olmalıdır.
2. Yuyulmuş olmalıdır. Yuyulmadan basdırılan üzərinə torpaq atılmamış isə, çıxarılıb yuyulur, sonra namazı qılınır. Cənazənin və imamın olduğu yerin təmiz olması lazımdır.
3. Cənazənin və ya bədənin yarısı ilə, başının və ya başsız yarıdan artıq bədənin imamın önündə olması lazımdır.
4. Cənazə yerdə və ya yerə yaxın, əllərlə tutulmuş və ya daş üstünə qoyulmuş olmalıdır. Cənazənin başı imamın sağına, ayağı soluna düşməlidir. Tərsinə qoymaq günahdır.

5. Cənazə imamın önündə hazır olmalıdır.
6. Cənazənin və imamın övrət yeri örtülü olmalıdır.

**CƏNAZƏ NAMAZININ FƏRZLƏRI**

1. Dörd dəfə təkbir gətirmək.
2. Ayaq üstə qılmaq.

**CƏNAZƏ NAMAZININ SÜNNƏTLƏRI**

1. Sübhanəkə oxumaq;
2. Salavat oxumaq;
3. Özünə, meyidə və bütün müsəlmanlara əfv və bağışlama üçün bildirilmiş olan dualardan bildiyini oxumaq. Cənazə namazı məscid içərisində qılınmaz. Canlı olaraq doğulduqdan sonra ölən uşağın adı qoyulur, yuyulur, kəfənlənir, namazı qılınır. Cənazə daşınacağı zaman tabutun dörd qolundan tutulur. İlk olaraq cənazənin baş tərəfi sağ çiyinə, sonra ayaq tərəfi sağ çiyinə, sonra baş tərəfi sol çiyinə, sonra ayaq tərəfi sol çiyinə qoymaq surətiylə hər birində on addım daşınır. Qəbrə çatdığı zaman cənazə çiyinlərdən yerə endirilmədikçə oturulmaz. Dəfn edilərkən işi olmayanlar otururlar.

**CƏNAZƏ NAMAZI NECƏ QILINIR?**

Cənazə namazının dörd təkbirindən hər biri bir rükət kimidir. Dörd təkbirin yalnız birincisində əllər qulaqlara qaldırılır. Sonrakı üç təkbirdə əllər qaldırılmaz.

1. İlk təkbir alınıb iki əl bağlanınca "**Sübhanəkə**" oxunur və oxunarkən "**vəcəllə sənəükə**" də deyilir. Fatihə oxunmaz.

2. İkinci təkbirdən sonra təşəhhüddə oturarkən oxunan **"salavat"**lar, yəni **"Allahümmə salli" və "Barik"** duaları oxunur.

3. Üçüncü təkbirdən sonra cənazə duası oxunur. [Cənazə duası yerinə "**Rabbəna ati-na**..." və ya yalnız "**Allahümməğfirləh"** demək və yaxud dua niyyətiylə **"Fatihəi şərifə"**ni oxumaq da olar.]

4. Dördüncü təkbirdən sonra dərhal sağa və sonra sola salam verilir. Salam verərkən, cənazəyə və camaata niyyət edilir.

İmam yalnız dörd təkbiri və iki çiyinə salamı, yüksək səslə söyləyər, digərlərini içində oxuyar.

Cənazə namazı qılındıqdan sonra tabutun yanında dua etmək caiz deyildir. Məkruh olar.

## TƏRAVİH NAMAZI

Təravih namazı kişi və qadınlar üçün sünnətdir. Ramazanı-şərifin hər gecəsində qılınır. Camaat ilə qılınması sünnəti-kifayədir. Vaxtı işa namazından sonra və

vitrdən əvvəldir. Vitrdən sonra da qılına bilər. Məsələn, Təravih namazının bir qisminə çatıb, imamla vitr namazını qılan kimsə təravih namazından, çatıb qıla bilmədiyi rükətləri, vitrdən sonra qılar.

Qılınmayan təravih namazı qəza edilməz. Qəza edilirsə, nafilə olar. Təravih olmaz.

Təravih namazı 20 rükətdir.

## TƏRAVİH NECƏ QILINIR?

Vitr namazı yalnız Ramazan ayında camaat ilə qılınır. Təravih namazını 2 rükət olmaqla, on salamla və hər 4 rükət sonunda gözləyib təsbeh edərək qılmaq müstəhəbdir. Qəza borcu olan boş zamanlarında, beş vaxtın sünnətləri və təravih yerinə də qəza qılıb, bir an əvvəl qəzaları bitirib, sonra bu namazları qılmağa başlamalıdır.

Təravih namazı məsciddə camaat ilə qılınınca, başqaları evdə tək qıla bilər, günah olmaz. Lakin məsciddəki camaat savabından məhrum qalar. Evdə, bir və ya bir neçə nəfər camaat ilə qılarsa, tək qılmaqdan 27 qat artıq savab qazanır. Hər iftitah təkbirində niyyət etmək daha yaxşıdır. İşanı camaat ilə qılmayanlar təravihi camaat ilə qıla bilməz. İşanı camaat ilə qılmayan bir kimsə fərzi tək qılıb, sonra təravihi camaat ilə qıla bilər.

# BESİNCİ BÖLMƏ

## SƏFƏRDƏ "YOLÇULUQDA" NAMAZ

Hənəfi məzhəbində olan bir kimsə 15 gündən az qalmaq niyyəti ilə 104 kilometr və daha uzaq bir yerə gedərsə, səfəri olar.

Səfəri olmaq demək, yolçu olmaq deməkdir. Yolçu, 4 rükətli fərz namazları 2 rükət qılar. Mukim (səfəri olmayan) imama tabe olarsa, yenə 4 rükət qılar. Yolçu imam olarsa, ikinci rükətin sonunda salam verir. Sonra ona tabe olmuş olan camaat namazlarını tamamlamaq üçün iki rükət daha qılarlar.

Səfəri olan bir kimsə məst üzərinə 3 gün, 3 gecə məsh edə bilər. Orucunu poza bilər. Yolçu rahat isə orucunu pozmaması daha yaxşıdır. Qurban kəsməsi vacib olmaz. Cümə namazı da səfəri olana fərz deyildir.

Namaz vaxtının sonunda səfərə çıxan kimsə bu namazı qılmamış isə, iki rükət qılar. Lakin vaxtın sonunda vətəninə gələn bu vaxtın namazını qılmamış isə dörd rükət qılar.

**"Neməti-islam"**da deyilir ki, nafilə namazları ayaq üstə qılmağa gücü çatarkən oturaraq qılmaq hər zaman və hər yerdə caizdir. Oturaraq qılarkən rükü üçün bədəni ilə əyilir. Səcdə üçün başını yerə qoyur. Lakin üzrü yoxsa nafilələri oturaraq qılana ayaq üstə qılanın yarısı qədər savab verilir. Beş vaxt namazın sünnətləri və təravih namazı da nafilə namazdır. Yolda, yəni şəhər, kənd xaricində nafilə namazları heyvan üzərində qılmaq caizdir. Qibləyə dönmək və rükü və səcdə etmək lazım deyildir. İma ilə qılar. Yəni, rükü üçün bədəni ilə bir az əyilər. Səcdə üçün bundan daha çox əyilər. Heyvan üzərində artıq nəcasət olması namaza mane deyildir. Yerdə nafilə qılarkən yorulanın çəliyə, insana, divara dayanıb qılması caiz olar. Özü yeriyərkən namaz qılmaq səhih deyildir.

Fərz və vacib namazları zərurət olmadıqca, heyvan üzərində qılmaq caiz deyildir. Ancaq üzr ilə qıla bilər. Zərurət olan üzrlər: malının, canının, heyvanının təhlükədə olması, enincə heyvanının və ya heyvandakı və ya yanındakı malın oğurlanması, yırtıcı heyvan, düşmən, yerdə palçıq olması, yağış olması, xəstənin enərkən, minərkən, yaxşı olmasının gecikməsi və ya xəstəliyinin artması, yoldaşlarının gözləməyib, təhlükədə qalması, endikdən sonra heyvana köməksiz minə bilməmək. Mümkün isə heyvanı qibləyə qarşı dayandırıb qılar. Mümkün deyil isə hərəkət cəhətlərində qılar. Heyvan üzərindəki tay deyilən sandıq kimi şeylərin içində qılmaq da belədir. Heyvan dayandırılıb tayın altına dirək qoyularsa, "**Sərir**", yəni stol kimi olub yerdə qılmaq deməkdir. Qibləyə qarşı ayaq üstə qılması lazım olar. Enə bilən kimsə fərzləri tayda qıla bilməz.

Gəmidə namaz qılmaq Cafər Tayyar həzrətləri Həbəşistana gedərkən, Rəsulullahın "sallallahü aləyhi və səlləm" ona öyrətdiyi kimi bu cürdür: Hərəkət edən

gəmidə üzrü olmadan fərz və vacib də qılınır. Gəmidə camaat ilə qılına bilər. Hərəkət edən gəmidə də ima ilə qılmaq caiz olmayıb, rükü və səcdə edər. Qibləyə dönməsi də lazımdır. Namaza başlayarkən qibləyə qarşı durur. Gəmi döndükcə özü qibləyə dönər. Gəmidə nəcasətdən təharət də lazımdır. İmamı-azam Əbu Hənifəyə görə, gedən gəmidə fərzləri də üzrsüz ikən, yerdə oturaraq qılmaq caiz olar.

Dəniz ortasında dəmirləmiş gəmi çox sallanırsa, gedən gəmi kimidir. Az sallanırsa, sahildə duran gəmi kimidir. Sahildə duran gəmidə fərzlər oturaraq qılına bilməz. Sahilə çıxmaq mümkün isə, ayaq üstə qılmaq da səhih olmayıb, sahilə çıxıb qılmaq lazımdır. Malı, canı və ya gəminin hərəkət etmək təhlükəsi varsa, gəmidə ayaq üstə qılması caiz olar.

**"İbni Abidin"** deyir ki: "İki təkərli olan, heyvana bağlanmadan yerdə düz dura bilməyən arabada durarkən də, gedərkən də, namaz qılmaq heyvan üzərində qılmaq kimidir. Dörd təkərli araba durarkən sərir, stol kimidir. Hərəkət edərkən isə heyvan üçün yuxarıda yazılı üzrlərlə, içində fərz qılına bilər və arabanı dayandırıb qibləyə qarşı qılar. Dayandıra bilməzsə, gedən gəmidəki kimi qılar". Hərəkət əsnasında qibləyə dönə bilməyən, Şafii məzhəbini təqlid edərək, iki namazı cəm edər. Buna da imkan olmazsa, qibləyə dönməsi sakit olar. Stolda, kresloda oturaraq ima ilə namaz qılmaq, heç kimə caiz deyildir. Avtobusda, təyyarədə namaz qılmaq, avtomobildə qılmaq kimidir.

Fərzləri və vacibləri, yolçuluqda zərurət olmadıqda heyvan üzərində qılmamaq lazımdır. Vasitələri dayandırıb, qibləyə qarşı və ayaq üstə qılmaq lazımdır. Bunun üçün vasitəyə minmədən lazımi tədbirləri əvvəldən almaq lazımdır.

Yolçu gəmidə və qatarda fərz namaz üçün qibləyə qarşı dayanıb, səcdə yerinin yanına kompas qoymalıdır. Gəmi və qatar döndükcə özü qibləyə dönməlidir. Sinəsi qiblədən ayrılarsa, namazı pozulur. Avtobusda, qatarda, dalğalı dənizdə qibləyə dönə bilməyənlərin fərz namazları caiz olmadıqları üçün bunlar yolda olduqları zaman Şafii məzhəbini təqlid edərək, zöhr ilə əsri və şam ilə işa cəm edə bilər. Yəni səfərdə olan zaman bu iki namazı bir-birinin arxasınca qılar. Çünki Şafii məzhəbində 80 kilometrdən artıq davam edən səfərdə əsri zöhr namazı vaxtında və işanı şam namazı vaxtına çəkərək qılmaq, və yaxud zöhrü əsr vaxtına və işanı şam namazı vaxtına təxir edərək, iki namazı bir yerdə qılmaq caizdir. Bunun üçün Hənəfi məzhəbində olan kimsə yolda qibləyə dönə bilməsə, yola çıxdıqdan sonra gündüz bir yerdə durduğu zaman, zöhr vaxtında zöhrü qılınca dərhal əsri də qılmalı, gecə duruldduğu zaman, işa vaxtında şamı və sonra işanı bir yerdə qılmalı və bu dörd namaza niyyət edərkən "**Şafii məzhəbini təqlid edərək əda edirəm**" deyə niyyət etməli**,** yəni qəlbindən keçirməlidir. Yola çıxmazdan əvvəl və ya səfər bitdikdən sonra iki vaxtın namazını birlikdə qılmaq olmaz.

## XƏSTƏLİKDƏ NAMAZ

Dəstəmazı pozan şeyin bədəndən çıxması davamlı olarsa, buna **"Üzr"** deyilir. Sidik, ishal, yel qaçırtmaq, burun qanaması və yaradan qan, sarı su axması**,** ağrı-

dan, şişə görə göz yaşı axması bir namaz vaxtı içində davamlı olarsa, bu kimsə və istihaza qanı axan qadın üzr sahibi olarlar. Üzərini bağlamaqla, dərman ilə və ya namazı oturaraq yaxud ima ilə qılaraq bunları dayandırmaq lazımdır. Sidik qaçıran kişi sidik yoluna arpa qədər bitki pambıq soxar. Fitil az olan sidiyi əmərək çölə damcılamasına mane olar. Beləcə, dəstəmaz pozulmaz. Sidiyə gedərkən fitil öz-özünə çölə çıxar, gedər. Sidiyi çox qaçırsa, artığı fitildən keçərək çölə sızar və dəstəmazı pozulur. Sızan sidik paltarı kirlətməməlidir. Qadınlar önlərinə həmişə "Kürsüf" deyilən parça qoymalıdır. Axıntını dayandıra bilməzlərsə, hər namaz vaxtında dəstəmaz alıb namazı eləcə qılar. Üzr sahibi olan kimsə bir dəstəmaz ilə vaxt çıxına qədər fərz, qəza və nafilə qıla bilərlər. Qurani-Kərimi əldə tuta bilərlər. Namaz vaxtı çıxınca dəstəmazı pozulur. Vaxt çıxmadan əvvəl də üzr olan şeydən başqa bir səbəb ilə dəstəmazı yenə pozulur. Məsələn, burun dəliklərinin birindən qan gələn vaxtı dəstəmaz alıb sonra digər dəlikdən də qan axmağa başlasa, dəstəmazı pozulur. Üzr sahibi olmaq üçün dəstəmazı pozan şeyin bir namaz vaxtında davamlı axması lazımdır. Dəstəmaz alıb, o vaxtın fərzini qılacaq qədər bir zaman ərzində axmazsa, üzr sahibi olmaz. Malikinin bir qavlinə görə, bir damla axınca, üzr sahibi olar. Bir kimsə üzr sahibi olunca, sonrakı namaz vaxtlarında bir dəfə bir damla gəlsə, üzr sahibi olması o vaxtlarda da davam edər. Bir namaz vaxtında heç gəlməzsə, üzr sahibi olmağı sona çatar. Üzrə səbəb olan nəcasət paltara dirhəm miqdarından artıq bulaşsa, təkrar bulaşmasına mane olmaq mümkündürsə, bulaşmış yeri yumaq lazım olar.

Qüsl alınca xəstə olmaqdan və ya xəstəliyinin şiddətlənməsindən yaxud uzanmasından qorxan təyəmmüm edər. Bu qorxu öz təcrübələri ilə, yaxud müsəlman, adil həkimin söyləməsi ilə məlum olar. Fisqi, günah işləməsi dillərə düşmüş olmayan həkimin sözü də qəbul edilir. Soyuq olub, sığınacaq yer, suyu qızdıracaq şey, şəhərdə hamam pulu tapmamaq xəstəliyə səbəb ola bilər. Hənəfidə bir təyəmmüm ilə istədiyi qədər fərz qıla bilər. Şafiidə və malikidə hər fərz namaz üçün yenidən təyəmmüm edər.

Dəstəmazda bədən üzvlərinin yarısında yara olan təyəmmüm edər. Yara yarıdan az isə, sağlamını yuyub, yaranı məsh edər. Qüsldə bütün bədən bir üzv sayıldığı üçün bütün bədənin yarısı yara isə təyəmmüm edər. Yaralı yer yarıdan az isə, sağlamını yuyub yaraları məsh edər. Yaraya məsh zərər verərsə, sarğıya məsh edər. Bu da zərər verərsə, məshi tərk edər. Dəstəmazda və qüsldə başa məsh zərər verərsə, başı məsh etməz. Əli çolaq (ekzema-dəri xəstəliyi, yara) olub sudan istifadə edə bilməyən təyəmmüm edər. Üzünü, qollarını yerə (əhəngli, torpaqlı, daşlı divara) sürtər. Əlləri və ayaqları kəsik olanın üzü də yara isə, namazı dəstəmazsız qılar. Dəstəmaz aldırması üçün kimsəni tapa bilməyən təyəmmüm edər. Uşağı, köləsi, maaş ilə tutduğu kimsə kömək etməyə məcburdurlar. Başqalarından da kömək istəyə bilər. Lakin onlar kömək etməyə məcbur deyildirlər. Qadın və ər də bir-birlərinə dəstəmaz aldırmağa məcbur deyildirlər.

Qan aldıran, zəli istifadə edən, yarası, çibanı olan, sümüyü qırılan və ya yaralara sarğı (pambıq, bint, məlhəm) qoyan, o hissəsini soyuq, isti su ilə yumağa və ya məsh etməyə qadir ola bilməzsə, dəstəmazda və qüsldə bunların yarıdan artığı üs-

tünə bir dəfə məsh edər. Sarğını açmaq zərər verərsə, altındakı sağlam yerlər yuyulmaz. Sarğı aralarında görünən sağlam dəri qismləri məsh edilir. Sarğını dəstəmazlı olaraq sarımaq lazım deyildir. Məshdən sonra sarğı dəyişdirilərsə, üstünə başqası da sarılarsa, yenisinə məsh lazım olmaz.

Ayaq üstə dura bilməyən və ya ayaq üstə durarsa, xəstəliyinin uzanacağını çox zənn edən xəstə namazını oturaraq qılıb, rükü üçün bədənini bir az əyər. Sonra dikəlib yerə iki dəfə səcdə edər. Asan bildiyi qədər oturar. Diz çökməsi, bardaş qurması, ihtiba etməsi, yəni ombası üzərinə oturub qollarını dizlərinin ətrafına halqa etməsi caizdir. Baş, diz, göz ağrısı xəstəlik sayılır. Düşmənə görünmək qorxusu da üzrdür. Ayaq üstə orucu, dəstəmazı pozulan da oturaraq qılar. Bir şeyə dayanaraq ayaq üstə dura bilən dayanaraq qılar. Ayaq üstə artıq dura bilməyən, iftitah təkbirini ayaq üstə alıb, ağrı hasil olunca oturaraq davam edər.

Yerə səcdə etməkdən aciz olan ayaq üstə oxuyub, rükü və səcdə üçün oturaraq ima edər. Oturub rükü üçün bir az, səcdə üçün daha çox əyilər. Bədənini əyə bilməyən başını əyər. Bir şey üzərinə səcdə etməsi lazım deyildir. Bir şey üzərinə səcdə edərsə, səcdə üçün rükudən artıq əyilmiş isə namazı səhih olarsa da, məkruhdur. Dayanaraq oturmaq mümkün olarsa, uzanaraq ima caiz olmaz. Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" bir xəstəni ziyarət etdi. Bunun əli ilə yastığı qaldırıb, üzərinə səcdə etdiyini görüncə, yastığı aldı. Xəstə odunu qaldıraraq bunun üstünə səcdə etdi. Odunu da aldı və **"Gücün çatarsa, yerə səcdə et! Yerə əyilə bilməzsən, üzünə bir şey qaldırıb, bunun üzərinə səcdə etmə! İma edərək qıl və səcdədə rükudən daha çox əyil!"** buyurdu. "**Bahr-ür-raik**"də bildirildiyi kimi, Ali İmran surəsinin 191-ci ayəti-kəriməsində, **"Namazı gücü yetən ayaq üstə qılar. Aciz olan oturaraq qılar. Bundan da aciz olan yataraq qılar"** buyurulur. İmran bin Husayn xəstə olunca Rəsulullah "sallallahü aləyhi və səlləm" buna, "**Ayaq üstə qıl! Gücün yetməzsə, oturaraq qıl! Buna da qüdrətin olmazsa, yan və ya arxası üstə uzanaraq qıl!"** buyurdu. Görünür ki, ayaq üstə dura bilməyən xəstə oturaraq qılar. Otura bilməyən uzanaraq qılar. Stolda, kresloda qılmağa icazə verilməmişdir. Xəstənin və avtobusda, təyyarədə gedənin, kresloda, stolda qılması islamiyyətə uyğun deyildir. Camaata gedincə ayaq üstə qıla bilməyən evində ayaq üstə qılar. İyirmi şeydən birinin olmaması camaata getməmək üçün üzr olar. Yağış, şiddətli isti və soyuq, canına və ya malına təcavüz edə bilən düşmən qorxusu, yoldaşlarının gedib yolda tək qalmaqdan qorxmaq, havanın çox qaranlıq olması, kasıb borclunun tutulub həbs olunmaqdan qorxması, kor olmaq, yeriyə bilməyəcək qədər iflic olması, bir ayağının kəsik olması, xəstə, iflic olmaq, palçıq, yeriyə bilməmək, yeriyə bilməyən yaşlı, nadir tapılan fiqh dərsini buraxmaq, sevdiyi yeməyi qaçırmaq qorxusu, yolçuluğa hərəkət halında olmaq, yerinə buraxacaq kimsə olmayan xəstə baxıcı, gecə şiddətli külək, tualetə getmək üçün sıxışmaq. Xəstəliyinin artmasından və ya uzanmasından qorxan xəstə və xəstəsi baxımsız qalacaq olan xəstə baxıcısı və çox qocalıqdan yeriməsi çətin olmaq, Cümə namazına getməmək üçün üzrdür. Camaata yeriyərək gedib-gəlmək, vasitəyə minərək getməkdən yaxşıdır. Məsciddə stulda, kresloda oturaraq ima ilə qılmaq caiz deyildir. İslamiyyətin bil-

dirmədiyi şəkildə ibadət etmək **“Bidət”** olar. Bidət işləmənin böyük günah olduğu fiqh kitablarında yazılmışdır.

Bir şeyə dayanaraq otura bilməyən xəstə arxası üstə uzanaraq, arxası üstə uzana bilməzsə, sağ yanına yataraq başı ilə ima edər. Qibləyə dönə bilməyən asan bildiyi cəhətə tərəf qılar. Arxası üstə uzananın başı altına bir şey qoyaraq üzü qibləyə qarşı edilir. Dizlərini dik tutması yaxşı olar. Başı ilə ima edə bilməyənin namazı qəzaya buraxması caiz olar. Namaz ərzində xəstə olan gücü çatdığı şəkildə davam edər. Yerdə oturaraq qılan xəstə namazda yaxşı olarsa ayaq üstə qılaraq davam edər. Ağılı, şüuru gedən namaz qılmaz. Beş vaxt keçmədən yaxşı olarsa, beş vaxtı qəza edər. Altı namaz keçərsə, heç qəza etməz.

İma ilə də olsa, qılınmayan namazı tez bir zamanda qəza etmək fərzdir. Qəza etmədən ölüm halına gələrsə, qılmadığı namazların isqatı üçün buraxdığı maldan fidyə verilməsini vəsiyyət etmək vacib olar. Vəsiyyət etməzsə, vəlisinin, hətta yad birinin öz malından isqat etməsi caiz olar deyilmişdir.

## QƏZA NAMAZLARI

Namaz bədən ilə edilən bir ibadət olduğundan, başqası başqasının yerinə qıla bilməz. Hər kəsin özünün qılması lazımdır. Namazları vaxtında qılmağa “**Əda**” deyilir. Hər hansı bir zamanda təkrar qılmağa “**İadə**” deyilir. Məsələn, məkruh olaraq qılınan namazın vaxtı çıxmadan, buna imkan olmazsa, hər zaman iadəsi vacibdir. Fərz və vacib olan namazı vaxtı keçdikdən sonra qılmağa “**Qəza**” etmək deyilir.

Bir günlük beş vaxt fərzi və vitr namazını qılarkən və qəza edərkən tərtib sahibi olmaq fərzdir. Yəni namaz qılarkən, sıralarına diqqət etmək lazımdır. Beşdən artıq qəzası olmayana “**Tərtib sahibi”** deyilir. Cümə fərzini o günün zöhr namazı sırasında qılmaq lazımdır. Sübh namazına qalxa bilməyən xütbə oxunarkən belə xatırlayarsa, dərhal bunu qəza etməlidir. Bir namazı qılmadıqca ondan sonrakı beş namazı qılmaq caiz olmaz. Hədisi-şərifdə, “**Bir namazı yuxuda keçirən və ya unudan kimsə sonrakı namazı camaat ilə qılarkən xatırlayarsa, imamla namazı bitirib, sonra öncəki namazını qəza etsin! Bundan sonra imamla qıldığını təkrar qılsın!”** buyuruldu.

Fərzi qəza etmək fərzdir. Vacibi qəza etmək vacibdir. Sünnəti qəza etmək əmr olunmadı. Hənəfi məzhəbinin alimləri söz birliyi ilə bildirirlər ki; “Sünnət namazlarının yalnız vaxtında qılınmaları əmr olundu. Vaxtında qılınmayan sünnət namazlar insanın üzərində borc qalmaz. Bunun üçün vaxtından sonra qəza edilmələri əmr olunmadı. Sübh namazının sünnəti vacibə yaxın olduğundan o gün zöhrdən əvvəl fərzi ilə birlikdə qəza edilir. Sübh namazının sünnəti zöhrdən sonra başqa sünnətlər isə, heç bir zaman qəza edilməz. Qəza olarsa, sünnət savabı hasil olmaz, nafilə qılınmış olar. **“İbni Abidin”**də və **“Tərgib-üs-salat”** 162-ci səhifələrində deyilir ki, “sünnətləri üzrsüz oturaraq qılmaq caizdir. Heç qılmamaq günahdır. Fərzləri üzr ilə oturaraq qılmaq caizdir”.

Fərz namazları bilərək və üzrsüz olaraq tərk etmək böyük günahdır. Vaxtında qılınmayan belə namazları qəza etmək lazımdır. Fərz və vacib olan bir namazı bilə-bilə qəzaya buraxa bilmək üçün iki üzr vardır: Biri düşmən qarşısında olmaqdır. İkincisi səfərdə olan, yəni üç günlük yol getməyə niyyəti olmasa belə, yolda olan kimsənin oğrudan, yırtıcı heyvandan, seldən, fırtınadan qorxmasıdır. Bunlar oturaraq və hər hansı bir tərəfə dönərək və ya heyvan üzərində ima ilə də qıla bilmədiyi zaman qəzaya buraxa bilər. Bu iki səbəblə fərzləri qəzaya buraxmaq, yuxu və unutmaq səbəbi ilə qılmamaq günah olmaz. **"Əşbah"** şərhində, "boğulmaqda olanı və buna oxşar olanları qurtarmaq üçün namazı vaxtından sonra qılmaq da səhihdir" deyilir. Lakin üzr bitincə dərhal qəza qılması fərz olar. Haram olan üç vaxtdan başqa boş vaxtlarında qılmaq şərti ilə ailəsinin ruzisini qazanacaq qədər gecikdirmək caiz olar. Daha artıq gecikdirərsə, günaha girməyə başlayar. Belə ki sevgili Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm", Xəndək müharibəsinin şiddətindən qıla bilmədikləri dörd namazı dərhal o gecə Əshabi kiram "radıyallahü anhüm" yaralı və çox yorğun olduqları halda camaat ilə qıldı. Sevgili Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" buyurdu ki; "**İki fərz namazı bir yerə gətirmək böyük günahlardandır".** Yəni, bir namazı vaxtında qılmayıb vaxtından sonra qılmaq ən böyük günahdır. Bir Hədisi-şərifdə buyuruldu ki, **"Bir namazı vaxtı çıxdıqdan sonra qılan kimsəni Allahü təala səksən hukbə Cəhənnəmdə buraxacaqdır."** Bir hukbə səksən axirət ilidir və axirətin bir günü dünyanın min ili qədərdir. Bir vaxt namazı vaxtından sonra qılmağın cəzası bu olarsa, heç qılmayanın cəzasını düşünməlidir.

Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" buyurdu ki, **"Namaz dinin dirəyidir. Namaz qılan dinını doğrultmuş olar. Namazı qılmayan dinini yıxmış olar."** Bir Hədisi-şərifdə buyurdu ki, "**Qiyamət günü imandan sonra ilk sual namazdan olacaqdır."** Allahü təala buyuracaq ki, **"Ey qulum! Namaz hesabının altından qalxarsan, qurtuluş sənindir. O biri hesabları asanlasdıraram".** Ankəbut surəsi, 45-ci ayətində, "**Qüsursuz qılınan bir namaz insanı pis, çirkin işləri işləməkdən qoruyar"** buyurulur. Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" buyurdu ki, "**İnsanın Rəbbinə ən yaxın olduğu zaman namaz qıldığı zamandır".**

Bir müsəlmanın hər hansı bir namazı vaxtında qılmaması iki cür olar: 1. Üzr ilə qılmamasıdır. 2. Namazı vəzifə bildiyi, önəm verdiyi halda tənbəlliklə tərk etməsidir.

Fərz namazı üzrü olmadan vaxtı keçdikdən sonra qılmaq, yəni qəzaya buraxmaq haramdır, böyük günahdır. Bu günah qəza etdikdə əfv olunmur. Qəza etdikdə, yalnız namazı qılmamaq günahı əfv olur. Bir kimsə namazları qəza etmədikdə, yalnız tövbə ilə əfv olmaz. Qəza etdikdən sonra tövbə edərsə, əfv olması ümid edilir. Tövbə edərkən qılmadığı namazları qəza etməsi lazımdır. Qəza etməyə gücü varkən qəza etməzsə, ayrıca böyük bir günah işləmiş olur. Bu böyük günah hər namaz qılacaq qədər [6 dəqiqə] boş zaman keçincə, bir əvvəlki əzab zamanı qədər artmaqdadır. Çünki namazı boş zamanlarda dərhal qəza etmək də fərzdir. Qəza qılmağa əhəmiyyət verməyən sonsuz yanacaqdır. "**Umdət-ül-islam**" və "**Cami-ül fətava"-**

da deyir ki, “düşmən qarşısında, bir fərz namazı qılmaq mümkün ikən tərk etmək, 700 böyük günah işləmiş kimi günahdır.” Qəzanı gecikdirmənin günahı vaxtında qılmamaq günahından daha çoxdur. Bir namazın ilk qəzasını qılmağa niyyət edərək bir qəza qılınca, bu günahların hamısı əfv olar.

**İZAH: “SÜNNƏTLƏR YERINƏ QƏZA QILINARMI?”**

Abdülkadiri Qeylani həzrətləri **“Fütuh-ul qayb”** kitabında deyir ki: Möminin ən əvvəl fərzləri yerinə yetirməsi lazımdır. Fərzlər bitdikdən sonra sünnətləri edər. Ondan sonra nafilələrlə məşğul olar. Fərz borcu olanın sünnət ilə məşğul olması axmaqlıqdır. Fərz borcu olanın sünnətləri qəbul olmaz. Əli ibni Əbi Talib “radıyallahü anh” bildirir ki: Rəsulullah “sallallahü aləyhi və səlləm” buyurdu ki: “**Üzərində fərz borcu olan kimsə qəzasını qılmadan nafilə qılarsa, boş yerə zəhmət çəkmiş olar. Bu kimsə qəzasını ödəmədikçə, Allahü təala onun nafilə namazlarını qəbul etməz”.** Abdülqadiri Qeylaninin yazdığı bu Hədisi-şərifi şərh edən Hənəfi məzhəbi alimlərindən Abdülhakı Dəhləvi həzrətləri buyurur ki: “Bu xəbər fərz borcu olanların, sünnətlərinin və nafilələrinin qəbul olmayacağını göstərir. Sünnətlərin fərzləri tamamlayacağını bilirik. Bunun mənası fərzlər yerinə yetirilərkən, bunların kəmallarına səbəb olan bir şey qaçırılarsa, sünnətlər, qılınan fərzin kəmal tapmasına səbəb olar. Fərz borcu olanın qəbul edilməyən sünnətləri bir işə yaramaz”.

Qüds qazısı Muhamməd Sadiq Əfəndi, faitə (üzr ilə qəzaya qalmış) namazların qəza edilməsini izah edərkən belə bildirir: Böyük alim İbni Nüceym həzrətlərindən soruşuldu ki, “Bir kimsənin qəzaya qalmış namazları olsa, sübh, zöhr, əsr, şam və işanın sünnətlərini bu namazların qəzalarına niyyət edərək qılsa, bu kimsə sünnətləri tərk etmiş olarmı?”. Cavabında: “Sünnətləri tərk etmiş olmaz. Çünki beş vaxt namazın sünnətlərini qılmaqdan məqsəd, o vaxt içində, fərzdən başqa bir namaz daha qılmaq deməkdir. Şeytan heç namaz qıldırmamaq istəyər. Fərzdən başqa bir namaz daha qılaraq şeytana inad edilmiş, rəzil edilmiş olar. Sünnət yerinə qəza qılmaqla, sünnət də yerinə yetirilmiş olar. Qəza borcu olanların hər namaz vaxtı, o vaxtın fərzindən başqa namaz qılaraq, sünnəti yerinə yetirmək üçün qəza qılması lazımdır. Çünki çox kimsə qəza qılmayıb, sünnətləri qılır. Bunlar Cəhənnəmə gedəcəkdir. Halbuki sünnətlərin yerinə qəza qılan, Cəhənnəmdən qurtulur” buyurdu.

**QƏZA NAMAZLARI NECƏ QILINIR?**

Qəza namazlarını bir an öncə qılaraq ayrıca tövbə də edərək, böyük cəzadan qurtulmalıdır. Bunun üçün sünnətləri də qəza niyyəti ilə qılmaq lazımdır. Tənbəlliklə namaz qılmayanlar, illərcə qəza borcu olanlar, namaza başladıqları zaman, sünnəti qılarkən, o vaxtın ilk qəzaya qalmış namazını qəza etməyi niyyət edərək qılmalıdır. Bunların sünnətləri qəza namazı üçün niyyət edərək qılması dörd məzhəbdə də lazımdır. Hənəfi məzhəbində namazı üzrsüz qəzaya buraxmaq əkbəri kəbairdir. Bu çox böyük günah, hər namaz qılacaq qədər boş zaman keçincə bir misli artır. Çünki namazı, boş zamanlarda dərhal qəza etmək də fərzdir. Hesaba, saya

sığmayan bu müdhiş günahdan və əzabdan qurtulmaq üçün zöhr namazının ilk dörd rükət sünnətini qılarkən ilk qəzaya qalmış zöhrün fərzini niyyət edərək qəza qılmalıdır. Zöhrün son sünnətini qılarkən ilk qəzaya qalmış sübhün fərzini niyyət edərək qəza qılmalıdır. Əsrin sünnətini qılarkən əsrin fərzini niyyət edərək qəza qılmalıdır. Şamın sünnətini qılarkən üç rükət şamın fərzini niyyət edərək qəza qılmalıdır. İşanın ilk sünnətini qılarkən işanın fərzini və son sünnətini qılarkən də ilk qəzaya qalmış vitri niyyət edərək üç rükət olaraq qəza qılmalıdır. Beləcə hər gün, bir günlük qəza ödənilir. Təravih namazlarını qılarkən də qəza niyyət edərək, qəza qılmalıdır. Neçə illik qəza namazı varsa, buna, o qədər il davam etməlidir. Qəzalar bitincə yenə sünnətləri qılmağa başlamalıdır. Vaxtı varsa, ayrıca hər fürsətdə qəza qılıb, bir an öncə qəza borclarını bitirməlidir. Qılınmayan qəzaların, günahı hər gün keçdikcə bir misli artır.

# ALTINCI BÖLMƏ

## NAMAZ QILMAYANLAR

Həzrəti Əbu Bəkri Sıddıq "radıyallahü anh" buyurur ki, beş namazın vaxtı gələn zaman mələklər deyər ki: "Ey Adəm oğulları, qalxın! İnsanları yandırmaq üçün hazırlanmış olan atəşi namaz qılaraq söndürün." Bir Hədisi-şərifdə, "**Mömin ilə kafiri ayıran fərq, namazdır"** buyuruldu. Yəni mömin namaz qılar, kafir qılmaz. Münafiqlər isə bəzən qılar, bəzən qılmaz. Münafiqlər Cəhənnəmdə çox acı əzab görəcəkdir. Müfəssirlərin şahı, Abdüllah ibni Abbas "radıyallahü anhüma" deyir ki, Rəsulullahdan "sallallahü aləyhi və səlləm" eşitdim. Buyurdu ki: **"Namaz qılmayanlar qiyamət günü Allahü təalanı hirsli olaraq görəcəkdir".**

Hədis imamları söz birliyi ilə bildirirlər ki: "Bir namazı vaxtında qəsdən qılmayan, yəni namaz vaxtı keçərkən namaz qılmadığı üçün üzülməyən kafir olar". Və ya ölərkən imansız gedər. Bəs namazı yadına belə gətirməyənlər, namazı vəzifə tanımayanlara nə olacaq? Əhli-sünnət alimləri söz birliyi ilə buyurdular ki, ibadətlər imandan parça deyildir. Yalnız, namaz üçün söz birliyi olmadı. Fiqh imamlarından **İmamı Əhməd ibni Hanbəl, İshaq ibni Raheveyh, Abdullah ibni Mübarək, İbrahim Nəhai, Hakəm bin Uteybə, Əyyub Sahtiyani, Davüd Tai, Əbu Bəkr ibni Şeybə, Zübeyr bin Harb** və daha bir çox böyük alimlər bir namazı qəsdən, yəni bilə-bilə qılmayan kimsə kafir olar dedilər. O halda ey din qardaşım, heç bir namazını buraxma və zəif qılma! Sevə-sevə qıl! Allahü təala qiyamət günü bu alimlərin ictihadlarına görə cəza verərsə nə edərsən?

Hanbəli məzhəbində bir namazı üzrsüz qılmayan mürtəd kimi qətl olunur. Yuyulmur, kəfənlənmir və namazı qılınmır. Müsəlmanların qəbiristanlığına basdırılmır və qəbri müəyyən edilmir. Dağda bir çuxura qoyulur.

Namaz qılmayan kimsə Şafii məzhəbində mürtəd olmazsa da, cəzası qətldir. Namaz qılmayan üçün Maliki məzhəbinin hökmləri Şafii hökmlərinin eynisidir.

Namaz qılmayan Hənəfi məzhəbində namaza başlayana qədər həbs olunur və ya qan axana qədər döyülür.

Beş şeyi etməyən beş şeydən məhrum olar:

1. Malının zəkatını verməyən malının xeyirini görə bilməz.
2. Uşrunu verməyənin tarlasında, qazancında bərəkəti qalmaz.
3. Sədəqə verməyənin vücudunda səhhət qalmaz.
4. Dua etməyən arzusuna qovuşa bilməz.
5. Namaz vaxtı gələn zaman qılmaq istəməyən son nəfəsdə Kəlmeyi-şəhadət gətirə bilməz. Bir Hədisi-şərifdə buyuruldu ki: "**Namazı üzrsüz qılmayan kimsəyə Allahü təala 15 dərd verir. 6-sı dünyada, 3-ü ölüm zamanında, 3-ü qəbirdə, 3-ü qəbirdən qalxan zaman.**

Dünyada olan 6 əzab:

**1. Namaz qılmayanın ömründə bərəkət olmaz.**

**2. Üzündə Allahü təalanın sevdiyi kimsələrin gözəlliyi, sevimliliyi qalmaz.**

**3. Heç bir yaxşılığına savab verilməz.**

**4. Duaları qəbul olunmaz.**

**5. Onu kimsə sevməz.**

**6. Müsəlmanların yaxşı dualarının buna faydası olmaz.**

Ölərkən çəkəcəyi əzablar:

**1. Zəlil, pis, çirkin can verər.**

**2. Aç olaraq ölər.**

**3. Çox su içsə də, susuzluq əzabı ilə ölər.**

Qəbirdə çəkəcəyi əzablar:

**1. Qəbir onu sıxar. Sümükləri bir-birinə keçər.**

**2. Qəbri atəşlə doldurular. Gecə-gündüz onu yandırar.**

**3. Allahü təala qəbrinə çox böyük ilan göndərər. Dünya ilanlarına bənzəməz. Hər gün hər namaz vaxtında onu sancar. Bir an belə əl çəkməz.**

Qiyamətdə çəkəcəyi əzablar:

**1. Cəhənnəmə aparan əzab mələkləri yanından ayrılmazlar.**

**2. Allahü təala onu hirsli olaraq qarşılayar.**

**3. Hesabı çox çətin olub, Cəhənnəmə atılar.”**

## NAMAZ QILANLARIN FƏZİLƏTLƏRİ

Namaz qılmağın fəzilətlərini və namaz qılanlara veriləcək savabları bildirən Hədisi-şəriflər çoxdur. Abdülhak bin Seyfəddin Dəhləvinin “**Əşiat-ül-ləməat**” kitabında namazın əhəmiyyətini bildirən Hədisi-şəriflərdə buyurulur ki:

1. Əbu Hüreyrə “radıyallahü anh” bildirir, Rəsulullah “sallallahü aləyhi və səlləm” buyurdu ki, “**Beş vaxt namaz və Cümə namazı gələcək Cüməyə qədər və Ramazan orucu, gələcək Ramazana qədər edilən günahlara kəffarədir. Böyük günah işləməkdən çəkinənlərin kiçik günahlarının əfvinə səbəb olar”.** Arada işlənilmiş olan kiçik günahlardan qul haqqı olmayanları yox edər. Kiçik günahları bağışlananların, böyük günahları üçün olan əzablarının yüngülləşməsinə səbəb olar. Böyük günahların əfv edilməsi üçün tövbə etmək də lazımdır. Böyük günahı yoxsa, dərəcəsinin yüksəlməsinə səbəb olar. Bu Hədisi-şərif “**Müslim**”də yazılıdır. Beş vaxt namazı qüsurlu olanların əfv olmasına Cümə namazları səbəb olar. Cümə namazları da qüsurlu olarsa, Ramazan oructarı səbəb olar.

2. Yenə Əbu Hüreyrə “radıyallahü anh” bildirir. Rəsulullah “sallallahü aleyhi və səlləm” buyurdu ki: “**Qapısının önündə axar su olan birisi bu suda hər gün beş dəfə yuyunsa, bədəndə kir qalarmı?”** Əshabi-kiram cavab verərək, xeyir qalmaz ey Rəsulallah, dedilər. “**Beş vaxt namaz da belədir. Beş vaxt namaz qılanların kiçik günahlarını Allahü təala yox edər”**, buyurdu. Bu Hədisi-şərif “**Buxari”**də və “**Müslim”**də yazılıb.

3. Abdullah ibni Məsud “radıyallahü anh” deyir ki, bir nəfər bir yad qadını öpmüşdü. Yəni, Ənsardan biri xurma satırdı. Bir qadın da xurma almaq üçün gəlmişdi. Qadına qarşı heyvani hissləri baş qaldırdı və qadına, “evdə daha yaxşıları var, gəl gedək ondan verim”,- dedi. Evə gələn kimi qadını qucaqladı və öpdü. Qadın “nə edirsən, Allahdan qorx”,- dedi. O da peşman oldu. Rəsulullaha gəlib etdiyini danışdı. Rəsulullah “sallallahü aleyhi və səlləm” ona cavab vermədi. Allahü təaladan vəhy gözlədi. Sonra həmin adam namaz qıldı. Allahü təala Hud surəsinin yüz on beşinci ayətini göndərdi. Bu ayətdə **“Günün iki tərəfində və günəş batnca namaz qıl! Yaxşılıqlar yamanlıqları, əlbəttə, yox edər”** buyuruldu. Günün iki tərəfi zöhrdən əvvəl və zöhrdən sonra deməkdir. Yəni sübh, zöhr və əsr namazlarıdır. Bu ayəti-kərimədə hər gün beş vaxt namazın, günahların bağışlanmasına səbəb olduqları bildirilməkdədir. Həmin adam “ey Rəsulullallah! Bu müjdə ancaq mənim üçündürmü? Yoxsa bütün ümmət üçündür”-dedi. Rəsulullah, **“bütün ümmət üçündür”**, buyurdu. Bu hədisi-şərif iki Səhihdə də yazılıdır.

4. Ənəs bin Malik “radıyallahü anh” deyir ki, bir nəfər Rəsulullaha “sallallahü aleyhi və səlləm” gəlib, “Had cəzasına səbəb olacaq bir günah işlədim. Mənə had cəzası ver!”,- dedi. Rəsulullah, nə günah işlədiyini ona soruşmadı. Namaz vaxtı gəldi. Bir yerdə qıldıq. Rəsulullah “sallallahü aleyhi və səlləm” namazı bitirən kimi həmin adam qalxdı və “Ey Rəsulallah “sallallahü aleyhi və səlləm”. Mən had cəzası veriləcək bir günah işlədim. Allahü təalanın kitabında əmr olunan cəzanı mənə ver!” dedi. **“Sən bizimlə namaz qılmadımmı”** –buyurdu. “Bəli qıldım”-dedi. **“Məyus olma! Allahü təala günahını bağışladı”** buyurdu. Bu hədisi-şərif iki təməl kitabda yazılıdır. Həmin adam had cəzasına səbəb olacaq bir günah işlədiyini zənn etmişdi. Namaz qılan kimi bağışlanması, həmin günahın kiçik günah olduğunu göstərməkdədir. Yaxud had deməsi, kiçik günahların qarşılığı olan **“Tazir”** cəzası idi. İkinci sualında “Had cəzası ver!” deməməsi də, belə olduğunu göstərir.

5. Abdüllah ibni Məsud “radıyallahü anh” deyir ki, Allahü təalanın ən çox hansı əməli sevdiyini Rəsulullahdan “sallallahü aləyhi və səlləm” soruşdum. “**Vaxtında qılınan namaz**” buyurdu. Bəzi Hədisi-şəriflərdə isə “**Əvvəl vaxtında qılınan namazı çox sevər”** buyurulmuşdur. Ondan sonra hansını çox sevər dedim. **“Anaya-ataya yaxşılıq etməyi”** buyurdu. Bundan sonra hansını çox sevər dedim. “**Allah yolunda cihad etməyi**” buyurdu. Bu Hədisi-şərif iki səhih kitabda (“**Buxarı**” və “**Müslim**”) yazılıdır. Başqa bir Hədisi-şərifdə “**Əməllərin ən yaxşısı insanlara yemək verməkdir”** buyuruldu. Bir başqasında, **“Salam verməyi yaymaqdır”.** Bir başqasında isə, **“Gecə hər kəs yuxuda ikən namaz qılmaqdır”** buyurulmuşdur. Başqa bir Hədisi-şərifdə, **“Ən qiymətli əməl əlindən və dilindən kimsənin inciməməsidir”.** Bir Hədisi-şərifdə də, **“Ən qiymətli əməl cihaddır”** buyuruldu. Bir Hədisi-şərifdə, “**Ən qiymətli əməl həcci məbrurdur”.** Yəni heç günah işləmədən edilən həcdir, buyuruldu. “**Allahü təalanı zikr etməkdir**” və “**Davamlı olan əməldir”** Hədisi-şərifləri də vardır. Sualı soruşanların hallarına uyğun müxtəlif cavablar verilmişdir. Yaxud, zamana uyğun cavab verilmişdir. Məsələn, islamiyyətin başlanğıcında əməllərin ən xeyirlisi, ən qiymətlisi cihad idi. (Zamanımız-

da əməllərin ən xeyirlisi yazı ilə, nəşriyyat ilə, kafirlərə, məzhəbsizlərə cavab vermək, Əhli-sünnət etiqadını yaymaqdır. Belə cihad edənlərə pul ilə, mal ilə, bədən ilə yardım edənlər də bunların qazandıqları savablara ortaq olarlar. Ayəti-kərimələr, Hədisi-şəriflər namazın, zəkatdan, sədəqədən daha qiymətli olduğunu göstərir. Lakin ölüm halında olana bir şey verib, onu ölümdən qurtarmaq, namaz qılmaqdan daha qiymətli olar. Demək ki, başqa hallar, şərtlər içində, başqa şeylər daha qiymətli olur).

6. Cabir bin Abdullah xəbər verir: Rəsulullah "sallallahü aleyhi və səlləm" buyurdu ki, **"İnsan ilə küfr arasındakı sərhəd, namazı tərk etməkdir."** Çünki namaz insanı küfrə düşməkdən qoruyan pərdədir. Bu pərdə aradan qalxınca qul küfrə düşər. Bu hədisi-şərif **"Müslim"**də yazılmışdır. Bu hədisi-şərif namazı tərk etmənin çox pis olduğunu göstərir. Əshabi-kiramdan çoxusu namazı üzrsüz tərk edən kafir olar, dedilər. Şafii və maliki məzhəblərində kafir olmazsa da, öldürülməsi vacibdir. Hənəfi məzhəbində namaz qılana qədər həbs olunur və döyülür.

7. Übadə bin Samit "radıyallahü anh" xəbər verir. Rəsulullah "sallallahü aləyhi və səlləm" buyurdu ki, "**Allahü təala beş vaxt namaz qılmağı əmr etdi. Bir kimsə gözəl dəstəmaz alıb, namazlarını vaxtında qılarsa və rükülərini, huşularını tamam edərsə, Allahü təala onu əfv edəcəyini söz vermişdir. Bunları etməyən üçün söz verməmişdir. Bunu istəyərsə əfv edər, istəyərsə əzab edər".** Bu Hədisi-şərifi İmamı Əhməd, Əbu Davud və Nəsai bildirmişdir. Görünür ki, namazın şərtlərinə, rükü və səcdələrinə diqqət etmək lazımdır. Allahü təala sözündən dönməz, doğru namaz qılanları mütləq əfv edər.

8. Əbu Əmaməi Bahili "radıyallahü anh" bildirir. Rəsulullah "sallallahü aleyhi və səlləm" buyurdu ki, **"Beş vaxt namazınızı qılın! Bir ayınızda oruc tutun! Mallarınızın zəkatını verin! Başınızda olan rəhbərlərinizə itaət edin! Rəbbinizin Cənnətinə girin!"** Görünür ki, hər gün beş vaxt namaz qılan, Ramazan ayında oruc tutan, malının zəkatını verən və Allahü təalanın yer üzündə xəlifəsi olan rəhbərlərin islamiyyətə uyğun əmrlərinə itaət edən bir müsəlman Cənnətə gedəcəkdir. Bu hədisi-şərif imamı Əhməd və Tirmüzi bildirmişdilər.

9. Əshabi-kiramın məşhurlarından Büreydəi Əsləmi "radıyallahü anh" xəbər verir. Rəsulullah "sallallahü aləyhi və səlləm" buyurdu ki, "**Sizinlə aramızda olan əhd namazdır**. **Namazı tərk edən kafir olar".** Görünür ki, namaz qılanın müsəlman olduğu anlaşılır. Namaza əhəmiyyət verməyən, namazı birinci vəzifə qəbul etmədiyi üçün qılmayan kafir olar. Bu Hədisi-şərifi imamı Əhməd, Tirmüzi, Nəsai və İbni Macə bildirmişdir.

10. Əbu Zəri Qifari deyir ki, payız günlərindən birində Rəsulullah "sallallahü aləyhi və səlləm" ilə bərabər küçəyə çıxdıq. Yarpaqlar tökülürdü. Bir agacdan iki budaq qopartdı. Bunların yarpaqları dərhal töküldü. "**Ey Əba Zər! Bir müsəlman Allah rızası üçün namaz qılınca, bu budaqların yarpaqları töküldüyü kimi, günahları tökülür"** buyurdu. Bu Hədisi-şərifi imamı Əhməd xəbər verdi.

11. Zeyd bin Xalid Cühəmi xəbər verir. Rəsulullah "sallallahü aləyhi və səlləm" buyurdu ki, "**Bir müsəlman, doğru olaraq və huşu ilə iki rükət namaz qı-**

**lınca, keçmiş günahları əfv olar.”** Yəni Allahü təala onun kiçik günahlarının hamısını əfv edər. Bu Hədisi-şərifi İmamı Əhməd bildirdi.

12. Abdüllah bin Amr-ibni As xəbər verir. Rəsulullah “sallallahü aləyhi və səlləm” buyurdu ki, “**Bir kimsə namazı əda edərsə, bu namaz qiyamət günü nur və burhan olar və Cəhənnəmdən qurtulmasına səbəb olar. Namazı mühafizə etməzsə, nur və burhan olmaz və nicat tapmaz. Karun, Firon, Haman və Übey bin Haləf ilə birlikdə olar.”**

Görünür ki, bir kimsə namazı fərzlərinə, vaciblərinə, sünnətlərinə və ədəblərinə uyğun olaraq qılarsa, bu namaz qiyamətdə nur içində olmasına səbəb olar. Belə namaz qılmağa davam etməzsə, qiyamət günü adı keçən kafirlərlə bərabər olar. Yəni Cəhənnəmdə şiddətli əzab çəkər. Übey bin Haləf, Məkkə kafirlərinin azğınlarından idi. Uhud savaşında, Rəsulullah “sallallahü aləyhi və səlləm” mübarək əli ilə onu Cəhənnəmə göndərdi. Bu Hədisi-şərifi, imamı Əhməd, Beyhəki ilə Darimi bildirmişdir.

13. Tabeinin böyüklərindən Abdüllah bin Sakik deyir ki, “Əshabə-i kiram “radıyallahü anhüm” ibadətlər içində yalnız namazı tərk etmənin küfr olduğunu söylədilər”. Bunu Tirmüzi bildirdi. Abdüllah bin Şakik, Ömərdən, Əlidən, Osmandan və Aişədən “radıyallahü anhüm” Hədisi-şəriflər rəvayət etmişdir. Hicrətin 108-ci ilində vəfat etmişdir.

14. Əbüddərda “radıyallahü anh” deyir ki, çox sevdiyim biri mənə dedi ki, “**Parça-parça parçalansan, atəşdə yandırılsan belə, Allahü təalaya heç bir şeyi şərik qoşma! Fərz namazlarını tərk etmə! Fərz namazlarını bilə-bilə tərk edən, müsəlmanlıqdan çıxar. Şərab içmə! Şərab bütün pisliklərin açarıdır”.** Bu Hədisi-şərifi İbni Macə bildirdi. Görünür ki fərz namazlara diqqət etməyib tərk edən, kafir olar. Tənbəlliklə tərk edən kafir olmaz isə də, böyük günah olar. İslamiyyətin bildirdiyi beş üzrdən biri ilə tərk etmək günah deyildir. Şərab və spirtli içkilərin hamısı ağlı aparar. Ağlı olmayan hər yamanlığı edə bilər.

15. Əli “radıyallahü anh” xəbər verir. Rəsulullah “sallallahü aleyhi və səlləm” buyurdu ki, “Ey Əli! Üç şeyi etməyi gecikdirmə: Vaxtı gələn kimi dərhal namazı qıl! Cənazə hazırlanan kimi dərhal namazını qıl! Bir qızın küfvünü (bərabər, tay) tapan kimi tez evləndir. Bu hədisi-şərifi Tirmüzi “rahimə-hullahü-təalə” bildirdi. Cənazə namazını gecikdirməmək üçün məkruh olan üç vaxtda da qılınmalıdır.

[Görünür ki, qadını, qızı küfvünə, yəni tayına vermək lazımdır. Küfv demək, varlı olmaq, gəliri çox olmaq demək deyildir. Küfv olmaq, kişinin saleh müsəlman olması, Əhli-sünnət etiqadında olması, namaz qılması, içki içməməsi, yəni islamiyyətə tabe olması və nafaka (ailənin ehtiyacları) qazanacaq qədər iş-güc sahibi olması deməkdir. Kişinin ancaq varlı olmasını, var-dövlət sahibi olmasını istəyənlər qızlarını fəlakətə, Cəhənnəmə atmış olurlar. Qızın da namaz qılması, başı, qolu açıq küçəyə çıxmaması, məhrəm olmayan qohumu ilə belə tək qalmaması lazımdır.]

16. Abdullah ibni Ömər “radıyallahü anhüma” xəbər verir. Rəsulullah “sallallahü aləyhi və səlləm” buyurdu ki, “**Namazlarını vaxtları gəlincə dərhal qılanlardan Allahü təala razı olar. Vaxtlarının sonunda qılanları da əfv edər”.** Bu Hədisi-şərifi Tirmüzi “rahimə-hullahü-təalə” bildirdi.

Şafii və hənbəlidə hər namazı vaxtının əvvəlində qılmaq yaxşıdır. Maliki məzhəbi də buna yaxındır. Ancaq çox istidə tək qılanın zöhrü gecikdirməsi yaxşı olar. Hənəfi məzhəbində də sübh və işa namazlarını gecikdirmək və isti vaxtlarda zöhrü havanın sərinlənən vaxtlarında qılmaq daha yaxşıdır. (Lakin zöhrü imameyn (iki imam) qavlinə görə əsr vaxtı girmədən, əsri və işanı da imamı-azama görə vaxtı girən kimi qılmaq yaxşı olar, ehtiyatlı olar. Təqva əhli olanlar hər işində ehtiyatlı olurlar.

17. Ümmi Fərvə "radıyallahü anhə" xəbər verir. Rəsulullaha "sallallahü aləyhi və səlləm" hansı əməlin üstün olduğu soruşuldu. "**Əməllərin üstünü vaxtının əvvəlində qılınan namazdır"** buyurdu. Bu Hədisi-şərifi, imamı Əhməd, Tirmizi və Əbu Davud bildirdilər. Namaz ibadətlərin ən üstünüdür. Vaxtı girər-girməz qılınca, daha üstün olur.

18. Aişə "radıyallahü anhə" deyir ki, "Rəsulullahin namazını axır vaxtında qıldığını, iki dəfə görmədim". Yəni bütün ömründə, bir dəfə, bir namazı vaxtının sonunda qılmışdır.

19. Ümmi Habibə "radıyallahü anhə" xəbər verir. Rəsulullah "sallahü aleyhi və səlləm" buyurdu ki, **"Bir müsəlman qul hər gün fərz namazlardan başqa on iki rəkat tətavvu olaraq namaz qılarsa, Allahü təala ona Cənnətdə bir köşk verər."** Bu hədisi-şərif **"Müslim"**də yazılmışdır. Görünür ki, hər gün beş vaxt fərz ilə qılınan sünnət namazlara Rəsulullah "sallahü aleyhi və səlləm" tətavvu, yəni nafilə namaz deməkdədir.

20. Tabinin böyüklərindən Abdullah bin Şakin "rahimə-hullahü-təalə" deyir ki, Rəsulullah "sallahü aleyhi və səlləm" tətavvu namazlarını, yəni nafilə namazlarını həzrəti Aişədən "radıyallahü anhə" soruşdum, "Zöhr fərzindən əvvəl dörd, sonra iki, şamın və işanın fərzlərindən sonra iki, sübh namazlarının fərzindən əvvəl rəkat qılardı"-dedi. Bu xəbəri Müslim və Əbu Davud "rahimə-hümallahü-təalə" bildirdilər.

21. Aişə "radıyallahü anhə" dedi ki, "Rəsulullahın "sallallahü aləyhi və səlləm" nafilə ibadətlərdən ən çox davam etdiyi, sabah namazının sünnəti idi". Bu xəbər həm "**Buxari**"də, həm də **"Müslim"**də yazılıdır. Görünür ki, Aişə "radıyallahü anhə", beş vaxt namazın fərzləri ilə bərabər qılınan sünnət namazlara, nafilə namaz deməkdədir.

[Böyük islam alimi, Allah adamlarının öndəri, yolunu azmışlara, məzhəbsizlərə qarşı Əhli-sünnətin ən qüvvətli himayəçisi, Allahü təalanın seçdiyi çox sevdiyi dini yayan, bidətləri yıxan böyük mücahid, İmam-i Rabbani mücəddid-i əlf-i sani Əhməd bin Abdül-əhad Faruki Sərhəndi "rahmətullahi aleyh", islam dinində bir bənzəri yazılmayan, "**Məktubat**" kitabının birinci cildi, 29-cu məktubunda buyurur ki: "Allahü təalanın razı olduğu işlər, fərzlər və nafilələrdir. Fərzlərin yanında nafilələrin heç qiymətləri yoxdur. Bir fərzi vaxtında qılmaq min il dayanmadan nafilə ibadət etməkdən daha qiymətlidir. Hər növ nafilə, məsələn namaz, zəkat, oruc, zikr, fikr həmişə belədir. Hətta bir fərzi yerinə yetirərkən bunun sünnətlərindən bir sünnəti və ədəblərindən bir ədəbi etmək də başqa nafilələri etməkdən qat-qat daha qiymətlidir. Əmir-ül-möminin Ömər-ül-Faruq "radıyallahü anh" bir gün sabah namazını qıldırdıqdan sonra camaat arasında bir nəfəri görməyib səbəbini soruşduqda, o hər gecə nafilə ibadət edir, bəlkə yatmış, camaata gələ bilməmişdir, dedilər. "

Kaş bütün gecəni yatıb, sübh namazını camaat ilə qılsaydı daha yaxşı olardı" buyurdu. Görünür ki, bir fərzi yerinə yetirərkən ədəblərindən bir ədəbi etmək və bir məkruhundan çəkinmək, zikr, fikr və mürakəbədən qat-qat daha qiymətlidir. Bəli, bunlar o ədəbləri etməklə və məkruhlardan çəkinməklə bərabər edilərsə, əlbəttə çox faydalı olar. Lakin onlarsız olunca, bir şeyə yaramazlar. Bunun üçün bir lirə zəkat vermək, minlərcə lirə nafilə sədəqə verməkdən daha yaxşıdır. O bir lirəni verərkən bir ədəbinə diqqət edərək, məsələn, yaxın əqrəbaya vermək də o nafilə sədəqədən qat-qat daha yaxşıdır." (Gecə namazı qılmaq istəyənlərin qəza namazı qılmaları lazım olduğu buradan aydın olur. Allahü təalanın əmrlərinə **"fərz"**, qadağalarına **"haram"**, Peyğəmbərimizin əmrlərinə **"sünnət"**, qadağalarına **"məkruh"**, bunların hamısına **"Əhkamı-islamıyyə"** deyilir. Tənbəllik edərək əhkamı-islamiyyəyə tabe olmayan müsəlmana **"fasiq"** deyilir. Bir fərzə, bir harama riayət etməyən fasiq Cəhənnəmə gedəcəkdir. Bunun etdiklərinin heç biri və sünnətləri qəbul olmaz, savab verilməz. Bir manat zəkat verməyənin milyonlar verərək etdiyi xeyir və faydalı işlərin heç biri qəbul olunmaz. Tikdirdiyi məscidlərə, məktəblərə, xəstəxanalara xeyr cəmiyyətlərinə etdiyi yardımlara savab verilməz. İşa namazı qılmayanın təravih namazı qəbul olunmaz. Fərzlərdən və vaciblərdən başqa edilən ibadətlərə **"Nafilə"** deyilir. Sünnətlər nafilə ibadətlərdir. Bir tərifə görə qəza namazları qılan sünnət də qılmış sayılır. Bir fərzi yerinə yetirməyin, bir haramdan çəkinməyin savabı milyonlarla nafilə savabından çoxdur. Bir fərzi yerinə yetirməyən, bir haramı işləyən Cəhənnəmdə yanacaq. Nafilə ibadətləri onu Cəhənnəmdən qurtara bilməz. İbadətlərdə edilmən dəyişikliklərə **"bidət"** deyilir. İbadət edərkən bidət işləmək haramdır və ibadətin pozulmasına səbəb olur. Hədisi-şərifdə **"bidət işləyənin heç bir ibadəti qəbul olunmaz"** buyuruldu. Fasiqin, məsələn xanımı, qızı təsəttürə riayət etməyənin və bidət sahibinin, məsələn ibadətlərdə mikrofon istifadə edənin arxasında namaz qılmamaq, moizələrini, din üzərində uydurma nitqlərini dinləməmək və kitablarını oxumamaq lazımdır. Dosta da, düşmənə də gülər üz, şirin dil göstərməli, heç kəslə münaqişə etməməlidir. Hədisi-şərifdə **"axmağa cavab verilməz"** buyuruldu. İbadətlər qəlbin təmizliyini artırır. Günahlar qəlbi qaraldır, feyzləri ala bilmir. Hər müsəlmanın imanın şərtlərini, fərzləri və haramları öyrənməsi fərzdir. Bilməməsi üzr deyil. Yəni bilib inanmamaq kimidir.**]** "**Məktubat**" kitabı farscadır. Tərcüməsi burada tamam oldu. İmamı Rabbani həzrətləri 1034-cü (m. 1624) ildə Hindistanda, Sərhənd şəhərində vəfat etdi.

## NAMAZIN HƏQİQƏTİ

Böyük islam alimi Abdüllahi Dəhləvi "rahmətullahi aleyh" **"Məkatibi şərifə" kitabının 85-ci məktubunda buyurur ki:**

"Namazı camaat ilə qılmaq və "Tümaninət" ilə qılmaq, rükudən sonra "**Kavmə**" etmək və iki səcdə arasında "**Cəlsə**" etmək, bizlərə Allahın Peyğəmbəri tərəfindən bildirildi. Kavmənin və cəlsənin fərz olduğunu bildirən alimlər vardır. Hə-

nəfi məzhəbinin müftülərindən **“Kadixan”** bu ikisinin vacib olduğunu, ikisindən birini unudunca “Səcdəi-səhv” etmək vacib olduğunu və bilərək etməyənin namazı təkrar qılmasını bildirmişdir. Müəkkəd sünnət olduqlarını bildirənlər də vacibə yaxın sünnət demişdirlər. Sünnətə əhəmiyyət verməyərək tərk etmək küfrdür. Namazın kıyamında, rüküsunda, kavməsində, cəlsəsində, səcdələrində və oturulduğu zamanında ayrı-ayrı, başqa-başqa keyfiyyətlər, hallar hasil olar. Bütün ibadətlər namaz içində toplanmışdır. Qurani-Kərim oxumaq, təsbeh söyləmək [yəni sübhanallah demək], Rəsulullaha salavat söyləmək və günahlara istigfar etmək və ehtiyacları yalnız Allahü təaladan istəyərək Ona dua etmək namaz içində toplanmışdır. Agaclar, otlar namazda durulan kimi dik dururlar. Heyvanlar rükü vəziyyətində, cansızlar da namazda **“Qadə”**də oturan kimi yerə sərilmişdilər. Namaz qılan bunların ibadətlərinin hamısını edir. Namaz qılmaq mirac gecəsi fərz oldu. O gecə mirac etməklə şərəflənən Allahın sevgili Peyğəmbərinə uymağı düşünərək namaz qılan hər bir müsəlman O uca Peyğəmbər kimi Allahü təalaya yaxınlaşdıran məqamlarda yüksəlir. Allahü təalaya və Onun Rəsuluna qarşı ədəbi riayət edərək hüzur ilə namaz qılanlar bu mərtəbələrə yüksəldiklərini anlayarlar. Allahü təala və Onun Peyğəmbəri bu ümmətə mərhəmət edərək böyük ehsan etmişdilər, namaz qılmağı fərz etmişdilər. Bunun üçün Rəbbimizə həmd və şükr olsun! Onun sevgili Peyğəmbərinə salavat və təhiyyat və dualar edirik! Namaz qılarkən hasil olan səfa və hüzur təəccüblü şeydir. Üstadım [Mazhər-i Can-ı Canan] buyurdu ki, “Namaz qılarkən Allahü təalanı görmək mümkün deyil isə də, görür kimi bir hal hasil olur”. Bu halın hasil olduğunu təsəvvüf böyükləri söz birliyi ilə bildirmişdilər. İslamiyyətin başlanğıcında namaz Qüdsə qarşı qılınırdı. Beyt-ül-müqəddəsə qarşı qılmağı buraxıb, İbrahim-əleyhissəlamın qibləsinə dönmək əmr olunduğu zaman Mədinədəki yəhudilər hirsləndilər. “Beyt-ül-müqəddəsə qarşı qılmış olduğunuz namazlar nə olacaq?” dedilər. Bəqara surəsinin 143-cü ayəti-kəriməsi gələrək, **“Allahü təala imanlarınızı zay etməz!”** buyuruldu. Namazların qarşılıqsız qalmayacaqları bildirildi. Namaz iman kəlməsi ilə bildirildi. Bundan anlaşılır ki, namazı sünnətə uyğun olaraq qılmamaq İmanı zay etmək olar. Rəsulullah əfəndimiz “sallAllahü təala aləyhi və səlləm”, “**Gözümün nuru və ləzzəti namazdadır**” buyurdu. Bu Hədisi-şərif, “Allahü təala namazda zuhur edir, müşahidə olunur. Beləcə gözümə rahatlıq gəlir”, deməkdir. Bir Hədisi-şərifdə, “**Ya Bilal** “radıyAllahü təala anh”**! Məni rahatlandır!”** buyuruldu ki, “Ey Bilal! Azan oxuyaraq və namazın qamətini söyləyərək məni rahata qovuşdur”, deməkdir. Namazdan başqa bir şeydə rahatlıq axtaran bir kimsə məqbul deyildir. Namazı zay edən, əldən qaçıran başqa din işlərini daha çox qaçırır.

## NAMAZDAKI ÜSTÜNLÜKLƏR

İmamı Rabbani “rahmətullahi aleyh” “**Məktubat**” kitabının birinci cild, 261-ci məktubunda buyurur ki:

Bu hissəsi mütləq bilinməlidir ki, namaz İslamın beş şərtindən ikincisidir. Bütün ibadətləri özündə cəmləmişdir. İslamın beşdə bir parçası olsa da, bu toplama-

sından dolayı, təkbaşına müsəlmanlıq demək olmuşdur. İnsanı Allahü təalanın sevgisinə qovuşduran işlərin birincisi olmuşdur. Aləmlərin Əfəndisi və Peyğəmbərlərin "aləyhi və aləyhimüssaləvatü vəssəlam" ən üstünü olana mirac gecəsi, Cənnətdə nəsib olan rüyət şərəfi dünyaya endikdən sonra dünyanın halına uyğun olaraq, özünə yalnız namazda nəsib olmuşdur. Buna görə də: "**Namaz möminlərin miracıdır**" buyurulmuşdur. Bir Hədisi-şərifdə, "**İnsanın Allahü təalaya ən yaxın olması namazdadır"** buyurulmuşdur. Onun yolunda, tam izində gedən böyüklərə o rüyət dövlətindən bu dünyada böyük pay yalnız namazda olur. Bəli, bu dünyada Allahü təalanı görmək mümkün deyildir. Dünya buna əlverişli deyildir. Lakin ona tabe olan böyüklərə namaz qılarkən rüyətdən bir şeylər nəsib olur. Namaz qılmağı əmr buyurmasaydı, məqsədin, qayənin gözəl üzündən pərdəni kim qaldırardı? Aşiqlər məşuqu necə tapardı? Namaz kədərli ruhlara ləzzət verəndir. Namaz xəstələrin rahat edənidir. Ruhun qidası namazdır. Qəlbin şəfası namazdır. "**Ey Bilal, məni fərəhləndir!**" deyə azan oxumasını əmr edən Hədisi-şərif bunu göstərir, **"Namaz qəlbimin nəşəsi, gözümün bəbəyidir"** hədisi-şərifi bu arzunu işarət edir. Zövqlər, vəcdlər, bilgilər, bacarıqlar, məqamlar, nurlar, rənglər, qəlbdəki təlvinlər və təmkinlər, anlaşılan və anlaşıla bilməyən təcəllilər, sifətli və sifətsiz zühurdan hansı namaz xaricində hasil olarsa və namazın həqiqətindən bir şey anlaşıla bilməzsə, bu hasil olanlar həmişə zildən, əksdən və surətdən meydana gəlmişdir. Bəlkə də vəhm və xəyaldan başqa bir şey deyildir. Namazın həqiqətini anlamış olan bir kamil namaza durunca, sanki bu dünyadan çıxıb axirət həyatına girər və axirətə məxsus olan nemətlərə qovuşur. Araya əks, xəyal qarışmadan, əsldən həzz və pay alar. Çünki dünyadakı bütün kəmalat, nemətlər zildən, surət və görünüşdən hasil olur. Zil, görünüş arada olmadan, doğruca əsldən hasil olmaq axirətə məxsusdur. Dünyada əsldən ala bilmək üçün mirac lazımdır. Bu mirac mömінin namazıdır. Bu nemət yalnız bu ümmətə məxsusdur. Peyğəmbərlərinə tabe olmaq sayəsində buna qovuşurlar. Çünki bunların Peyğəmbəri "sallallahü aləyhi və səlləm" Mirac gecəsi dünyadan çıxıb axirətə getdi. Cənnətə girdi və rüyət səadəti, neməti ilə şərəfləndi. Ya Rəbb! Sən o böyük Peyğəmbərə "sallallahü aləyhi və səlləm" bizim tərəfimizdən Onun böyüklüyünə yaraşan yaxşılıqları ehsan et! Bütün Peyğəmbərlərə də "ala nəbiyyina və aləyhimüssaləvatü vəttəslimat" xeyirlər, yaxşılıqlar ver ki, onlar insanları səni tanımağa və razılığına qovuşmağa çağırmış və bəyəndiyin yolu göstərmişdir.

Təsəvvuf yolunda olanların bir çoxu, özlərinə namazın həqiqəti bildirilmədiyi və ona məxsus kəmalat tanıdılmadığı üçün dərdlərinin dərmanını başqa şeylərdə axtardı. Məqsədlərinə qovuşmaq üçün başqa şeylərə sarıldı. Hətta bunlardan bəzisi namazı bu yolun xaricində, məqsəd ilə əlaqəsiz sandı. Orucu namazdan üstün bildi. Namazın həqiqətini anlaya bilməyənlərdən bir çoxu da, iztirablarını təskin və ruhlarını fərəhləndirməyi, sima və nəğmədə, yəni musiqidə, vəcdə gəlməkdə, özündən keçməkdə axtardı. Məqsədi, məşuqu, musiqi pərdələrinin arxasında sandı. Bunun üçün rəqsə, dansa sarıldılar. Halbuki "**Allahü təala haramda şəfa təsiri yaratmamışdır"** hədisi-şərifini eşitmişdilər. Bəli, boğulmaqda olan bir xam üzgüçü hər saman çöpünə yapışar. Bir şeyin eşqi aşiq olanı kar və kor edər. Bunlara əgər nama-

zın kəmalatından bir şey daddırılmış olsaydı sima və nəğməni ağızlarına almaz, vəcdə gəlməyi xatırlarına belə gətirməzdilər.

Ey qardaşım! Namaz ilə musiqi arasında nə qədər uzaqlıq varsa, namazdan hasil olan kəmalat ilə musiqidən hasil olan təəssür də bir-birindən o qədər uzaqdır. Ağılı olan bu qədər işarətdən çox sey anlayar.

İbadətlərdən zövq hiss etmək və bunların yerinə yetirilməsi insan üçün çətin gəlməməsi Allahü təalanın ən böyük nemətlərindəndir. Hələ namazın dadını hiss etmək nəhayətə çatmayanlara nəsib olmaz. Hələ fərz namazların dadını almaq ancaq onlara məxsusdur. Çünki nəhayətə yaxınlaşanlara nafilə namazların dadını daddırırlar. Nəhayətdə isə yalnız fərz namazların dadı hiss edilir. Nafilə namazlar zövqsüz olub fərzlərin qılınması böyük kar, qazanc bilinir.

(Nafilə namaz, fərz və vacibdən başqa namazlar deməkdir. Beş vaxt namazın sünnətləri və digər vacib olmayan namazlar nafilə namazlardır. Müəkkəd olan və olmayan bütün sünnətlər nafilədir).

Namazların hamısında hasil olan ləzzətdən nəfsə bir pay yoxdur. İnsan bu dadı hiss edərkən nəfsi inləməkdə, fəryad etməkdədir. Ya Rəbb! Bu nə böyük rütbədir! Bizim kimi ruhları xəstə olanların bu sözləri eşitməsi də böyük nemət, həqiqi səadətdir.

Yaxşı bilın ki, dünyada namazın rütbəsi, dərəcəsi, axirətdə Allahü təalanı görmənin yüksəkliyi kimidir. Dünyada insanın Allahü təalaya ən yaxın olduğu zaman, namaz qıldığı zamandır. Axirətdə ən yaxın olduğu da rüyət, yəni Allahü təalanı gördüyü zamandır. Dünyadakı bütün ibadətlər insanı namaz qıla biləcək bir hala gətirmək üçündür. Əsl məqsəd namaz qılmaqdır. Əbədi səadətə və sonsuz nemətlərə qovuşmaq ancaq namaz qılmaqla əldə edilir.

**Namaz** bütün ibadətlərdən və orucdan qiymətlidir. **Namaz** var ki, qırıq qəlbləri zövqlə doldurur. **Namaz** var ki, günahları yox edər, insanı pislikdən qoruyur. Hədisi-şərifdə, "**Namaz qəlbimin nəşəsi və sevinc qaynağıdır**" buyuruldu. **Namaz** qəmli ruhlara ləzzət verir. **Namaz** ruhun qidasıdır. **Namaz** qəlbin şəfasıdır. Namazda elə an olar ki, arifin dili Musa-əleyhissəlama söyləyən agac kimi olar.

**İmamı-Rabbani həzrətləri "Məktubat" kitabının 1-ci cild, 266-cı məktubunda buyurur:**

İmanı, etiqadı düzəltdikdən sonra fiqh əhkamını (yəni dinimizin əmr və qadağan etdiyi işlər) öyrənmək, əlbəttə, lazımdır. Fərzləri, vacibləri, halal və haramları, sünnət və məkruhları, şübhəliləri lazımı qədər öyrənməli və öyrəndiyi ilə hərəkət etməlidir. Fiqh kitablarını öyrənmək hər müsəlmana lazımdır. (Bunları bilmədən müsəlmanlıq olmaz). Allahü təalanın əmrlərini yerinə yetirməyə, Onun bəyəndiyi kimi yaşamağa çalışmalıdır. Onun ən çox bəyəndiyi və əmr etdiyi şey hər gün beş vaxt namaz qılmaqdır. Namaz dinin dirəyidir. Namazın əhəmiyyətindən və necə qılınacağından bir neçə məlumat bildirəcəm. Can qulağı ilə dinləyin! İlk əvvəl sünnətə (yəni fiqh kitablarında yazılana) tam uyğun olaraq dəstəmaz almalıdır. Dəstəmaz alarkən yuyunması lazım olan yerləri üç dəfə və hər dəfə də hər tərəfini tam

yumağa çox diqqət etməlidir. Beləcə sünnətə uyğun dəstəmaz alınmış olar. Başa məsh edərkən, başın hər tərəfini örtəcək şəkildə sığallamalıdır. Qulaqları və boyunun arxasını yaxşıca məsh etməlidir. Ayaq barmaqlarını hilal edərkən (yəni barmaq aralarını təmizləyərkən) sol əlin kiçik barmaqlarının ayağın alt tərəfindən aralarına salması bildirilmişdir. Buna əhəmiyyət verməli, "müstəhəbdir" deyib keçməməlidir. Müstəhəbləri əhəmiyyətsiz görməməlidir. Bunlar Allahü təalanın sevdiyi və bəyəndiyi şeylərdir. Əgər bütün dünyanı verməklə bəyəndiyi bir işin edilə biləcəyi məlum olsa və dünyayı verib o işi edə bilsə, çox qazanc əldə etmiş olar və bir neçə saxıl pul verib qiymətli bir almazı ələ keçirmiş olar. Yaxud bir neçə saxıl pulu verib ölmüş bir sevgilinin ruhunu geri gətirərək həyat qazandırmaq kimidir.

Namaz möminlərin miracıdır. Yəni mirac gecəsində peygəmbərimizə "sallallahü aleyhi və səlləm" ehsan olunan nemətlər bu dünyada Onun ümmətinə yalnız namazda daddırılmaqdadır. Kişilər fərz namazları camaatla qılmağa çox diqqət etməli, hətta birinci təkbiri imam ilə almağı qaçırmamalıdır. (Qadınlar istər camaat ilə namaz qılmaq olsun, istər də hafiz və mövlud dinləmək üçün məscidlərdə kişilər arasına qarışmaları və hələ savab qazanmaq üçün Cümə namazlarına getmələri günahdır.)

Namazları vaxtında qılmaq (və vaxtında qıldığını bilmək) şərtdir. Tək olduğu zaman hər namazı vaxtın əvvəlində qılmalı, əsri və işanı İmamı-azamın qavlinə görə qılmalıdır. Namaz nə qədər gec qılınarsa savabı o qədər azalır. Müstəhəb olan vaxtlar, camaat ilə qılmaq üçün məscidə getmək üçündür. Namaz qılmadan vaxt çıxarsa adam öldürmüş kimi günah olar. Qəza etməklə bu günah bağışlanmaz. Yalnız borc ödənmiş olur. Bu günahı əhv etdirmək üçün tövbəi-nasuh etmək və ya həcci-məbrur etmək lazımdır.

Namazda Qurani-Kərim sünnət olan miqdarda oxunmalıdır. Rükudə və səcdələrdə hərəkətsiz durmaq lazımdır. Çünki fərz və ya vacibdir. Rükudən qalxanda elə dik durmalıdır ki, sümüklər yerinə yerləşsin. Bundan sonra bir miqdar bu şəkildə durmaq fərz ya vacib və ya sünnət deyilmişdir. İki səcdə arasında oturmaq da belədir. Bunlara çox diqqət etməlidir. Rükudə və səcdələrdə təsbeh ən az üş dəfədir. Ən çoxu yeddi və ya on birdir. İmam üçün isə camaatın halına görədir. Qüvvətli bir insanın dərd-qəmi olmadığı vaxtlarda tək qılarkən təsbehləri ən az miqdarda söyləməsi nə qədər utanc bir haldır. Heç olmasa beş dəfə söylənməlidir. Səcdəyə yatarkən yerə ən yaxın olan əzasını yerə daha əvvəl qoymalıdır. Ona görə də ilk əvvəl dizlər, sonra əllər, daha sonra burun, ən axırda alın qoyulur. Səcdədən qalxarkən yuxarıda olan əza əvvəl qaldırılır. Ona görə də əvvəl alın qaldırılmalıdır. Ayaqda ikən səcdə yerinə, rükudə ikən ayaqlara, səcdədə burun ucuna və oturarkən iki əllərə və ya qucağa baxılır. Bu söylədiyimiz yerlərə baxıb gözlər ətraflara sürüşməzsə, namaz "**cəmiyyətlə**" qılına bilər. Yəni qəlb də dünya düşüncələrindən qurtula bilər. Huş hasil olur. Necə ki, Peyğəmbərimiz "sallallahü aleyhi və səlləm" belə buyurmuşdur. Əl barmaqlarını rükudə açmaq və səcdədə bir-birinə yapışdırmaq sünnətdir. Bunlara da diqqət etməlidir. Barmaqları açıq və ya bitişik saxlamaq səbəbsiz, boş şeylər deyildir. İslamiyyətin sahibi (yəni Peyğəmbərimiz "sallallahü aleyhi və səlləm") faidələrini düşünərək bu cür etmişdir. Bizim üçün islamiyyətin sahibinə uymaq qədər bö-

yük bir faidə yoxdur, "aleyhissaləvatü vəssəlam". Bu söylədiklərimiz fiqh kitablarında bildirirlən şeyləri etməyə təşviqdir, həvəsləndirməkdir. Allahü təala bizə və sizə islamiyyətin göstərdiyi saleh işlər etməyi nəsib etsin! Peyğəmbərlərin seyyidi, əfəndisi, ən yaxşısı, ən üstünü hörmətinə "aleyhi və aleyhim və alə əli küllin minəssaləvati efdalüha və minəttəslimati əkməlüha" bu duamızı qəbul etsin! Amin.

**İmamı Rabbani "rahmətullahi aleyh" "Məktubat" kitabının yenə ikinci cild, altmış doqquzuncu məktubunda buyurur ki:**

Allahü təalaya həmd olsun! Onun seçdiyi, bəyəndiyi qullarına salamlar, rahatlıqlar olsun. Məktubunuz gəldi. Yoldaşların, dostların doğru olan yoldan ayrılmadıqları məlum olanda çox sevindirdi. Allahü təala doğruluğunuzu və doğru yolda olmanızı artırsın! Yoldaşlarımız ilə birlikdə verdiyiniz vəzifəni yerinə yetriməyə davam edirik. Beş vaxt namazı əlli-altmış nəfərlik camaat ilə qıldığınızı deyirsiniz. Bunun üçün Allahü təalaya həmd və təriflər olsun! Qəlbin Allahü təala ilə olması, bədənin, əzanın Əhkamı-şəriyyəni yerinə yetirməklə zinətlənməsi nə böyük bir nemətdir. Bu zəmanədə insanların çoxusu namaz qılmaqda tənbəllik edirlər. Tumaninətə və tadili-ərkana əhəmiyyət vermirlər. Bunun üçün siz sevdiklərimə bu nüansı bildirməyə məcbur oldum. Yaxşı qulaq asın! Peyğəmbərimiz "sallallahü aleyhi və səlləm", **"Ən böyük oğru öz namazından oğurlayandır"** buyurdu. "Ey Rəsulallah! İnsan öz namazından necə oğurlayar?"-deyə soruşdular. **"Namazın rükusünü, səcdələrini tam yerinə yetirməməklə"** buyurdu. Bir dəfə də buyurdu ki, **"Rükudə və səcdələrdə belini yerinə yerləşdirib bir az durmayanın namazını Allahü təala qəbul etməz".** Peyğəmbərimiz "sallallahü aleyhi və səlləm" bir nəfəri namaz qılarkən rükunü və səcdələri tam etmədiyini görüb, **"Sən namazlarını bu cür qıldığın üçün Muhaməddin** "aleyhissalətü vəssəlam" **dinindən başqa bir dində olaraq ölməkdən qorxmursanmı?"** buyurdu. Yenə buyurdu ki, **"Sizlərdən biri namaz qılarkən rükudən sonra tamam qalxıb dik durmadıqca namazı tam olmaz"** Bir dəfə də buyurdu ki: **"İki səcdə arasında dik oturmasanız namazınız tam olmaz".** Bir gün Peyğəmbərimiz "sallallahü aleyhi və səlləm" bir nəfərin namaz qılarkən namazın əhkam və ərkanına riayət etmədiyini, rükudən qalxanda dikəlib durmadığını və iki səcdə arasında oturmadığını görüb buyurdu ki, **"Əgər namazlarını bu cür qılaraq ölsən, qiyamət günü sənə mənim ümmətimdən deməzlər."** Başqa bir yerdə də buyurdu ki, **"Bu hal üzrə ölsən, Muhammədin** "aleyhissəlam" **dinində olaraq ölməmiş olarsan."** Əbu Hüreyrə "radıyallahü anh" buyurdu ki, "Altmış il bütün namazlarını qılıb, lakin heç bir namazı qəbul olmayan adam, səcdələrini tam yerinə yetirməyən adamdır". Zeyd ibni Vəhb "rahmətullahi təala aleyh" bir nəfərin namaz qılarkən və səcdələrini tam etmədiyini gördü. Yanına çağırıb nə qədər zamandır belə namaz qılırsan, dedi. Qırx ildir, deyəndə, sən qırx ildir namaz qılmamısan. Ölsən, Muhamməd Rəsulullahın "sallallahü aleyhi və səlləm" sünnəti (yəni dini) üzrə ölməzsən, dedi.

Tabəraninin "rahmətullahi təala aleyh" **"Əvsat"**ında bildirilmişdir ki, bir mömin namazını gözəl olaraq qılar, səcdələrini tam yerinə yetirərsə, namaz sevinər və

nurlu olar. Mələklər o namazı göyə çıxardar. O namaz, namazı qılana yaxşı dualar edər və sən məni qüsurlu olmaqdan qoruduğun kimi Allahü təala da səni mühafizə etsin, deyər. Namaz gözəl qılınmazsa, qaralar, mələklər o namazdan iyrənər və göyə götürməzlər. O namaz, qılana pis dualar edər. Sən məni zay etdiyin, pis hala saldığın kimi Allahü təala da səni zay etsin, deyər. O halda namazları tam qılmağa çalışmalı, tadili-ərkana riayət etməli, səcdələri, **"Qavmə"**ni (yəni rüküdən qalxıb dikəlmək) və **"Cəlsə"**ni (yəni iki səcdə arasında oturmaq) yaxşı etməlidir. Başqalarının da qüsurlarını görəndə onlara deməlidir. Din qardaşlarının namazlarını tam olaraq qılmalarına kömək etməlidir. Tumaninət (yəni üzvlərin artıq hərəkətlər etməməsi) və tadili-ərkana (bir dəfə sübhanallah deyəcək qədər hərəkətsiz durmaq) riayət olunmasına cığır açmalıdır. Müsəlmanların çoxusu bunlara riayət etmək şərəfindən məhrum qalırlar. Bu nemət əldən çıxmışdır. Bu əməli meydana çıxartmaq çox mühümdür. Peyğəmbərimiz "sallallahü aleyhi və səlləm" buyurdu ki, **"Unudulmuş bir sünnətimi meydana çıxarana yüz şəhid savabı veriləcək".**

Camaat ilə namaz qılarkən sıraları düz tutmağa da diqqət etməlidir. Sıradan irəlidə və geridə durmamaq lazımdır. Hər kəs bir xətt boyunca durmalıdır. Peyğəmbərimiz "sallallahü aleyhi və səlləm" əvvəl sıraları düzəldər, ondan sonra namaza durardı. **"Sıraları düzəltmək namaz qılmağın bir parçasıdır"** buyururdu. Ya Rəbb! Bizə sonsuz rəhmət xəzinəndən nəsib elə! Hamımızı döğru olan yoldan ayırma!

---

Bir müsəlman dünyada əziz, axirətdə said (Cənnətlik) olmasını istəyirsə, bu üç əxlaqa sahib olsun: Məxluqatdan heç bir şey gözləməmək, Müsəlmanları [və zimmi kafirləri, ölmüş olsalar da] qeybət etməmək, başqasının haqqı olan bir şeyi almamaq.

## NAMAZIN SİRRİ

İmamı Rabbani "quddisə sirruh" "**Məktubat**" kitabının birinci cild, 304-cü məktubunda buyurur ki:

Allahü təalaya həmd etdikdən və Peyğəmbərimizə "sallallahü aləyhi və səlləm" salavat gətirdikdən sonra əbədi səadətə qovuşmanıza dua edərim. Allahü təala, bir çox ayəti-kərimədə əməli-saleh işləyən möminlərin Cənnətə girəcəklərini bildirir. Bu əməli-salehlər nələrdir, yaxşı işlərin hamısı, yoxsa bir neçəsi? Əgər, yaxşı şeylərin hamısı olsa, bunları kimsə edə bilməz. Bir neçəsi isə görən hansı yaxşı işlər istənilir? Nəhayət, Allahü təala lütf edərək belə bildirdi ki, əməli saleh, İslamın beş rüknü, dirəyidir. İslamın bu beş təməlini bir kimsə haqqı ilə qüsursuz yerinə yetirərsə, Cəhənnəmdən qurtulması qüvvətlə ümid edilir. Çünki bunlar əslində saleh işlər olub, insanı günahlardan və çirkin şeyləri etməkdən qoruyur. Belə ki, Qurani-Kərimdə, Ankəbut surəsi 45-ci ayətində, "**Qüsursuz qılınan bir namaz insanı pis, çirkin işləri işləməkdən qoruyar"** buyurulur. Bir insana İslamın beş şərtini yerinə

yetirmək nəsib olarsa, nemətlərin şükrünü etmiş olar. Çünki Allahü təala Nisa surəsi, 146-cı ayətində məalən, "**İman edər və şükr edərsəniz, əzab etmərəm**" buyurur. O halda, İslamın beş şərtini yerinə yetirməyə canı-könüldən çalışmalıdır.

Bu beş şərtdən ən mühümü namazdır ki, dinın dirəyidir. Namazın ədəblərindən bir ədəbi tərk etməyərək qılmağa cəhd etməlidir. Namaz tam qılına bilindi isə, İslamın əsas və böyük təməli qurulmuş olar. Cəhənnəmdən qurtaran sağlam ip tutulmuş olar. Allahü təala hamımıza doğru namaz qılmağı nəsib etsin!

Namaza durarkən "**Allahü-əkbər**" demək, "Allahü təalanın heç bir məxluqun ibadətinə möhtac olmadığını, hər baxımdan heç bir şeyə ehtiyacı olmadığını, insanların namazlarının ona faydası olmayacağını" bildirir. Namaz içindəki təkbirlər isə, "Allahü təalaya qarşı yaraşan bir ibadət etməyə ləyaqət və gücümüz olmadığını" göstərir. Rüküdəkı təsbehlərdə də bu məna olduğu üçün rüküdən sonra təkbir əmr olunmadı. Halbuki səcdə təsbehlərindən sonra əmr olundu. Çünki səcdə təvazö və aşağılığın ən artığı, zillət və kiçikliyin son dərəcəsi olduğundan, bunu edincə haqqı ilə tam ibadət etmiş hesab edilər. Bu düşüncədən qorunmaq üçün səcdələrdə yatıb qalxarkən, təkbir söyləmək sünnət olduğu kimi, səcdə təsbehlərində **"alə"** demək əmr olundu. Namaz möminin miracı olduğu üçün namazın sonunda Peyğəmbər Əfəndimizin "sallallahü aləyhi və səlləm" mirac gecəsində söyləməklə şərəfləndiyi kəlmələri, yəni Əttəhiyyatünü oxumaq əmr olundu. O halda namaz qılan bir kimsə namazı özünə mirac etməli. Allahü təalaya yaxınlığının nəhayətini namazda axtarmalıdır.

Peyğəmbərimiz "aləyhi və ala alihissalatü vəssəlam" buyurdu ki, "**İnsanın Rəbbinə ən yaxın olduğu zaman namaz qıldığı zamandır".** Namaz qılan bir kimsə Rəbbi ilə danışmaqla, Ona yalvarmaqla, Onun böyüklüyünü, Ondan başqa hər şeyin heç olduğunu görür. Bunun üçün namazda qorxu, dəhşət, ürkmək hasil olacağından təsəlli və rahat tapması üçün namazın sonunda iki dəfə salam verməsi əmr buyuruldu.

Peyğəmbərimiz "sallallahü aləyhi və səlləm" bir Hədisi-şərifdə, "**Fərz namazdan sonra 33 təsbeh, 33 tahmid, 33 təkbir və bir də təhlil**" əmr etmişdir. Bunun səbəbi namazdakı qüsurlar təsbeh ilə örtülür. Layiq olan tam ibadət edilə bilinmədiyi bildirilir. "**Tahmid**" ilə namaz qılmaqla şərəflənmənin, Onun köməyi və nail edilməsi ilə olduğu bilinərək bu böyük nemətə şükr edilir, həmd edilir. "**Təkbir**" edərək də Ondan başqa ibadətə layiq kimsə olmadığı bildirilir.

Namaz şərtlərinə və ədəblərinə uyğun olaraq qılınıb və edilən qüsurlar da beləcə örtülüb namazı nəsib etdiyinə də şükr edib, ibadətə başqa heç kəsin haqqı olmadığı qəlbindən təmiz və xalis olaraq kəlimeyi-təvhid ilə bildirilincə, bu namaz qəbul oluna bilər. Bu kimsə namaz qılanlardan və xilas olanlardan olar. Ya Rəbb! Peyğəmbərlərinin ən üstününün hörməti üçün "aləyhi və ala alihimüssaləvatü vəttəslimat" bizləri namaz qılan və qurtulan, xoşbəxt qullarından et! Amin!

**İmamı Muhamməd Masum həzrətləri "Məktubat"ın ikinci cild, on birinci məktubunda buyurur ki:**

Allahü təala insanları başı boş buraxmadı. Hər istədiklərini etməyi icazə vermədi. Nəfslərinin arzularına və təbii, heyvani zövqlərinə tabe olmalarını, beləcə fə-

lakətlərə düşmələrini istəmədi. Rahat və dinclik içində yaşamaları və sonsuz səadətə qovuşmaları üçün arzularından və zövqlərindən necə istifadə etməyin yollarını göstərdi, dünya və axirət səadətinə səbəb olan faydalı şeyləri etməyi əmr etdi. Zərərli olanları etməyi qadağan etdi. Bu əmrlərə və qadağalara **"Əhkamı-islamiyyə"** deyilir. Dünyada rahat yaşamaq, səadətə qovuşmaq istəyən islamiyyətə uymağa məcburdur. Nəfsinin və təbiətinin islamiyyətə uymayan arzularını tərk etməsi lazımdır. İslamiyyətə tabe olmazsa, sahibinin, yaradanının qəzəbinə, əzabına düçar olar. İslamiyyətə tabe olan qul müsəlman olsa da kafir olsa da dünyada məsud, rahat olar. Sahibi ona kömək edər. Dünya ziraət yeridir. Tarlasını əkib-becərməyib toxumlarını yeyərək zövq və səfa sürən məhsul almaqdan məhrum qalacağı kimi, dünya həyatını, keçib-gedən zövqləri, nəfsin arzularını yerinə yetirməklə də əbədi nemətlərdən, sonsuz zövqlərdən məhrum qalar. Bu hal ağlı başında olanın qəbul edəcəyi bir şey deyildir. Sonsuz ləzzətləri əldən buraxmağa səbəb olan keçib-gedən ləzzətləri zərərli şəkildə etməyi seçməz. [Allahü təala dünya zövqlərindən, keçib-gedən ləzzətlərindən, nəfsə şirin gələn şeylərdən heç birini məhrum etmədi, qadağan etmədi. Bunları İslamiyyətə uyğun, zərərsiz olaraq istifadə etməyi icazə verdi]. İslamiyyətə tam tabe olmaq üçün əvvəla **"Əhli-sünnət"** alimlərinin, Əshabi-kiramdan öyrənib, Quranıkərimdən və hədisi-şəriflərdən başa düşüb bildirdikləri **"Akaid"**ə (iman elmi) uyğun iman etmək, sonra haram, qadağan edilmiş olanları öyrənib bunlardan çəkinmək və edilməsi əmr olunan fərzləri öyrənib yerinə yetirmək lazımdır. Bunları etməyə **"ibadət"** etmək deyilir. Haramlardan çəkinməyə **"Təqva"** deyilir.

Niyyət edərək əhkamı-islamiyyəyə tabe olmağa **"İbadət etmək"** deyilir. Allahü təalanın əmrlərinə və qadağalarına **"Əhkamı-islamiyyə"** və **"Əhkami-ilahiyyə"** deyilir. Əmr edilənlərə **"Fərz"**, qadağan edilənlərə **"Haram"** deyilir. İbadətlərin ən qiymətlisi və islam dininin təməli hər gün beş vaxt **"Namaz"** qılmaqdır. [Namaz qılmaq, ayaqda qibləyə qarşı Fatihə oxumaq və qibləyə qarşı əyilmək və qibləyə qarşı başı yerə qoymaq deməkdir. Bunları qibləyə qarşı etməzsə, namaz qılmaq sayılmaz.] Namaz qılan müsəlmandır. Namaz qılmayan ya müsəlmandır, ya kafirdir. Namaz qılmaqla hasil olan kurbı-ilahi [yəni Allahü təalanın sevməsi] başqa ibadətləri yerinə gətirməklə nadir hallarda nəsib olur. Hər gün beş vaxt namazı **cəm-iyyət** ilə [yəni dünya işlərini düşünmədən], camaat ilə, tadili-ərkan ilə, dəstəmazı diqqətlə alaraq və müstəhəb olan vaxtlarında qılmalıdır. Namaz qılarkən Allahü təala ilə qul arasındakı pərdələr qalxır. Beş vaxt namaz qılan hər gün beş dəfə yuyunub təmizlənən bir adam kimi günahlardan təmizlənir. Hər gün beş vaxt namazı doğru olaraq qılana yüz şəhid savabı verilir.

Ticarət malının və çöldə otlayan heyvanların [tarladan, ağaclardan əldə edilən məhsulun, kağız pulun və alacağı olan borcların] zəkatlarını əmr olunan yerlərə sevə-sevə verilməlidir. Zəkatı verən mal azalmaz. Zəkatı verilməyən mal Cəhənnəmdə atəş olar. Allahü təala çox mərhəmər edərək ehtiyacdan artıq olan mal nisab (yetərsay) miqdarı qədər olarsa, bir il sonra zəkatını verməyi əmr etdi. Canı və malı verən Odur. Malın hamısını və canı verməyi əmr etsəydi, Onun aşiqləri dərhal verərdilər.

Ramazanı-Şərif ayında Allahü təala əmr etdiyi üçün sevə-sevə oruc tutmalıdır. Bu aclığı və susuzluğu səadət bilməlidir.

İslamın binası beşdir. Birincisi, **“Əşhədü ən-ləə-iləhə illəllah və əşhədü ənnə Muhamməsdən abdühü və Rəsulühü”** demək və bunun mənasının bilmək və inanmaqdır. Buna **“Kəlimeyi-şəhadət”** deyilir. Dördü də namaz, zəkat, oruc və hacdır. Bu beş əsasdan biri pozularsa, islamiyyət də pozulmuş olar. Etiqadı düzəltdikdən və islamiyyətə tabe olduqdan sonra Sofiyyəi-aliyyənin yolunda irəlləmək lazımdır. Allahü təalanın mərifəti bu yolda hasil olur və nəfsin arzularından qurtulmaq nəsib olur. Sahibini tanımayan adam necə yaşaya bilər, necə rahat ola bilər. Yəni, Allahü təaladan başqa hər şeyi unutmaq lazımdır. Özünü var bilən adam mərifətə qovuşa bilməz. “Fəna” (Allahü təaladan başqa hər çeyi unutmaq, özünü yox görmək) və “Bəqa” (Allahü təalanın sonsuz olması, heç yox olmaması) vicdanda, qəlbdə hasil olan şeylərdir. İzah etməklə başa düşülməz. Mərifət nemətinə qovuşmayanın bunu daimə axtarması lazımdır. Təhqiri əmr olunan və müvəqqəti olan bir şeyin təmiri ilə məşğul olmamalıdır.

## NAMAZDAN SONRA DUA

Əlhamdülillahi Rabbilaləmin. Əssalatü vəssəlamü alə Rəsulina Muhamməmədin və Alihi və Sahbihi əcmain. Ya Rəbb! Qıldığım namazı qəbul et! Axır və aqibətimi xeyirli et. Son nəfəsimdə Kəlmeyi-təvhid söyləməmi nəsib et. Ölmüşlərimi əfv və məğfirət et. Allahümməğfir vərham və əntə xayrurrahimin. Təvəffənni müslimən və əlhıkni bissalihin. Allahümməğfir-li və li-validəyyə və li-üstaziyyə və lilmümininə vəl müminat yəvmə yəqumül hısab. Ya Rəbb! Məni şeytan şərindən və düşmən şərindən və nəfsi əmmarəmin şərindən mühafizə et! Evimizə yaxşılıqlar, halal və xeyirli ruzilər ehsan et! Əhli islama salamat ehsan et! Adayi müslimini qahr və pərisan et! Kafirlərlə cihad etməkdə olan müsəlmanlara imdadi ilahiyyən ilə imdad et! Allahümmə innəkə afüvvün kərimün tuhibbül əfvə fafü anni. Ya Rəbb! Xəstələrimizə şəfa, dərdli olanlarımıza dəva ehsan et! Allahümmə inni əsəlükəssıhhatə vəl-afiyətə vəl-əmanətə və hüsnəlhulki vərridaə bilqadəri bi-rəhmətikə ya ərhamərrahimin. Anama, atama, övladlarıma, əqrəba və dostlarıma, bütün din qardaşlarıma xeyirli ömürlər, hüsni hulk, ağlı səlim, səhhət və afiyət, rüşdü hidayət və istiqamət ehsan et ya Rəbb! Amin. Vəlhamdü-lillahi rabbilaləmin. Allahümmə salli ala..., Allahümmə barik ala..., Allahümmə Rabbəna atina... Vəlhəmdü lillahi Rabbilaləmin. Əstağfirullah, əstağfirullah, əstağfirullah, əstağfirullahəlazim əlkərim əlləzi lə-ilahə illa huv əl-hayyəl-qayyumə və ətubü iləyh.

### İZAH: “DUANIN QƏBUL OLMASI ÜÇÜN ŞƏRTLƏR”:

1. Müsəlman olmaq.
2. Əhli-sünnət etiqadında olmaq. Bunun üçün dörd məzhəbdən birini təqlid etmək lazımdır.

3. Fərzləri yerinə yetirmək. Qəzaya qalmış namazları gecələri də və sünnətlər yerinə də qəza edərək bir an əvvəl ödəməlidir.

Fərz namazı qəzaya qalan kimsənin sünnət və nafilə namazları və duaları qəbul olmaz. Yəni səhih olsa da, savab verilməz. Şeytan müsəlmanları aldatmaq üçün fərzləri əhəmiyyətsiz göstərib, sünnət və nafilələri etməyə sövq edər. Namazı vaxtın gəldiyini bilərək və vaxtın əvvəldə qılmalıdır.

4. Haramdan çəkinməlidir. Halal yeyənin duası məqbuldur.

5. Övliyayi-kiramdan birini vəsilə edərək, dua etməlidir. Hindistan alimlərindən Muhamməd bin Əhməd Zahid, **"Tərgib-üs-salat"** kitabının 54-cü fəslində, farsca olaraq deyir ki, Hədisi-şərifdə «**Duanın qəbul olması üçün iki şey lazımdır: Birincisi, duanı ixlas ilə etməlidir. İkincisi, yediyi və geyindiyi halaldan olmalıdır. Mömının otağında haramdan bir ip varsa, bu otaqda etdiyi duası heç qəbul olmaz**» buyuruldu. İxlas, Allahü təaladan başqa heç bir şey düşünməyib, yalnız Allahü təaladan istəməkdir. Bunun üçün Əhli-sünnət alimlərinin bildirdikləri kimi iman etmək və əhkami islamiyyəyə tabe olmaq, xüsusilə üzərində qul haqqı olmamaq və beş vaxt namazı qılmaq lazımdır.

## TƏCDİDİ-İMAN DUASI

Ya Rəbb! Həddi-büluğumdan bu ana gələnə qədər islam düşmənlərinə və bidət əhlinə aldanaraq qəbul etdiyim səhv, düzgün olmayan etiqadlarıma və bidət, fisq olan söylədiklərimə, dinlədiklərimə, gördüklərimə və işlədiklərimə nadim oldum, peşman oldum, bir daha belə səhv inanmamağa və etməməyə əzm, cəzm və qəsd etdim. Peyğəmbərlərin əvvəli Adəm-əleyhissəlam və axırı bizim sevgili Peyğəmbərimiz Muhamməd-əleyhissəlamdır. Bu iki Peyğəmbərə və ikisi arasında gəlmiş keçmiş Peyğəmbərlərin cümləsinə iman etdim. Hamısı haqdır, sadiqdir. Bildirdikləri doğrudur. Aməntü billah və bi-ma caə min indillah, ala muradillah, və aməntü bi-Rəsulillah və bi-ma caə min indi Rəsulillah ala muradi Rəsulillah, aməntü billahi və Məlaikətihi və kütübihi və Rüsülihi vəlyəvmil-axiri və bilqadəri xayrihi və şərrihi minallahü Təala vəl-basü badəlməvti haqqun əşhədü ən la ilahə illallahü və əşhədü ənnə Muhammədən abdühu və rasulüh.

## NAMAZIN HİKMƏTLƏRİ "Namaz və sağlığımız"

Müsəlman namazı Allahü təalanın əmri olduğu üçün qılar. Rəbbimizin əmrlərində bir çox hikmət, fayda vardır. Qadağanlarında da bir çox zərərlərin olduğu şübhəsizdir. Bu fayda və zərərlərin bir qismini bu gün tibb mütəxəssisləri sübut etmişlər. İslamiyyətin sağlığa verdiyi qiyməti heç bir din və düşüncə verməmişdir. Dinimiz ibadətlərin ən üstünü olan namazı ömrümüzün sonuna qədər qılmağı əmr etmişdir. Namaz qılan sağlıq üçün olan faydalarına da əlbəttə qovuşur. Namazın sağlıq tərəfdən təmin etdiyi faydalardan bəziləri bunlardır:

1. Namazda edilən hərəkətlər yavaş olduğundan qəlbi yormaz və günün müxtəlif saatlarında olduğu üçün insanı davamlı dinc tutar.

2. Gündə başını səksən dəfə yerə qoyan bir kimsənin beyninə ritmik olaraq artıq qan çatar. Buna görə də beyin hüceyrələri yaxşı qidalandığından hafizə və şəxsiyyət pozğunluqlarına namaz qılanlarda daha az rastl gəlinir. Bu insanlar daha sağlam bir ömür keçirirlər. Bu gün tibdə "demans sanil" deyilən ağlını itirmə xəstəliyinə tutulmazlar.

3. Namaz qılanların gözləri müntəzəm olaraq qalxdığı üçün daha qüvvətli qan dövranına malik olar. Bu səbəblə göz içi təzyiqində artma olmaz və gözün ön qismindəki mayenin davamlı dəyişməsi təmin edilmiş olar. Gözü "katarakt" və ya "qara su" xəstəliyindən qoruyar.

4. Namaz qılmaqdakı izometrik hərəkətlər mədədəki qidaların yaxşı qarışmasına, ödün asan axmasına və bu səbəbdən öd kisəsində yığın etməməsinə, mədəaltı vəzidəki fermentlərin asan boşalmasına kömək etdiyi kimi, qəbzliyin aradan qaldırılmasında da rolu böyükdür. Böyrəyin və sidik yollarının yaxşı çalxalanmasında, böyrəyə daşın düşməsinin qarşısının alınmasına və sidik kisəsinin boşalmasına da kömək edir.

5. Beş vaxt qılınan namazdakı ritmik hərəkətlər, gündəlik həyatda hərəkət etməyən əzələ və oynaqları işlədərək, artroz və əhənglənmə kimi oynaq xəstəliklərini və əzələ tutulmalarının qarşısını alır.

6. Bədənin sağlamlığı üçün təmizlik şübhəsiz lazımdır. Dəstəmaz və qüsl həm maddi, həm də mənəvi bir təmizlikdir. Məhz namaz təmizliyin əsl özüdür. Çünki həm bədəni, həm də ruhi təmizlik olmadan namaz olmaz. Dəstəmaz və qüsl bədənin təmizliyini təmin edər. İbadət etmək vəzifəsini yerinə yetirən ruhən istirahət etmiş, təmizlənmiş olar.

7. Praktiki müalicədə müəyyən zamanlarda edilən bədən hərəkətləri çox mühümdür. Namaz vaxtları qan dövranını təzələmək və tənəffüsü canlandırmaq üçün ən uyğun vaxtlardır.

8.Yuxunu tənzim edən əsas şərt namazdır. Hətta vücudda toplanan statik (durğun) elektriklənmə, səcdə etməklə torpaqlanmış olur. Beləcə, vücud təkrar gümrahlığa qovuşur.

Namazın bu faydalarına qovuşmaq üçün namazı vaxtında qılmaqla birlikdə təmizliyə, çox yeməməyə və yeyilən qidaların təmiz, halal olmasına diqqət edilməsi də lazımdır.

***Kimsəyə baqi deyildir, mülkü dünya, sim və zər,***
***Bir xarab olmuş könlü, təmir etməkdir hünər!***

# YEDDİNCİ BÖLMƏ

## NAMAZ İSQATI

### MEYİT ÜÇÜN İSQAT VƏ DÖVR

**“Nur ül-izah”** kitabında və **“Tahtavi”** haşiyəsində və **“Haləbi”** ilə **“Dürr-ül-muxtar”** da namazların qəzası sonunda, **“Müntəka”**da, **“Dürr-ül-müntəka-da”, “Vikayə”**də, **“Dürər”**də və **“Cəvhərə”**də və başqa qiymətli kitablarda orucun sonunda vəsiyyət edən meyit üçün isqat və dövr etmək lazım olduğu qeyd edilmişdir. Məsələn: **“Tahtavi”** haşiyəsində deyilir ki, tutulmamış orucların fidyə verərək isqat edilməsi üçün **nass** (Ayəti-kərimə və Hədisi-şəriflər) vardır. Namaz orucdan daha mühüm olduğundan bir üzr ilə qılına bilinməyən və ya qılmaq istədiyi halda, ölümcül xəstəliyə tutulmuş birinin qəza etmədiyi namazlar üçün də orucda edildiyi kimi isqat etmək üçün alimlərin söz birliyi vardır. Namazın isqatı olmaz deyən cahildir. Çünki məzhəblərin sözbirliyinə qarşı gəlmək deməkdir. Hədisi-şərifdə, “**Bir kimsə başqası yerinə oruc tuta bilməz və namaz qıla bilməz. Lakin onun orucu və namazı üçün kasıbı doyura bilər**” buyuruldu. Əhli-sünnət alimlərinin üstünlüklərini anlaya bilməyən və məzhəb imamlarımızı da özləri kimi “xəyal ilə danışır” hesab edən bəzi kimsələrin, “İslamda isqat və dövr yoxdur. İsqat xristianların günahları təmizləməyə bənzəyir” kimi şeylər söylədiklərini eşidirik. Onların bu kimi sözləri özlərini təhlükəyə atmışdır. Çünki Peyğəmbərimiz “sallallahü aleyhi və səlləm” “**Ümmətim dəlalət üzərində birləşməz**” buyurmuşdur. Bu Hədisi-şərif müctəhidlərin söz birliyi ilə bildirdikləri şeylərin, əlbəttə, doğru olduqlarını göstərir. Onlara inanmayan bu Hədisi şəriflərə inanmamış olur. **İbni Abidin** vitr namazını anladarkən “Dində zəruri olan, yəni cahillərin də bildikləri **«İcma»** bilgilərinə inanmayan kimsə kafir olar” buyurur. **“İcma”** alimlərin söz birliyi deməkdir. İsqat günahları təmizləməyə necə bənzəyə bilər. Keşişlər günahları təmizləyirik deyərək insanları soyurlar. Halbuki İslamiyyətdə isqatı din adamları edə bilməz. İsqatı yalnız ölünün vəlisi edə bilər və pul din adamlarına deyil, kasıblara verilir.

Bu gün hər yerdə isqat və dövr işləri İslamiyyətə uyğun edilməməkdədir. İslamiyyətdə isqat yoxdur deyənlər belə deməyib, bu gün edilməkdə olan isqat və dövrlər İslamiyyətə uyğun deyil desəydi, çox gözəl olardı. Biz də onları dəstəkləyərdik. Belə desəydilər, həm qorxunc bir təhlükəyə düşməkdən qurtular, həm də İslamiyyətə xidmət etmiş olardılar. İsqat və dövrlərin dinimizə uyğun olaraq necə ediləcəyi aşağıda bildiriləcəkdir. İbni Abidin qəza namazları sonunda buyurur:

Faitə namazları olan (yəni üzr ilə qılmadığı namazlar nəzərdə tutulur) bu namazları ima ilə qılmağa gücü çatdığı halda, qılmayan, öləcəyi zaman kəffarənin isqatı üçün vəsiyyət etməsi vacibdir. Qəza etməyə gücü çatmamışsa, vəsiyyət etməsi lazım olmaz. Ramazanı-şərif ayında oruc yeyən yolçu və ya xəstə qəza etmək üçün vaxt tapmayıb ölərsə, vəsiyyət etməsi lazım olmaz. Allahü təala bunların üzrlərini qəbul edər. Xəstənin kəffarələrinin isqatı öldükdən sonra vəlisi tərəfindən yerinə yetirilir. Ölümündən əvvəl etmək olmaz. Sağ insanın özü üçün isqat etdirməsi caiz deyil. **"Cila-ül kulub"**da deyilir ki: "Üzərində Allahü təalanın haqqı və ya qul haqqı olan adamın iki şahid yanında vəsiyyətini söyləməsi və ya yazmış olduğu vəsiyyətini bunlara oxuması vacibdir. Üzərində haqq olmayanın vəsiyyət etməsi müstəhəbdir.

Kəffarə isqatı üçün vəsiyyət edən meyitin vəlisi, yəni mirasını yerlərinə sərf etmək üçün vəsiyyət etdiyi adam və varisi olan kimsə mirasın üçdə birindən hər bir vaxt namaz üçün və vitr namazı üçün və qəza edilməsi lazım olan bir günlük oruc üçün bir fitrə miqdarı, yəni yarım **"sa"** (beş yüz iyirmi dirhəm və ya min yeddi yüz əlli qram) buğdanı kasıblara (yaxud kasıbların nümayəndələrinə) fidyə verir.

Kəffarə isqatı üçün vəsiyyət etməmişsə, varisin kəffarə isqatı etməsi hənəfi məzhəbində lazım olmaz. Şafi məzhəbində vəsiyyət etməsə də, varisin isqat etməsi lazımdır. Qul haqqını vəsiyyət olmasa da ölənin buraxdığı malından varisinin ödəməsi Hənəfi məzhəbində də lazımdır. Hətta borc verənlər mirası ələ keçirən kimi məhkəməsiz götürə bilərlər. Qəzaya qalan orucların fidyəsini, yəni mal ilə ödənilməsini vəsiyyət etdisə, bunu yerinə yetirmək vacibdir. Çünki İslamiyyət əmr etməkdədir. Vəsiyyət etmədisə, namaz fidyəsini vermək vacid deyil caiz olur. Bu son ikisi qəbul olmazsa, heç olmazsa sədəqə savabı hasil olub günahların təmizlənməsinə kömək edər. İmamı Muhammməd belə buyurmuşdur. **Məcma-ul ənhür**-də deyilir ki, nəfsinə və şeytana uyaraq namazını qılmamış, ömrünün sonuna doğru buna peşman (olub qılmağa və qəza etməyə başlamış) olanın qəza etmədiyi namazlarının isqatının edilməsi üçün vəsiyyət etməsi caiz olmaz deyildisə də, bunun caiz olduğu **Müstəsfa-**da yazılmışdır.

**Cila-ül-kulub**-da deyilir ki, qul haqları, ödənilməli borclar, əmanət, qəsb, oğurlamaq, ödəniş və bey səbəbi ilə verilənlər, döymək, yaralamaq, haqsız olaraq işlətmək kimi bədən haqları və söymək, məsxərəyə qoymaq, qeybət kimi qəlb haqlarıdır.

Vəsiyyət edən ölənin malının üçdə biri isqat etməyə kifayət edirsə, varisin bu mal ilə fidyə verməsi lazımdır. Kifayət etmirsə, varisin üçdə birindən artığını qarşılıqlı hədiyyə etməsinin icazə verilməsi **Fəth-ul Kadir**-də yazılıdır. Bunun kimi fərz olan həccin yerinə yetirilməsi üçün vəsiyyət etsə, varisi və ya başqa biri həcc pulunu hədiyə verməsinə icazə yoxdur. Ölümündən əvvəl vəsiyyət edə bilməsə, varisi öz pulu ilə isqat etsə və ya həccə getsə, ölənin borcu ödənmiş olar. Varisdən başqasının pulundan icazə yoxdur deyənlər varsa da, **"Dürr-ül-Muxtar"** və **"Mərakıl-fəlah"** və **"Cila-ül-kulub"** kitablarının sahibləri olar, dedilər.

Kəffarə isqatı buğda yerinə un və ya min yeddi yüz əlli qram arpa, xurma, üzüm ilə də hesablanaraq verilə bilər (Çünki bunlar buğdadan daha qiymətli olduğu üçün kasıba daha faydalıdırlar). Hamısının yerinə qiymətləri qədər qızıl və ya gümüş də verilə bilər (Kağız pul ilə isqat edilməz). Səcdəi-tilavət üçün fidyə vermək lazım deyil.

## İSQAT VƏ DÖVR NECƏ YERİNƏ YETİRİLİR

Fidyənin məbləği mirasın üçdə birini aşarsa, varisləri icazə vermədikcə qəyyumu üçdə birindən çoxunu sərf edə bilməz. **"Kinyə"** kitabında deyilir ki, bütün ömrünün namazları üçün malının üçdə birinin verilməsini vəsiyyət edən ölünün borcu da olsa, borc verən vəsiyyətin yerinə yetirilməsinə icazə versə də, vəsiyyətin yerinə yetirilməsi caiz olmaz. Çünki İslamiyyət hər şeydən əvvəl borcun ödənilməsini əmr edir. Borcu ödəmək borc verənin razı olması ilə sonraya təxirə salmaq olmaz.

Bütün namazların isqat edilməsi üçün vəsiyyət edənin hansı yaşda olması bilinmirsə, qoyduğu mirasın üçdə biri namazlarının isqatına çatmadığı zaman bu vəsiyyət caiz olur. Mirasın üçdə biri isqat üçün çatar və artıq qalarsa bu vəsiyyəti caiz olmaz, batil olur. Çünki malın üçdə biri isqata çatmadığı zaman üçdə biri ilə isqat ediləcək namazların sayı məlum olduğundan vəsiyyəti bu namazlar üçün sahih olar. Geri qalan namazları üçün olan vəsiyyəti ləğv, yəni boş söz olur. Üçdə biri çox olduğu zaman ömrü və dolayısı ilə namaz sayı məlum olmadığı üçün vəsiyyəti batil olur.

Namaz isqatı üçün vəsiyyət edən ölünün heç malı yoxdursa və ya üçdə biri vəsiyyətə çatmırsa və ya heç vəsiyyət etməmişsə və qəyyumu öz malı ilə isqat etmək istəyirsə **"Dövr"** edər. Lakin dövr etməyə məcbur deyil. Dövr etmək üçün qəyyum bir aylıq və ya bir illik isqat üçün lazım olar qızıl pul və ya bilərzik, üzük və ya işlənilən gümüş borc alır. Ölü kişidirsə yaşından on iki il, qadındırsa doqquz il çıxaraq neçə illik borcu olduğu hesablanar. **Bir günlük altı namaz üçün on kilo, bir günəş ili üçün üç min altı yüz altmış kilo buğda vermək lazımdır.** Məsələn, bir kilo buğda yüz səksən qəpik olduğu zaman bir illik namaz isqatı altı min beş yüz doxsan səkkiz və ya qısa olaraq altı min altı yüz manat olur. Bir qızıl pul (7,7 qramdır) yüz iyirmi manat olduğu zaman, **bir illik namaz isqatı üçün əlli beş və ya ehtiyatlı olaraq altmış qızıl pul lazım olur.** Ölünün qəyyumu beş qızıl borc alsa və dünyaya düşgün olmayan, dinini bilən və sevən bir neçə, məsələn, dörd kasıb tapsa (bunların fitrə verməyəcək və sədəqə alacaq qədər kasıb olması lazımdır. Kasıb olmazlarsa, isqat qəbul olunmaz), ölünün qəyyumu, yəni vəsiyyət etdiyi adam və ya varislərindən biri və ya bunlardan birinin vəkil etdiyi kimsə "Mərhum ........ əfəndinin isqatı namazı üçün əvəz olaraq bu beş qızılı sənə verdim" deyərək beş qızılı birinci kasıba sədəqə niyyət edərək verir. Sonra kasıb, "aldım, qəbul etdim, sənə hədiyyə etdim" deyərək bunu varisə

və ya varisin vəkilinə hədiyyə edər və varis təslim alar. Sonra yenə buna və ya ikinci kasıba verər və hədiyyə olaraq ondan təslim alar. Beləliklə də, eyni kasıba dörd dəfə və ya dörd kasıba bir dəfə verib-almaqla bir dövr olur. Bir dövrdə iyirmi qızıllıq namaz kəffarəsi isqat edilmiş olur. Ölü kişi və altmış yaşındadırsa, qırx səkkiz illik namaz üçün 48 x 60 = 2880 qızıl verməк lazım olur. Bunun üçün də 2880 : 20 = 144 dəfə dövr edər. Qızılın miqdarı ondursa, 72 dövr; qızılın miqdarı iyirmidirsə, 36 dövr edər. Kasıbın miqdarı on və qızılın miqdarı da ondursa, 48 illik namaz kəffarəsinin isqatı üçün iyirmi doqquz dövr edər. Çünki:

**Namaz qılmadığı illər X bir illik qızılın miqdarı = kasıb miqdarı X dövr edən qızılın miqdarı X dövr sayı.** Misalımızda təxmini olaraq:

48 x 60 = 4 x 5 x 144 = 4 x 10 x 72 = 4 x 20 x 36 = 10 x 10 x 29

Görünür ki, namaz isqatında dövr sayını tapmaq üçün **bir illik qızılın sayı ilə ölünün namaz borcu vurulur. Ayrıca olaraq dövr olunan qızılın miqdarı ilə kasıb miqdarı da vurulur. Birinci vurma ikinci vurmaya bölünür.** Bölmə dövr sayı olur. Buğdanın və qızılın kağız pul dəyərləri hər zaman təxmini olaraq eyni nisbətdə dəyişməkdədir. Yəni qızılın dəyəri ilə buğdanın dəyəri hər zaman birlikdə azalmaqda və ya artmaqdadır. Bu baxımdan isqat üçün bir illik buğda miqdarı dəyişmədiyi kimi bir illik qızıl miqdarı da, yəni yuxarıda tapdığımız altmış qızıl da təxminən eynidir. Bunun üçün isqat hesabında hər zaman ehtiyatlı olaraq:

**Bir aylıq namaz isqatı beş qızıldır.**

**Bir aylıq Ramazan orucu isqatı bir qızıldır**

qəbul edilməkdədir. Dövr edilən qızıl miqdarı və dövr sayı buradan tapılır.

Namaz isqatı qurtardıqdan sonra tutulmayan, qəza edilməsi lazım olan orucların isqatı üçün beş qızıl dörd kasıba üç dəfə dövr edilir. Çünki bir illik, yəni otuz günlük oruc kəffarə isqatı əlli iki yarım kilo buğda və ya 5,25 qram qızıl, 0,73 ədəd qızıl pul təşkil edir. Görünür ki, Hənəfi məzhəbində **bir qızıl bir illik oruc kəffarəsini isqat edər** və qırx səkkiz il üçün qırx səkkiz qızıl vermək lazımdır. Beş qızıl ilə dörd kasıba bir dövr edəndə, iyirmi qızıl verilmiş sayılır. Qəza edilməsi lazım olan orucların isqatı edildikdən sonra zəkatı üçün sonra qurban üçün bir neçə dövr edilir.

Bir andiçmə kəffarəsi üçün hər gün on kasıb və üzrsüz pozulub kəffarə lazım olan bir günlük oruc kəffarəsi üçün bir gündə altmış kasıb lazımdır və bir kasıba bir gündə yarım sa buğdadan artıq verilməz. O halda andiçmə və oruc kəffarəsi üçün bir gündə dövr edilməz. Andiçmə vəsiyyəti varsa, bir andiçmə üçün bir gündə on kasıbın hər birinə iki kilo buğda və ya un və ya bu dəyərdə hər hansı bir mal, qızıl, gümüş verilər. Bunları bir kasıba on gün ard-arda vermək də olar. Yaxud bir kasıba kağız pul verib, “səni vəkil elədim. Bu pul ilə hər gün sabah və axşam olmaqla iki dəfə on gün qarnını doyduracaqsan!” deməlidir. Qarnını belə on gün doydurmayıb, qəhvə, qəzet pulu etsə caiz olmaz. Ən yaxşısı bir aşpaz ilə bazarlıq edib on günlük pulu aşpaza verib, kasıb bu aşpaz da hər gün səhər və axşam olmaqla iki dəfə qarnını doyurmalıdır. Niyyət etdikdən sonra pozulan oruc və zihar kəffarələri də bu cür olub bu ikisində bir günün kəffarəsi üçün altmış ka-

sıba bir gün və ya bir kasıba altmış gün yarım “sa” buğda və ya bu dəyərdə başqa mal vermək və ya hər gün iki dəfə doydurmaq lazımdır.

Vəsiyyət edilməyən zəkat üçün isqat etmək lazım deyildir. Varisin zəkat isqatı üçün özündən dövr edə bilməsi üçün fətva verilmişdir.

Dövr edərkən qəyyum qızılları kasıblara hər verəndə namaz və oruc üçün niyyət etməlidir. Kasıb da geri qaytararkən hədiyyə etdim deməli, qəyyum da təslim aldım deməlidir. Qəyyum isqat edə bilməyəcək vəziyyətdədirsə, ölünün isqatını edə bilmək üçün birini vəkil edər, isqatları və dövrü bir vəkil edər.

İmamı Birgivinin **“Vəsiyyətnamə”** kitabında və bunun Kadızadə Əhməd əfəndi şərhində deyilir ki, kasıbların nisaba malik olmaması şərtdir. Ölünün qohumundan olması caizdir. Kasıba verərkən, “Filan adamın filan qədər namazının isqatı üçün bunu sənə verdim” deməsi lazımdır. Kasıb da “qəbul etdim” deməlidir və qızılları alanda bunun özünkü olduğunu bilməlidir. Bilməsə, əvvəlcədən öyrətmək lazımdır. Bu kasıb da lütf edib öz istəyi ilə “filan adamın namazlarını isqatı üçün əvəz olaraq bunu sənə verdim” deyərək başqa kasıba verir. O kasıb da alıb “qəbul etdim” deməlidir. Alanda öz mülkü olduğunu bilməlidir. Əmanət hədiyyə kimi alarsa, dövr qəbul olunmaz. Bu ikinci kasıb “aldım, qəbul etdim” dedikdən sonra “eyni qayda ilə sənə verdim” deyərək üçüncü kasıba verir. Beləcə, namaz, oruc, zəkat, qurban, fitr sədəqəsi, nəzr və qul haqları, heyvan haqları üçün dövr etməlidir. Andiçmə və oruc kəffarələri üçün dövr etmək caiz deyil.

Ondan sonra qızıllar hansı kasıbda qalarsa, lütf edib arzusu və razılığı ilə qəyyuma hədiyyə edər. Qəyyum aldım, qəbul etdim, deyər. Əgər hədiyyə etməzsə, öz malı sayılır, güclə alına bilməz. Qəyyum bir qədər qızılı və ya kağız pulu və ya ölünün əşyasından bu kasıba verib bu sədəqə savabını da ölünün ruhuna hədiyyə edə bilər. Borcu olan kasıb və yetkinlik yaşına çatmayan uşaq dövr etməyə qatılmamalıdır. Çünki əlinə keçən qızıllar ilə borcunu ödəməsi fərz olur. Bu fərzi yerinə yetirməyib qızılları ölünün kəffarəsi üçün yanındakı kasıba verməsi caiz olmaz. Dövr qəbul olarsa da özü heç savab qazanmaz. Hətta günaha girər.

Malı olmayan ölü dövr edilməsini vəsiyyət edərsə, qəyyumun dövr etməsi vacib olmaz. Ölünün kəffarələrini isqat edəcək qədər malının hamısını, mirasın üçdə birini aşmamaq şərtilə vəsiyyət etməsi vacib olur. Beləcə dövrə ehtiyac olmadan isqat edilir. Üçdə biri isqata çatdığı halda, üçdə birindən az malın dövr edilməsini vəsiyyət edərsə günaha girər. İbni Abidin beşinci cild, iki yüz yetmiş üçüncü səhifədə buyurur ki, “kiçik uşaqları olan və ya kasıb olub mirasa möhtac olduğu halda, yetkin övladları saleh olan xəstənin nafilə olan xeyrat və yaxşılıqları vəsiyyət etməyib malını saleh övladlarına qoyması daha yaxşıdır. **“Bezzaziyə”**də hədiyyə açıqlandığı zaman deyilir ki, malı xeyirli işlərə sərf edib günahkar övlada miras qoyulmamalıdır. Çünki günaha kömək etmiş olur. Günahkar övlada da ehtiyacdan artıq mal verilməməlidir.

Çoxlu sayda namaz, oruc, zəkat, qurban və andiçmə borcları olub, bunlar üçün mirasın üçdə birindən az bir malın dövr edilməsini və artıq qalan mal ilə Qurani-Kərim, xətmi-təhlil və mövlud oxutmasını vəsiyyət etmək caiz deyil.

Bunları oxumaq üçün pul verən və alan günaha girər. Qurani-Kərim öyrətmək üçün pul alıb-vermək caizdir. Oxumaq üçün caiz deyil.

Ölünün borclu olduğu namazları, orucları varisləri və hər hansı birinin qəza etməsi caiz deyildir. Lakin nafilə namaz qılıb, oruc tutub savabını ölünün ruhuna hədiyyə etmək caiz və yaxşı olar.

Ölünün borcu olan həccini vəsiyyət etdiyi adamın qəza etməsi caiz olar. Yəni ölünü borcdan qurtarar. Çünki həcc həm bədən ilə, həm də mal ilə yerinə yetirilən ibadətdir. Nafilə həcc başqasının yerinə hər vaxt yerinə yetirilir. Fərz olan həcc isə ölənə qədər həccə gedə bilməyənin yerinə vəkili tərəfindən yerinə yetirilir.

**"Məcmaul-ənhür"**-də və **"Dürr-ül-müntəka"**da deyilir ki, ölünün isqatı dəfndən əvvəl edilməlidir. Dəfndən sonra da caiz olduğu **"Kuhistani"**də yazılıb.

Ölü üçün namaz, oruc, zəkat, qurban kəffarələrinin isqatında bir kasıba nisabdan artıq verilə bilər. Hətta qızılların hamısı bir kasıba verilə bilər.

Ölüm xəstəsinin qılmadığı namazlarının fidyəsini verməsi caiz deyil. Oruc tuta bilməyəcək qədər qoca olanın tuta bilmədiyi orucların fidyəsini verməsi caizdir. Xəstənin namazlarını başı ilə ima edərək qılması lazımdır. Bu cür ima ilə bir gündən artıq namaz qıla bilməyən xəstənin qılmadığı namazları bağışlanır. Yaxşı olduqdan sonra bunların qəza etməsi lazım olmaz. Tuta bilmədiyi orucları yaxşı olduqdan sonra tutması lazımdır. Yaxşı olmadan ölərsə, bu orucları bağışlanar.

# SƏKKİZİNCİ BÖLMƏ

## OTUZ İKİ VƏ ƏLLİ DÖRD FƏRZ

Bir uşaq yetkin olduğu zaman və bir kafir "**Kəlmeyi-təvhid**" söyləsə, yəni "**Lə ilahə illəllah Muhammədün rəsulullah**" desə və bunun mənasını bilib inansa, "**Müsəlman**" olar. Kafirin günahlarının hamısı dərhal bağışlanar. Lakin bunların hər müsəlman kimi imkan tapınca imanın altı şərtini, yəni **"Aməntü"**nü əzbərləmələri və mənasını öyrənərək bunlara inanmaları və "İslamiyyətin hamısını, yəni Muhamməd-əleyhissəlamın söylədiyi əmrlərin və qadağanların hamısını Allahü təalanın bildirmiş olduğuna inandım" demələri lazımdır. Daha sonra imkan tapdıqca bütün xasiyyətlərin və qarşılaşdığı işlərdən fərz olanları, yəni əmr olunanları və haram olanları, qadağan edilmiş olanları öyrənməsi də fərzdir. Bunları öyrənmənin və fərzləri yerinə yetirmənin, haramlardan çəkinmənin fərz olduğunu inkar edərsə, yəni inanmazsa imanı gedər. Bu öyrəndiklərindən birini bəyənməzsə, qəbul etməzsə mürtəd olar. Mürtəd, **"Lə ilahə illallah"** deməklə və İslamiyyətin bəzi əmrlərini yerinə yetirməklə, məsələn namaz qılmaqla, oruc tutmaqla, həccə getməklə, xeyir və gözəl iş görməklə müsəlman olmaz. Bu yaxşılıqlarının axirətdə heç bir faydasını görməz. İnkarından, yəni inanmadığı şeydən tövbə etməsi, peşman olması lazımdır.

İslam alimləri hər müsəlmanın öyrənməsi, inanması və tabe olması lazım olan fərzlərdən 32 və ayrıca 54 ədədini seçmişdirlər.

### OTUZ İKİ FƏRZ

İmanın şərti: Altı (6)
İslamın şərti: Beş (5)
Namazın fərzi: On iki (12)
Dəstəmazın fərzi: Dörd (4)
Qüslün fərzi: Üç (3)
Təyəmmümün fərzi: İki (2)
Təyəmmümün fərzinə üç deyənlər də vardır. O zaman hamısı otuz üç fərz olar.

### İMANIN ŞƏRTLƏRİ (6)

1. Allahü təalanın varlığına və birliyinə inanmaq.
2. Mələklərinə inanmaq.
3. Allahü təalanın endirdiyi kitablarına inanmaq.
4. Allahü təalanın Peyğəmbərlərinə inanmaq.
5. Axirət gününə inanmaq.
6. Təqdirə, yəni xeyir və şərlərin (yaxşılıq və yamanlıqların) Allahü təaladan olduğuna inanmaq.

**İSLAMIN ŞƏRTLƏRI (5)**

7. Kəlmeyi-şəhadət gətirmək.
8. Hər gün beş dəfə vaxtı gələndə namaz qılmaq.
9. Malın zəkatını vermək.
10. Ramazan aynda hər gün oruc tutmaq.
11. Gücü çatanın ömründə bir dəfə həccə getməsidir.

**NAMAZIN FƏRZLƏRI (12)**

A) Xaricindəki fərzləri yeddidir. Bunlara şərtləri də deyilir.
12 Hadəsdən təharət. (Qüsl və dəstəmaz almaq)
13. Nəcasətdən təharət (Nəcasətlərdən təmizlənmək).
14. Sətri övrət (Övrət yerlərini örtmək)
15. İstiqbali Qiblə (Kəbə istiqamətinə dönmək)
16. Vaxt
17. Niyyət
18. Iftitah və ya Tahrimə Təkbiri.
B) İçindəki fərzləri beşdir. Bunlara rükn deyilir.
19. Kıyam.
20. Qiraət.
21. Rükü.
22. Səcdə.
23. Qadəi axirə.

**DƏSTƏMAZIN FƏRZLƏRI (4)**

24. Dəstəmaz alarkən üzü yumaq.
25. Əlləri dirsəkləri ilə birlikdə yumaq.
26. Başın dörddə birini məsh etmək.
27. Ayaqları topuqları ilə birlikdə yumaq.

**QÜSLÜN FƏRZLƏRI (3)**

28. Ağzı yumaq (yaxalama).
29. Burnu yumaq (suya çəkmə)
30. Bütün bədəni yumaq.

**TƏYƏMMÜMÜN FƏRZLƏRI (2)**

31. Cünüblükdən (qüslsüzlükdən) və ya dəstəmazsızlıqdan təmizlənmək üçün niyyət etmək.

32. İki əli təmiz torpağa vurub, üzü məsh etmək və təkrar iki əli təmiz torpağa vurub, hər iki qolu dirsəkdən ovuca qədər sürtmək.

**ƏLLİ DÖRD FƏRZ**

1. Allahü təalanın bir olduğuna inanmaq.

2. Halal yemək və içmək.
3. Dəstəmaz almaq.
4. Beş vaxt namaz qılmaq.
5. Cünüblükdən qüsl etmək.
6. Ruzinin Allahü təaladan olduğuna inanmaq.
7. Halal, təmiz paltar geyinmək.
8. Allaha təvəkkül etmək.
9. Qənaət etmək.
10. Nemətlərinin müqabilində Allahü təalaya şükr etmək.
11. Qəzaya razı olmaq.
12. Bəlalara səbir etmək.
13. Günahlardan tövbə etmək.
14. Allah rızası üçün ibadət etmək.
15. Şeytanı düşmən bilmək.
16. Qurani-Kərimin hökmünə razı olmaq.
17. Ölümü haqq bilmək.
18. Allahın dostlarına dost, düşmənlərinə düşmən olmaq.
19. Ataya və anaya yaxşılıq etmək.
20. Əmrləri təbliğ və qadağalardan çəkindirmək.
21. Qohumları ziyarət etmək.
22. Əmanətə xəyanət etməmək.
23. Daima Allahü təaladan qorxub, qüruru (ərköyünlüyü, azğınlığı) tərk etmək.
24. Allaha və Rəsuluna itaət etmək.
25. Günahdan çəkinib, ibadətlərlə məşğul olmaq.
26. Müsəlman əmrlərə itaət etmək.
27. Aləmə ibrət nəzəri ilə baxmaq.
28. Allahü təalanın varlığını təfəkkür etmək.
29. Dilini əxlaqsız kəlmələrdən qorumaq.
30. Qəlbini təmiz saxlamaq.
31. Heç kəsi lağa qoymamaq.
32. Harama baxmamaq.
33. Hər bir halda sözündə sadiq olmaq.
34. Qulağını töhmət dinləməkdən qorumaq.
35. Elm öyrənmək.
36. Tərəzi və ölçü alətlərini haqq üzrə istifadə etmək.
37. Allahın əzabından əmin olmayıb, daima qorxmaq.
38. Müsəlman kasıblara zəkat vermək və yardım etmək.
39. Allahın rəhmətindən ümid kəsməmək.
40. Nəfsinin istəklərinə tabe olmamaq.
41. Allah rızası üçün yemək yedizdirmək.
42. Kifayət qədər ruzi qazanmaq üçün çalışmaq.
43. Malının zəkatını, məhsulun uşrunu vermək.

44. Adətli və nifaslı olan xanımına yaxın olmamaq.
45. Qəlbini günahlardan təmizləmək.
46. Kibrli olmaqdan çəkinmək.
47. Yetkin olmamış yetimin malını hifz etmək (qorumaq).
48. Gənc oğlanlara yaxın olmamaq.
49. Beş vaxt namazı vaxtında qılıb, qəzaya buraxmamaq.
50. Zülmlə kimsənin malını yeməmək.
51. Allahü təalaya şərik qoşmamaq.
52. Zinadan çəkinmək.
53. Şərabı və alkoqollu içkiləri içməmək.
54. Yalan yerə and içməmək.

## KÜFR MÖVZUSU

Pis şeylərin ən pisi Allahü təalaya inanmamaq, ateist olmaqdır. İnanılması lazım olan şeyə inanmamaq küfr olar. Muhamməd əleyhissəlama inanmamaq küfr olar. Muhamməd-əleyhissəlamın Allahü təaladan gətirib bildirdiyi şeylərin hamısına qəlb ilə inanıb, dil ilə də təsdiq etməyə, söyləməyə **"İMAN"** deyilir. Söyləməyə mane olduğu zaman, söyləməmək əfv olar. İmanın olması üçün islamiyyətin küfr olaraq bildirdiyi şeyləri söyləməkdən və istifadə etməkdən çəkinmək də lazımdır. İslamiyyətin əhkamından, yəni islamiyyətin əmr və qadağanlarından birini əhəmiyyətsiz görmək, Qurani-Kərim ilə, mələk ilə, Peyğəmbərlərdən biri ilə "aləyhimüssəlavatü vəttəslimat" lağ etmək küfr əlamətlərindəndir. İnkar etmək, yəni eşitdikdən sonra inanmamaq təsdiq etməmək deməkdir. Şübhə etmək də inkar sayılır.

### KÜFR ÜÇ NÖVDÜR: CƏHLI, CÜHUDI VƏ HÖKMÜ

A) Eşitmədiyi, düşünmədiyi üçün kafir olanların küfrü "**Küfr-i cəhli"**dir. Cəhl də iki cürdür: Birincisi sadədir. Bu cür kimsə cahil olduğunu bilir. Bu kimi şəxslərdə yanlış etiqad olmaz. Heyvan kimidirlər. Çünki insanı heyvandan ayıran elm və idrakdır. Bunlar, heyvandan da aşağıdırlar. Çünki heyvanlar yaradıldıqları şeydə irəlidirlər. Cəhlin ikincisi mürəkkəb cəhldir. Yanlış, yolunu azmış etiqaddır. Yunan filosoflarının və müsəlmanlardan 72 bidət qolunun açıqca bildirilmiş olanlara tabe olmayan etiqadları belədir. Bu cəhalət birincisindən daha pisdir. Dərmanı bilinməyən bir xəstəlikdir.

B) Küfri cühudiyə, küfri inadı da deyilir. Bilərək, tərslik edərək kafir olmaqdır. Təkəbbürdən, mövqe sahibi olmağı sevməkdən və ya qınaqdan qorxması səbəbi ilə hasil olar. Firon və yoldaşlarının, Bizans kralı Heraklusun küfrləri belədir.

C) Küfrün üçüncü növü, "**Küfr-i hökmü**"dür. İslamiyyətin imansızlıq əlaməti dediyi sözləri söyləyən və işləri edən, qəlbində təsdiq olsa da və inandığını söyləsə də, kafir olar. **İslamiyyətin hörmət etmədiyi şeyə təzim, hörmət edilməsi əmr etdiyi şeyi təhqir etmək küfrdür.**

1. Allahü təala Ərşdən və ya göydən bizə baxır demək küfrdür.

2. Sən mənə zülm etdiyin kimi, Allahü təala da sənə zülm edir, demək küfrdür.

3. Filan müsəlman mənim gözümdə yəhudi kimidir, demək küfrdür.

4. Yalan bir sözə, Allahü təala bilir ki, doğrudur, demək, küfrdür.

5. Mələkləri kiçildən şeylər söyləmək küfrdür.

6. Qurani-Kərimi, hətta bir hərfini kiçildən söz söyləmək, bir hərfinə inanmamaq küfrdür.

7. Çalğı çalaraq Qurani-Kərim oxumaq küfrdür.

8. Həqiqi olan Tövrat və İncilə inanmamaq, bunları pisləmək küfrdür. [İndi, həqiqi Tövrat və İncil yoxdur.]

9. Qurani-Kərimi başqa hərflərlə oxuyub, Quran budur, demək küfr olar.

10. Peyğəmbərləri kiçildən şeylər söyləmək küfrdür.

11. Qurani-Kərimdə adları bildirilən 25 Peyğəmbərdən "aləyhimüssaləvatü vəttəslimat" birinə inanmamaq küfrdür.

12. Çox yaxşılıq edən biri üçün Peyğəmbərdən daha yaxşıdır, demək küfr olar.

13. Peyğəmbərlər möhtac idi, demək küfr olar. Çünki onların kasıblıqları öz istəkləri ilə idi.

14. Biri Peyğəmbər olduğunu söyləsə, buna inananlar da kafir olar.

15. Axirətdə olacaq şeylərlə lağ etmək küfr olar.

16. Qəbirdəki və qiyamətdəki əzablara [ağıla, fənnə uyğun deyildir deyərək] inanmamaq küfrdür.

17. Cənnətdə Allahü təalanı görməyə inanmamaq, mən Cənnəti istəmərəm, Allahü təalanı istəyərəm? demək küfr olar.

18. İslamiyyətə inanmamaq əlaməti olan sözlər, fənn elmləri, din elmlərindən daha xeyirlidir, demək küfrdür.

19. Namaz qılsam da, qılmasam da bərabərdir, demək küfrdür.

20. Zəkat verməm, demək küfrdür.

21. Faiz halal olsaydı, demək küfrdür.

22. Zülm halal olsaydı, demək küfrdür.

23. Haramdan olan malı kasıba verib savab gözləmək, kasıb verilən pulun haram olduğunu bilərək verənə xeyir dua etmək küfrdür.

24. İmamı-azam Əbu Hənifənin qiyası (ictihadı) haqq deyildir, demək küfrdür. Vəhhabilər, bunun üçün kafir olur.

25. Məşhur sünnətlərdən birini bəyənməmək küfrdür.

26. "**Qəbrim ilə minbərim arası [Ravdai mutahhara] Cənnət bağçalarından bir bağçadır"** Hədisi-şərifini eşidincə, mən minbər, həsir və qəbirdən başqa bir şey görmürəm, demək küfr olar.

27. İslam elminə inanmamaq, bunları və din alimlərini aşağılamaq da küfr olar.

28. Kafir olmağı istəyən kimsə buna niyyət etdiyi anda kafir olar.

29. Başqasının kafir olmasını istəyən kimsə küfrü bəyəndiyi üçün istəyirsə kafir olar.

30. Küfrə səbəb olduğunu bilərək və arzusu ilə küfr kəlmələrini söyləyən kafir olar. Bilməyərək söyləyərsə, alimlərin çoxuna görə yenə kafir olar.

31. Küfrə səbəb olan bir işi bilərək etmək küfr olar. Bilməyərək edincə də küfr olar, deyən alimlər çoxdur.

32. Belinə zünnar deyilən keşiş qurşağını bağlamaq və küfrə məxsus bir şey geyinmək küfr olar. Tacirin dar-ül hərbdə (kafir ölkə) də istifadə etməsi küfr olar. Bunları yumor üçün başqalarını güldürmək üçün zarafat üçün istifadə etmək də küfrə səbəb olar.

33. Kafirlərin bayram günlərində, o günə məxsus şeylərini, onlar kimi istifadə etmək, bunları kafirə hədiyyə etmək küfr olar.

34. Ağıllı, elmli, ədəbiyyatçı olduğunu göstərmək üçün və ya yanındakıları heyrətə salmaq, güldürmək, sevindirmək və ya lağ etmək üçün söylənən sözlərdə "küfri hökmi"dən qorxulur. Qəzəb, hirslilik və hirs ilə söylənən sözlər də belədir.

35. Qeybət edən kimsə mən qeybət etmədim, onda olan şeyi söylədim deyərsə, belə söyləmək küfr olar.

36. Uşaq ikən nikah edilmiş qız, ağıllı və yetkin olduğu zaman, imanı, islamı bilməsə, soruşulunca başa sala bilməsə, ərindən boşanmış sayılır, özü mürtəd olur. Kişi üçün də belədir.

37. Bir mömini [haqsız olaraq], öldürən və ya öldürülməsini əmr edən kimsəyə, yaxşı etdin, deyən kafir olar.

38. Qətli vacib olmayan kimsə üçün öldürülməsi lazımdır, demək küfr olar.

39. Bir kimsəni haqsız olaraq döyən və ya öldürən zalıma, yaxşı etdin, buna layiq idi, demək küfr olar.

40. Yalan olaraq, Allahü təala bilir ki, səni uşağımdan çox sevirəm, demək küfr olar.

41. Vəzifə sahibi bir müsəlman asqırdığı zaman, buna **"Yərhamükəllah"** deyən kimsəyə böyüklərə qarşı belə deyilməz, demək küfr olar.

42. Vəzifə olduğuna inanmayaraq, əhəmiyyət verməyərək namaz qılmamaq, oruc tutmamaq, zəkat verməmək küfr olar.

43. Allahın rəhmətindən ümidini kəsmək küfr olar.

44. Özü haram olmayıb, sonradan hasil olan bir səbəbdən dolayı haram olan mala, pula "**haramı li qeyrihi**" deyilir. Oğurlanan və haram yollardan gələn mal belədir. Bunlara halal demək küfr olmaz. Leş, donuz, şərab kimi, özləri haram olan şeylərə "**haram- li eynihi**" deyilir. Bunlara halal demək küfr olar.

45. Haram olduqları dəqiq olaraq bilinən bütün günahlara halal demək də küfr olar.

46. Azan, məscid, fiqh kitabları kimi islamiyyətin qiymət verdiyi şeyləri aşağılamaq küfr olar.

47. Dəstəmazsız olduğunu bildiyi halda namaz qılmaq küfr olar.

48. Bilə-bilə qiblədən başqa tərəfə namaz qılmaq küfr olur. Namazı qibləyə qarşı qılmaq lazım deyildir, deyən kafir olar.

49. Bir müsəlmanı pisləmək üçün kafir demək küfr olmaz. Kafir olmasını istəyərək söyləmək küfr olar.

50. Günah olduğuna əhəmiyyət vermədən günah işləmək küfr olar.

51. İbadət etmənin lazım olduğuna və günahdan çəkinmənin lazım olduğuna inanmamaq küfr olar.

52. Toplanan vergilər sultanın mülkü olduğuna inanmaq küfr olar.

53. Kafirlərin dini ayinlərini bəyənmək, zərurət yox ikən zünnar qurşanmaq və küfr əlamətlərini istifadə etmək və bunlara məhəbbət edib əl vurmaq küfr olar.

54. Öz razılığı ilə filan şey filan adamdadır, yaxud yoxdur, kafir olum, yəhudi olum deyə and içmiş olsa, o şey o kimsədə olsun və ya olmasın, o kimsə öz rizası ilə küfrə düşmüşdür.

55. Zina, livata (uşaqbazlıq), faiz, yalan kimi hər dində haram olan bir şey üçün halal olsaydı da, mən belə işləsəydim, deyə təmənni etmək küfrdür.

56. Peyğəmbərlərə "aləyhimüssələvatü vəttəslimat" inandım, amma Adəm-əleyhissəlam Peyğəmbərdirmi bilmirəm, demək küfrdür.

57. Muhamməd-əleyhissəlamın axır zaman Peyğəmbəri olduğunu bilməyən, kafir olar.

58. Bir kimsə Peyğəmbərlərin dediyi doğru isə, biz qurtulduq desə, kafir olar. [Bu sözü şübhə yolu ilə söylədi isə kafir olar.]

59. Bir kimsəyə, gəl namaz qıl desələr, o da qılmaram desə, kafir olar. Amma muradı, sənin sözünlə qılmaram, Allahü təalanın əmri ilə qılaram, desə kafir olmaz.

60. Bir kimsəyə saqqalını bir tutamdan qısa etmə və ya bir tutamdan artığını kəs, dırnaqlarını kəs, çünki Rəsulullahın "sallAllahü təala aləyhi və səlləm" sünnətidir desələr, o da kəsmərəm desə, kafir olar. Digər sünnətlər də belədir. "Sənin sözünlə işləmərəm, amma Rəsulullahın sünnəti olduğu üçün işləyərəm demək küfr olmaz. İnkar məqsədi ilə olarsa küfr olar."

61. Bir kimsə bığlarını qırxdıqda yanındakı bir şeyə yaramadı, desə, o deyənin küfründən qorxulur. [Bığları qısaltmaq sünnətdir. Sünnətə əhəmiyyət verməmiş olur.]

62. Bir kimsə başdan ayağa kimi ipək geyinsə, başqa biri bu vəziyyətinə mübarək olsun, desə küfründən qorxulur.

63. Bir kimsə qibləyə qarşı ayağını uzadıb yatmaq və ya qibləyə qarşı tüpürmək və ya qibləyə qarşı dəstəmazını pozmaq kimi bir məkruhu işləsə, o kimsəyə bu etdiklərin məkruhdur etmə desələr, o da hər günahımız bu qədər olsa desə, küfründən qorxulur. Yəni məkruhu əhəmiyyətsiz bir şey saydığı üçün.

64. Bir kimsənin xidmətçisi qapıdan içəri girsə, əfəndisinə salam versə, əfəndisinin yanında olan bir kimsə də "sus, əfəndisinə salam vermək olarmı?" desə, o deyən kimsə kafir olar. Amma muradı ədəbi öyrətmək isə, salamı qəlbən vermək lazımdı, demək isə, küfr olmaz.

65. İman artar, azalar, demək küfrdür. Amma yaxınlıq imanın gücü etibarı ilə olarsa küfr olmaz.

66. Qiblə ikidir, biri Kəbə, biri Qüdsdür, demək küfrdür. İndiki halda ikidir demək küfrdür. Amma Beyt-i Müqəddəs qiblə idi, sonra Kəbə qiblə oldu desə küfr olmaz.

67. Bir kimsə bir islam aliminə səbəbsiz nifrət etsə, söysə o kimsənin küfründən qorxulur.

68. Bir kimsə yemək yeyərkən susmaq, atəşpərəstlərin yaxşı adətlərindəndir desə, yaxud adətli və nifaslı halında xanımı ilə yatmamaq atəşpərəstlərin yaxşı şeylərindəndir desə, kafir olar demisdirlər.

69. Bir kimsəyə sən möminsənmi desələr, o da inşaallah desə, təvil (izah) edə bilməsə küfrdür.

70. Bir kimsə övladı ölən kimsəyə Allahü təalaya sənin oğlun lazım idi desə, kafir olar deyilmişdir.

71. Bir qadın belinə bir qara ip bağlasa, bu nədir desələr, zünnardır desə, kafir olar.

72. Bir kimsə haram yemək yedikdə, Bismillah desə kafir olar. Haram-i li-eynihi üçün yəni leş, şərab kimi haramlar üçün belədir. Özü haram olmayan, haram-i li-qeyrihi üçün belə deyildir. Qəsb edilmiş malı yedikdə bəsmələ çəkmək küfr olmaz. Malın özü haram deyil, qəsb edilməsi haramdır.

73. Bir kimsənin küfrünə razı olmaq küfrdür. Bir kişiyə bəddua (qarğış) edərək, Allahü təala sənin canını küfr ilə alsın desə kafir olmasında alimlər ixtilaf etdilər. Küfrünə razı küfrdür. Amma zülm və günahından ötrü əzabı daim və şiddətli olsun deyə razı isə küfr deyildir.

74. Bir kimsə Allahü təala bilir filan isi işləmədim desə, halbuki o işi işlədiyini bilsə, kafir olar.

75. Bir kimsə bir qadını şahidsiz nikah etsə, o kimsə və qadın, Allahü təala və Peyğəmbər şahidimizdir desələr, hər ikisi kafir olar. Zira Peyğəmbərimiz "sallAllahü təala aləyhi və səlləm" diri ikən qeybi bilməzdi. Qeybi bilirdi, demək küfr olar. [Qeybi, Allahü təala bilir və Onun bildirdikləri bilir.]

76. Mən oğurlananları və qeyb olanları bilirəm desə, söyləyən və inanan kafir olar. Mənə cin xəbər verir desə, yenə kafir olar. Peyğəmbərlər və cinlər belə qeybi bilməz. [Qeybi, Allahü təala və Onun bildirdikləri bilir.]

77. Bir kimsə Allahü təalaya and içmək istəsə, başqa bir kimsə də, mən sənin, Allahü təalaya and içməni istəmirəm boşanmağa və şərəfə, namusa and içməni istəyirəm desə, kafir olar deyilmişdir.

78. Bir kimsə sevmədiyi bir nəfərə, sənin didarın [üzün, çöhrən] mənə can alıcı kimidir desə kafir olar deyilmişdir. Çünki can alıcı mələk [Əzrayil-əleyhissəlam] böyük mələkdir.

79. Bir kimsə namaz qılmamaq xoş işdir desə kafir olar. Bir kimsə bir nəfərə gəl namaz qıl desə, o da mənə namaz qılmaq çətin işdir desə, kafir olar deyilmişdir.

80. Bir kimsə Allahü təala göydə mənim şahidimdir desə, kafir olar. Çünki Allahü təalaya məkan isnad etmiş olar. Allahü təala məkandan münəzzəhdir.

81. Allah baba deyən kafir olar.

82. Bir kimsə Rəsulullah "sallallahü aləyhi və səlləm" yemək yedikdən sonra mübarək barmağını yalayardı desə, bir başqası bu iş tərbiyəsizlikdir, desə kafir olar.

83. Bir kimsə Peyğəmbər "aləyhissalatü vəssəlam" qara idi desə, kafir olar. [Qara itləri ərəb, ərəb deyə çağırmaq, hamam böcəyinə qara Fatimə, demək çox yayılmışıdr. Çəkinmək lazımdır.]

84. Ruzi Allahü təaladandır. Lakin quldan da hərəkət lazımdır desə, bu söz şirkdir. Çünki qulun hərəkəti də Allahü təaladandır.

85. Bir kimsə xristian olmaq yəhudi olmaqdan, Amerikan kafiri olmaq kommunist olmaqdan xeyirlidir desə, kafir olar. Yəhudi xristiandan, kommunist xristiandan daha pisdir deməlidir.

86. Kafir olmaq xəyanət etməkdən yaxşıdır desə, kafir olar.

87. Elm məclisində nə işim var, yaxud alimlərin dediyini etməyə kim qadir olar desə və ya fətvanı yerə atsa və din adamlarının sözü nəyə yarayar desə, kafir olar.

88. Bir kimsə küfr söyləsə, bir nəfər gülsə, gülən belə kafir olar. Gülməsi zəruri olarsa, küfr deyildir.

89. Bir kimsə övliyanın ruhları həmişə hazırdır, bilirlər desə, kafir olar. Hazır olar desə, küfr olmaz. [Övliyanın ruhları, Allahü təala kimi hazır və nazır ola bilməzlər. Anıldıqları yerdə hazır olarlar. Anılmadan əvvəl orada yox idilər.]

90. İslamiyyəti bilmirəm və ya istəmirəm desə, kafir olar.

91. Bir kimsə Adəm-əleyhissəlam buğda yeməsə idi, biz şaki (üsyankar) olmazdıq desə, kafir olar. Amma biz dünyada olmazdıq desə küfründə ixtilaf etmişdirlər.

92. Adəm-əleyhissəlam parça toxuyurdu desə, biri, elə isə biz mahudçu oğlanları imişik desə, kafir olar.

93. Bir nəfər kiçik günah işləsə, biri ona tövbə et desə, o da nə işlədim ki, tövbə edim desə kafir olar.

94. Biri digərinə, gəl islam aliminə gedək və ya fiqh, elmi-hal kitabından oxuyub öyrənək desə, o da mən elmi nə edim desə, kafir olar. Çünki din elmini kiçik görmək, əhəmiyyət verməmək küfrdür.

95. Təfsir və fiqh kitablarını təhqir edən, bunları bəyənməyən, pisləyən kimsə kafir olar.

96. Bir kimsəyə, kimin zürriyyətindənsən, kimin millətindənsən, etiqadda məzhəbin imamı kimdir, əməldə məzhəbin imamı kimdir deyə sual etsələr, bilməsə, kafir olar.

97. Qəti harama halal deyən kafir olar. (Tütünə haram demək təhlükəlidir.)

98. Bütün dinlərdə haram olan, halal edilməsi, hikmətə müxalif olan bir şeyin (zina, livata (uşaqbazlıq), doyduqdan sonra yemək, faiz alıb-vermək kimi) halal olmasını arzu etmək küfrdür. Şərabın halal olmasını istəmək küfr deyildir. Çünki, hər dində haram deyildi.

99. Quranı azim-uş-şanı, söz və lətifə arasında istifadə etmək küfrdür.

100. Yəhya adlı kimsəyə, **"Ya Yəhya! huz-il-kitabə"** desə, kafir olar. Qurani-Kərim ilə lağ etmiş sayılır. Çalğı, oyun, mahnı arasında Qurani-Kərim oxumaq da belədir.

101. İndi gəldim, Bismillahi desə, fəlakətdir. Bir şeyi çox görsə **"Mahalakallah"** desə, mənasını bilməsə, kafir olar.

102. Bir kimsə indi sənə söymərəm, söymənin adını günah qoymuşlar desə, fəlakətdir.

103. Bir kimsə Cəbrayıl buzovu kimi lümbəlüt olmusan desə, fəlakətdir, mələklə lağ etmək sayılır.

104. Oğlumun başı üçün və ya başım üçün kəlmələrinə and olaraq billahi sözünü əlavə etsə, məsələn, vallahi oğlumun başı üçün desə, küfr olmasından qorxulur.

105. Qurani-Kərimi, mövludu və ilahiləri çalğı çalarkən oxumaq və ya çalğı alətləri ilə oxumaq küfrdür.

106. Qurani-Kərimi, mövludu, ilahiləri, salavat-ı şərifələri fisq (günah işlənən) məclislərində hörmət ilə oxumaq haram olar. Əyləncə, keyf üçün oxumaq küfr olar.

107. Sünnət üzrə oxunan Azanı Muhammədini dinləməyib qiymət verməzsə, dərhal kafir olar.

108. Qurani-Kərimə öz ağılı ilə məna verən kafir olar.

109. Qurani-Kərimdə və Hədisi-şəriflərdə açıq olaraq bildirilmiş olan və müctəhid imamların söz birliyi ilə bildirdikləri və müsəlmanlar arasına yayılmış iman elmlərinə uyğun inanmayan kafir olar. Küfrün bu formasına **"İlhad"**, belə inananlara **"Mülhid"** deyilir.

110. Kafirə hörmət ilə salam verən kafir olar.

111. Kafirə hörmət bildirən bir söz söyləmək, məsələn ustadım, demək küfr olar.

112. Başqasının küfrünə razı olan kafir olar.

113. Qurani-Kərim olan kasetlər və vallar mushaf-i şərif kimi qiymətlidirlər. Bunlara da hörmətsizlik etmək küfr olar.

114. Cin ilə tanış olan falçılar və ulduzlara baxıb soruşulan hər şeyə cavab verənlərə və falçılara gedib söylədiklərinə, etdiklərinə inanmaq, bəzən doğru çıxsa belə, Allahü təaladan başqasının hər şeyi bildiyinə və hər dilədiyini edə biləcəyinə inanmaq olub, küfr olar. [Fənn elmlərinə inanmamaq belə deyildir.]

115. Sünnətə əhəmiyyət verməyərək tərk etmək küfr olar.

116. Zünnar deyilən keşiş qurşağını bağlamaq və bütlərə, yəni xaç, səlib deyilən dik kəsilən iki çubuq və heykəllərə, bunların rəsmlərinə tapınmaq, hörmət etmək və əhkamı islamiyyəyi bildirən din kitablarından birini təhqir etmək, islam alimlərindən birini istehza, lağ etmək və küfrə səbəb olan bir söz söyləmək, yazmaq və hörmət edilməsi əmr olunan bir şeyi təhqir və təhqir etmək əmr olunan bir şeyə hörmət etmək küfrdür.

117. Bir sahir (sehirbaz) sehr ilə istədiyini əlbəttə edər, sehr mütləq təsir edər, deyən və inanan kafir olar.

118. Müsəlman, özünə kafir deyənə əfəndim kimi qəbul göstərən cavab verərsə, o da kafir olar.

119. Haram olduğu bilinən müəyyən bir mal ilə məscid tikdirmək, sədəqə vermək və başqa xeyir iş görmək və bunlara qarşılıq savab gözləmək küfrdür.

120. Bir kimsə əlindəki qəti haram olan maldan sədəqə versə, savab gözləsə, alan kasıb haramdan olduğunu bilərək verənə "Allah razı olsun" desə, verən də və ya başqa bir kimsə də "amin" desə, hamısı kafir olar.

121. Nikahı haram olan qadın ilə evlənməyə halal deyən kafir olar.

122.Meyxanalarda (şərab içilən yer) oyun yerlərində, günah işlənən məclislərdə, radio və ya mikrofon ilə Qurani-Kərim və mövlud dinləyərək keflənmək küfr olar.

123. Qurani-Kərimi çalğı çalaraq oxumaq küfrdür.

124. Qurani-Kərimin radioda və mikrofonda söylənən, oxunan tam bənzərinə də hörmətsizlik etmək küfr olar.

125. Allahü təaladan başqasına hər nə məqsəd ilə olursa-olsun Yaradan demək küfrdür.

126. Abdülqadir yerinə, Abdülqoydur, demək, qəsd ilə olar isə küfrdür. Abdülaziz yerinə Abdülüzeyz, Muhamməd yerinə Memo, Həsən yerinə Hasso, İbrahim yerinə İbo, demək də belədir. Bu adları ayaqqabı və başmaqlara yazanların və üzərlərinə basanların imanlarının getməsindən qorxulur.

127.Dəstəmazsız olduğunu bilərək namaz qılmaq və sünnət olan bir işi bəyənməmək küfrdür. Sünnətə əhəmiyyət verməmək küfrdür.

128. Cahillərin Övliyanı yaradan hesab etmələrindən qorxduğumuz üçün türbələri yıxırıq sözü küfrdür.

129. Başqasının, hələ öz övladının kafir olmasına səbəb olan kafir olar.

130. Zinaya, livataya (uşaqbazlığa) caiz, demək küfrdür.

131. Nass ilə (yəni ayət və hədis ilə) və icma ilə bildirilmiş olan harama əhəmiyyət verməmək küfrdür.

132. Böyük günahlara davam etmək, inad etmək küfrə aparar. Namaza əhəmiyyət verməmək küfrdür.

133. Üzərində islam yazısı, hətta hərf olan kağızı, örtüyü, səccadəni yerə qoymaq (təhqir üçün sərmək və ya istifadə etmək) küfr olar.

134. Allahü təaladan ayrı olaraq bir ölüdən bir şey gözləmək küfr olar.

135. Tez verən baba , demək çox çirkin və küfrə səbəb olar.

136. Meyidi torpağa basdırmaq fərz olduğu üçün bu fərzə əhəmiyyət verməyərək xidmətdən qaçanın, elmi, fənni irəli ataraq, ölüləri basdırmaq gericilikdir. Bütpərəst, brahman, kommunist kafirləri kimi ölüləri yandırmaq daha yaxşıdır, deyənin imanı gedər, mürtəd olar.

137. Allahü təalanın vəlilərindən (övliyalarından) ölü və ya diri hər hansı birini, dil və ya qəlb ilə inkar etmək küfrdür.

138. Övliyaya və elmi ilə amil olanlara düşmənlik küfrdür.

139. Övliyada ismət xüsusiyyəti (günah işləməmək) vardır, demək küfrdür. (İsmət xüsusiyyəti yalnız Peyğəmbərlərdə olur).

140. Batıni elmdən nəsibi olmayanın imansız getməsindən qorxulur. Bundan nəsib almanın ən azı bu elmə inanmaqdır.

141. Qurani-Kərimi din alimlərindən heç birinin oxumadığı şəkildə oxumaq, mənanı və kəlmələri pozmasa belə, küfrdür.

142. Keşişlərin ibadətlərinə məxsus şeyi istifadə etmək küfrdür.

143. Hər hansı bir hadisənin öz-özünə olduğuna inanmaq və heyvanların tək hüceyrəlilərdən yüksək quruluşlara doğru, bir-birinə və nəhayət insana döndüyünü söyləmək küfrdür.

144. Namazı bilə-bilə qılmayıb, qəza etməyi düşünməyən, bunun üçün əzab çəkəcəyindən qorxmayan kimsə hənəfi məzhəbində də kafirdir.

145. Kafirlərin ibadətlərini ibadət olaraq etmək, məsələn kilsələrdə çaldıqları orqan kimi çalğıları və zəngləri məscidlərdə çalmaq və islamiyyətin kafirlik əlaməti saydığı şeyləri zərurət və məcburiyyət olmadan istifadə etmək küfr olar.

146. Əshabi-kirama söyənə mülhid deyilir. Mülhid kafir olur.

147. Kafirlərin rəsmlərini yüksəyə asaraq hörmət etmək küfrdür.

148. Rəsmin, heykəlin sahibində və səlibdə (xaçda) və ya ulduz, günəş, inək kimi hər hansı bir şeydə, üluhiyyət (ilahi) xüsusiyyəti olduğuna inanaraq, məsələn, istədiyini yaradar, hər istədiyini edər, xəstəyə şəfa verər deyərək hörmət etmək küfr olar.

149. Həzrəti Aişəyə nalayiq söz deyən (fahişə deyən) və Atasının əshabə olduğuna inanmayan kafir olar.

150. İsa-əleyhissəlamın göydən enəcəyi də mütləq olaraq bilinir. Buna inanmayan kafir olar.

151. Qurani-Kərimdə və hədis şərifdə Cənnət ilə müjdələnən kimsəyə kafir, demək küfrdür.

152. Əbu Bəkri Sıddıq ilə Ömər-ül-Farukun "radıyAllahü təala anhüm" xilafətə haqları yox idi, demək küfrdür.

153. Fənnin, təcrübənin xaricində olan, fənn ilə əlaqəsi olmayan ayəti-kərimələri fənn elminə uydurmağa çalışmaq, Sələfi-salehinin təfsirlərini dəyişdirmək böyük günah olar. Belə təfsir və tərcümə edənlər kafir olar.

154. Müsəlman adlanan bir qız həddi-büluğa çatınca müsəlmanlığı bilməzsə, kitabsız kafir olar. Kişi üçün də belədir.

155. Müsəlman qadının başı, qolları və ayaqları açıq olaraq küçəyə çıxması, kişilərə göstərməsi haramdır, günahdır. Əhəmiyyət verməzsə, aldırış etməzsə, imanı gedər, kafir olar.

156. Peyğəmbərimizin bildirdiyi fərzlər və haramlar da, Qurani-Kərimdə açıqca bildirilən fərzlər, haramlar kimi qiymətlidir. Bunlara da inanmayan, qəbul etməyən dindən çıxar, kafir olar.

157. Rükü təsbehində "Zı" ilə "azım", demək: "Rəbbim böyükdür" , deməkdir. Əgər incə "Zə" ilə "azim" deyilərsə: "Rəbbim mənim düşmənimdir", demək olar və namaz pozulur, məna dəyişdiyi üçün küfrə də səbəb olar.

158. Qurani-Kərimi melodik şəkildə oxuyan hafıza, nə gözəl oxudun deyən kimsənin imanı gedər, kafir olar. Dörd məzhəbdə də haram olan bir şeyə gözəl deyən kafir olar. Səsi, sədası, Qurani-Kərim oxuması gözəl, demək istəyən kafir olmaz.

159. Mələklərin və Cinin varlığına inanmayan kafir olar.

160. Qurani-Kərimin ayətlərinə, kəlmələrin açıq, məşhur mənaları verilir. Bu mənaları dəyişdirərək, batinilərə (İsmaililərə) tabe olanlar kafir olar.

161. Sehr edərkən küfrə səbəb olan kəlmə və iş olarsa küfrdür.

162. Müsəlmana, "ey kafir" deyən (və ya, müsəlmana masson deyən, kommunist deyən) onu kafir etiqad edərsə, özü kafir olar.

163. İbadətləri edən kimsə imanının pozulmasında şübhə edər və günahım çoxdur, ibadətlərim məni qurtarmaz, deyə düşünərsə, imanının qüvvətli olması hesab edilir. İmanının davam edəcəyindən şübhə edən kafir olar.

164. Peyğəmbərlərin sayını söyləmək, Peyğəmbər olmayanı Peyğəmbər etmək və ya Peyğəmbəri Peyğəmbər qəbul etməmək küfrdür. Çünki Peyğəmbərlərdən birini qəbul etməmək, heç birini qəbul etməmək, deməkdir.

Müsəlman olan kişi və ya qadın, alimlərin söz birliyi ilə küfrə səbəb olacağını bildirdikləri bir sözün və ya işin küfrə səbəb olduğunu bilərək, qəsdən (vadar edilmədən, könüllü) ciddi olaraq və ya yumor, güldürmək üçün söyləyər və ya edərsə mənasını düşünməsə belə imanı gedər, mürtəd olar. Buna "**Küfri inadi**" deyilir. Küfri inadi ilə mürtəd olanın, əvvəlki ibadətlərinin savabları yox olar. Tövbə edərsə, geri gəlməzlər. Zəngindirsə, yenidən həccə getməsi lazımdır. Mürtəd ikən qılmış olduğu namazları, orucları, zəkatları qəza etməz, ondan əvvəl etmədiklərini qəza edər. **Tövbə etmək üçün yalnız Kəlmeyi-şəhadət söyləmələri kafi deyildir. Küfrə səbəb olan o şeydən də tövbə etmələri lazımdır.** (İslamiyyətdən hansı qapıdan çıxmışdısa, o qapıdan girməsi lazımdır). Əgər küfrə səbəb olacağını bilməyib söyləyər, yaxud edərsə və ya küfrə səbəb olması alimlər arasında ixtilaflı olan bir sözü qəsdən söyləyərsə, imanının gedəcəyi, nikahının pozulacağı şübhəlidir. Ehtiyatlı olaraq, təcdidi iman və nikah etməsi yaxşı olar. Bilməyərək söyləməyə "**Küfri-cəhli**" deyilir. Bilməməsi üzr deyil, böyük günahdır. Çünki hər müsəlmanın bilməsi lazım olan şeyləri öyrənməsi fərzdir. Küfrə səbəb olan sözü, xəta edərək, çaşaraq və ya vadar edilərək söyləyənin imanı və nikahı pozulmaz. Yalnız tövbə və istiğfar, yəni təcdidi-iman etməsi yaxşı olar.

Bir kafir bir kəlmeyi-təvhid söyləməklə mömin olduğu kimi, bir mömin də bir söz söyləməklə kafir olar.

Bir müsəlmanın bir sözündə və ya bir işində yüz məna olsa, yəni yüz şey anlaşılsa, bunlardan biri o kimsənin imanlı olduğunu göstərsə, 99-u, kafir olduğunu göstərsə, o kimsənin müsəlman olduğunu söyləmək lazımdır. Yəni küfrü göstərən 99 mənaya baxılmaz. İmanı göstərən bir mənaya baxılır. Bu sözü səhv anlamamalıdır. Bunun üçün iki nöqtəyə diqqət etməlidir. Birincisi, söz və ya iş sahibinin müsəlman olması lazımdır. Bir fransız Qurani-Kərimi tərifləsə, bir ingilis, Allah birdir desə, bunların müsəlman olduğu söyləmək olmaz. İkincisi, bir sözün və ya bir işin yüz mənası olsa deyildi. Yoxsa, yüz sözdən və ya yüz işdən biri imanı göstərsə, 99-u küfrü bildirsə, bu kimsəyə müsəlman deyiləcəyi bildirilmədi.

– Hər müsəlman sabah və axşam, bu iman duasını oxumalıdır:

**"ALLAHÜMMƏ İNNİ ƏUZU BİKƏ MIN ƏN ÜŞRİKƏ BİKƏ ŞEY-ƏN VƏ ƏNƏ ALƏMÜ VƏ ƏSTAĞFİRÜ-KƏ Lİ-MA LA-ALƏMÜ İNNƏKƏ ƏNTƏ ALLAMÜL-QUYUB."**

**"ALLAHÜMMƏ İNNİ ÜRİDÜ ƏN ÜCƏDDİDƏL İMANƏ VƏNNİKƏHA TƏCDİDƏN Bİ-QAVLİ LA İLAHƏ İLLALLAHÜ MUHAMMƏDÜN RƏSULULLAH"** deyərək də tövbə, təcdidi iman və nikah etməlidir.

**İMANIN BİZDƏ DAVAMLI QALIB, ÇIXMAMASI ÜÇÜN**

1. Qeybə iman etməlidir.
2. Qeybi ancaq Allahü təala və Onun bildirdiklərinin biləcəyinə inanmalıdır.
3. Haramı haram bilib etiqad etməlidir.
4. Halalı halal bilib etiqad etməlidir.
5. Allahü təalanın əzabından əmin olmayıb daima qorxmalıdır.
6. Allahü təaladan ümid kəsməməlidir.

— Mürtəd olacaq şeyi inkar etməsi də tövbə olar. Mürtəd tövbə etmədən ölərsə, Cəhənnəm atəşində əbədi olaraq əzab görər. Bunun üçün küfrdən çox qorxmalı, AZ DANIŞMALIDIR. Hədisi-şərifdə, "**Həmişə xeyirli, faydalı danışın. Yaxud susun!**" buyuruldu. Ciddi olmalı, lətifəli, oyunçu olmamalıdır. Ağıla, insanlığa uyğun olmayan şeylər etməməlidir. Özünü küfrdən qorumaq üçün Allahü təalaya çox dua etməlidir.

**İNDİ İMANI OLDUĞU HALDA, SONRADAN İMANININ GETMƏSİNƏ SƏBƏB OLAN ŞEYLƏR:**

1. Bidət sahibi olmaq. Yəni etiqadı səhv olmaq. (Əhli-sünnət alimlərinin bildirdiyi etiqaddan çox az da olsa ayrılan yolunu azmış və ya kafir olar).
2. Zəif, yəni əməlsiz iman.
3. Doqquz əzasını doğru yoldan çıxartmaq.
4. Böyük günah işləməyə davam etmək.
5. Neməti islama şükrünü kəsmək.
6. Axirətə imansız getməkdən qorxmamaq.
7. Zülm etmək.
8. Sünnətə uyğun oxunan azanı-Muhammədini dinləməmək.
9. Anaya-ataya qarşı gəlmək.
10. Doğru olsa belə, çox and içmək.
11. Namazda tadili-ərkanı tərk etmək.
12. Namazı əhəmiyyətsiz hesab edib öyrənməyə və ailəsinə öyrətməyə əhəmiyyət verməmək, namaz qılanlara mane olmaq.
13. Spirtli içki içmək.
14. Möminlərə əziyyət etmək.
15. Yalan yerə övliyalıq və din məlumatları satmaq.
16. Günahını unutmaq, kiçik görmək.
17. Təkəbbürlü olmaq, yəni özünü bəyənmək.
18. Ucb, yəni elm və əməlim çoxdur , demək.
19. Münafiqlik, ikiüzlülük.
20. Həsəd etmək, din qardaşına kin saxlamaq.
21. Hökumətinin və üstadının islamiyyətə müxalif olmayan sözünü yerinə yetirməmək.
22. Bir kimsəni təcrübə etmədən yaxşı demək.
23. Yalanda inad etmək.

24. Üləmadan qaçmaq.
25. Bığlarını sünnət miqdarından artıq uzatmaq.
26. Kişilərin ipək geyinməsi.
27. Qeybətdə inad etmək.
28. Kafir olsa da, qonşusuna əziyyət etmək.
29. Dünya üçün çox qəzəbə gəlmək, hirslənmək.
30. Faiz alıb-vermək.
31. Öyünmək üçün paltarının qollarını və ətəklərini artıq uzatmaq.
32. Sehrbazlıq, cadu etmək.
33. Müsəlman və saleh olan məhrəm qohum ziyarətini tərk etmək.
34. Allahü təalanın sevdiyi kimsəni sevməmək, islamiyyəti pozmaq istəyənləri sevmək. Bu da **HUBBI FİLLAH, BUĞDI FİLLAH** adlanır ki, imanın şərtidir.
35. Mömin qardaşına üç gündən artıq kin tutmaq.
36. Zinaya davam etmək.
37. Livata (uşaqbazlıq) edib, tövbə etməmək.
38. Azanı, fiqh kitablarının bildirdiyi vaxtlarda və sünnətə uyğun oxumamaq və sünnətə uyğun oxunan azanı eşidincə hörmət ilə dinləməmək.
39. Münkəri (haramı) işləyəni görüb gücü çatdığı halda, şirin dil ilə mane olmamaq.
40. Arvadının, qızının və nəsihət etmək haqqına sahib olduğu qadınların başı, qolları, ayaqları açıq, bəzəkli, ətirli küçəyə çıxmasına və pislərlə görüşməsinə razı olmaq.

**BÖYÜK GÜNAHLAR ÇOXDUR, YETMİŞ İKİ BÖYÜK GÜNAH BUNLARDIR**

1. Haqsız yerə adam öldürmək.
2. Zina etmək.
3. Livata (uşaqbazlıq) etmək.
4. Şərab və hər cür spirtli içkiləri içmək. (Pivə içmək haramdır).
5. Oğurluq etmək.
6 Keyf üçün uyuşdurucu maddə yemək və içmək.
7. Başqasının malını qəsdən, zorla almaq. Yəni talan etmək.
8. Yalan yerə şahidlik etmək.
9. Ramazan orucunu üzrsüz müsəlmanların yanında yemək.
10. Faiz alıb-vermək.
11. Çox and içmək.
12. Anaya-ataya qarşı gəlmək.
13. Məhrəm və saleh qohum-əqrabaya silai-rahmi (ziyarəti) tərk etmək.
14. Müharibədə hərbi tərk edib düşmən qarşısından qaçmaq.
15. Haqsız yerə yetimin malını yemək.
16. Tərəzisini və ölçüsünü haqq üzərə istifadə etməmək.
17. Namazı vaxtından əvvəl və ya sonra qılmaq.
18. Mömin qardaşının qəlbini qırmaq. (Kəbəni yıxmadan daha böyük günahdır.

**Allahü təalanı ən çox incidən küfrdən sonra qəlb qırmaq kimi böyük günah yoxdur.**

19. Rəsulullahın "sallallahü aləyhi və səlləm" söyləmədiyi sözü söyləmək və Ona istinad etmək.
20. Rüsvət almaq.
21. Haqq olan şahidlikdən boyun qaçırtmaq.
22. Malın zəkatını və uşrunu verməmək.
23. Gücü çatdığı halda münkəri, günah işləyəni görüncə mane olmamaq.
24. Canlı heyvanı atəşdə yandırmaq.
25. Quran-ı azim-uş-şanı öyrəndikdən sonra oxumağı unutmaq.
26. Allahü azim-uş-şanın rəhmətindən ümidini kəsmək.
27. Müsəlman olsun, kafir olsun, insanlara xəyanət etmək.
28. Donuz əti yemək.
29. Rəsulullahın Əshabələrindən "ridvanullahi Təala aləyhim əcmain" hər hansı birini sevməmək və söymək.
30. Qarnı doyduqdan sonra yeməyə davam etmək.
31. Qadınların ərinin yatağından qaçması.
32. Qadınlar ərindən icazəsiz ziyarətə getmək.
33. Namuslu bir qadına fahişə demək.
34. Müsəlmanlar arasında söz daşımaq.
35. Övrət yerlərini başqasına göstərmək. (Kişinin göbəklə dizi arası, qadının saçı, qolu, ayağı övrətdir.) Başqasının övrət yerinə baxmaq da haramdır.
36. Leş yemək və başqasına yedirmək.
37. Əmanətə xəyanət etmək.
38. Müsəlmanı qeybət etmək.
39. Həsəd etmək.
40. Allahü azim-uş-şana şərik qoşmaq.
41. Yalan danışmaq.
42. Təkəbbürlülük, özünü üstün görmək.
43. Ölüm xəstəsinin varisindən mal gizlətmək.
44. Çox xəsis olmaq.
45. Dünyaya məhəbbət etmək.
46. Allahü təalanın əzabından qorxmamaq.
47. Haram olanı haram etiqad etməmək.
48. Halal olanı halal etiqad etməmək.
49. Falçıların falına, qeybdən xəbər verməsinə inanmaq.
50. Dinindən dönmək, mürtəd olmaq.
51. Üzrsüz başqasının qadınına, qızına baxmaq.
52. Qadınların kişi paltarı geyinməsi.
53. Kişilərin qadın paltarı geyinməsi.
54. Harəm-i Kəbədə günah işləmək.
55. Vaxtı gəlmədən azan oxumaq və namaz qılmaq.

56. Dövlət adamlarının əmrlərinə, qanunlara üsyankar olmaq, qarşı gəlmək.
57. Arvadının məhrəm yerlərini anasının məhrəm yerinə bənzətmək.
58. Arvadının anasına söymək.
59. Bir-birinə nişan almaq.
60. İtin artığını yemək, içmək.
61. Etdiyi yaxşılığı başa qaxmaq.
62. İpək geyinmək (kişilər üçün).
63. Cahillikdə inad etmək. (Əhli-sünnət etiqadını, fərzləri, haramları və lazımlı olan hər məlumatı öyrənməmək.)
64. Allahü təaladan və islamiyyətin bildirdiyi adlardan başqa şey söyləyərək and içmək.
65. Elmdən boyun qaçırmaq.
66. Cahilliyin müsibət olduğunu anlamamaq.
67. Kiçik günahı təkrar işləməkdə inad etmək.
68. Zəruri olmayaraq qəhqəhə ilə çox gülmək.
69. Bir namaz vaxtını qaçıracaq zaman qədər cünüb (qüslsüz) gəzmək.
70. Adətli və nifas halında olan arvadına yaxın olmaq.
71. Mahnı oxumaq. Əxlaqsız mahnıları söyləmək, musiqi, çalğı alətlərindən istifadə etmək.
72. İntihar etmək, yəni özünü öldürmək.

Siğə nikahı, müvəqqəti nikah haramdır. Qadınların, qızların, başı, saçı, qolları, ayaqları açıq küçəyə çıxmaları haram olduğu kimi, incə, bəzəkli, dar, xoş ətirli paltar ilə çıxmaları da haramdır.

Dizi ilə göbəyi arası dar paltar ilə örtülmüş qadına ehtirassız da baxmaq haramdır. Yad qadının iç paltarlarına şəhvətlə baxmaq haramdır. Sıx, dar örtülmüş, digər övrət yerlərinə şəhvətlə baxmaq haramdır. Şəhvətə, harama səbəb olan rəsmləri düzəltmək, çap etmək, çəkmək haram olar. (Haramlara, "nə var bunlarda", demək küfr olar). Dəstəmaz və qüsldə, lazımı miqdardan artıq su istifadə etmək israf olub, haramdır. Keçmiş övliyaya dil uzatmaq (söymək), onlara cahil demək, sözlərindən əhkami islamiyyəyə uymayan mənalar çıxarmaq, öldükdən sonra da kəramət göstərdiklərinə inanmamaq və ölüncə övliyalıqları bitər sanmaq və onların qəbirləri ilə bərəkətlənənlərə mane olmaq, müsəlmanlara sui-zənn (şübhə etmək), zülm etmək, mallarını qəsb etmək kimi və həsəd, iftira, yalan söyləmək və qeybət etmək kimi haramdır.

## ON ŞEY SON NƏFƏSDƏ İMANSIZ GETMƏYƏ SƏBƏB OLAR

1. Allahü təalanın əmrlərini və qadağanlarını öyrənməmək.
2. İmanını Əhli-sünnət etiqadına görə düzəltməmək.
3. Dünya malına, rütbəsinə, şöhrətinə düşkün olmaq.
4. İnsanlara, heyvanlara, özünə zülm, əziyyət etmək.
5. Allahü təalaya və yaxşılıq gəlməsinə səbəb olanlara şükr etməmək.
6. İmansız olmaqdan qorxmamaq.

7. Beş vaxt namazı vaxtında qılmamaq.

8. Faiz alıb-vermək.

9. Dininə bağlı olan müsəlmanları aşağı görmək. Bunlara geri qalmış kimi şeylər söyləmək.

10. Əxlaqsız sözləri, yazıları və rəsmləri söyləmək, yazmaq və düzəltmək.

## ƏHLİ-SÜNNƏT ETİQADINDA OLMAQ ÜÇÜN BU XÜSUSLARA DİQQƏT ETMƏLİDİR

1. Allahü təalaya xas olan xüsusiyyətləri vardır. Və zatından ayrıdır.

2. İman artmaz və azalmaz.

3. Böyük günah işləməklə iman getməz.

4. Qeybə iman əsasdır.

5. İman mövzusunda müqayisə olmaz.

6. Allahü təala Cənnətdə görüləcəkdir.

7. Təvəkkül imanın şərtidir.

8. Əməllər (ibadətlər) imandan parça deyildir.

9. Təqdirə iman imanın şərtidir.

10. Əməldə dörd məzhəbdən birinə tabe olmaq şərtdir.

11. Əshabi-kiramin və əhli beytin və Peyğəmbərimizin xanımlarının hamısını sevmək şərtdir.

12. Dörd xəlifənin üstünlükləri xilafət sırasına görədir.

13. Namaz, oruc, sədəqə kimi nafilə ibadətlərin savabını başqasına hədiyyə etmək caizdir.

14. Mirac, ruh və bədən olaraq edilmişdir.

15. Övliyanın kəraməti haqdır.

16. Şəfaət haqdır.

17. Məst üzərinə məsh caizdir.

18. Qəbir sualı vardır.

19. Qəbir əzabı ruh və bədənə olacaqdır.

20. İnsanları və işlərini də Allahü təala yaradır. İnsanda iradə gücü vardır.

21. Ruzi halaldan da olur, haramdan da.

22. Övliyaların ruhları ilə təvəssül edilir və onların xətrinə dua edilir.

*Səsləndi ol müəzzin, durdu qamət eylədi,*
*Kəbəyə döndü üzün, həm də niyyət eylədi.*
*Eşidincə əhl-i iman, hörmət ilə dinlədi,*
*Sonra namaza durub, Rəbbə qulluq etdi.*

## PİS ƏXLAQLAR:

1. Küfr.

2. Cəhalət.

3. Rüsvay olmaq qorxusu. (İnsanların pisləmələrindən, qınamalarından, biabır olmasından qorxub haqqı qəbul etməmək.]

4. Təriflənməyi sevmək. (Özünü bəyənib, təriflənməyi sevmək).

5. Bidət etiqad. (Düzgün olmayan iman).

6. Həvay-i nəfs. (Nəfsin istəklərinə, ləzzətlərinə, ehtiraslarına tabe olmaq).

7. Təqlid ilə iman. (Bilmədiyi kimsələri təqlid).

8. Riya. (Göstəriş. Axirət əməlləri edərək dünya arzularına qovuşmaq)

9. Tul-i əməl. (Zövq və səfa sürmək üçün çox yasamağı istəmək).

10. Tamahkarlıq. (Dünya ləzzətlərini haram yollardan axtarmaq).

11. Təkəbbürlülük. (Özünü üstün görmək).

12. Təzəllül (Özünü alçatmaq, yaltaqlanmaq).

13. Ucb. (Etdiyi yaxşılıqları, ibadətləri bəyənmək).

14. Həsəd. (Qısqanmaq, zəhləsi getmək, nemətin ondan getməsini istəmək. Əbülleysi Səmərqəndi deyir ki, "**Üç nəfərin duası qəbul olunmaz: Haram yeyənin, qeybət edənin, həsəd aparanın.)**

15. Hiqd. (Başqasını aşağı görmək).

16. Şəmatət. (Başqasına gələn bəlaya, zərərə sevinmək).

17. Hicr. (Dostluğu tərk edib kin saxlamaq).

18. Cübn. (Qorxaqlıq, şücaətin az olması).

19. Təhəvvür. (Qəzəbin, sərtliyin həddindən artıq və zərərli olması.]

20. Qədr. (Əhdində və sözündə durmamaq).

21. Xəyanət. (Münafiqlik əlaməti; etibarı aradan qaldıran söz və iş.]

22. Vədini pozmaq. (Verdiyi sözü pozmaq. Hədisi-şərifdə **"Münafiqlik əlaməti üçdür: Yalan söyləmək, vədini ifa etməmək, əmanətə xəyanət etmək"** buyuruldu).

23. Sui-zənn. (Kiminsə haqqında pis düşünmək haramdır. Günahlarının əfv olunmayacağını zənn etmək, Allahü təalaya sui-zənn olar. Mömінləri haram işləyən, yəni günahkar zənn etmək sui-zənn olur.]

24. Var-dövlətə məhəbbət. (Mala düşkün olmaq).

25. Təsvif. (Xeyirli iş görməyi sonraya saxlamaq). Hədisi-şərifdə, "**Beş şey gəlmədən əvvəl beş şeyin qiymətini bilin: Ölmədən əvvəl həyatın qiymətini, xəstəlikdən əvvəl səhhətin qiymətini, dünyada axirəti qazanmağın qiymətini, qocalmaqdan əvvəl gəncliyin qiymətini, kasıblıqdan əvvəl zənginliyin qiymətini"** buyuruldu).

26. Fasiqləri (açıqdan günah işləyən) sevmək. (Günahın ən pisi zülmdür. Haram işləyənə fasiq deyilir).

27.Alimlərə düşmənlik. (İslam elmləri və alimləri ilə lağ etmək küfrdür).

28. Fitnə. (İnsanları dərdə, bəlaya salmaq. Hədisi-şərifdə; "**Fitnə yuxudadır, oyandırana lənət olsun!**" buyuruldu).

29. Müdaxənə və müdarə. (Gücü çatdığı halda, haram işləyənə mane olmamaq və dünyası üçün dinini vermək müdahənədir. Dini üçün dünyasını verməyə müdara deyilir).

30. Tərslik və qürur. (Haqq olanı, doğrunu eşitdiyi zaman qəbul etməmək).

31. Nifaq. (Münafiqlik, daxilinin çölünə uyğun gəlməməsi).

32. Təfəkkür etməmək. (Günahlarını, məxluqları və özünü düşünməməsi).

33. Müsəlmana bəddua (qarğış).
34. Müsəlmana pis ləqəb qoymaq.
35. Üzrü rədd etmək.
36. Qurani-Kərimi yanlış təfsir etmək.
37. Haram işləməkdə inad etmək.
38. Qeybət.
39. Tövbə etməmək.
40. Var-dövlət və vəzifə arzusu.

Pis əxlaqdan çəkinməli, gözəl əxlaqlı olmağa çalışmalıdır. Hədisi-şəriflərdə buyuruldu ki: “**İbadətləri az olan bir qul gözəl əxlaqı ilə qiyamətdə yüksək dərəcələrə qovuşar.**”

**“İbadətlərin ən asanı və çox faydalısı, az danışmaq və gözəl əxlaqlı olmaqdır.”**

**“Özündən uzaqlaşanlara yaxınlaşmaq, zülm edənləri bağışlamaq, özünü məhrum edənlərə ehsan etmək gözəl əxlaqlı olmaqdır.”**

# DOQQUZUNCU BÖLMƏ

## NAMAZ SURƏLƏRİ VƏ DUALARI

### SURƏ VƏ DUALAR LATIN HƏRFLƏRİ İLƏ YAZILARMI?

Surələri və duaları latın hərfləri ilə yazmağa çalışdığımız halda bu mümkün olmadı. Latın hərflərinə necə işarə qoyularsa qoyulsun, surələri və duaları doğru oxuya bilmək mümkün olmaz. Bunları Qurani-Kərimdəki hərflər kimi oxuya bilmək üçün bir bilənin oxutması, təkrarlaması və vərdiş etməsi lazımdır. Bu vərdiş mütləq lazım olduğuna görə bilən bir nəfərə həqiqətən də Qurani-Kərim hərflərini tanıtmaq və öyrətmək imkanını və nemətini qazandırır. Bu nemətin böyüklüyünü, dünyada və axirətdə faydasını hədisi-şəriflər və fiqh kitabları geniş izah edir, savabının çoxluğunu bildirirlər.

O halda hər müsəlman, uşaqlarını məscidlərə, Qurani-Kərim kurslarına göndərməli, Qurani-Kərimin hərflərini və bunların necə oxunacağını yaxşıca öyrətməli və bu böyük savaba qovuşmağa çalışmalıdır.

Peyğəmbərimiz "sallallahü aleyhi və səlləm" buyurur ki:

**"Hər biriniz bir sürünün çobanı kimisiz. Çoban sürüsünü qoruduğu kimi, siz də evlərinizdə və əmrləriniz altında olanları Cəhənnəmdən qorumalısınız! Onlara müsəlmanlığı öyrətməlisiniz. Öyrətməsəniz məsul olacaqsınız."**

Bir dəfə də buyurdu ki:

**"Çox müsəlman övladı ataları üzündən Veyl adındakı Cəhənnəmə gedəcəkdir. Çünki bunların ataları, yalnız pul qazanmaq və kef sürmək həvəsinə düşüb və yalnız dünya işləri ilə məşğul olub, övladlarına müsəlmanlığı və Quranı-Kərimi öyrətmədilər. Mən belə atalardan uzağam. Onlar da məndən uzaqdır. Uşaqlarına dinlərini öyrətməyənlər Cəhənnəmə gedəcəklər."**

Yenə buyurdu ki:

**"Uşaqlarına Quranı-Kərim öyrədənlərə və Qurani-Kərim müəlliminə göndərənlərə, öyrədilən Quranın hər hərfi üçün on dəfə Kəbəi-muazzama ziyarət savabı verilir və qiyamət günü başına dövlət tacı qoyulur. Bütün insanlar görüb qibtə edər."**

Yenə buyurdu ki:

**"Bir müsəlman övladı ibadət edəndə, qazandığı savab qədər atasına da verilir. Bir adam uşağında fisq, günah öyrədərsə, bu uşaq nə qədər günah isləyərsə, atasına da oqədər günah yazılır."**

Quranı-Kərim oxuyarkən on ədəbə riayət etmək lazımdır:

1. Dəstəmazlı və qibləyə qarşı hörmətlə oxumalı.

2. Ağır-ağır və mənasını düşünərək oxunmalıdır. Mənasını bilməyən də ağır oxumalıdır.

3. Ağlayaraq oxunmalıdır.

4. Hər ayətin haqqını verməli, yəni əzab ayətini oxuyarkən qorxaraq, rəhmət ayətlərini həvəslənərək, tənzih ayətlərini təsbeh edərək oxumalıdır. Qurani-Kərimi oxumağa başlayarkən Əuzü və Bəsmələ çəkməlidir.

5. Özündə riya, yəni göstəriş oyanarsa və ya namaz qılana mane olursa, yavaş səslə oxumalıdır. Hafizlərin kitaba baxaraq oxumaları, əzbərdən oxumaqdan daha çox savabdır. Çünki gözlər də ibadət etmiş olur.

6. Quranı-Kərimi gözəl səslə və təcvidə riayət edərək oxumalıdır. Hərfləri, kəlimləri bozaraq təğənni etmək haramdır. Hərflər bozulmasa, məkruh olar.

7. Qurani-Kərim Allahü təalanın kəlamıdır, xüsusiyyətidir, kadimdir (Allahü təalanın varlığının əvvəli olmamaqdır). Ağızdan çıxan hərflər atəş deməyə bənzəyir. Atəş demək asandır. Ancaq atəşə heç kim dayana bilməz. Bu hərflərin mənaları da belədir. Bu hərflər başqa hərflərə bənzəmir. Bu hərflərin mənaları meydana çıxsa. Yeddi qat yer və yeddi qat göy dayana bilməz. Allahü təala öz sözünün böyüklüyünü, gözəlliyini bu hərflərin içində saxlayaraq insanlara göndərmişdir.

8. Qurani-Kərimi oxumazdan əvvəl bunu oxuyan Allahü təalanın böyüklüyünü düşünməlidir. Qurani-Kərimə doxunmaq üçün təmiz əl lazım olduğu kimi, onu oxumaq üçün də təmiz qəlb lazımdır. Allahü təalanın böyüklüyünü bilməyən Quranı-Kərimin böyüklüyünü başa düşə bilməz. Allahü təalanın böyüklüyünü başa düşmək üçün də, Onun xüsusiyyətlərini və yaratdıqlarını düşünmək lazımdır. Bütün məxluqatın sahibi, hakimi olan bir şəxsin kəlamı olduğunu düşünərək oxumalıdır.

9. Oxuyarkən başqa şeylər düşünməməlidir. Bir adam bir bağı gəzərkən gördüklərini düşünməzsə, o bağı gəzmiş sayılmaz. Quranı-Kərim də möminlərin qəlblərinin gəzəcəyi yerdir. Onu oxuyan ondakı hikmətləri düşünməlidir.

10. Hər kəliməni oxuyarkən mənasını düşünməli və başa düşənə qədər təkrarlamalıdır.

## NAMAZ DUALARININ MƏALLARI

### SÜBHANƏKƏ

Ey Allahım! Səni nöqsanlıqlardan tənzih edər. Bütün kəmal xüsusiyyətləri ilə tərif edərəm. Sənə həmd edərəm. Sənin adın ucadır. (Və sənin şanın hər şeyin üstündədir[1]) Bu qism cənazə namazı qılınarkən əlavə edilir.) Səndən başqa ilah yoxdur.

---

[1] Bu qisim cənazə namazı qılınarkən əlavə edilir.

## ƏTTƏHIYYATÜ

Hər cür hörmət, salavat və bütün yaxşılıqlar Allaha məxsusdur. Ey Nəbi! Allahın salam, rəhmət və bərəkəti sənin üzərinə olsun. Salam bizim və Allahın saleh qullarının üzərinə olsun. Şəhadət edirəm ki, Allah birdir və yenə şəhadət edirəm ki, Muhamməd-əleyhissəlam Onun qulu və rəsuludur.

## ALLAHÜMMƏ SALLİ

Ey Allahım! İbrahimə "əleyhissəlam" və ailəsinə rəhmət etdiyin kimi, "Əfəndimiz" Muhamməd "əleyhissəlam" və ailəsinə də rəhmət et. Şübhəsiz sən hamid və məcidsən.

## ALLAHÜMMƏ BARİK

Ey Allahım! İbrahimə "əleyhissəlam" və ailəsinə bərəkətlər ehsan etdiyin kimi, "Əfəndimiz" Muhamməd "əleyhissəlam" və ailəsinə də, bərəkətlər ehsan et. Şübhəsiz sən hamid və məcidsən.

## RABBƏNA ATİNA

Ya Rəbb! Dünyada və axirətdə bizə yaxşılıqlar ver və bizi narın (atəşin) əzabından qoru. Ey mərhəmətlilərin ən mərhəmətlisi, sənin rəhmətinlə...

## KUNUT DUASI

Ey Allahım! Biz səndən yardım diləyirik. Sənə istigfar edərik. Səndən hidayət istərik. Sənə iman edərik. Sənə tövbə və sənə təvəkkül edərik. Bütün xeyirlərlə səni tərifləyərik. Sənə (nemətlərinə) şükr edər, nemətinə naşükürlük etmərik. Sənə qarşı fisq və fücur edəni atar və tərk edərik.

Ey Allahım! Ancaq sənə ibadət edər, namaz qılar, səcdə edər, sənə gələr və sığınarıq. Rəhmətini rəca (ümid) edər və əzabından qorxarıq. Çünki sənin əzabın həqiqəti örtən kafirlərə mütləq çatar.

## İSTİĞFAR DUASI

[Bir çox ayəti-kərimədə, "**Məni çox zikr edin**" və "**İza caə**" surəsində, **"Mənə istiğfar edin. Dualarınızı qəbul edər, günahlarınızı əfv edərəm"** buyuruldu. Görünür ki, Allahü təala çox istiğfar edilməsini (bağışlanma istəmək) əmr edir. Bunun üçün Muhamməd Masum həzrətləri ikinci cild, 80-cı məktubunda, "Bu əmrə tabe olaraq hər namazdan sonra üç dəfə istiğfar duası oxuyuram və 67 dəfə "**Əstağfirullah**" deyirəm. İstiğfar duası, **"Əstağfirullahəlazim əlləzi la ilahə illa hüv əl hayyəl qayyumə və ətübü iləyh"**dir. Siz də bunu çox oxuyun! Hər birini söyləyərkən mənasını, "**Məni əfv et Allahım**" kimi düşünməlidir. Oxuyanı və yanındakıları dərdlərdən, çətinlikərdən qurtarar. Çox kimsə oxudu. Faydası həmişə görüldü"-buyurdu.] [Yatarkən ya Allah, ya Allah və üç dəfə "**Əstağfirullah min külli ma kərihallah"** deməli və yatana qədər, təkrar etməlidir.]

Seyx-ül-islam Əhməd Namiki Cami h.536, m.1142-ci ildə vəfat etdi. **"Miftah-ün-nəcat"** kitabında buyurur ki, bir kimsə tövbə və istiğfar edər və şərtlə-

rini yerinə gətirərsə, hər keçdiyi küçə və hər oturduğu yer iftixar edər. Ay, günəş, ulduzlar onun üçün dua edər. Qəbri Cənnət bağçası olar. Bu cür tövbə nəsib olmayan adam bu cür tövbə edənlərlə birlikdə olmalıdır. Hədisi-şərifdə **"İbadətlərin ən qiymətlisi, övliyanı sevməkdir"** buyuruldu və **"Tövbə və istiğfar edənin bütün günahları əfv olar"** buyuruldu. [Tövbə qəlb ilə olur. İstiğfar söyləməklə olur.]

## TƏVHİD DUASI

**Ya Allahü, ya Allahü. Lə iləhə illəllahü MuhamməDün Rəsulullah. Ya Rahman, ya Rahım, ya afüvvü ya Kərim, fafü anni vərhamni ya ərhamərrahimin! Təvəffənni müslimən və əlhikni bissalehin. Allahümməğfirli və li-abai və ümməhati və li aba-i və ümməhat-i zəvcəti və li-əcdadi və cəddati və li-əbnai və bənati və li-ihvəti və əhavati və li-amami və ammati və li-ahvali və halati və li-üstazi Abdülhakim-i Arvasi və li kaffətil mömininə vəl-möminat. "Rahmətullahi Təala aləyhim əcmain."**

## NAMAZ

Müsəlmanın, hər gün beş dəfə namaz qılması fərzdir. Namaz dinın dirəyidir. Bir namazı vaxtında qılmayanın, bunu həmən qəza etməsi də fərzdir. Bir namazı qılmayıb, qəza da etməyən Cəhənnəmdə minlərcə il yanacaqdır. Namaza əhəmiyyət verməyən, vəzifə olduğuna inanmayan mürtəd olar, İmanı gedər, Cəhənnəmdə sonsuz olaraq yanacaqdır. Namaz ayaq üstə qılınır. Ayaq üstə dura bilməyən xəstə, oturaraq qılar. Otura bilməyən xəstə uzanaraq, ima ilə qılacaqdır. Bunu da edə bilməyən, öldükdən sonra isqat edilməsi üçün vəsiyyət edəcəkdir. Zəngin əqrəbası olmayanın, qonşuları isqat edib bunu Cəhənnəmdən qurtarar. Müsəlmanların, müsəlman qonşular arasında ev tutmaları lazım olduğu buradan da anlaşılır. Namazda ayaq üstə durmağa "Kıyam", əyilməyə "Rükü", başını yerə qoymağa "Səcdə", oturmağa "Qadə" deyilir. Bu dördü namazın rüknləri, rükətləridir. Sabah namazı dörd rükət olub, ikisi sünnət, ikisi fərzdir. Günorta namazının ilk dörd rükəti Sünnət, dörd rükəti fərz, iki rükəti son Sünnət, ikindinın dörd rükəti sünnət, dörd rükəti fərz, axşamın üç rükəti fərz, iki rükəti Sünnət, yatsının ilk dörd rükəti sünnət, dörd rükəti fərz, iki rükəti son sünnət, üç rükət vitr namazı vacibdir.

# Kitabüs-salat

# NAMAZ KİTABI

Hazırlayan:
**Həsən Yavaş**

Тяръцмя едян:
**Рамил Хялилов**

Nəşriyyat redaktoru: Suğra OSMANOVA
Texniki redaktor: Rauf KƏRİMOV
Bədii redaktor: Elnur ƏHMƏDOV
Səhifələyici: Fəxri VƏLİYEV

Yığılmağa verilmişdir: 25.10.2010.
Çapa imzalanmışdır: 19.11.2010.
Nəşrin ölçüsü: 60x90 1/16.
Fiziki çap vərəqi: 9,0.
Sifariş: 179/10. Sayı: 1000 ədəd.
Müqavilə qiyməti ilə.

NURLAR
NƏSRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com